ISSN 1810-911X

İPƏK YOLU

Azərbaycan Universitetinin Elmi Jurnalı

Xüsusi buraxılış
2021

QARABAĞ AZƏRBAYCANDIR!

Xüsusi buraxılış

BAŞ REDAKTOR

Səadət Əliyeva

REDAKSİYA HEYƏTİ

AMEA –nın həqiqi üzvü **Teymur Bunyatov**

AMEA –nın müxbir üzvü **Musa Qasımlı**

Professor **Anar İsgəndərov**

Professor **Qabil Əliyev**

Professor **Ədalət Qasımov**

İcraçı redaktor

Lətifə Ağamalıyeva

"İpək yolu"jurnalının xüsusi buraxılışı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixinə, müzəffər ordumuzun erməni işğalçı qüvvələri üzərində böyük qələbəsinə həsr olunmuşdur. Təqdim edilmiş məqalələrdə Qarabağın ən qədim zamanlardan bizim günlərə qədər tarixi əks edilmiş, bu diyarın Azərbaycan türklərinin əzəli yurdu olması, ata-babalarımızın minillər boyu burada davamlı yaşaması ilkin mənbələr əsasında sübut edilmişdir. Topluda Qarabağın azad edilməsini şərtləndirən amillərin, işğal edilmiş ərazilərdə erməni vandalizmini əks etdirən faktların şərhinə xüsusi diqqət yetirilmişdir.

Ön söz

“İpək yolu” jurnalının xüsusi buraxılışı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixinə, müzəffər ordumuzun erməni işğalçı qüvvələri üzərində böyük qələbəsinə həsr edilmişdir. 44 gün davam etmiş II Qarabağ müharibəsi – Vətən müharibəsi 30 ilə yaxın müddət ərzində işğal altında qalmış torpaqlarının mənfi düşməndən azad edilməsi Azərbaycan xalqının, Azərbaycan Respublikasının çox böyük uğurudur. Azərbaycan Respublikasının Prezidenti, ali baş komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordunun, bütün silahlı qüvvələrimizin misilsiz nailiyyətidir. Azərbaycan Universiteti Vətən tarixinin bu parlaq, son dərəcə əhəmiyyətli hadisəsinin, bu şanlı qələbənin yaddaşlarda yaşaması, gənc nəslin öyrənib dərs alması üçün bu toplunu hazırlamağa qərar vermişdir.

Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir. Qarabağ Azərbaycan dilində günümüzdə də işlədilməkdə olan “qara” və “bağ” sözlərinin birşəşməsindən yaranmışdır. Azərbaycan dilində “qara” sözü rəng bildirməklə yanaşı, “böyük”, “sıx”, “qalın” mənalarını da verir, “bağ” isə çoxlu ağacı olan yer anlamını bildirir. 1300 il əvvəldən işlədilməkdə olan “Qarabağ” termini “böyük bağ”, “qalın bağ” mənasını ifadə edir. Beləliklə, “Qarabağ” ifadəsi də, Qarabağ diyarı da Azərbaycana məxsusdur və orta yüzilliklərdən etibarən Azərbaycan xalqının bütün yaxın və uzaq qonşuları bu vilayəti azərbaycanlıların ifadə etdiyi kimi Qarabağ adlandırmışlar.

Qarabağın Azərbaycanın mərkəzi hissəsində, Kür və Araz çayları arasında geniş ərazini əhatə edir. Lakin orta yüzilliklərdə və xanlıqlar dövründə daha geniş ərazini bildirmişdir. Səfəvi Sülaləsinin hakimiyyəti dövründə Qarabağ bəylərbəyiliyinə Qazaxdan hansı ərazisini əhatə etməsi sualına Qarabağ xanlığının vəziri vəzifəsində çalışmış Mirzə Camal Cavanşir yazdığı “Qarabağ tarixi” əsərində aydınlıq gətirmişdir. O, qədim mənbələrə istinad edərək yazmışdır: “Qarabağ vilayətinin sərhədi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər – Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi-Həsənli camaatı arasındadır ... Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla (Gəncə ilə – S.Ə.) sərhədi Kür çayına qədər Goran çayıdır. ... Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır” [Mirzə Camal Cavanşir. Qarabağ tarixi // Qarabağnamələr. Bakı, “Yazıçı”, 1989, 192 s., s.107-108].

Qədim və erkən orta yüzilliklərdə Şimali Azərbaycanda mövcud olmuş Albaniya dövlətinə Qarabağ ərazisində yaranmış Sakasena, Otena-Uti, Orxistena-Arsax, Araksena vilayətləri daxil idi. Qədim zamanlarda və erkən orta əsrlərdə Qarabağ regionuna aid bir çox toponimlər: Sakaşen // Şakasen, Sakin // Balasakan, Saki // Şəki, həmçinin Qarabağın dağlıq hissəsini bildirən Arsax qədim türk tayfası kimi bəlli olan saklarla bağlıdır. Arsax (Arsak, Ərsak) “ər sak” – igid sak, sak igidi, sak kişisi, sak döyüşçüsü mənasını verir [Baxın: Seyidov M.Ə. Qarabağ – Arsaq – Apцar toponiminin etimologiyası haqqında qeydlər // Azərbaycan filologiyası məsələləri. Bakı, 1983, s.150; Cəfərov C. Arsaq sözünün etimologiyası // Qarabağ dünən, bu gün və sabah. Bakı, 2002, s.41].

Qədim zamanlardan Qarabağda saklarla yanaşı davamlı olaraq digər türk tayfaları: uti, qarqar və digərləri yaşamaqda idilər. E.ə I minilliyin sonu – y.e.-nın ilk əsrlərində Qarabağ həmişə Albaniyanın tərkibində olmuşdur. Antik qaynaqların Kür çayının Albaniyanın içərisi ilə axması, Albaniyanın cənub sərhədinin Araz çayı boyunca olması haqqında məlumatları bunu sübut aydın şəkildə edir.

Qarabağın türk yurdu olduğu, qədim dövrdə və erkən orta yüzilliklərdə türk tayfalarının arasıkəsilmədən bu regionda yaşamalarını "Kitabi-Dədə Qurqud" dastanları da təsdiqləyir. Dastanın boylarında VII-IX əsrlərdə Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Qarabağda, Göyçə gölü hövzəsində yaşayan türk tayfalarının bəhs edilmişdir.

Bayandurlu sülaləsinin görkəmli hökmdarı Həsən padşahın (1468-1478) göstərişi ilə Əbubəkr Tehraninin 1470-ci ildə qələmə aldığı "Kitabi-Diyarbəkriyyə" əsərində Qarabağın və Göyçə dənizi yanındakı yaylaqların qədim zamanlardan oğuz türklərinin yurdu olduğu vurğulanmışdır. Əbubəkr Tehrani həmçinin əlində olan sənədlər əsasında oğuz türklərinin soykökünün başlanğıcı olan Oğuz xanın Göyçə dənizi ətrafında dəfn olunması, "xanlar xanı" Bayandur xanın Qarabağda, Göyçə dənizi yaylaqlarında yaşaması və bu yerlərdə də dünyadan köçməsindən bəhs etmişdir.

XVI-XVII əsrlərdə Səfəvi sülaləsinin hakimiyyəti dövründə Qarabağ bəylərbəyiliyində türk tayfalarının yaşamını davam etdirməsi, Səfəvi ordusunun əsasını təşkil edən elat tayfalarının əhəmiyyətli bir hissəsinin bu yerlərdə yaşaması, bu vilayəti idarə edən bəylərbəyilərin məhşur türk tayfası olan Qacarlar nəslindən olması mənbələrdə aydın şəkildə ifadə olunmuşdur. Qarabağ xanlığının yaranması, xanlığın mərkəzi Şuşa şəhərinin əsasının qoyulması haqqında araşdırmalar da türklərin davamlı olaraq bu yerlərin sahibi olduğunu təsdiqləyir. Qarabağın yerli xristian əhalisinin erkən orta əsrlərdə xristianlığı qəbul etməsi, sonrakı dövrdə alban kilsəsinin erməni-qriqorian kilsəsinə tabe edilməsi, kilsə ayinlərinin erməni dilində icra edilməsi nəticəsində erməni təsirinin güclənməsi faktı da bu gerçəkliyi dəyişmir. Qarabağın xristian məlikləri özlərinin türk – alban mənşələrini hər fürsətdə dilə gətirirdilər.

Ermənilər, nəinki Qarabağa, ümumiyyətlə Azərbaycana, Cənubi Qafqaza çox sonralar köçürülmüşlər. Onların yeni eradan əvvəl VII-VI əsrlərdən etibarən Van gölündən qərbə, Fərat çayının yuxarı axarı boyuna köçmələri və davamlı o bölgədə yaşamaları mixi kitabələrdə və antik mənbələrdə əks olunmuşdur. İrəvan, Naxçıvan və Qarabağ bölgələrində isə çox qədim zamanlardan türk tayfaları yaşamaqda idilər. Yeni eranın ilk əsrlərində Qafqazda xristian dini yayılmağa başladığı zaman Qarabağda da ilk xristian abidələri yarandı. Yerli türk tayfalarına məxsus bu abidələri ermənilər XIX əsrin 20-30-cu illərində bu regiona kütləvi şəkildə köçürüldükdən sonra öz adlarına çıxmağa başladılar. Gəlmə yox, yerli olduqlarını, qədim zamanlardan bu regionda yaşadıqlarını sübut etmək üçün həmin abidələrin üzərindəki yazıları, ornamentləri silib, ermənicə yazılar olan daş lövhələr yerləşdirdilər.

1828-ci ildə Türkmənçay sülh müqaviləsi bağlandıqdan sonra İran Qacarlar dövlətindən və Osmanlı imperiyasından erməni əhalisinin Azərbaycanın Rusiya tərəfindən yeni işğal edilmiş şimal bölgələrinə, xüsusən imperiyanın sərhədboyu ərazilərinə - İrəvan, Naxçıvan və Qarabağa kütləvi köçürülməsinə başlandı. İlk növbədə o zaman İranda olan rus ordusunun polkovniki erməni

əsilli zabitlərinin canfəşanlığı ilə Təbriz, Marağa, Urmiya, Xoy və Səlmasdan 1 min erməni ailəsi (hər ailənin 5 nəfər hesab edildiyi nəzərə alınmaqla 5 min nəfər) həmin il Qarabağa köçürüldü. Onlardan 750 ailə Bərdə ətrafında yerləşdirildi. Polkovnik L.Lazarev Qafqazdakı rus ordusunun baş komandanı general İ.Paskeviçə raportunda qeyd etmişdi ki, Qarabağda ərzaq boldur və daha 3 min erməni ailəsini burada yerləşdirmək mümkündür. Bütövlükdə 1828-1829-cu illərdə İrandan Şimali Azərbaycana 6976 erməni ailəsi köçürüldü ki, onlardan 2557 ailə Naxçıvan, 1395 ailə İrəvan, 3 mindən çox ailə (15 min nəfər) də Qarabağ əyalətində yerləşdirildi [Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, 1999, с.106].

Qarabağa Marağadan köçürülən ermənilər yaratdıqları kəndi Marquşevan (Marağalı – S.Ə) adlandırmışdılar. Onlar 1978-ci ildə buraya köçmələrinin 150 illiyi şərəfinə abidə ucaltmışdılar. XIX əsrin 80-ci illərində Cavanşir qəzasında (indiki Tərtər, Kəlbəcər, Ağdərə bölgələri – S.Ə.) dövlət kəndlilərinin iqtisadi həyatını araşdırmış A.Xan-Aqov qeyd etmişdi ki, XIX əsrin 20-ci illərində İrandan köçürülən ermənilər bu qəzada Marağalıdan başqa Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı kəndlərinin də əsasını qoymuşdular [Хан-Агов А. Е. Экономический быт государственных крестьян Джеванширского уезда Елисаветпольской губернии // «Материалы для изучения экономического быта государственных крестьян Закавказского края», т. 6, ч. 2, Тифлис, 1887, с. 339]. 1829-cu il Ədirnə sülh müqaviləsi bağlandıqdan sonra Osmanlı imperiyasının Şərq vilayətlərindən Şimali Azərbaycana 14044 erməni ailəsi köçürüldü [Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане, с.111]. Onların da bir hissəsi yenə də Qarabağ əyalətində yerləşdirildi.

Beləliklə, XIX əsrin ilk onilliklərində Rusiya hakimiyyəti nümayəndələri tərəfindən ermənilərin kütləvi yerləşdirilməsi nəticəsində Qarabağın dağlıq bölgəsində əyalətində əhalinin etnik tərkibində ciddi dəyişikliklər baş verdi. Erməni qati millətçiləri XX əsrin ilk onilliklərində Qarabağın yerli azərbaycanlı əhalisinə qarşı kütləvi qətl və qarətlər təşkil etməklə etnik təmizləmə aparmağa cəhd etdilər. Qarabağın qeyrətli bəyləri, ziyalıları, ağsaqqalları bir araya gələrək Əhməd bəy Ağayevin başçılığı ilə bütün Azərbaycan miqyasında erməni vəhşilklərinin qarşısını almaq üçün yaradılmış Difai partiyasının Qarabağ məclisini təsis etdilər, dinc əhalini qorudular. Azərbaycan Xalq Cümhuriyyəti təsis edildikdən sonra Ermənistanın Qarabağa təcavüzünün qarşısının alınması üçün dövlət səviyyəsində ciddi addımlar atıldı. Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov dağlıq bölgədəki erməni separatizminin müqavimətini qırdı, Azərbaycan hakimiyyətini bərqərar etdi.

1920-ci il aprelin 27-də Sovet Rusiyasının XI Qırmızı Ordusunun hərbi müdaxiləsi nəticəsində Azərbaycanın müstəqilliyini itirməsi Qarabağda bolşevik cildinə girmiş erməni millətçi qüvvələrinin yenidən fəallaşmasına səbəb oldu. Qarabağın dağlıq hissəsi düzənlik hissədən qoparıldı, Dağlıq Qarabağ Muxtar Vilayəti təsis edildi. Bununla da Qarabağda erməni separatizmi dövlət strukturuna sirayət etdi və o zamandan bu bölgənin Ermənistana birləşdirilməsi uğrunda mübarizə açıq şəkil aldı. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti dövründə erməni xadimlərinin Dağlıq Qarabağ Azərbaycandan qoparmaq cəhdlərinin qarşısı qətiyyətlə alındı.

1987-ci ilin payızında H.Əliyevin ali hakimiyyətdən uzaqlaşdırılmasından sonra erməni qatı millətçi qüvvələri Dağlıq Qarabağda və Ermənistanda yenidən fəal mübarizəyə başladılar. Moskvanın açıq-aşkar himayəsi ilə Dağlıq Qarabağdan yerli azərbaycanlı əhaliyə qarşı zorakılıqlar kütləvi şəkil aldı, erməni-rus hərbi birlikləri Xocalı soyqırımını törətdilər, etnik təmizləmə həyata keçirdilər. Qondarma "Dağlıq Qarabağ Respublikası" yaradıldı. Ermənistan və Rusiya Federasiyası hərbi qüvvələri Dağlıq Qarabağ ətrafındakı rayonları işğal etdi, müstəqilliyini yeni bərpa etmiş Azərbaycan Respublikası ərazisinin 20 faizini itirdi, 1 milyondan çox insan ata-baba torpaqlarından didərgin düşdü, qaçqına, məcburi köçkünə çevrildi.

Xalqın təkidli tələbi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıtması nəticəsində cəmiyyətdə hökm sürən xaos, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, güclü dövlətçilik strukturları yaradılmasına, iqtisadiyyatın bütün sahələrinin dirçəldilməsi üçün zəruri islahatlar həyata keçirilməsinə başlandı. Bütün bunların zəminində hərbi sahənin inkişafına xüsusi diqqət yetirildi, möhkəm nizam-intizama malik ordu quruculuğu işlərinə təkan verildi. Nizamlı və müasir silah və texnika ilə təchiz edilmiş ordu yaradılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirdi.

XXI əsrin ilk onilliklərində İlham Əliyevin Azərbaycan Respublikası Prezidenti seçilməsindən sonrakı dövrdə tarazlaşdırılmış, milli maraqlara söykənən qarşılıqlı faydalı tərəfdaşlıq siyasəti davam etdirilmiş, eyni zamanda xarici siyasətdə praqmatik və rasional prinsiplərə əsaslanılması, dövlətin iqtisadi və hərbi potensialının gücləndirilməsi zəminində hücum diplomatiyasından istifadə edilməsinə keçilmişdir. Uğurlu neft strategiyasının, dayanıqlı iqtisadi inkişafın yaratdığı imkanlardan maksimum yararlanaraq, silahlı qüvvələrin modernləşdirilməsi, ən yeni hərbi texnika və silahlarla təchiz edilməsi gerçəkləşdirilmişdir. Möhtərəm Prezidentimizin son 17 il ərzində bu və digər sahələrdə dərindən ölçülüb-biçilmiş, məqsədyönlü siyasəti, vaxtında atılmış müdrik addımları sayəsində İkinci Qarabağ müharibəsində – Vətən müharibəsində möhtəşəm qələbəyə nail olmuşuq.

Topluya daxil edilmiş məqalələrdə Qarabağın ən qədim zamanlardan bizim günlərə qədər tarixi əks olunmuş, bu diyarın Azərbaycan türklərinin əzəli yurdu olması, ata-babalarımızın minillər boyu burada davamlı yaşaması ilkin mənbələr əsasında sübut edilmişdir. Topluda Qarabağın azad edilməsini şərtləndirən amillərin, işğal edilmiş ərazilərdə erməni vandalizmini əks etdirən faktların şərhinə xüsusi diqqət yetirilmişdir.

Səadət Əliyeva
Azərbaycan Universitetinin rektoru

Preface

The Special Issue of the Journal “Ipek yolu” (Silk Road) is dedicated to the history of Karabakh, an integral part of Azerbaijan, and to the great victory of our National Army over the Armenian occupying forces. The 44-day Karabakh War - the liberation of the territories occupied by the enemy, for almost 30 years - is a great success of the Azerbaijani people and the Republic of Azerbaijan. It is an unprecedented achievement of the National Army under the leadership of the President Ilham Aliev of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief.Azerbaijan University has decided to dedicate this Special Issue to this extremely important event in the history of the Motherland. We strongly believe that this glorious victory must be in the memory of our people forever and the young generation must learn it.

Karabakh is one of the oldest historical regions of Azerbaijan. The toponym Karabakh was formed from the combination of the words "black" and "garden", which are still used in the Azerbaijani language. In the Azerbaijani language, the word "black" means not only color, but also "big", "dense", "thick", and "garden" means a place with many trees. "Karabakh", which was used first 1,300 years ago, means "large garden", "thick garden". Thus, both the toponym "Karabakh" belongs to the Azerbaijani language and the land of Karabakh belongs to Azerbaijan Since the Middle Ages, all the near and far neighbors of the Azerbaijan have called this region Karabakh, as the Azerbaijanis call it.

Karabakh covers a large area in the central part of Azerbaijan, between the Kura and Araz rivers. However, in the Middle Ages and during the khanate period, it covered a wider area. Mirza Jamal Javanshir, who served as the vizier of the Karabakh khanate, clarified the question of which territory of Gazakh covered the Karabakh principality during the rule of the Safavid dynasty in his book "History of Karabakh". He wrote, citing ancient sources: “The border of Karabakh province is as follows: it is Araz river from the south to Khudafar bridge to Sinig (Broken) bridge. Now (Sinig Bridge) is between the people of Gazakh, Shamsaddin and Demirchi-Hasanli ... It is the Kura River by the east, which joins the Araz River in the village of Javad and flows into the Caspian Sea. It is the Goran River from the north, the border of Karabakh with Yelizavetpol (with Ganja - SA) up to the Kura River. ... There are high Karabakh mountains called Kushbek, Salvarti and Arikli from the west. [Mirza Jamal Javanshir. History of Karabakh // Karabakhname. Baku, “Yazıçı”, 1989, 192 s., s.107-108].

The state of Albania, which had existed in Northern Azerbaijan in the ancient and early Middle Ages, included the provinces of Sakasena, Otena-Uti, Orchistena-Arsakh, and Araxena, formed in the territory of Karabakh. In ancient times and in the early Middle Ages, many toponyms belonging to the Karabakh region: Sakashen // Shakasen, Sakin // Balasakan, Saki // Sheki, as well as Arsakh, which represents the mountainous part of Karabakh, are associated with the Saks, known as the ancient Turkic tribe. Arsakh (Arsak, Ersak) "husband sak" means brave sak, sak brave, sak man, sak warrior [See: Seyidov M.A. Recors on the etymology of the toponym Karabakh-Arsag-Арцar // Issues of Azerbaijani philology. Baku, 1983, p.150; Jafarov J. Etymology of the word Arsag // Karabakh yesterday, today and tomorrow. Baku, 2002, p.41].

From ancient times, along with the Saks, other Turkic tribes: Uti, Gargar and others lived in Karabakh. At the end of the first millennium BC - the first centuries BC, Karabakh was always a part of Albania. The information of ancient sources proves that the Kura River flows through Albania and that the southern border of Albania is along the Araz River.

The epic The Book of Dede Korkut" also confirms that Karabakh was a Turkic region and that Turkic tribes contiously lived in this region in ancient times and in the early Middle Ages The saga tells about the Turkic tribes living in different regions of Azerbaijan in the VII-IX centuries, including Karabakh, in the basin of Lake Goycha.

In the book "Kitabi-Diyarbakiriya" written by Abubakr Tehran in 1470 by the instruction of the prominent ruler of Bayandurlu dynasty King Hasan (1468-1478), it was emphasized that Karabakh and the pastures near the Lake Goycha have been the land of Oghuz Turks since ancient times. Abubakr Tehrani also spoke about the burial of Oguz Khan around the Goycha Sea, the beginning of the ancestral roots of the Oghuz Turks, the life of the " Khan of Khans" Bayandur Khan in Karabakh, in the pastures of the Lake Goycha and his death in these places.

It is clearly stated in the sources that during the reign of the Safavid dynasty in the XVI-XVII centuries, Turkic tribes continued to live in the Karabakh principality, a significant part of the Elat tribes that formed the basis of the Safavid army lived in these places. Research on the establishment of the Karabakh khanate and the founding of the city of Shusha, the center of the khanate, also confirms that the Turks constantly owned these lands. The fact that the local Christian population of Karabakh converted to Christianity in the early Middle Ages, later the Albanian Church was subordinated to the Armenian-Gregorian Church, and the Armenian influence was strengthened as a result of the performance of church rites in Armenian does not change this reality. The Christian kings of Karabakh expressed their Turkish-Albanian origins at every opportunity.

Armenians were moved not only to Karabakh, but also to other parts of Azerbaijan and to the South Caucasus in general. They migrated to the west from Lake Van, the upper reaches of the Euphrates River and continued to live in that area, according to cuneiform and ancient sources from the 7th to the 6th centuries BC. Turkic tribes have lived in Yerevan, Nakhchivan and Karabakh since ancient times. In the first centuries of the new era, when Christianity began to spread in the Caucasus, the first Christian monuments appeared in Karabakh. These monuments belonging to the local Turkic tribes began to be named after the Armenians who moved to the region in the 20s and 30s of the 19th century. In order to prove that they are locals and have lived in this region since ancient times, they erased the inscriptions and ornaments on the monuments and placed stone plaques with Armenian inscriptions.

After the conclusion of the Turkmenchay peace treaty in 1828, the mass relocation of the Armenian population has began from the Iranian Gajar state and the Ottoman Empire to the newly occupied northern regions of Azerbaijan, especially to the border areas of the empire - Yerevan, Nakhchivan and Karabakh. First of all, thanks to the zeal of the officers of Armenian origin, the colonel of the Russian army in Iran at that time, 1,000 Armenian families were moved from Tabriz, Maragha, Urmia, Khoy and Salmas (5,000 people in each family) to Karabakh that year. 750 of them were settled around Barda. Colonel L. Lazarev reported to General I. Paskevich,

Commander-in-Chief of the Russian Army in the Caucasus, that there was plenty of food in Karabakh and another 3,000 Armenian families could be accommodated here. In total, 6976 Armenian families were relocated from Iran to Northern Azerbaijan in 1828-1829, of which 2557 families were settled in Nakhchivan, 1395 families in Yerevan, and more than 3,000 families (15,000 people) in Karabakh province [Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, 1999, с.106].

Armenians who moved to Karabakh from Maragha called their village Margushevan (Maraghali – S.A). They erected a monument in 1978 to mark the 150th anniversary of their move here. A.Khan-Agov, who studied the economic life of the state peasants in Javanshir district (now Tartar, Kalbajar, Aghdara regions – S.A.) in the 80s of the XIX century, noted that Armenians deported from Iran in the 1920s, beside Maragali, Yukhari Chayli, Ashagi Chayli villages were also founded [Хан-Агов А. Е. Экономический быт государственных крестьян Джеванширского уезда Елисаветпольской губернии // «Материалы для изучения экономического быта государственных крестьян Закавказского края», т. 6, ч. 2, Тифлис, 1887, с. 339]. After the conclusion of the Edirne Peace Treaty in 1829, 14044 Armenian families were relocated from the Eastern provinces of the Ottoman Empire to Northern Azerbaijan [Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане, с.111]. Some of them were again placed in the province of Karabakh.

Thus, in the first decades of the 19th century, as a result of the mass resettlement of Armenians by the Russian authorities, serious changes took place in the ethnic composition of the population in the mountainous region of Karabakh. In the first decades of the twentieth century, hard-line Armenian nationalists attempted to carry out ethnic cleansing by organizing massacres and looting against the local Azerbaijani population of Karabakh. The zealous bays, intellectuals and elders of Karabakh came together and, under the leadership of Ahmad bey Agayev, established the Karabakh Assembly of the Difai Party, which was established to prevent Armenian atrocities throughout Azerbaijan, and to protect the civilian population. After the establishment of the Azerbaijan Democratic Republic, serious steps were taken at the state level to prevent the Armenian aggression against Karabakh. Khosrov bey Sultanov, the governor-general of Karabakh broke the resistance of Armenian separatism in the mountainous region and established control of the Azerbaijani government in the region.

The loss of Azerbaijan's independence on April 27, 1920 as a result of the military intervention of the XI Red Army of Soviet Russia led to the reactivation of the Armenian nationalist forces in Karabakh, which were in the guise of the Bolsheviks. The mountainous part of Karabakh was torn from the plains, and the Nagorno-Karabakh Autonomous Region was established. Thus, Armenian separatism in Karabakh spread to the state structure, and since then the activities of Armenia to annex the region have become obvious for the international community. During the first reign of national leader Heydar Aliyev in Azerbaijan, the attempts of Armenians to snatch Nagorno-Karabakh from Azerbaijan were resolutely prevented.

After the removal of Heydar Aliyev from power in the fall of 1987, strong Armenian nationalist forces resumed active struggle in Nagorno-Karabakh and Armenia. Violence against

the local Azerbaijani population from Nagorno-Karabakh became widespread under the open patronage of Moscow, Armenian-Russian military units committed the Khojaly genocide and carried out ethnic cleansing. The so-called "Nagorno-Karabakh Republic" was created. The military forces of Armenia with the support of the Russian Army occupied the regions around Nagorno-Karabakh, and the newly independent Republic of Azerbaijan has lost 20 percent of its territory, more than 1 million people were driven from their ancestral lands, and became internally displaced persons.

As a result of his return to the leadership of Azerbaijan at the insistence of the people, the chaos in society, the threat of civil war was eliminated, strong state structures were established, and necessary reforms were launched to revive all sectors of the economy. On the basis of all this, special attention have been paid to the development of the military sphere, and the strong impetus has been given to building a well-disciplined army. President Heydar Aliyev took urgent measures to create an army equipped with regular and modern weapons and equipment.

In the first decades of the XXI century, after the election of Ilham Aliyev as President of the Republic of Azerbaijan, a balanced, mutually beneficial partnership policy based on national interests was continued, while foreign policy was based on pragmatic and rational principles and used offensive diplomacy to strengthen the country's economic and military potential. The armed forces have been modernized and equipped with the latest and the most sophisticated military equipment and weapons, taking full advantage of the opportunities created by a successful oil strategy and sustainable economic development. We have achieved a great victory in the Second Karabakh War - the Patriotic War, thanks to the well-thought-out, purposeful policy and wise steps taken by our President over the past 17 years in these and other areas.

The articles included in the Special Issue reflect the history of Karabakh from ancient times to the present day, prove on the basis of primary sources that this land was the ancient homeland of the Azerbaijani Turks, and that our ancestors lived here for thousands of years. Special attention was paid to the interpretation of the factors that led to the liberation of Karabakh, the facts reflecting the Armenian vandalism in the occupied territories.

Saadat Aliyeva
Rector of Azerbaijan University

MÜNDƏRİCAT

ÖN SÖZ

Qabil Əliyev..... 5
Böyük zəfərin memarları

Təvəkkül Əliyev..... 17
Qarabağ – qədim sivilizasiya beşiyi

Qasım Hacıyev..... 26
Qarabağın qədim və orta əsr şəhərləri

Məhəmməd Əliyev..... 33
Qarabağ III-VII əsrlərdə

Ramil Ağayev..... 40
Qarabağ VII-IX əsrlərdə

Tofiq Nəcəfli..... 52
Qarabağ XV-XVII əsrlərdə

Emilya Əliyeva..... 65
Qarabağ xanlığı

Güntəkin Nəcəfli..... 73
Qarabağın xristian alban məlikləri

Camal Mustafayev..... 82
Qarabağ xanlığının mərkəzi Şuşa şəhəri

Камала Наджафова..... 90
Роль партии «Дифаи» в борьбе против армянского терроризма в начале XX века в Карабахском регионе

Фархад Джаббаров..... 99
Армянский террор в Шуше в 1905-1906 гг.

Rəna Əsədova..... 109
Qarabağ bölgəsində erməni silahli dəstələrinin azərbaycanli əhaliyə qarşi qətl və qarətləri (XX əsrin əvvəlləri)

İsmayıl Musa..... 119
Azərbaycan Xalq Cümhuriyyətinin Qarabağ general-qubernatorluğu: problemlər və nəticələr

Fazil Baxşəliyev..... 125
Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması

Ильгар Нифталиев..... 132
Особенности Нагорно-Карабахского конфликта начавшегося накануне распада СССР

Nüşabə Quliyeva..... 143
Qarabağda dini və mədəni abidələrə qarşi erməni vandalizmi

Habil Məmmədov..... 151
Qarabağda erməni saxtakarliği tarixindən

Nazim Tapdıqoğlu (Vəlişov) 161
Qarabağın türkmənşəli toponimləri haqqında

BÖYÜK ZƏFƏRİN MEMARLARI

Qabil Əli oğlu Əliyev
tarix üzrə elmlər doktoru, professor
Bakı Dövlət Universiteti,
Azərbaycan Universiteti
Bakı, Azərbaycan
e-mail: Qabil-Aliyev@mail.ru

Xülasə: Məqalədə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrinin aradan qaldırılması uğrunda Azərbaycan xalqının uğurlu mübarizəsi tədqiq edilmişdir. Ümummilli lider Heydər Əliyevin möhkəm dövlət hakimiyyəti, nizam-intizamlı ordu yaradılması istiqamətində fəaliyyəti konkret faktlarla təhlil edilmişdir. XXI əsrin ilk onilliklərində silahlı qüvvələrin ən yeni silah və döyüş texnikası ilə təchiz olunması tədbirlərinə, böyük qələbənin qazanılmasında ordu-xalq birliyinin, sərkərdə bacarığının əsas rol oynamasına xüsusi diqqət yetirilmişdir.

Açar sözlər: Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın təcavüzü, Azərbaycan Silahlı Qüvvələri, torpaqların azad edilməsi, qələbənin memarları, ümummilli lider, xilaskar prezident.

ARCHITECTS OF THE GREAT VICTORY

Gabil Ali oglu Aliyev
Doctor of Sciences in History, professor
Baku State University,
Azerbaijan University
Baku, Azerbaijan

Abstract: The article examines the reasons for the successful struggle of the Azerbaijani people to eliminate the grave consequences of the Nagorno-Karabakh conflict as a result of the military aggression of Armenia against Azerbaijan. The activity of the national leader Heydar Aliyev on the creation of a strong state power, a disciplined army was analyzed with specific facts. Special attention was paid to measures to equip the armed forces with the latest military equipment and weapons in the first decades of the 21st century, the role of the unity of the army and the people, the skillful actions of the commander in achieving a great victory.

Keywords: Nagorno-Karabakh conflict, Armenian aggression, Azerbaijan Armed Forces, liberation of lands, architects of victory, national leader, president-savior.

АРХИТЕКТОРЫ ВЕЛИКОЙ ПОБЕДЫ

Габиль Али оглу Алиев
Доктор исторических наук, профессор
Бакинский Государственный Университет,
Азербайджанский Университет
Баку, Азербайджан

Резюме: В статье исследованы причины успешной борьбы азербайджанского народа по ликвидацию тяжких последствий Нагорно-Карабахского конфликта в результате военной агрессии Армении против Азербайджана. Конкретными фактами проанализированы деятельность общенационального лидера Гейдара Алиева по созданию сильной государственной власти, дисциплинированной армии. Особое внимание удалено мерам по оснащению вооруженных сил новейшей военной техникой и вооружением в первые десятилетия XXI века, роль единства армии и народа, умелых действий полководца в достижении великой победы.

Ключевые слова: Нагорно-Карабахский конфликт, агрессия Армении, Вооруженные Силы Азербайджана, освобождение земель, архитекторы победы, общенациональный лидер, президент-спаситель.

Azərbaycan tarixinə Vətən müharibəsi kimi daxil olmuş İkinci Qarabağ müharibəsində Milli Ordumuzun Ermənistan silahlı qüvvələri üzərində böyük qələbəsi 2020-ci il sentyabrın 27-də başlatdığı və 44 gün davam etmiş uğurlu əkshücumunun, düşməni sülhə məcbur edən "Dəmir yumruq" əməliyyatının məntiqi sonluğu olmuşdur. Silahlı Qüvvələrimizin bütün növlərinin fəal iştirak etdiyi 44 günlük zəfər yürüşünün, Qarabağda itirilmiş torpaqlarımızın düşmən tapdağından sürətlə azad edilməsinin bünövrəsi 28 il öncə ulu öndərimiz Heydər Əliyevin yenidən hakimiyyətə gəldiyi zamandan qoyulmağa başlanmışdır. O dövrdə bütün istiqamətlərdə, o cümlədən ordu quruculuğu sahəsində hər şeyi yenidən başlamaq, əvvəlki iqtidarların daxili və xarici siyasət sahəsində buraxdıqları səhvləri aradan qaldırmaq, həm də bütün bunları müharibə şəraitində, torpaqlarımızın bir-birinin ardınca işğal olunduğu çox ağır bir zamanda gerçəkləşdirmək lazım gəlmişdi.

XX əsrin 90-cı illərinin başlanğıcında Azərbaycan xalqı müasir tarixinin ən faciəli dövrünü yaşamışdır. Həmin ərəfədə Ermənistan Respublikasında yaşayan bütün azərbaycanlılar minillər boyu yaşadıqları ata-baba torpaqlarından qovulmuş, evləri yandırılmış, əmlakları qarət edilmişdi. 250 mindən çox insan bütün yaşayış vasitələrindən məhrum edilmiş qaçqın kimi Azərbaycana pənah gətirmişdi. Elə o zaman Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün açıq çıxışlar başlamış, azərbaycanlılara, ümumiyyətlə bütün türklərə nifrət təbliğatı geniş miqyas almışdı. Ardınca da Dağlıq Qarabağ əraziləri və onun ətrafındakı 7 rayonumuz Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdi. O zamankı Rusiya rəhbərliyinin, Qərb dünyasında önəmli mövqe tutan erməni diasporunun və onların təhriki ilə Qərbin – xristian dünyasının hərtərəfli yardımları ilə gerçəkləşən işğal prosesində bu bölgələrdə yaşayan vətəndaşlarımız soyqırımına, qətl və qarətlərə məruz qalmış, sağ qalan 750 mindən çox insan isə öz evlərini tərk etmək məcburiyyətində qalmış, məcburi köçkünə çevrilmişdi. Beləliklə, müstəqilliyini yeni qazanan Azərbaycan Respublikası ərazisinin 20 faizini, özü də ən məhsuldar torpaqlarını, təbii ehtiyatları, faydalı qazıntıları ilə zəngin olan yerllərini itirmiş, 1 milyondan çox qaçqın və məcburi köçkünü sığınacaqla, zəruri həyat vasitələri ilə təmin etmək məcburiyyətində qalmışdı.

Birinci Qarabağ müharibəsinin ilk mərhələsində Azərbaycan xalqı könüllü dəstələr yaradaraq öz el-obasını, rayonunu müdafiə etmək üçün ölüm-dirim savaşına qalxmış, minlərlə şəhid vermiş, bir çox döyüşlərdə erməni silahlı dəstələrini məğlub etməyi bacarmışdı. Lakin o zamankı respublika rəhbərlərinin ordu quruculuğunda yol verdikləri səhvlər, ordu sıralarına soxulmuş cinayətkarlar, öz şəxsi mənfəəti üçün asanlıqla milli mənafeyə xəyanət edən ünsürlərin fəaliyyəti son nəticədə bu müharibəni uduzmağımıza gətirib çıxardı. Azərbaycan xalqının həqiqi vətənpərvər və qeyrətli oğullarının düşmənə layiqli müqavimət göstərmələrinə, son damla qanına qədər doğma torpaq uğrunda igidliklə vuruşmalarına baxmayaraq, Milli Ordunun rəhbər heyətində Respublikada ali hakimiyyəti ələ keçirmək iddiaları, ayrı-ayrı şəxslərin, siyasi partiyaların ambisiyalarına qulluq edən könüllü batalyonların hərbi nizam-intizama tabe olmamaları bir-birinin ardınca uğursuzluqlara düçar olmağımızı şərtləndirmişdi.

Yalnız ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqının israrlı istəyi, təkidli tələbi, hərtərəfli dəstəyi ilə 1993-cü ilin iyun ayında yenidən ali hakimiyyətə qayıtması nəticəsində vəziyyət düzəlməyə başladı. Bu möhtəşəm qayıdışın, xalqın yenidən məhz ona güvənməsinin, ölkəmizin həmin zaman üzləşdiyi dərin ictimai-siyasi böhrandan, cəbhədə bir-birinin ardınca üzləşdiyi məğlubiyyətlərdən xilas edəcək son ümid yeri baxmasının səbəbi Heydər Əliyevin 1970-ci illərdə respublika rəhbəri kimi insanların sonsuz inamını, etibarını qazanması ilə bağlı idi. Xalqımız öz ümummilli liderinə yenidən ona görə etimad göstərdi ki, o, yüksək təşkilatçılıq qabiliyyəti, sarsılmaz qətiyyəti və polad iradəsi ilə artıq bir dəfə xalqın ümidlərini doğrultmağı bacarmışdı.

Ulu öndərin yenidən ali hakimiyyətə gəlməsi ilə cəmiyyətdə hökm sürən xaos, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, güclü dövlətçilik strukturları yaradılmasına,

iqtisadiyyatın bütün sahələrinin dirçəldilməsi üçün zəruri islahatlar həyata keçirilməsinə başlandı. Bütün bunların zəminində hərbi sahənin inkişafına xüsusi diqqət yetirildi, möhkəm nizam-intizama malik ordu quruculuğu işlərinə təkan verildi.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ordu quruculuğunda vəziyyəti kökündən dəyişmək üçün çox mühüm təxirəsalınmaz tədbirlər həyata keçirdi. Ölkəin hərbi siyasətinə ümumi rəhbərliyi effektli həyata keçirmək üçün 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Bu qurumun elə həmin gün keçirilən ilk iclasında ordu quruculuğu işi, müdafiə məsələləri geniş müzakirə edildi, səfərbərliyin təşkili, hərbi hissələrdə döyüş hazırlığının, şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsi istiqamətində tədbirlər müəyyənləşdiridi [1, s.329; 2, s.129].

Ulu öndər 1993-cü il noyabrın 2-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana yeni hücumları və təcavüzü ilə bağlı milli televiziya və radio ilə xalqa müraciətində məğlubiyyəti doğuran səbəbləri dərindən təhlil etdi, milli ordu quruculuğunda yol verilmiş səhvlər, xəyanətlər, cinayətkarlıq əməlləri haqqında məlumat verdi. Eyni zamanda, bu son dərəcə ağır vəziyyətdən çıxmış yolunu göstərdi: "Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. ... Biz müdafiə qüvvələrimizi hər cəhətdən gücləndirməliyik" [3, s.233].

Həmin il noyabrın 23-də Azərbaycanın ali qanunverici orqanı "Müdafiə haqqında" qanun qəbul etdi, ordu quruculuğunda məsul vəzifəli şəxs və qurumların fəaliyyət dairəsi, məsuliyyət sahələri dəqiqləşdirildi. Dövlət başçısının ciddi nəzarəti altında 36 yeni ehtiyat taburu [4, 1-ci c., s.161]. yaradıldı, onlar sürətli hərbi təlim proqramlarına cəlb edildi.

Ümummilli lider öz şəxsi nümunəsi, Vətəninə, torpağına sonsuz sevgi və məhəbbəti ilə Azərbaycan xalqına milli qürur, vətənpərvərlik ruhu, döyüş qəhrəmanlığı ruhu aşıladı. Döyüşən orduda nizam-intizam möhkəmləndirildi, komanda heyətinə, hərbi əməliyyatların planlaşdırılmasına peşəkar və Vətənə sədaqətli zabitlər cəlb edildi. Cəbhədə vəziyyətin müsbət istiqamətdə dəyişməsinə zəmin yaradıldı. Bütün bunlar tezliklə öz nəticəsini verdi.

1993-cü il dekabr ayında erməni silahlı dəstələri Füzuli rayonunun şərqinə doğru hücuma keçməyə cəhd göstərəndə, Azərbaycan ordu birləşmələrinin o zamana kimi görünməmiş kəskin müqaviməti ilə qarşılaşdı və geri çəkilməyə məcbur oldu. Bundan sonra Azərbaycan ordusu hücuma keçdi. Dekabrın 15-də Azərbaycan hərbçiləri Horadizə doğru Arazboyu irəliləməyə başladı. Gərgin döyüşlər nəticəsində Azərbaycan hərbi birlikləri düşmənin müdafiə xətlərini dağıtdı, top atəşi və raket zərbələri altında sürətlə irəliləməyi davam etdirdi. 1994-cü il yanvarın əvvəlinə kimi Azərbaycan-İran sərhədi boyunca 40 kilometr uzunluğunda ərazi düşməndən azad edildi [5].

Tarixə "Horadiz əməliyyatı" kimi daxil olmuş bu döyüşlərdə iştirak edən silahlı qüvvələrimiz yanvarın 5-də bir gün ərzində qənimət olaraq 3 tank, 1 ədəd "Şturm-S", 6 ədəd top, 6 ədəd top qoşqusu, 10-a yaxın nəqliyyat vasitəsi, çoxlu sayda atıcı silah və sursat ələ keçirdi. Düşmən ağır itkilər verərək və cəsədlərini döyüş meydanında qoyaraq geri çəkildi. Yanvarın 6-da isə Azərbaycan hərbi birlikləri düşmənin müqavimətini qırıb, döyüşlə Horadiz qəsəbəsəni, oradakı dəmir yolu stansiyasını və su anbarı üzərindəki bəndi ələ keçirdilər. Bütövlükdə, "Horadiz əməliyyatı" zamanı 23 yaşayış məntəqəsi, o cümlədən Horadiz qəsəbəsi düşməndən azad edildi [5]. Bu, yenidən qurulan Azərbaycan Silahlı Qüvvələrinin ilk böyük uğurlarından biri idi.

Lakin düşmən hücumlarını uğurla dəf etmək və itirilmiş torpaqların geri alınmasını təmin etmək üçün yüksək hazırlıqlı, ən müasir silah və döyüş texnikası ilə təchiz edilmiş ordu yaradılması böyük xərc və zaman tələb edirdi. Ona görə də 1994-cü ilin mayında atəşkəsə nail olunması zəruri bir addım idi. Silahlı Qüvvələrdə həyata keçirilən quruculuq işlərinin davam etdirilməsi, Orduya vahid rəhbərliyin təmin edilməsi, peşəkar hərbi kadrlarla gücləndirilməsi, hərbi hissələrin müasir müharibə aparılması tələblərin uyğun hazırlanması üçün imkan yarandı.

Müstəqilliyin ilk illərində Azərbaycana rəhbərlik edən ayrı-ayrı siyasi qüvvələr, hakimiyyət nümayəndələri düzgün siyasət yeritməyi, müstəqil Azərbaycanın xarici siyasət

konsepsiyasını müəyyənləşdirməyi bacarmadılar. Həm siyasi hakimiyyət liderlərinin səriştəsizliyi, həm də yaxın və uzaq ölkələrlə normal xarici əlaqələrin qurulmaması bu illərdə Qarabağda baş qaldıran erməni separatizmi və işğalçılıq siyasətinin də dünyaya çatdırılmasında ciddi əngəllər yaratdı. Bu mənfi tendensiya ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyun ayında hakimiyyətə gəlməsinə qədər davam etdi. O, bütün istiqamətlərdə olduğu kimi xarici siyasət sahəsində də yeni dövrün tələblərinə uyğun şəkildə addımlar atmağa, siyasət həyata keçirməyə başladı. Bütün yaxın və uzaq ölkələrlə normal əlaqələr qurmağı xarici siyasətdə əsas prioritet hesab edən Heydər Əliyev İslam dünyası, ərəb ölkələri ilə əlaqələrə də xüsusi diqqət yetirdi, Bakı ilə müsəlman aləmi arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi üçün önəmli addımlar atdı.

Həmin dövrdə İslam dünyası ilə əlaqələri inkişaf etdirmək, ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığa nail olmaq Dağlıq Qarabağ probleminin müsəlman aləminə, eyni zamanda ərəb ölkələrinin mövcud imkanlarından istifadə edərək bütün dünyaya çatdırmaq baxımından önəmli idi. Dağlıq Qarabağ münaqişəsi meydana gələn ilk illərdə Ermənistan beynəlxalq aləmdə belə bir yalan rəy formalaşdırmışdı ki, guya Azərbaycan Dağlıq Qarabağda xristian dinindən olan ermənilərı orada sıxışdırmaqla məşğuldur və buna qarşı Qarabağda yaşayan ermənilər öz haqlarını tələb edirlər. Dağlıq Qarabağ probleminin dini münaqişə olmadığını sübut etmək üçün Azərbaycana İslam aləminin siyasi dəstəyi vacib idi. Eyni zamanda, Dağlıq Qarabağ münaqişəsindən zərər çəkən azərbaycanlı qaçqın və məcburi köçkünlərin zəruri ehtiyaclarını tamamilə ödəmək yenicə müstəqillik əldə edən Azərbaycan dövlətinin iqtisadi imkanları xaricində idi. Ona görə də, mühüm beynəlxalq humanitar təşkilatlarla yanaşı, İslam fondları, yardım cəmiyyətlərini də bu prosesə cəlb etmək, onların qaçqın və məcburi köçkünlərə dəstək göstərməsinə nail olmaq lazım idi və Heydər Əliyev iqtidarı bunu bacardı.

Ulu öndər 1990-cı illərdə peşəkar hərbi kadrlar qıtlığını aradan qaldırmaq üçün ilk növbədə keçmiş ittifaq respublikalarında hərbi xidmətdə olan azərbaycanlı zabitlərin Vətənə dönmələri üçün xüsusi diqqət və qayğı göstərdi. Bu illərdə Milli Ordunun gücləndirilməsi, Silahlı Qüvvələrin bütün növlərinin ən yeni silah və hərbi texnika ilə təchizi, eləcə də onları uğurla real döyüş şəraitində tətbiq etməyi bacaran, qabaqcıl hərbi strategiya və taktikaya yiyələnmiş hərbi kadrların hazırlanmasına diqqət artırıldı.

Heydər Əliyevin dövlətçilik fəaliyyətində çox mühüm, aparıcı sahə olan yüksək döyüş hazırlıqlı milli hərbi kadrlar hazırlanması üçün ən müasir standartlara cavab verən hərbi təhsil müəssisələri yaradılması istiqamətində çox mühüm tədbirlər həyata keçirdi. Azərbaycan Silahlı Qüvvələrinin müntəzəm şəkildə milli kadrlarla təmin olunması məqsədilə 1997-ci ildə Ali Hərbi Məktəb və Hərbi Aviasiya Məktəbi yaradıldı. Zabitlərin hərbi təhsilini artırmaları üçün 1999-cu ildə Hərbi Akademiyanın təşkili haqqında fərman verdi. 2001-ci ildə isə mövcud zabit heyətinin bilik bə bacarıqlarının təkmilləşdirilməsi üçün Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi təşkil edildi [4, 1-ci c., s.210-211]. Türkiyə Cümhuriyyətinin hərbi quruculuq sahəsində zəngin təcrübəsindən və potensialından istifadə olunması genişləndi. Gənc azərbaycanlı zabitləri müasir hərb elminin incəliklərinə yiyələnmək üçün xarici ölkələrin nüfuzlu hərbi akademiyalarında təhsil almağa göndərildi.

1990-cı illərin ortalarında Rusiya Federasiyasının Ermənistana 1 milyard dollarlıq hərbi texnika, silah-sursat bağışladığı, bu respublikada ən müasir silahlarla təchiz edilmiş böyük baza yaratdığı bir şəraitdə Heydər Əliyevin çox böyük əzmi ilə maliyyə sıxıntılarına, beynəlxalq miqyasda Azərbaycana müasir silah və texnologiyalar satılmasına yaradılan maneələrə və digər çətinliklərə baxmayaraq, hər fürsət dəyərləndirildi, ordumuzun ən yeni hərbi texnika və silahla təchiz edilməsi üçün gərəkli addımlar atıldı.

Heydər Əliyev böyük uzaqgörənliklə qarşıdakı müharibədə xüsusi hazırlıq keçmiş döyüşçülərin əsas rol oynayacağını bilirdi. Ona görə də, ABŞ-da rəsmi səfərdə olarkan orada elit hərbi dəstə sayılan dəniz piyadalarının xüsusi təlimləri ilə maraqlanmış, Azərbaycanda da

bunun bənzərinin yaradılmasına nail olmuşdu. 44 günlük savaşda "qarapaltarlılar" və ya "dəniz pişikləri" adlanan Xəzər dənizi hərbi qüvvələrinin xüsusi təyinatlı dəstəsi böyük qəhrəmanlıq göstərdi. Bu dəstənin bir zabiti iftixarla bildirmişdi ki, "düşmənin 90-cı illərdə xalqımıza yaşatdıqlarını biz artıqlaması ilə onlara yaşatdıq".

Bütün bunlarla bərabər Silahlı Qüvvələrin şəxsi heyətinin sosial müdafiəsinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Hərbi qulluqçuların əmək haqqı əsaslı şəkildə artırıldı, şəxsi heyətin ərzaq, maddi cəhətdən təminatı yaxşılaşdırıldı, tibbi xidmətin səviyyəsinin yüksəldilməsi sahəsində işlər aparıldı. Hərbi hissələrin maddi-texniki təchizatının gücləndirilməsi daim diqqətdə saxlandı, hərbi hissə binalarının, əsgər yataqxanalarının yüksək səviyyədə təmir edilməsi həyata keçirildi.

Azərbaycanın beynəlxalq miqyasda tanınması üçün ard-arda xarici ölkələrə səfərlər edilməsi, qonşu dövlətlərlə balanslaşdırılmış siyasət yürüdülməsi, dünyanın aparıcı dövlətlərinin nüfuzlu şirkətləri ilə "Əsrin müqviləsi"nin bağlanması nəticəsində ölkəmizin nüfuzunun artmasının təməli qoyuldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq birlik tərəfindən qəbul edilmiş sərhədləri daxilində bərpa edilməsi üçün gərgin diplomatik mübarizə başlandı.

Heydər Əliyev Azərbaycanın mürəkkəb geosiyasi məkanda yerləşməsini, bir neçə regional və qlobal güc mərkəzinin maraqlarının toqquşmasını nəzərə almağı, hərtərəfli ölçülüb-biçilmiş siyasət yürüdülməsinin labüdlüyünü zərgər dəqiqliyi ilə hesablamağı bacardı. O, Respublikada ali hakimiyyətə gəldikdən dərhal sonra balanslaşdırılmış xarici siyasət kursu yürüdülməsinə keçdi, qonşu dövlətlərlə, ilk növbədə Rusiya, İran və Gürcüstanla münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə təkan verdi. Dünyada baş verən geopolitik dəyişikliklərin nəzərə alınması, qonşularla çoxşaxəli, tarazlaşdırılmış, sabit, davamlı, qarşılıqlı faydalı əməkdaşlıq kursu yeridilməsi Azərbaycanın mövqeyinin güclənməsinə gətirib çıxardı. Böyük dövlətlərin, xüsusən ABŞ və Fransanın Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyünün qorunması, beynəlxalq hüquq normaları çərçivəsində həlli prinsiplərindən çıxış etmələrinə nail olundu [1, s.342-343].

Azərbaycanın təbii ehtiyatlarından, ilk növbədə Xəzər dənizinin karbohidrogen resurslarından istifadə imkanı yaradılması o zamankı xarici siyasət kursunun prioritet məsələlərindən biri idi. Bu, bir tərəfdən respublikamızın iqtisadi potensialını dəfələrlə artırmağa, digər tərəfdən də bütövlükdə Cənubi Qafqaz regionunda sabit inkişafa zəmin yaratmağa hesablanmışdı.

Ulu öndərin layiqli varisi İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra çox sağlam və möhkəm zəmində qoyulmuş təməllər üzərindən bu siyasəti qaldığı yerdən əzmlə irəlilətməyə başladı. İlham Əliyevin prezidentliyi dövründə tarazlaşdırılmış, milli maraqlara söykənən qarşılıqlı faydalı tərəfdaşlıq siyasəti davam etdirilmiş, eyni zamanda xarici siyasətdə praqmatik və rasional prinsiplərə əsaslanılması, dövlətin iqtisadi və hərbi potensialının gücləndirilməsi zəminində hücum diplomatiyasından istifadə edilməsinə keçilmişdir. Bu illərdə Azərbaycanın xarici siyasət xəttində milli maraqların qorunması, heç bir dövlətə qarşı olmamaq, qonşu dövlətlərlə əməkdaşlığın dərinləşdirilməsi, respublikamızı sivilizasiyalararası dialoq məkanına çevirmək aparıcı yer tutmuşdur [4, 2-ci c., s.386-387]. Azərbaycan həm yaxın qonşularına, həm də qlobal güc mərkəzlərinə praktikada, gündəlik siyasi kursunda sübut etmişdir ki, beynəlxalq hüquq norma və prinsiplərinə dönməz şəkildə hörmət edir və həm siyasi, həm də iqtisadi sahədə öhdəliklərini tam şəkildə yerinə yetirən etibarlı tərəfdaşdır.

Son illərdə Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edərək, regionun ən güclü dövlətinə çevrilmişdir. İqtisadi yüksəlişin yaratdığı böyük maliyyə qaynaqları Azərbaycana öz ordusunu da modernləşdirib, gücləndirmək imkanları açmışdır. Rəsmi Bakı bütün bu imkanlardan maksimum səviyyədə yararlanmağı bacarmışdır. XXI əsrin ilk onilliklərində dövlət strukturlarının daha effektli işləməsi, iqtisadiyyatın bütün sahələrinin, xüsusən qeyri-

neft sektorunun inkişafı, Silahlı Qüvvələrimizin ən müasir silah və hərbi texnika ilə təchiz edilməsi, informasiya-kommunikasiya sahələrində çox uğurlu addımlar atılmışdır.

Azərbaycan XX əsrin 90-cı illərinin əvvəllərində aparılan müharibədən ciddi dərs aldı. Müasir silah və hərbi texnikanın çatışmamasının, möhkəm nizam-intizamlı ordu quruculuğunda yol verilən nöqsanların uğursuzluğun əsas səbəbləri olmasından nəticə çıxarıldı. Vəziyyətin bütün çətinliyini dərk edən Azərbaycan xalqı bütün qüvvəsini topladı və XXI əsrin ordusunu qurmaq üçün bütün qüvvələrini səfərbər etdi. Bu işdə təbii ki, Prezidentimiz İlham Əliyevin misilsiz xidməti olmuşdur. Məhz onun gündəlik qayğı və diqqəti sayəsində Azərbaycan Respublikasının müdafiə xərcləri kəskin şəkildə artırıldı: Azərbaycan Respublikasının hərbi büdcəsi 2003-cü ildə cəmi 135 milyon ABŞ dolları həcmində idisə, 2015-cı ildə 5 milyard dollara çatdı ki, bu da Ermənistan Respublikasının həmin il üçün bütün büdcə xərclərindən 2 milyard dollar çoxdur [4, 2-ci c., s.462-463]. Belə böyük həcmdə vəsait ayrılması Silahlı Qüvvələrimizi hərb elminin və texnologiyasının ən son nailiyyətləri ilə təchiz etməyə imkan verdi. Azərbaycanın ən son silah və hərbi texnika ilə təchizatının, onları uğurla tətbiq edəcək müasir ordu quruculuğunun üstünlüklərini İsrailin, ABŞ-ın, Almaniyanın hərbi mütəxəssisləri, NATO-nun hərbi əməliyyatları planlaşdıran generalları təqdir etmiş, dünya hərb elminə çox mühüm yenilik kimi qəbul etmişlər. Bu, yüksək texnologiyalar və ondan da yüksək peşəkarlıq əsasında gerçəkləşən XXI əsrin müharibəsində qələbə qazanmağın Azərbaycan təcrübəsini öyrənməyin vacibliyini vurğulamışlar.

Məsələn, Almaniya Təhlükəsizlik Siyasəti Federal Akademiyasının yeni dərc olunmuş hesabatında II Qarabağ müharibəsinin təcrübəsinə mühüm yer ayırmış, bundan nəticə çıxarmağın vacib olduğunu bildirmişdir: "Əgər Bundesver (Almaniya ordusu) yaxşı təchiz edilmiş şərti rəqibə müqavimət göstərmək üçün operativ güc olaraq qalmaq istəyirsə, o zaman PUA-lar alınmalıdır. PUA-lar hərbi baxımdan əvəzedilməzdir". Alman analitiklərin fikrincə, Azərbaycan Ordusunun uğurlu hava kampaniyasının əsas səbəblərindən biri döyüş meydanında, özəlliklə də elektromaqnit spektrdə üstün taktiki kəşfiyyat olmuşdur: "Məsələn, kəşfiyyat PUA-ları düşmən əsgərlərinin mobil telefonla şifrələnməmiş danışıqlarını tuta bilir, onların yerləşdiyi yeri müəyyənləşdirib, dərhal artilleriya, döyüş PUA-larının köməyi ilə hücum edirdilər. Ermənistanın istifadə etdiyi ənənəvi zenit komplekslər bu taktika qarşısında praktik olaraq çarəsiz idi". Mütəxəssislər bu müharibədən dərs çıxararaq, Almaniynın 2012-ci ildə ləğv edilmiş hava hücumundan müdafiəsinə dair proqramı bərpa etməyə çağırıblar" [6]

Ordunu ən müasir silahlarla silahlandırmaq, inkişaf etdirmək ölkə başçısı üçün son illərdə çox vacib istiqamət olmuşdur. Azərbaycan Ordusu XXI əsrin 4-cü, 5-ci nəsil silahları və hərbi texnikası ilə silahlandırıldı. 2011–2015-ci illərdə Azərbaycan Avropa ölkələri arasında ən böyük silah idxalçısı idi [7]. Həmçinin bu ən yeni silahları yüksək peşəkarlıqla tətbiq etmək üçün Azərbaycan Ordusunun intellektual cəhətdən inkişaf etmiş bilikli kadrları hazırlandı. Bunlar hamısı bir yerdə Azərbaycanı artıq yeni XXI əsrin tələblərinə cavab verən savaş taktikasına keçməsinə şərait yaratdı.

Digər tərəfdən, vaxtaşırı və mövsümi keçirilən irimiqyaslı təlimlərin keçirilməsi də Ordumuzun döyüş hazırlığını yüksəltmişdir. Ordunun ən müasir silahlarla təmin olunması ilə paralel olaraq döyüş hazırlığının yüksəlməsində irimiqyaslı təlimlər vacib rol oynamışdır. Çünki ordu müharibəyə hazırlaşırsa, bu hazırlıq dövründə təlimlər həyati əhəmiyyət kəsb edir. Son onillikdə Azərbaycan Silahlı Qüvvələrinin bütün növləri ardıcıl şəkildə müntəzəm, həm də Türkiyə hərbçiləri ilə birlikdə hərbi təlimlər keçirdi. Yeni alınmış ən müasir silahlardan səmərəli istifadə üsulları bu təlimlərdə yoxlandı, strateji vəzifələrin icrası mexanizmi, taktiki gedişlər təkmilləşdirildi. Elə bunun nəticəsi idi ki, 2017-ci ildə ABŞ-ın "Global Firepower" araşdırma mərkəzininə görə, Azərbaycan Silahlı Qüvvələri dünyada 59-cu, Cənubi Qafqazda isə ən güclü və hazırlıqlı ordu sayıldı [8]

Dövlətimizin başçısı 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində çox haqlı olaraq qeyd etmişdir: "Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. ... Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem (Dağlıq Qarabağ münaqişəsi – Q.Ə.) dondurulmuş vəziyyətdə qala bilərdi" [9]. Möhtərəm Prezidentimizin son 17 il ərzində bu və digər sahələrdə dərindən ölçülüb-biçilmiş, məqsədyönlü siyasəti, vaxtında atılmış müdrik addımları sayəsində İkinci Qarabağ müharibəsində – Vətən müharibəsində möhtəşəm qələbəyə nail olmuşuq.

Böyük qələbəyə önəmli addım 2016-cı ilin Aprel döyüşlərində atıldı. Aprel döyüşlərində qazanılan uğur həm Milli Ordumuzda, həm də bütövlükdə Azərbaycan cəmiyyətində ruh yüksəkliyi yaratdı, böyük zəfərin yaxın zamanda baş verəcəyinə inam aşıladı. Dörd gün davam edən döyüşlərdə Ermənistanın 300-dən çox hərbçisi məhv edildi, 500-dən çox hərbçisi yaralandı. Ordumuz işğalda olan ərazilərdən 2 min hektarını, o cümlədən çox mühüm hərbi-strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyini azad etdi. Bu döyüşlərdə Ermənistanın məğlubiyyəti erməni mediasında açıq şəkildə etiraf edilirdi: generallar da daxil olmaqla erməni hərbçilərin kütləvi fərarilik etməsi faktları ard-arda gündəmə gətirilir, Ermənistanın o zamankı prezidenti Serj Sarkisyanın Minsk qrupunun həmsədr ölkəsi olan Rusiyaya müraciət edərək, döyüşlərin dayandırılması üçün yalvardığı qeyd edilirdi. S.Sarkisyan 2018-ci ilin aprelində açıq etiraf etmişdi: "Aprel döyüşlərində ordumuzun zəif olduğunu gördük" [10].

Aprel döyüşlərinin bir vacib məqamını da 1992-ci ilin mayın 8-də Şuşanı işğal etmiş erməni qüvvələrinin komandanı, o zaman qondarma "Dağlıq Qarabağ Respublikası"nın Müdafiə naziri, erməni təbliğatının "əfsanəvi komandos" adlandırdığı Arkadi Ter-Tadevosyan etiraf etmişdir. O, 2016-cı il Aprel döyüşlərindən sonra mətbuata açıqlamalarında bildirmişdi: "Azərbaycanın əsas məqsədi bizim qoşunlar və texnikamızın harada olduğunu öyrənmək idi. Hesab edirəm ki, Azərbaycan öz istəyinə nail oldu. Cəbhə xəttində baş verən hadisələr döyüşlə yanaşı kəşfiyyat xarakterli əməliyyat idi. Azərbaycanın əsas məqsədi bu məlumatları təhlil etmək və növbəti addımı atmaqdır. Biz onlara nə ilə cavab verdik? Gözlənilməzlik faktoru olduğundan biz bir neçə mövqe itirdik. Hesab edirəm ki, Azərbaycan genişmiqyaslı hücum qərarı verəcəyi təqdirdə faktiki olaraq başladığı işi davam etdirə biləcək..." [11].

Doğrudan da Azərbaycan Silahlı Qüvvələri tərəfindən İkinci Qarabağ müharibəsinin elə birinci günü düşmənin hava hücumundan müdafiə qurğularının, komanda məntəqələrinin, raket komplekslərinin, ağır artileriya atəş nöqtələrinin əsas hissəsi məhv edildi və ya sıradan çıxarıldı. Bununla da Ermənistanın 30 ilə yaxın müddət ərzində təkəbbürlə təbliğ etdiyi "keçilməz Ohanyan müdafiə xətti" çox qısa müddət ərzində darmadağın edildi.

30 ilə yaxın bir müddətdə, uzun illər ərzində müxtəli formatlarda davam etmiş sülh danışıqlarının heç bir nəticə verməməsi, üstəlik, 2018-ci ildə Ermənistan cəmiyyətində soyğunçu "Qarabağ klanı"nın hakimiyyətindən xalq narazılığı dalğasında hakimiyyətə gəlmiş baş naziri Nikol Paşinyanın təxribat xarakterli bəyanatları və addımları, həmçinin Dağlıq Qarabağdakı qondarma kriminal rejimin səngiməyən təhrikedici hərəkətləri diplomatiyaya olan son ümidlərin də üzərindən xətt çəkdi.

Erməni lobbisinin və Ermənistanı himayə edən dövlətlərin beynəlxalq informasiya məkanında təsirinin kifayət qədər güclü olmasının nəticəsi idi ki, Azərbaycana insan hüquqlarından, azadlıq və sülh kimi dəyərlərə hörmətdən bəhs edənlər, ötən 30 il ərzində erməni təcavüzü nəticəsində dədə-baba torpaqlarından didərgin düşmüş, yaxınlarını itirmiş bir milyondan çox azərbaycanlının acı taleyinə biganə yanaşıblar. Beynəlxalq hüququn aliliyindən dəm vuranlar Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünün pozulması faktına eyni riyakarlıqla göz yumublar. Mədəni və dini abidələrə qayğı ilə yanaşmağı, qoruyub saxlamağı təbliğ edənlər erməni işğalında qalmış abidələrin vəhşicəsinə məhv edilməsi, məscidləri tövləyə çevirməklə milyonlarla müsəlmanın dinin heysiyyatının təhqir edilməsi faktlarına biganə qalmışlar.

Ali Baş Komandanımız böyük qələbə müjdəsini – xalqımızın 30 ilə yaxın səbirsizliklə gözlədiyi Şuşanın azad edilməsi xəbərini hərbi geyimdə Şəhidlər xiyabanından bəyan etdi. Bu, hər iki Qarabağ müharibəsində şəhid olan hərbçilərimizə böyük hörmət və ehtiramın nümayiş etdirilməsi idi, torpaqlarımızın azadlığı uğrunda axıdılan qanların, verilən canların, Azərbaycan əsgərinin misilsiz igidliyinin yüksək qiymətləndirilməsi idi. Qarabağın müdafiəsi uğrunda döyüşlərdə həlak olanların qisaslarının alınması, canlarını fəda etdikləri torpaqlarımızın azad edilməsi müjdəsi, zəfər xəbəri idi.

Bir çox tanınmış hərbi ekspertlərin Azərbaycanın əldə etdiyi qələbəni Türkiyə istehsalı olan "Bayraktar" və İsrail istehsalı "Harop" PUA (pilotsuz uçuş aparatı) ilə əlaqələndirmələri, bu PUA-ların qələbəmizdə rolunu çox şişirtmələri kimi qiymətləndirmək lazımdır. Əlbəttə, PUA-nın müasir silah, döyüş texnikası növü olaraq əhəmiyyəti danılmazdır. Lakin təkcə PUA-lar bütün məsələləri həll etmədi. Birincisi, PUA-nın döyüş imkanları birbaşa hava şəraitindən asılıdır. Yəni hava şəraiti aydın olmalıdır ki, PUA-lar verilən tapşırığın öhdəsindən yüksək dəqiqliklə gələ bilsin. Lakin fəal döyüşlərin getdiyi ərazilər başdan-başa dağlıq və meşəlik ərazilər idi. Digər tərəfdən, hərbi əməliyyatların payız fəslində olması da, dumanda, çəndə hər zaman PUA-dan istifadə etməyə imkan vermirdi. Başqa sözlə, qələbəni PUA deyil, həmin texnikadan və əlindəki digər ən müasir silah və döyüş texnikalarından bacarıqla istifadə edən Azərbaycan hərbçisi qazanmışdır. Bu müharibədə həlledici rol ilk növbədə sıravi əsgərindən komandanına kimi mütəşəkkil orduya məxsusdur. Məsələn, bizim ordumuzun Şuşaya hücumunu heç kim gözləmirdi. Düşmən düşünürdü ki, Azərbaycan Odusu cənubdan Laçına daxil olacaq, oradan da Şuşaya zərbə vuracaq. Lakin bütün təxminlərə zidd olaraq əsgərlərimiz sıldırım qayalara dırmaşaraq Şuşaya daxil oldular. Şuşa uğrunda gedən döyüşlərdə həlledici rolu nə ən yeni silahlar, nə PUA-lar, nə də başqa kənar təsirlər oynadı. Şuşa qələbəsinin başlıca sirri hərbçilərimizin yüksək peşəkarlığı, qələbə əzmi idi. Şuşada küçə döyüşlərində Azərbaycan əsgəri əlbəyaxa vuruşaraq düşmən üzərində qələbə qazandı. Bu da artıq Azərbaycan Ordusunun düşməndən yalnız texnikaya görə yox, əzminə, ruhuna, peşəkarlığına, igidliyinə görə də çox güclü olduğunu göstərdi [12]

Müharibənin ilk günlərində yüksək hərbi texnologiyalardan bacarıqla istifadə edilməsi sayəsində düşmənin çoxlu sayda hərbi texnikası, silah-sursatı, canlı qüvvəsi məhv edildi. Bu da, öz növbəsində, Azərbaycan Ordusunun şəxsi heyəti sırasında çox böyük ruh yüksəkliyi yaratdı. Düşmənin içərisində isə əksinə qorxu, təşviş doğurdu, fərariliyin kütləvi hal almasına gətirib çıxardı.

Bu müharibə igid oğullarımızın canı, qanı bahasına qazanılsa da, Silahlı Qüvvələrimizin ən müasir silah və texnologiyalarla təchizi və onların yerində yüksək peşəkarlıqla tətbiq edilməsi olası itkilərimizi minimuma endirdi. Xüsusi təyinatlı dəstələr və digər xüsusi hərbi bölmələrin cəsarət, qəhrəmanlıq və fədakarlığı, PUA və aviasiyamızın dəqiq zərbələri insan tələfatının minimal olmasında böyük rol oynadı. Əks təqdirdə bu cür geniş miqyaslı əks-hücum əməliyyatlarında itkimiz bundan 3-4 qat artıq ola bilərdi.

Azərbaycan əsgərinin yüksək döyüş ruhunu xarakterizə edən epizodlar: "Bir dəstəni kəndə hücum etməyə göndərirlər, az sonra arxalarınca dəstək qrupu gəlir və onları tapa bilmir; axtarırlar, axtarırlar, əsəbiləşirlər, xeyli gedəndən sonra qarşıda tapırlar və onlara deyirlər ki, hara gedirsiniz, dayanın: sizə "bu kəndi al" deyiblər, 4 kəndi almısız, hələ də gedirsiniz?!

...Texnikalar vurulur, Şuşaya gedən yolu məhv olmuş zirehli maşınlar bağlayır və... Texnika ilə birgə piyada qüvvələri hücumu davam etdirsin deyə 20 yaşlı bir gənc döyüşçü URAL-a – tanka yox, məhz URAL-a - oturub, o məhv olmuş texnikaları bir-bir vurub yoldan çıxarır, yolu təmizləyir və son anda, özü vurulanda da dayanmır, URAL-ı yoldan çıxarıb aşırır ki, yolu kəsməsin, arxasınca Ordumuz gələ bilsin!" [13]

Şuşa döyüşlərindən bəhs edən erməni əsgərləri də Azərbaycan Ordusunun döyüş ruhundan heyrətini belə ifadə etmişdi: "təxminən 400 əsgərlə hücuma keçmişdilər, vurduq,

ardınca ikiqat, üçqat güclə gəldilər. Bir ölənin yerini ikisi, üçü tuturdu. Güllə ilə vururduq, sanki ağrı hiss etmirdilər, "zombi" kimi üstümüzə gəlirdilər...". Başqa bir erməni hərbçisi erməni mediasına heyrətini bu cür bildirmişdi: "Azərbaycan əsgərləri dəniz dalğası kimi gəlirdi və ikinci dalğa birincidən daha güclü olurdu; Azərbaycan əsgərləri çiynindən, hətta sinəsindən yara alırdı, ancaq qanı axa-axa hücum edirdi. Onlar sanki terminator idi" [13].

Azərbaycan Prezidenti daxili və xarici siyasət sahəsində müdrik, uzaqgörən addımları ilə həm döyüş cəbhəsində, həm siyasi-diplomatik meydanda, həm informasiya mübarizəsində, həm psixoloji savaşda, həm də kəşfiyyat və təhlükəsizlik sahəsində çox böyük uğurlar qazanmağımızı təmin etmişdir. Azərbaycan əsgərinin canı, qanı bahasına qazandığı hərbi uğurlara paralel olaraq, Azərbaycan Prezidentinin Ermənistan rəhbərliyini daha bir önəmli mübarizə meydanında – beynəlxalq informasiya məkanında da mütləq məğlub etməsi ümumi qələbəmizin önəmli şərtlərdən biri olmuşdur.

Ermənistanın rəhbərliyi Qərb ölkələrində böyük təsir gücünə malik olan erməni lobbisinə və özünün xarici havadarlarına arxalanaraq dünyada informasiya savaşında dominantlıq yaratmağa çalışırdı. Bununla bağlı düşmən tərəf öz yalan, riyakar və ikiüzlü siyasətini beynəlxalq ictimaiyyətə sırımağa bütün mümkün vasitələrlə ciddi-cəhdlər edirdi. Ali Baş Komandan kimi Prezident İlham Əliyev döyüş cəbhəsində məharətli sərkərdə, informasiya cəbhəsində də çox bacarıqlı diplomat kimi ölkəmizin maraqlarını inamla və qətiyyətlə müdafiə etdi.

Ölkəmizin haqlı mövqeyini tutarlı arqumentlərlə əsaslandıran Prezident İlham Əliyev müsahibələrində Azərbaycana qarşı "feyk-nyuslar"ı ardıcıl şəkildə ifşa etdi, Ermənistanın yalan üzərində qurulmuş informasiya maşınına bir-birinin ardınca sarsıdıcı zərbələr vurdu. Məsələlərə operativ müdaxilə etdi və çevik reaksiya göstərdi, əsas hadisələri seçərək şəxsi nəzarətinə götürdü, vəziyyəti məqsədəuyğun şəkildə idarə etməyi bacardı. Ali Baş komandan kimi həm müharibənin davam etdiyi ağır şəraitdə, həm də müharibədən sonrakı dövrdə təzyiqlərin artdığı taleyüklü anlarda Azərbaycanın milli maraqlarının müdafiəsinin necə təşkil edilməsi ilə bağlı qətiyyətli mövqeyini ortaya qoydu. Dövlət başçısının istər daxili, istərsə də xarici auditoriya qarşısındakı çıxışları xalqın ürəyindən xəbər verdi, böyük rəğbət və sevgi ilə qarşılandı.

İkinci Qarabağ müharibəsi davam etdiyi günlərdə möhtərəm Prezidentimiz dünyanın 30-dan artıq aparıcı informasiya agentliklərinə, televiziya kanallarına: "CNN International", "CNN-Türk", "Sky News", "Euronews", "Əl-Cəzirə", "Əl-Ərəbiyə" kimi dünyanın əsas və nüfuzlu televiziya kanallarına geniş məzmunlu açıqlamalar verdi. O cümlədən də, Türkiyənin nüfuzlu "TRT Haber", Rusiyanın aparıcı "Rossiya-1", "Pervıy Kanal", RBK televiziya kanallarına müsahibələrində Azərbaycana qarşı qərəzli, gerçəkliyi çarpıdan xəbərləri ifşa etdi, Ermənistanın yalan üzərində qurulmuş informasiya maşınına ağır zərbələr vurdu.

Azərbaycan Prezidentinin çoxsaylı müsahibələri Qarabağ müharibəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində, informasiya müharibəsində ölkəmizə çox böyük uğurlar qazandırmışdır. Onun hər bir suala dəqiq, məntiqli, yoxlanıla bilən və faktlara söykənən cavabları ermənilərin və ermənipərəst qüvvələrin Azərbaycan haqqında yaydığı qərəzli, saxta məlumatları təkzib etməklə bərabər, erməni yalanlarını yayanları da yerinə oturtmuşdur. Bu olduqca vacib məsələ idi. İşğalçı Ermənistan əvvəlki dövrlərdə olduğu kimi İkinci Qarabağ müharibəsi dövründə də xarici havadarlarının və şəbəkələşmiş erməni lobbisinin yaxından dəstəyi ilə bu müharibə haqqında beynəlxalq səviyyədə dezinformasiya yaymağa çalışır, öz yalan, hiyləgər siyasətini ənənəvi və yeni auditoriyalara sırımağa ciddi-cəhd göstərirdi.

Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il noyabrın 6-da "BBC News"a verdiyi müsahibə ibrətamizdir. Təkəbbürlü BBC jurnalisti ilə bu, olduqca sərt müsahibə zamanı Prezidentimizin onu özündən razı və ağıl vermə manerasından imtinaya vadar etməsi, yerində oturtması xarakterikdir.

BBC teleaparıcısının Şuşada xristian kilsə binasına bomba düşməsi ilə bağlı: "Deməli, Sizi heç bir yanlışlıqda günahlandırmaq olmaz? Hər şey feyk xəbərdir?" - ironiyalı sualına

Prezident İlham Əliyev konkret faktlarla cavab verdi: **"**Əlbəttə, bu, feyk xəbərdir. Biz Qərb mediasını yaxından müşahidə edirik və bu qırx gün ərzində mənim bəlkə də, otuz müsahibəm olub. Onların hamısı çox aqressiv idi, sanki bu, müsahibə deyildi, sanki bir ittiham idi. Ermənistan tərəfində heç nə baş vermir. Heç kim Paşinyandan nəyə görə Gəncəyə ballistik raketlərlə zərbə endirdiyini soruşmur. Nəyə görə o, 92 nəfəri qətlə yetirib? Nəyə görə o, Tərtərdə dəfn mərasiminə hücum edib? Nəyə görə onlar 21 insanı qətlə yetirərək və 70 nəfəri yaralayaraq Bərdəyə hücum etmək üçün kassetli bombalarla "Smerç"dən istifadə ediblər? Heç kim ondan soruşmur. Heç kim ondan silahları haradan əldə etdiyini soruşmur? Yalnız bizə hücum edirlər. Beynəlxalq media yalnız Azərbaycanı ləkələyir" [14]

Azərbaycan Prezidentinin xarici ölkə media qurumlarına verdiyi belə kəskin və arqumentli müsahibələri sayəsində Ermənistanın yalan informasiya yaymaq imkanları ciddi şəkildə məhdudlaşdırıldı. II Qarabağ müharibəsi gedişində beynəlxalq ictimaiyyət artıq Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 20 faizinə qədərini 30 ilə yaxın müddət ərzində işğal altında saxlandığını, ermənilərin heç vaxt özlərinə məxsus olmayan qonşu dövlətin – Azərbaycanın BMT tərəfindən təsdiqlənmiş torpaqlarına iddia etdiklərini öyrənmiş oldular. Azərbaycan Prezidentinin ermənilərin Cənubi Qafqaza ilk gəlişi ilə bağlı tarixi faktlardan tutmuş, Dağlıq Qarabağ münaqişəsinə, Ermənistanın işğalçılıq siyasətinə qədər açıqladığı önəmli məqamlar beynəlxalq ictimaiyyətin həqiqətləri bilməsinə birbaşa imkanlar açdı. Savaş meydanında məğlub duruma düşən Ermənistan Respublikası beynəlxalq informasiya məkanında da tərksilah edildi. Bütün bunların müsbət nəticələri savaşın Azərbaycan ordusunun qələbəsi ilə bitməsindən sonra daha çox hiss olunmağa başlayacaqdır.

Rusiyanın Ermənistana hərtərəfli yardımları, Dağlıq Qarabağın və ətarfındakı 7 rayonun Rusiya hərbi qüvvələrinin birbaşa iştirakı ilə işğal edilməsi, yuxarıda qeyd edildiyi kimi, erməni ordusuna 1 milyard dollarlıq silah və hərbi texnika bağışlanması, XXI əsrin əvvəllərində bu "bəxşişlər"in davam etməsi fonunda II Qarabağ müharibəsi zamanı Rusiyanın neytrallığına nail olmaq Azərbaycan Prezidentinin həm böyük diplomatik uğuru, həm də bu ölkənin informasiya məkanında cəmləşmiş erməni və ermənipərəst rus media mənsubları üzərində möhtəşəm qələbəsi idi. Bunu rusiyalı politoloq, Siyasi Araşdırmalar Mərkəzinin direktoru Sergey Markov "İnformasiya müharibələri. Qarabağ uğrunda döyüş rusiyalıların kütləvi şüurunda" mövzusunda Moskvada keçirilmiş dəyirmi masa zamanı etiraf etmişdir. Kremlə yaxınlığı ilə seçilən politoloq qeyd etmişdir ki, Rusiyada informasiya savaşında Azərbaycan Ermənistandan daha uğurlu təbliğat apardı. Qarabağda hərbi əməliyyatların gedişində Ermənistan rəhbərliyi, sonradan etiraf edildiyi kimi, son dərəcə saxtalaşdırılmış formada məlumat verirdi: "Ümumiyyətlə, informasiya müharibəsinin nəticələrinə əsasən deyə bilərik ki, əvvəlcə Ermənistan böyük üstünlük qazanmışdı, çünki xristian ölkəsidir, çünki Rusiyadakı erməni diasporu azərbaycanlılarınkından daha güclü və daha nüfuzludur və Rusiya mediasında çox təsirli qüvvəyə malikdirlər. Ancaq bu üstünlük reallaşdırılmadı. Azərbaycanın ən mühüm uğuru ondan ibarət idi ki, əvvəlki dövrlərdən fərqli olaraq, indi Rusiya mediasında Azərbaycanın mövqeyini çatdıranlar vardı və onlar kifayət qədər səmərəli çalışdılar. Əvvəllər informasiya müharibəsində erməni tərəfinin mütləq üstünlüyü var idi, indi belə mütləq üstünlük yox idi" [15].

Azərbaycan Respublikası hələ əks-hücum əməliyyatından öncə işğalçı Ermənistan tərəfindən törədilən ardıcıl, məqsədyönlü təxribatları, o cümlədən informasiya təxribatlarını və erməni yalanlarını sistemli şəkildə ifşa etməyə, həqiqəti gün üzünə çıxarmağa başlamışdı. 2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində hücumu zamanı və sonrakı dövrdə Azərbaycan Prezidenti bütün beynəlxalq platformalarda işğalçı Ermənistanın iç üzünü, təcavüzkar siyasətini açıb göstərmiş, bu dövlətin beynəlxalq hüquq norma və prinsiplərini tapdalaması, Azərbaycana qarşı yeni işğal planları qurmasını bütün dünyaya duyurmuşdu. Bu baxımdan, Prezidentimizin BMT Baş Məclisinin 75-ci sessiyasındakı təsirli çıxışı xüsusilə böyük əhəmiyyətə malik olmuşdur. İlham Əliyev BMT-

nin yüksək tribunasından bəyan etdi ki, Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğu regional sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən sülh prosesini pozmağa cəhd edir: "Ermənistanın məqsədi işğalla bağlı hazırkı status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaqdır. Azərbaycanın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistanın baş naziri məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. ... Bizim sülhə nail olmaq üçün yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır" [16].

Azərbaycan Prezidenti həmin çıxışında beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı ki, "Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Ermənistanın müdafiə naziri "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırır. Ermənistan Azərbaycanın böyük şəhərlərinə və mühüm mülki infrastrukturuna – Mingəçevir su anbarı və Bakının yaxınlığında yerləşən dünyanın ən iri neft-qaz terminallarından biri olan və onlarla dövlətin enerji təhlükəsizliyini təmin edən Səngəçal terminalına zərbə endirməklə hədələyir. ... Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik" [16].

Prezidentimizin İkinci Qarabağ müharibəsi gedişində hər fürsətdə Azərbaycan Respublikasının bütün addımlarının beynəlxalq hüququn norma və prinsipləri əsasında atılması, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini icra etmək istiqamətində mübarizə aparmasını bəyan etməsi öz səmərəsini vermişdir. Bütövlükdə dünya birliyi, böyük dövlətlər Azərbaycanın haqlı davasını anlayışla qarşılamışlar.

Ermənistan Qarabağda 30 ilə yaxın müddətdə işğal edib nəzarətində saxladığı mövqelərini itirdiyinin fərqinə varınca daha da quduzlaşdı, döyüş əməliyyatları rayonunu genişləndirmək üçün fitnəkar addımlar atdı, Gəncə, Mingəçevir, Bərdə və cəbhə xəttindən xeyli uzaqda olan digər yaşayış məntəqələrinə raket zərbələri endirdi. İlham Əliyev soyuqqanlı, səbirli addımları, müdrik qərarları ilə bu məkirli planları pozdu, Qarabağda gedən Qarabağ uğrunda savaşın Azərbaycanla Ermənistan arasında total müharibəyə çevrilməsinə imkan vermədi.

Ermənistanın və havadarlarının təxribatlarının beynəlxalq səviyyədə ifşa etmə işi, bütün mümkün vasitələrdən istifadə olunmaqla, bugün də davam etməkdədir. Həm də bu iş özlüyündə ön cəbhədəki savaş qədər önəmlidir. Başqa sözlə, informasiya cəbhəsindəki mübarizə ön cəbhədə əsgərlərimizin göstərdiyi fədakarlıqları tamamlamaqdadır.

Azərbaycan ordusu 44 gün ərzində 5 şəhər, 5 qəsəbə, 300-ə qədər kəndi düşmən tapdağından azad etmiş [17], erməni silahlı qüvvələrini sarsıdıcı məğlubiyyətə uğratmışdır. Bu o deməkdir ki, Azərbaycanın işğal edilmiş ərazilərinin 45 faizi döyüşlə geri alınmışdır. Azərbaycan ordusunun bu parlaq qələbəsi 2020-ci il noyabrın 10-na keçən gecə Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin imzaladıqları üçtərəfli bəyannamə ilə daha da möhkəmləndirilmişdir. Azərbaycan Prezidentinin polad iradəsi, qətiyyətli mövqeyi sayəsində qan tökülmədən, əlavə resurslardan istifadə etmədən, yerdə qalan torpaqlarımızın da çıx qısa müddət ərzində Azərbaycana qaytarılması məsələsi həll edilmişdir. Möhtərəm Prezidentimiz Azərbaycan xalqına 1 dekabr 2020-ci il tarixli müraciətində qürurla bildirdi: "Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq" [18]. Beləliklə, Azərbaycan Respublikası Ermənistanın XX əsrin 90-cı illərinin başlanğıcında havadarlarının hərtərəfli yardımları ilə işğal etdiyi torpaqlarımıza nəzarəti tam şəkildə bərpa etməyə, yüzminlərlə məcburi köçkünü öz evlərinə qaytarmağa nail olmuşdur.

Azərbaycan xalqı, Silahlı Qüvvələrimiz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal edilmiş ərazilərimizi geri almaq, insanlarımızın dədə-baba torpaqlarında, öz doğma yurdunda azad və müstəqil yaşaması üçün savaşda qalib gəlmişdir. 1990-cı illərin əvvəllərində itirilmiş torpaqlarımızın azad edilməsi təkcə yüzminlərlə məcburi köçkünün öz ev-eşiyinə geri dönməsi demək deyil, həm də tapdalanmış heysiyyatımızın, şərəfimizin, namusumuzun qisasının alınmasıdır.

Bu möhtəşəm qələbə, çox böyük bir uğurdur. Azərbaycan Prezidenti İlham Əliyevin böyük şəxsi zəfəridir. Müharibəni nə zaman başlamaq, nə zaman, hansı şərtlərlə dayandırmaq kimi taleyüklü qərar vermək, onun məsuliyyətini öz üzərinə götürmək çox güclü insani xarakterinin, vəziyyəti dəqiq təhlil etmək və düzgün nəticələr çıxarmaq qabiliyyətinin bariz göstəricisidir. Müharibəni ən əlverişli şəraitdə bitirmək çox böyük hünərdir. Digər parlaq göstəriciləri ilə bərabər, bu göstəriciyə görə də qələbəmiz mükəmməldir, dünya hərbi və diplomatiyası üçün çox qiymətli örnəkdir. Məhşur bir deyim var: "Müharibəni istədiyin zaman başlaya bilərsən, lakin istədiyin zaman onu dayandıra bilməzsən". Azərbaycan tərəfinin Şuşanın azad edilməsindən sonra hərbi əməliyyatları dayandırması ölkəmizin ümummilli maraqlarına tam uyğundur: Şuşa bizdədirsə, Xankəndinə, bütün Qarabağa nəzarət bizdədir! Torpaqlarımızda ikinci erməni dövləti yaradılması mümkün deyildir!

Bu çox böyük zəfər, möhtəşəm qələbədir. Gələcəkdə də Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirəcək, onun regional lider kimi mövqeyini daha da möhkəmləndirəcək uğurdur.

Ədəbiyyat

1. Azərbaycan tarixi.Yeddi cilddə. VII c., Bakı, "Elm", 2008, 608 s + 80 s.
2. Bəhramov C.Ə. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində vəziyyət. Dövlət çevrilişi cəhdlərinin qarşısının alınması // "Heydər Əliyev". AMEA Tarix İnstitutunun elmi toplusu. 2-ci c. Bakı, Turxan NPB, 2013, 704 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1997, 612 s.
4. Azərbaycan Respublikasının tarixi, 1-ci c., (1991-2003), Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 704 s.; 2-ci c., (2003-2016), Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 716 s.
5. "Azərbaycan" qəzeti, 20.I.1994
6. https://axar.az/news/gundem/538568.html(2021.02.16 / 13:03)
7. "Azərbaycan Avropanın ən böyük silah idxalçısıdır" sputnik.az. 15 iyun 2017
8. "Dünyanın ən güclü orduları müəyyənləşib: Azərbaycan Silahlı Qüvvələri 59-cu dur" modern.az. 11.06.2017
9. https://axar.az/news/siyaset/513981.html
10. https://axar.az/news/siyaset/538722.html 2021.02.16 / 23:05
11. https://musavat.com/news/efsanevi-komandos-un-puc-olan-emeyi-o-olmezden-once-susani-alan-igidleri-gordu
12. https://axar.az/news/musahibe/517454.html 2020.11.21 / (13:33)
13. https://axar.az/news/kult/519799.html
14. https://www.aznews.az/news/interview/264262.html 9 noyabr (12:23)
15. https://axar.az/news/gundem/521421.html 2020.12.07
16. https://president.az/articles/42794
17. https://axar.az/news/siyaset/507273.html
18. https://axar.az/news/gundem/519847.html

QARABAĞ – QƏDİM SİVİLİZASİYA BEŞİYİ

Təvəkkül Rəsul oğlu Əliyev
AMEA Arxeologiya və Etnoqrafiya
İnstitutunun aparıcı elmi işçisi,
tarix üzrə fəlsəfə doktoru, dosent
Bakı, Azərbaycan
e-mail: tavakkul55@yahoo.com

Xülasə: Məqalə Qarabağ regionunun arxeoloji abidələrinə, onların bəşər sivilizasiyası üçün əhəmiyyətinə həsr olunmuşdur. Qarabağda aşkar olunmuş arxeoloji abidələr ən qədim zamanlardan insanların bu regionda davamlı yaşamasını sübut edir. Quruçay, Neolit-Eneolit və ya Erkən əkinçilik, Kür-Araz, Göyçə-Üzərliktəpə, Xocalı-Gədəbəy kimi arxeoloji mədəniyyətlərin formalaşması Qarabağ bölgəsi ilə sıx bağlıdır. Qarabağın bir sıra məşhur abidələri – Azıx, Tağlar, Qaraköpəktəpə, Leylatəpə, Üzərliktəpə və b. tədqiqatçılar tərəfindən təkcə Azərbaycan xalqının deyil, həm də bəşər sivilizasiyasının qiymətli maddi-mədəni irsi kimi qəbul olunmuşdur.

Açar sözlər: Qarabağ, Quruçay mədəniyyəti, Azıx mağarası, Leylatəpə, Xocalı kurqanları, qədim şəhərlər.

KARABAKH - CRADLE OF THE ANCIENT SIVILAZATION

Tavakkul Rasim oglu Aliyev
Head of the Department,
Institute of Archeology and Ethnography of ANAS,
Ph.D., Associate Professor
Baku, Azerbaijan

Abstract: This article is about the studyings and investigation history of monuments of Garabagh. The archeological monuments reveaked in Garabagh belong to different hictorical periods. Most of them are investigated good enough. Springing up some of archeological Cultures like. Gurutchay-Kondelentchay, Neolit-Eneolit, Kur-Araz and Khodjali-Gadabay are closely related with the Mil-Garabagh region. The heritage bttwin theese cultures if Closely observing. Some popular monument of Garabagh like Azikh, Taghlar, Garakepektepe, Leylatepe, Uzerliktepe and the others are accepted like valuable material and cultural heritage of Azerbaijanian nation by difterent foreigh investigators.

Keywords: Karabakh, Guruchay culture, Azykh cave, Leylatapa, Khojaly burial mounds, ancient cities.

КАРАБАХ – КОЛЫБЕЛЬ ДРЕВНЕЙ ЦИВИЛИЗАЦИИ

Т.Р. Алиев
заведующий отделом Института
Археологии и Этнографии НАНА,
доктор философии по истории, доцент
Баку, Азербайджан

Резюме: Статья посвящена археологическим памятникам Карабахского региона и их значению для человеческой цивилизации. Обнаруженные в Карабахе археологические памятники доказывают, что люди жили в этом регионе с древних времен. Становление таких археологических культур, как гуручай, неолит-энеолит или раннее земледелие, Кура-Араз, Гейча-Узерликтепе, Ходжалы-Кедабек, тесно связано с Карабахским регионом. Ряд известных памятников Карабаха - Азых, Таглар, Гаракопектепе, Лейлатапа, Узерликтепе и другие. Он был признан исследователями как ценное материальное и культурное наследие не только азербайджанского народа, но и мировой цивилизации.

Ключевые слова: Карабах, гуручайская культура, Азыхская пещера, Лейлатапа, Ходжалинские курганы, древние города.

Azərbaycan xalqının maddi mədəni irsində Qarabağın arxeoloji abidələri xüsusi yer tutur. Bu abidələr haqqında onlarla monoqrafiya, yüzlərlə elmi məqalə, dissertasiyalar yazılmışdır. Hələ Sovet dövründə – XX əsrin 80-ci illərinin əvvəllərində SSRİ EA Arxeologiya İnstitutu tərəfindən hazırlanıb nəşr edilmiş «SSRİ arxeologiyası» adlı fundamental çoxcildliyin bir neçə cildi əsasən Azərbaycanın Qarabağ bölgəsində aparılan arxeoloji tədqiqatların nəticələrinə əsaslanmışdı [39; 41]. Tərkibində İttifaq miqyasında tanınmış nüfuzlu alimlər olan arxeoloji ekspedisiyalar Mil-Qarabağ bölgəsində uzun illər ardıcıl tədqiqat işləri aparmışdır. Təqdim edilən məqalədə əsas məqsəd Qarabağın daha çox diqqəti cəlb edən abidələrində aparılmış elmi axtarışların nəticələrinin ümumbəşəri əhəmiyyətini nəzərə çatdırmaqdır.

Qarabağda arxeoloji tədqiqatlar XIX əsrin ikinci yarısından başlamış, XX əşrin ikinci yarısında isə intensiv xarakter almışdır. Elmi axtarışlar nəticəsində müəyyənləşdirilmişdir ki, bu bölgə insanın təşəkkül tapdığı ilk dövrlərdən son orta əsrlərədək olan dövrü əhatə edən arxeoloji abidələrlə zəngindir və təkcə Qafqazda deyil, həm də Ön Asiyada erkən sivilizasiyaların təşəkkül tapdığı ilk məkanlardan biridir. Ulu sakinlərin gündəlik məişət və təsərrüfat həyatını əks etdirən çoxsaylı maddi tapıntılar bölgədə formalaşan Quruçay, Erkən əkinçilik (Neolit-Eneolit), Kür-Araz, Göyçə-Üzərliktəpə və Xocalı-Gədəbəy arxeoloji mədəniyyətləri arasındakı varisliyi, eləcə də insanların davamlı olaraq bu regionda yaşamasını sübut edir.

Qarabağ ərazisində paleolit dövrünə aid ilk tapıntıları hələ 1954-cü ildə A.A.İyessen qeydə almışdır. O, Xocalı kəndi ətrafında və İlisu çayının yatağında obsidian və serdolikdən əmək alətlərinə rast gəlmişdir [31, s.10-11].

Qarabağın çox qədim insan məskəni kimi məhşurlaşdıran, elm aləmində daha çox əks-səda doğuran arxeoloji abidə Azıx mağarasıdır [20; 21]. Mağara Xocavənd rayonu ərazisində, Füzuli şəhərinin təxminən 15 kilometrliyində, Quruçay vadisində, dəniz səviyyəsindən 900 metr yüksəklikdə nəhəng qayanın altında yerləşir. Cənubi Qafqazın karst boşluqları arasında ən möhtəşəmi olan bu mağaranın uzunluğu 200 metrdən çox, ümumi sahəsi isə 1250 kvadrat metrə yaxındır. Mağara səkkiz zaldan, şimal və cənub qalereyalarından ibarətdir.

Azıx mağarasında qazıntılar görkəmli Azərbaycan alimi Məmmədəli Hüseynovun rəhbərlik etdiyi Paleolit arxeoloji ekspedisiyası tərəfindən 1960-cı ildə başlanmış və 25 ilə qədər davam etmişdir. M.Hüseynovla yanaşı, abidənin kompleks tədqiqi ilə D.Hacıyev, Ə.Məmmədov, V.Veliçko, Ə.Cəfərov və başqa alimlər də məşğul olmuşlar [4, s.24]. Başqa sözlə, abidənin öyrənilməsində arxeoloqlarla birgə, paleozooloqlar, paleogeoloqlar, paleogeomorfoloqlar, paleontoloqlar və başqa elm sahələrinin mütəxəssisləri də yaxından iştirak etmişlər. Tədqiqatların gedişində müəyyən olunmuşdur ki, Azıx mağara tipli ən qədim insan düşərgəsi olub aşağı antropogen dövrünə aid çoxtəbəqəli (burada qalınlığı 14 metrə çatan 10 mədəni təbəqə aşkar edilmişdir –T.Ə.) abidədir. Düşərgədəki çöküntülərdə Qədim Paleolitin bütün dövrlərini ardıcıl əks etdirən təbəqələr qeydə alınmışdır. Mağara düşərgələri arasında stratiqrafik cəhətdən belə ardıcıllığa hələlik dünyanın heç bir guşəsində rast gəlinməmişdir [3, s.61]. Köhnə dünyanın iki böyük qitəsinin kəsişməsində yerləşən bu abidənin daha dərin qatlarından (VII-X təbəqələr) tapılan çaydaşları və qəlpələr üzərində mütəxəssislər Şelə qədərki dövrün izlərini aşkara çıxarmışlar. Əsasən vurub qoparma üsulu ilə çox kobud hazırlanmış bu alətlər çaydaşı alətləri mədəniyyətinə məxsusdur.

Azıx sakinlərinin həyatında mağaranın yaxınlığından axan Quruçayın böyük rolu olmuşdur. Qədim insanlar əmək alətləri hazırlamaq üçün daşları məhz Quruçaydan toplayıb mağaraya gətirmişlər. Eyni zamanda Azıx sakinləri Quruçay dərəsində ovçuluqla da məşğul olmuşlar. Ona görə də Azıx mağarasının VII-X təbəqələrindən aşkar olunmuş yeni arxeoloji mədəniyyətin maddi qalıqlarına Quruçayın adı verilmişdir [13, 7].

Quruçay mədəniyyətinin əmək alətləri Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir. Lakin əmək alətlərinin tipologiyasındakı fərqli cəhətlər göstərir ki, Azıxın aşağı təbəqə materialları əsasında yeni arxeoloji mədəniyyət təşəkkül tapmışdır. Aparılan kompleks elmi tədqiqatlar nəticəsində Quruçay mədəniyyətinin 1,2 milyon il bundan əvvəl başlayıb 700 min il əvvəl sona çatması müəyyən edilmişdir [3, s.62; 4, 26; 5, s.29-30].

Azıx mağarasında Aşel təbəqəsinin qalınlığı 6 metrdən artıqdır. Burada Aşelin bütün mərhələləri (Erkən, Orta və Son Aşel) izlənilər [39, 54]. Bütövlükdə Aşel mədəniyyəti 700-100 min illər arasında mövcud olmuşdur. Qədim Aşel təbəqəsindən tapılmış əmək alətləri arasında əsas yeri çapma alətləri, əl çapacaqları və qaşov tipli alətlər tutur. Əl çapacaqlarının meydana çıxması ibtidai insanların həyatında əhəmiyyətli rol oynamış, ovçuluq təsərrüfatını daha da inkişaf etdirməyə imkan yaratmışdır. Erkən Aşel dövründə – təxminən 700-600 min il əvvəl odla tanışlıq Azıx sakinlərinin həyatında mühüm hadisə olmuşdur. Mağaradakı ocaq izləri bunu bir daha təsdiq edir [20, s.44].

Azıxın Orta Aşel (V) təbəqəsi təkcə əmək alətləri ilə deyil, həm də ibtidai insanın mənəvi inkişafı haqqında danışmağa imkan verən materiallarla da zəngindir. Azıx mağarasının şöhrətini respublikamızın hüdudlarından kənara çıxaran və bütün dünyaya yayan məşhur tapıntı – qadın çənəsinin qalığı da yuxarıda qeyd edilən təbəqədən əldə olunmuşdur. 1968-ci ildə tapılan bu çənə qalığının təxminən 350-400 min il yaşı vardır [20, s.41-44]. Elmi ədəbiyyatda həmin fraqmentin sahibi olan 18-22 yaşlı qadın azıxantrop (Azıx adamı – T.Ə.) adını almışdır. Sanki bu nadir tapıntı elə həmin ildə dünyanın başqa bir guşəsindən – Fransanın cənubunda yerləşən Araqo mağarasının Aşel təbəqəsindən aşkar edilmiş ilk neandertala aid alt çənə qalığına əks səda vermişdir [17, s.13].

Azıx mağarasında qaya divarları arasındakı xəlvəti yerdə gizlədilmiş ayı kəllələrinin aşkar edilməsi, belə kəllələrdən birinin üzərində çarpaz çəkilən xətlərə – cızıqlara rast gəlinməsi, tikili qalığına təsadüf edilməsi də tədqiqatçıların böyük marağına səbəb olmuşdur. Onlardan birincisi qədim Azıx sakinlərinin totemik və dini baxışları, ikincisi ibtidai say haqqında təsəvvürləri ilə izah olunur. Üçüncüsü isə Azərbaycanda tikinti sənətinin qədimliyini göstərir [19, s.10; 20, s.51-52].

Azıx mağarasının Aşel təbəqəsindən 35, Mustye təbəqəsindən isə 10 növ fauna qalığına rast gəlinmişdir. Mamont, bizon, nəhəng maral, adi maral, kaftar, ayı və başqa heyvanların sümükləri yurdumuzun uzaq keçmişdəki zəngin faunasından xəbər verir. Adları çəkilən tapıntıların elmi əhəmiyyəti qədim insanın yaşadığı ekoloji mühiti, onu əhatə edən biosferi, məşğuliyyətini öyrənmək baxımından əhəmiyyətlidir [17, 13].

Azıxın IV təbəqəsindən maddi mədəniyyət qalıqları tapılmamışdır. Bu, qədim Azıx sakinlərinin düşərgəni müvəqqəti tərk etdiklərini göstərir. Lakin Mustye dövrünün əvvəllərində qədim sakinlər yenidən burada məskunlaşmışlar [3, 65].

Azıx mağarasında aparılan tədqiqatlar zamanı Azərbaycan alimlərinin əldə etdikləri nəticələr artıq dünya elmində əsaslı yer tutmuşdur. Azıx tapıntıları 1981- 1982-ci illərdə Parisin «İnsan» muzeyində təşkil olunmuş «Avropanın ilk sakinləri» adlı sərgidə də nümayiş etdirilmiş və orada həmin düşərgə haqqında elmi məqalə dərc olunmuşdur. 1981-ci ildə Tbilisi şəhərində keçirilən Sovet - Fransa alimlərinin birgə çöl seminarında da Azərbaycan alimlərinin Azıxda apardıqları qazıntıların nəticələri yüksək qiymətləndirilmişdir. Son 40 ildə bir sıra xarici ölkə alimləri Azərbaycana gələrək Azıxda aparılan tədqiqat işləri ilə tanış olmuşlar. Beynəlxalq "İNTAS – 2000" adlı proqram çərçivəsində Avropa ölkələrindən 32 görkəmli alim Azərbaycanda Azıx, o cümlədən Tağlar paleolit düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqlarını elmi cəhətdən tədqiq etmişlər [6, s.13-14]. Bununla belə Qarabağın işğalı dövründə buradakı digər abidələrimiz kimi, Azıx mağarası da vandal hücumlarına məruz qalmışdır. Beynəlxalq qanunlara məhəl qoymayan ermənilər bir sıra ölkələrin mütəxəssislərini də dəvət etməklə Azıxda qazıntılar aparmışlar. Azərbaycan alimləri, müxtəlif dövlət qurumları bu qanunsuzluğa qarşı etirazlarını bildirmişlər. II Qarabağ müharibəsi gedişində Azərbaycan ordusunun qələbəsi sayəsində torpaqlarımızla yanaşı, tariixi

abidələrimiz də xilas edildi. 2021-ci ildə alimlərimiz təxminən 30 illik fasilədən sonra Qarabağda, o cümlədən Azıx mağarasında elmi tədqiqatları bərpa etməyi planlaşdırırlar.

Azərbaycan ərazisində Mustye mədəniyyətinə (100-35 min il əvvəl) aid ən möhtəşəm abidə olan Tağlar mağara düşərgəsi də Qarabağda, Quruçayın sol sahilində yerləşir. Abidədə XX əsrin 60-80-ci illərində – təxminən 20 ilə yaxın bir müddətdə ardıcıl arxeoloji qazıntılar aparılmış, düşərgədən 7 mindən artıq daş məmulatı və qədim insanların ovladıqları heyvanlara məxsus 20 mindən çox sümük nümunələri aşkar olunmuşdur. Daş məmulatnın texniki və tipoloji tədqiqi zamanı paleolit dövrü üçün yeni əmək alətləri qeydə alınmış və onlara Tağlar tipli əmək alətləri adı verilmişdir. Tağlar düşərgəsində çoxlu ocaq laylarının qeydə alınması da tədqiqatçıların diqqətini cəlb etmişdir.

Tağlar çoxtəbəqəli Mustye düşərgəsi Qafqaz və Yaxın Şərq ərazisində yeganə abidədir ki, burada əmək alətlərinin uzunmüddətli inkişaf dinamikasını izləmək mümkündür. Əgər Azıx paleolit düşərgəsində aparılan elmi tədqiqat işləri Azərbaycan ərazisində ibtidai insanların uzun müddət burada yaşadıqlarını göstərirdisə, Tağlardakı arxeoloji tədqiqatlar neandertal tipli adamların inkişaf etdiyini, müasir insanların ulu əcdadlarının bu ərazidə yaşayıb formalaşdığını elmi əsaslarla təsdiq etmişdir [3, s.67-68; 5, s.47]. Tanınmış paleolitşünas alim Ə.Cəfərov uzun müddət Tağlar Mustye düşərgəsində apardığı tədqiqat işlərinin nəticələrini bir sıra elmi əsərlərində ətraflı şərh etmiş və beynəlxalq elmi ictimaiyyət tərəfindən tanınmasına nail olmuşdur [4; 5; 17].

Qarabağın adı çəkilən məşhur abidələrindən başqa, bir sıra digər abidələrindən də daş dövrünə aid maddi-mədəniyyət nümunələrinə rast gəlinir. Məsələn, 1983-cü ildə Tərtər rayonunun Borsunlu kəndi ətrafında aparılan tədqiqatlar zamanı erkən tunc dövrünə aid kurqanın torpaq örtüyü altından 40-a yaxın obsidian əmək aləti tapılmışdır. Onların əksəriyyəti paleolitin Aşel və Mustye mərhələlərinə aiddir [36, s.67-72].

Mezolit və Neolit dövrlərinə aid mikrolit alətlərə Qobustan, Damcılı və başqa abidələrlə yanaşı, Qarabağın yüksək dağ rayonlarında da təsadüf olunmuşdur. Belə ki, 1972-ci ildə Qarabağda Şuşa şəhərinin Daşaltı qayalığı altındakı Şuşa mağarasında tədqiqat aparılarkən mağaranın qarışıq təbəqəsindən Neolit dövrünə aid bir neçə mikrolit alət tapılmışdır [13, s.18].

Azərbaycan ərazisində erkən əkinçilik mədəniyyətinin formalaşmasını və yüksəlişini özündə təcəssüm etdirən Eneolit dövrü yaşayış yerləri, bir qayda olaraq, dağətəyi və düzən yerlərdəki çay sahillərində və ya qədim quru çay vadilərində yerləşmişdir. Belə yaşayış yerləri üçün möhrə və çiy kərpicdən tikilmiş dairəvi, bəzi hallarda isə dördkünc evlər səciyyəvidir.

Qarabağın Quruçay və Köndələnçay vadisindəki ən qədim əkinçilik mədəniyyəti ilə bağlı olan abidələr də Eneolit dövrünə aiddir. Bu dövrə aid ilk tapıntılar həmin vadidə yerləşən Azıx və Tağlar daş dövrü düşərgələrinin üst mədəni təbəqələrindən aşkar edilmişdir. Professor Q.İsmayılovun fikrincə, bəhs olunan dövrdə mağaralardan müvəqqəti sığınacaq kimi istifadə olunmuş, əsas yaşayış isə əkinçilik və maldarlıq üçün daha əlverişli olan Köndələnçayın sahil ərazilərindəki açıq təpələrə keçmişdir [14, s.10]. Buna Füzuli rayonu ərazisindəki Günəştəpə, Qaraköpəktəpə, Kültəpə, Xantəpə və başqa abidələri misal göstərmək olar. Xantəpədə Eneolit dövrünə aid 5 metrdən artıq mədəni təbəqə mövcuddur. Buradan əldə olunan tapıntılar arasında gildən düzəldilmiş butə xüsusilə diqqəti cəlb edir. O, boz rəngli, kiçik ölçülü yuvarlaq qabdan ibarətdir. Üzərində od, içərisində isə əridilmiş mis izi qalmışdır. Mis əridilməsində istifadə olunmuş bu əşya bütün Qafqazda metaləritmə işini əks etdirən ilk ən qədim tapıntıdır [13, s.29].

Ağdam rayonunda Çalağantəpə və İlanlıtəpə adlı Eneolit dövrü abidələrindəki qazıntıların nəticələri mühüm əhəmiyyət kəsb edir. Bu yaşayış yerləri məsafəcə yaxın və oxşar mədəniyyətə mənsub olsalar da, memarlıq xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Çalağantəpədə bütün tikililərin divarları dairəvi planda bir cərgə kərpicdən

hörülmüş, bəzi hallarda daxildən ağardılaraq boya ilə naxışlanmışdır. İlanlıtəpədə isə düzbucaqlı, dairəvi və yarımdairəvi planlı tikintilərə rast gəlinmişdir. Tikililərin döşəmələrinə boya qatılmış gil suvaq çəkilmişdir [3, s.95].

Azərbaycan – Almaniya beynəlxalq ekspedisiyası 2009-2015-ci illərdə Aşağı Qarabağda, Ağcabədi rayonunda yerləşən Kamiltəpə yaşayış məskənində arxeoloji tədqiqatlar aparmışdır. Burada son Neolit dövrünə – təxminən 8 min il əvvələ aid çiy kərpicdən inşa olunan və Azərbaycan ərazisində qədim gil-kərpic memarlığının yüksək inkişaf səviyyəsindən xəbər verən platforma və digər tikili qalıqları açılmışdır [1, s.28-32]. Qazıntılar zamanı əldə edilən maddi-mədəniyyət nümunələri (daş və sümük alətlər, boyalı keramika, sapand daşları və s.) arasında saxsı üzərinə boya ilə çəkilən kompozisiya – əlində ox-kaman tutmuş ovçu və iki heyvan təsviri böyük maraq doğurur [11, şəkil 6, 7]. I Kamiltəpənin yaxınlığında yerləşən IV Kamiltəpə yaşayış yerindəki ayparaşəkilli "xəndək sistemi"ndə də araşdırmalar aparılmışdır. Qafqaz və Ön Asiyanın Neolit dövrü abidələrindən ilk dəfədir ki, belə qurğulara rast gəlinir. Ümumilikdə isə, Mil düzü abidələrindən əldə edilən kolleksiyanın Şomutəpə-Şulaveri kompleksi ilə sinxron olması göz qabağındadır. Radiokarbon analizlərin nəticəsi göstərir ki, Mil düzünün qədim əhalisi məsafənin uzaqlığına baxmayaraq Cənubi Azərbaycanda (Müasir İranın şimal-qərbində - T.Ə.) və Xəzər dənizinin cənub sahillərində yaşayan tayfalarla daha sıx mədəni əlaqələr qurmuşlar. Bununla yanaşı, paleozooloji və paleobotanik tədqiqatlar nəticəsində əldə olunan yeni məlumatlar Cənubi Qafqazda Neolit dövrünə keçidin "Qafqaz modeli" adı ilə səciyyələnən kifayət qədər kompleks bir model olduğunu göstərir [11, s. 368-369].

Azərbaycan – Almaniya beynəlxalq ekspedisiyası Mil-Qarabağ düzündəki abidələrin qeydə alınması və xəritələşdirilməsi istiqamətində də işlər aparmışdır: burada xronoloji baxımdan Son Neolit dövründən son orta əsrlərə qədərki geniş tarixi mərhələni əhatə edən 180-ə yaxın abidənin koordinatları müəyyən edilmiş, yerüstü materiallar toplanmış, bəzi abidələrdə isə yoxlama şurflar qoyulmuşdur.

Qarabağ Neolit-Eneolit ekspedisiyası 2013-2019-cü illərdə Ağdam rayonu ərazisindəki İsmayılbəytəpə Neolit dövrü və Fərmantəpə Eneolit dövrü yaşayış yerlərində tədqiqatlar aparmışdır. Qazıntılar zamanı bu abidələrdə çiy kərpicdən tikili qalıqları, keramika və daş məmulatı, gildən hazırlanmış sapand daşları və s. aşkar olunmuşdur. Tapıntıların paleonoloji və radiokarbon analizləri aparılmışdır. Tədqiqatçıların fikrincə, İsmayılbəytəpə yaşayış məskənindən əldə olunan artefaktlar, eləcə də memarlıq nümunələri nəinki Azərbaycan, bütün Qafqaz regionu üçün bir yenilikdir [2, s. 72].

Qarabağ düzənliyində, Ağdam rayonunun Eyvazlı kəndi yaxınlığında yerləşən Leylatəpə yaşayış yerinin memarlıq elementləri, dulus kürələri, eləcə də keramika məmulatı bu ərazidə əsrlərlə davam edən yerli əlamətlərdən tamamilə fərqlənir. Bir sıra faktik dəlillər (iki boğazlı qablar, bogazlarında üfüqi gözlər olan küpələr və s.) Şimali Mesopotamiyanın yaşayış məskənlərində – III Yarımtəpənin Obeyd təbəqəsində, erkən Uruk materiallarında öz analogiyasını tapır [35, s.271-272]. Beləliklə, ötən əsrin 80-ci illərinin ortalarında İ. Nərimanov elmi ədəbiyyata yeni bir arxeoloji mədəniyyət anlayışını – "Leylatəpə mədəniyyəti"ni daxil etmişdir. Leylatəpə keramikasına əsaslanan İ.Nərimanov qeyd edir ki, «e.ə. IV minilliyin birinci yarısında Azərbaycanda dulusçuluğun yeni mərhələsi başlanır, istehsalatda dulus çarxı tətbiq olunur. Qafqaza bu texniki yeniliyi Ön Asiyadan buraya köçən Obeyd mədəniyyəti qəbilələri gətirir» [16, 19]. Bir sıra bəzək əşyaları da (məsələn, firuzə daşından muncuqlar) Eneolitin son dövründə Azərbaycan qəbilələrinin Ön Asiyanın qonşu bölgələrinin əhalisi ilə intensiv əlaqələrindən xəbər verir. Bəzi qəbirlərdən mindən artıq muncuğun tapılması onların qonşu ölkələrdən mübadilə məqsədilə gətirilməsini söyləməyə əsas verir. Çalağantəpədə bir uşaq qəbirindən tapılan iki mindən artıq muncuğun 1580 ədədi sədəfdən düzəldilmişdir [3, s.100].

XXI əsrin əvvəllərində Leylatəpə mədəniyyətinin öyrənilməsi istiqamətində yeni mərhələ başlandı: Bakı-Tbilisi-Ceyhan (BTC) neft və Cənubi Qafqaz qaz boru kəmərinin (CQBK) tikintisi ilə əlaqədar olaraq Gəncə-Qazax bölgəsində Leylatəpə mədəniyyətinə aid

bir sıra yaşayış yerləri və qəbir abidələri aşkar olunmuş və onlarda geniş arxeoloji qazıntı işləri aparılmışdır. N.Müseyiblinin fikrincə, bu tədqiqatlar Leylatəpə mədəniyyətinin daha geniş coğrafi arealı əhatə etdiyini və Cənubi Qafqazda davamlı şəkildə mövcud olduğunu, Şimali Qafqazdakı Maykop mədəniyyətinin formalaşmasında mühüm rol oynadığını göstərmişdir [15, s.13].

Qarabağın Eneolit dövrü əhalisinin təsərrüfatında əkinçilik əsas yer tuturdu. Bölgə sakinləri süni suvarma əkinçiliyi ilə tanış idilər [37, 173]. Toxa əkinçiliyi yüksək inkişaf səviyyəsinə çatmışdı. Arxeoloji qazıntılar zamanı xeyli miqdarda biçin alətləri, ö cümlədən oraq dişləri tapılmış, sürtkəclərə, dən daşlarına və s. rast gəlinmişdir. Qarabağın qədim sakinləri buğda və arpanın müxtəlif növlərini yetişdirməklə məşğul olmuşlar [37, s.140].

Qarabağ bölgəsi Tunc və Erkən Dəmir dövrü abidələri ilə daha zəngindir. H.Cəfərov haqlı olaraq qeyd etmişdir ki, təkcə Azərbaycan və Qafqaz deyil, ümumən dünya sivilizasiyasını dəyərli elmi mənbələrlə zənginləşdirmiş Qarabağın tunc və ilk dəmir dövrü abidələrinin kompleks tədqiqi ibtidai icma quruluşunun son mərhələsində cərəyan etmiş ictimai-siyasi, mədəni-iqtisadi və etnik proseslərin araşdırılmasına əlverişli şərait yaradır [8, s. 3]. Bəhs olunan bu dövrə aid abidələrin böyük bir qrupu Quruçay və Köndələnçay vadisində cəmləşmişdir. Burada Kür-Araz arxeoloji mədəniyyətinə mənsub olan İlk Tunc dövrü yaşayış yerlərinin qalıqlarına əksər hallarda Eneolit dövrü abidələri üzərində və onların davamı kimi rast gəlinir. Q.İsmayılzadə qeyd edir ki, Quruçay və Köndələnçay vadisində aşkar edilən İlk Tunc dövrü yaşayış yerləri sayca çox və bir-birinə yaxın olmaqla bu vadinin e.ə. III minillikdə Qafqazın ən sıx əhaliyə malik rayonlarından biri olduğunu subut etmişdir. Belə yaşayış yerlərinə Günəştəpə, Xantəpə, Qaraköpəktəpə ilə yanaşı, Şomulutəpə, Uzuntəpə, Meynətəpə kimi onlarca abidə daxildir [14, 17]. Maraqlıdır ki, bu abidələrin çoxu qalın təbəqəli, eyni zamanda bir neçə laylıdır. Məsələn, Qaraköpəktəpə yaşayış məskəninin İlk Tunc dövrü təbəqəsinin qalınlığı 7 metrə yaxındır. Belə bir vəziyyət, hər şeydən əvvəl, bu yaşayış yerlərinin oturaq həyatla bağlı olduğunu və onlarda məişət və təsərrüfat fəaliyyətinin uzun zaman davam etdiyini göstərir [14, 22]. Orta Tunc dövründə də Qaraköpəktəpədə həyat intensiv davam etmişdir. Bunu abidənin həmin dövrə aid 3 metr qalınlığındakı mədəni təbəqəsi təsdiq edir. Burada iri qaya parçalarından və çay daşlarından inşa edilmiş möhtəşəm müdafiə divarlarının qalıqları aşkara çıxarılmışdır. Bu isə e. ə. II minilliyin ortalarında həm tayfalafarası toqquşmaların intensivləşməsi, həm də qonşu Şərq ölkələrində meydana çıxan güclü quldar dövlətlərin qarətçi yürüşlərə başlaması ilə əlaqədar ola bilərdi.

Quruçay və Köndələnçay vadisində Tunc dövrünün sonu və Dəmir dövrünün əvvəllərinə aid Şəkərciktəpə, Zərgərtəpə və başqa abidələr də qeydə alınmış və onlarda ilkin kəşfiyyat qazıntı işləri aparılmışdır [14, s.41-42].

Qarabağın Tunc dövrü abidələri arasında Ağdam rayonu ərazisində yerləşən Üzərliktəpənin özünəməxsus yeri vardır. Bu yaşayış məskəni təkcə Azərbaycanda deyil, bütün Qafqazda Orta Tunc dövrünün tədqiqində etalon abidə kimi şöhrət tapmışdır. Təsadüfi deyildir ki, bu dövrdə formalaşan yeni arxeoloji mədəniyyətin – Göyçə-Üzərliktəpə mədəniyyətinin özəyində də məhz bu abidə durur. Dörd hektara yaxın ərazini əhatə edən bu abidənin təxminən 500 kv.m sahəsində arxeoloji qazıntı işləri aparılmışdır. Nəticədə maddi mədəniyyət nümunələri, o cümlədən tikinti qalıqları ilə zəngin 3 m qalınlığında mədəni təbəqə aşkar edilmişdir. Məskənin ətrafına çəkilən müdafiə divarının qalıqlarından bir hissə açılaraq təmizlənmişdir. Uzunluğu 35 m, hündürlüyü 2 m, eni isə 1 m olan bu divar qalığı yeddi cərgə düzülmüş çiy kərpicdən hörülmüşdür. Qafqazın, Ön Asiyanın, eləcə də Cənubi Türkmənistanın oxşar abidələrini müqayisəli şəkildə təhlil edən tədqiqatçı V.Əliyev Üzərliktəpəni erkən şəhər tipli yaşayış məskəni kimi səciyyələndirir [18, s.23-25, s.48-50].

Müxtəlif istehsal sahələrinin sürətli inkişafı, nəsli tayfa icmaları içərisində mülki təbəqələşmənin dərinləşməsi, varlı tayfa başçıları və əyanların meydana çıxması ibtidai cəmiyyətin final pilləsi olan Son Tunc və Erkən Dəmir dövrünün əsas əlamətləri idi. Füzuli

rayonu ərazisindəki Qarabulaq nekropolunda hələ XIX əsrin sonlarında A.A.İvanovski tərəfindən açılmış zəngin qəbir abidələri yuxarıda deyilənləri bir daha təsdiq edir. Həmin nekropolda saysız-hesabsız silah nümunələrinə, müxtəlif əmək alətlərinə, nəfis şəkildə hazırlanmış bəzək əşyalarına, gil qablara və s. rast gəlinmişdir [30, s.153-164].

Qarabağın şimal bölgəsində, yəni aşağı və yuxarı Qarabağın xeyli hissəsini əhatə edən Qarqarçay və Tərtərçay hövzəsində yerləşən abidələr bütövlükdə bölgənin arxeoloji abidələrinin böyük bir qrupunu təşkil edir. Bu abidələr H.Cəfərovun «Azərbaycan e.ə. IV minilliyin axırı - I minilliyin əvvəllərində» adlı iri həcmli monoqrafiyasında ətraflı tədqiq edilmişdir. Əsərdə Qarabağın Tunc və Erkən Dəmir dövrü abidələrinin öyrənilmə tarixi ilə yanaşı, müəllifin özü tərəfindən aparılan qazıntıların nəticələri də işıqlandırılmışdır [7, s.6-15].

Qarabağın qəbir abidələri arasında Xocalının qədim qəbiristanlığı xüsusi yer tutur. Bu abidənin elm aləmində tanınmasında 1891-1899-cu illərdə Şuşa real məktəbində müəllimlik etmiş alman mənşəli Emil Reslerin tədqiqatları təqdirəlayiqdir. Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinə aid bir çox abidələrin (Xocalı, Ballıqaya, Balçılı, Quşçu və s.) öyrənilməsi onun adı ilə bağlıdır [10, 180]. E.Reslerin Xocalı nekropolunda açdığı qəbirlər arasında 11 saylı qəbir daha çox maraq doğurmuşdur. Yaşlı bir adamın dəfn olunduğu bu daş qutu qəbirdən tariximiz üçün əhəmiyyətli olan xeyli maddi-mədəniyyət nümunələri tapılmışdır. Qəbir avadanlığı içərisində müxtəlif gil qablarla yanaşı tuncdan quş fiquru, bıçaq, bir cüt üzük, qızıldan muncuq, üzəri naxışlı lövhə və əqiqdən muncuq vardır. Əqiq muncuğun üzərində mixi yazı ilə Assur hökmdarı Adadnirarinin adı həkk olunmuşdur. İlk baxışdan E.Resler belə hesab etmişdir ki, muncuğun üzərindəki yazı deyil, sadəcə nəbati işarələrdir. Akademik İ.Meşşaninov bu fikrin səhv olduğunu göstərmiş və həmin yazı haqqında xüsusi məqalələrlə çıxış etmişdir [33, s.49- 51; 34, s.52-57]. Sonralar Xocalı muncuğu ilə bağlı bir sıra alimlər, o cümlədən Xocalıda arxeoloji qazıntılar aparmış İ.Cəfərzadə öz mülahizələrini söyləmişlər [29, s.15-26; 40, s.15-23].

XX əsrin 80-ci illərində H.Cəfərov da Xocalı kurqanlarını tədqiq etmişdir. O, həmçinin Qarqarçay və Tərtərçay hövzəsində bir sıra yeni arxeoloji abidə qeydə almış və onlardan bəzilərində qazıntı işləri aparmışdır. Bu abidələrdən – Bəyimsarov, Borsunlu (Tərtər), Sarıçoban (Ağdam) və başqa kurqanlardan əldə olunan materiallar Azərbaycan arxeologiyasında yeni səhifələr açmışdır [23, s.433-434; 24, s.418; 25; 26, s.155-170; 27, s.65-67]. Maraqlıdır ki, həm bu kurqanlarda, həm də Qarabağın digər qəbir abidələrində (Xocalı, Dovşanlı və b.) qəbir avadanlığı arasında çoxlu və müxtəlif silah nümunələri vardır. Belə arxeoloji materialların zənginliyi qədim Qarabağda hərbi işin təşkili, hərbi dəstələrin növləri, döyüşçülərin silahla təchizatı və s. haqqında xüsusi tədqiqat aparmağa zəmin yaratmışdır [28].

1989-cu ildə Azərbaycan EA Arxeologiya və Etnoqrafiya İnstitutu Mil-Qarabağ arxeoloji ekspedisiyasının tərkibində bu sətirlərin müəllifinin rəhbərliyi ilə yeni – III dəstə yaradılmışdır. Dəstənin qarşısına Azərbaycanın cənub-qərb bölgəsinin – Cəbrayıl, Zangilan və Qubadlı rayonlarının ərazisindəki arxeoloji abidələri tədqiq edib öyrənmək məqsədi qoyulmuşdur. Bölgənin arxeoloji xəritəsini tərtib etməyi ilkin vəzifə kimi planlaşdıran dəstə həmin ildə Cəbrayıl rayonu ərazisində fəaliyyətə başlamışdır. Kəşfiyyat nəticəsində müxtəlif tarixi dövrlərə aid 20-dən artıq yaşayış məskəni, nekropol, qala, türbə, orta əsr qəbiristanlığı qeydə alınmış, onların bəzilərində ilkin yoxlama qazıntı işləri aparılmışdır. Karxulu və Torağaytəpə İlk Tunc dövrü yaşayış yerlərindən, Niftalılar, Karxulu və digər nekropollardan əldə olunan arxeoloji materiallar bütövlükdə Qarabağın digər abidələri ilə oxşarlıq təşkil edir [9, s.81-87; 12]. Təəssüf ki, Qarabağda hərbi əməliyyatların başlanması və erməni işğalçıları tərəfindən qeyd olunan rayonların zəbt olunması 30 ilə yaxın bir müddətdə bu ərazilərdə çöl tədqiqatlarını davam etdirməyə imkan verməmişdir.

Qarabağın Tunc və İlk Dəmir dövrü abidələrindən tez-tez rast gəlinən silah nümunələri – xəncər, bıçaq, nizə ucluğu və s. göstərir ki, əkinçilik, maldarlıq və sənətkarlıq sahələri ilə

yanaşı hərb sənəti də Qarabağ əhalisinin məşğuliyyət sahələrindən olmuşdur. Qarabağın əlverişli təbii-coğrafı şəraiti, zəngin nemətləri zaman-zaman qonşu və yadelli tayfaları tamahlandırmış və buna görə də yerli əhali əsrlər boyu əlində silah öz yurd-yuvasını, əkin-biçinini, mal-qoyununu qorumaq məcburiyyətində qalmışdır. Minilliklərin güzgüsü kimi abidələrdə yaşayan tarix bugünkü nəsillərə qan yaddaşını unutmamağı, düşmənə güzəştə getməməyi və sayıqlığı itirməməyi tövsiyyə edir.

Qonşu dövlətlərə qarşı əsassız olaraq ərazi iddiaları irəli sürən erməni qəsbkarları işğal dövründə Qarabağda Azərbaycan xalqına məxsus maddi mədəniyyət abidələrinin böyük bir hissəsini məhv etmişlər. Bununla yanaşı, uzun müddət Azərbaycan alimləri öz abidələrini öyrənmək imkanından da məhrum olmuşdular. Lakin 44 günlük Vətən uğrunda müharibə nəticəsində düşmən darmadağın edilərək torpaqlarımızdan, demək olar ki, çıxarılmış və bu qələbə Qarabağ abidələrinin hərtərəfli tədqiqi üçün yeni və geniş perspektivlər açmışdır.

Ədəbiyyat

1. Aliyev T., Helwing B. Kamiltepe in Der Milebene. Archäologische Untersuchungen 2009, Archäologische Mitteilungen Aus Iran Und Turan 41, Berlin, 2009, 23–45.
2. Almənmədov X.İ., Quluzadə N.V. "Qarabağ Neolit-Eneolit ekspedisiyası"nın 2013-2014-cü illərdə apardığı arxeoloji tədqiqat işləri, Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı, 2015, s. 60-74.
3. Azərbaycan tarixi. Yeddi cilddə, I cild. Bakı, 1998.
4. Cəfərov Ə. Quruçay dərəsində. Bakı, 1990.
5. Cəfərov Ə. İnsanlığm səhəri. Bakı, 1994.
6. Cəfərov Ə. Azıx dünya arxeologiyasında. Akademik İ.Əliyevin 80 illiyinə həsr olunmuş Elmi konfransın materialları. Bakı, 2004.
7. Cəfərov H. Azərbaycan e.ə. IV minilliyin axırı -I minilliyin əvvəllərində. Bakı, 2000.
8. Cəfərov H. Qədim Qarabağ (Tarixi-arxeoloji tədqiqat: tunc və erkən dəmir dövrü). Bakı: "Elm", 2020.
9. Əliyev T.R. Azərbaycanın cənub-qərb bölgəsinin arxeoloji tədqiqinə dair. «Azərbaycan arxeologiyası və Etnoqrafiyası» jurnalı, 2003, № 1.
10. Əliyev T.R. Qarabağ Azərbaycanm qədim sivilizasiya mərkəzi kimi. «Qarabağ dünən, bu gün və sabah» 4-cü Ümumrespublika konfransının materialları. Bakı, 2005.
11. Əliyev T., Helving B., Ricci A. Azərbaycan-Almaniya beynəlxalq ekspedisiyasının 2013-2014-cü illərdə Mil-Qarabağ bölgəsində apardığı tədqiqatlar haqqında / Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı, 2015, s. 365-369.
12. Əliyev T.R. Mil-Qarabağ arxeoloji ekspedisiyası III dəstəsinin 1989-cu il çöl-tədqiqatlarının hesabatı. Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya institutunun elmi arxivi, H-516.
13. Hüseynov M.M., İsmayılov Q.S., Quliyev N.M. Azərbaycanın arxeoloji abidələri. Bakı, 1981.
14. İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, 1981.
15. Müseyibli N. Leylatəpə mədəniyyəti. Bakı: "Elm və təhsil", 2020.
16. Nərimanov İ.H. Azərbaycanda dulusçuluğun erkən dövr tarixindən. S.M.Qazıyevin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi sessiyanın materialları. Bakı, 1994.
17. Rəsuloğlu (Əliyev) T. Günəş dənizdən doğur. Bakı, 1993.
18. Алиев В. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
19. Алиев Играр. Карабах в древности. Известия АН Азербайджанской ССР. Серия истории, философии и права. 1988, № 3.
20. Гусейнов М.М. Древний палеолит Азербайджана. Баку, 1985.
21. Гусейнов М.М., Джафаров А.К. Палеолит Азербайджана. Баку,1986.
22. Джафаров А.К. Мустъерскйе культуры Азербайджана. Баку,1983.

23. Джафаров Г.Ф. Исследования в Карабахе. АО 1982 г. Москва,1984.
24. Джафаров Г.Ф. Исследования в Ходжалах. АО 1984 г. Москва, 1986.
25. Джафаров Г.Ф. Борсунлу - погребение племенного вождя. Баку,1986.
26. Джафаров Г.Ф. Курган у селения Беимсаров в Азербайджане. Российская археология, 1992, № 2.
27. Джафаров Г.Ф. Археологические памятники эпохи поздней бронзы предгорного и равниннего Карабаха. Международная научная конференция «Археолгия и Этнография Кавказа». Баку, 2000,
28. Джафарова Д.Г. Оружие племен Карабаха в эпоху поздней бронзы и раннего железа. Автореф. канд. диссертации. Баку, 2007,
29. Джафарзаде И.М. Ходжалинская экспедиция. Земляной курган № 5. Изв. Аз. Филиал АН СССР, 1941, № 2.
30. Ивановский А.А. По Закавказью. МАК, 1911, вып. VI.
31. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи. МИА 1965, № 125.
32. Исмаилов Г.С. Новые данные о Гарабулагском древнем могильнике. Доклады АН Азеб. ССР, 1971, № 11-12.
33. Мещанинов И.И. Ассирийская вотивная бусина из Азербайджана. ИООИА, Баку, 1926, вып. 2.
34. Мещанинов И.И. Бусина с клинописью из Ходжалинского могильника. - ИООИА, Баку, 1926. вып. 2.
35. Нариманов И.Г. Обейдские племена Месопотамии в Азербайджане. Всесоюзная археологическая конференция «Достижения Советской археологии в XI пятилетке». Тезисы докладов. Баку, 1985.
36. Нариманов И.Г., Джафаров Г.Ф. Палеолитические находки из Борсунлу. КСИА, 1986, вып. 192.
37. Нариманов И.Г. Культура древнейшего земледельческого-скотоводческого населения Азербайджана. Баку, 1987.
38. Нариманов И.Г., Алиев Н.Г. Прогресс и взаимосвязи раннеземледельческих культур Азербайджана. Технологический и культурный прогресс в раннеземледеьческую эпоху. Тезис докладов. Ашхабад. 1987.
39. Палеолит СССР. Москва, 1984.
40. Пассек Т.С., Латынин Б.А. Ходжалинский курган № 11. ИООИА, 1926, № 2.
41. Энеолит СССР. Москва, 1982.

QARABAĞIN QƏDİM VƏ ORTA ƏSR ŞƏHƏRLƏRİ

Qasım Hacıyev
tarix üzrə elmlər doktoru
Azərbaycan Universiteti
Bakı, Azərbaycan
e-mail: gasimh@mail.ru

Xülasə: Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biri, ulu tarixə malik şəhərlər diyarıdır. Azərbaycanda, o cümlədən də Qarabağda qədim və beynəlxalq ticarət yollarının kəsişdiyi yerdə yaranaraq inkişaf etmiş orta əsr şəhərləri bütövlükdə Qafqaz regionunun iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamışdır. Vaxtilə ölkənin paytaxtı olmuş Bərdə, qədim beynəlxalq ipək yolunun mərkəzlərindən biri kimi şöhrət qazanmışdır. Qarabağ regionunun Bərdə şəhərinin beynəlxalq aləmdə turizm üçün əhəmiyyəti qiymətləndirilməlidir.
Açar sözlər: Azərbaycan, Qarabağ regionu, Bərdə, şəhər, qala.

ANCIENT AND MEDIEVAL CITIES OF KARABAKH

Qasim Hajiyev
Doctor of Sciences in History,
Azerbaijan University
Baku, Azerbaijan

Abstract: Azerbaijan is one of the oldest settlements in the world, a country of cities with a great history. Medieval cities that arose at the crossroads of ancient and international trade routes in Azerbaijan, including Karabakh, played an important role in the economic, political and cultural life of the Caucasus region as a whole. Barda, once the country's capital, became famous as one of the centers of the ancient international Silk Road. The importance of the city of Barda in the Karabakh region for tourism in the international arena should be appreciated.
Keywords: Azerbaijan, Karabakh region, Barda, city, fortress.

ДРЕВНИЕ И СРЕДНЕВЕКОВЫЕ ГОРОДА КАРАБАХА

Гасым Гаджиев
Доктор исторических наук, профессор
Азербайджанский Университет
Баку, Азербайджан

Резюме: Азербайджан - одно из древнейших поселений в мире, страна городов с великой историей.Средневековые города, возникшие на перекрестке древних и международных торговых путей в Азербайджане, в том числе в Карабахе, играли важную роль в экономической, политической и культурной жизни Кавказского региона в целом.Барда, бывшая когда-то столицей страны прославился как один из центров древнего международного Шелкового пути.Следует оценить важность города Барды Карабахского региона для туризма на международной арене.
Ключевые слова: Азербайджан, Карабахский регион, Барда, город, крепость.

Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biri, ulu tarixə malik şəhərlər diyarıdır. Ölkəmizdə qədim şəhərlərinin yaranması və inkişafının əsas xüsusiyyətləri, onların quruluşu, ictimai-siyasi həyatı, hərbi-strateji mövqeyi, inzibati-idarə üsulu, sənətkarhq və ticarəti, mədəniyyəti, xarici əlaqələri və şəhər həyatı ilə bağlı digər cəhətlər ciddi elmi

axtarışlar tələb edən məsələlərdəndir.Mövcud yazılı mənbələr, arxeoloji materiallar və etnoqrafik müşahidələr şəhərlərin tarixinin öyrənilməsinə imkan vermişdir.

Azərbaycanda, o cümlədən də Qarabağda qədim beynəlxalq ticarət yollarının üstündə yaranaraq inkişaf etmiş şəhərlər Qafqaz regionunun siyasi,iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Bu şəhərlər erkən orta əsrlərdə həm ipək ticarətində tranzit rolu oynamış, həm də ipək istehsalı mərkəzlərindən biri olmuşdur.

Qarabağın qədim və orta əsr şəhərlərinin ölkəmiz üzrə ümumi olan cəhətləri ilə yanaşı, həm də özünəməxsus xüsusiyyətləri və funksiyaları olmuşdur. Məlumdur ki, tarixən şəhərlər inzibati, hərbi, ticarət və dini mərkəzlər kimi meydana gəlmişdir. Şəhərlərin yaranma zəminindən asılı olmayaraq bəzi ümumi cəhətlər də vardır ki, bunların hamısını birləşdirir. Məsələn, şəhərlərin özünəməxsus xüsusiyyətləri ilə bərabər, eyni zamanda onların həyatında elə ümumi cəhətlər meydana çıxmışdır ki, bunlar da şəhərlərin bir-biri ilə oxşarlığını əks etdirməklə tarixin müəyyən dövrlərində ümumi bir silsilə təşkil etmişdir. Bu proseslərdə sənətkarlıq və ticarət bir qayda olaraq əsas rol oynamışdır. Belə ki, təsərrüfatın inkişafı ilə əlaqədar olaraq yeni sahələr ilə yanaşı, sənət və ticarət də qabarıq şəkildə özünü göstərmiş, yaşayış məskənlərinin gələcək taleyini həll etmiş, yeni xüsusiyyət kəsb edən yaşayış məskənlərinin - ətrafı müdafiə istehkamı ilə əhatə olunan, bir-birinə yaxın, sıra ilə düzülmüş yaşayış binaları olan, əsasən sənət və ticarət adamlarının toplandığı şəhərin yaranmasına səbəb olmuşdur.

Bir sıra mənbələrdə mövcuddur ki, bunlar Azərbaycanın ümumi tarixini əks etdirməklə bərabər şəhərlərimizin tarixini də əks etdirir. Bu baxımdan alban, gürcü, ərəb və farsdilli mənbələr xüsusi yer tutur.

Şəhər tariximizi öyrənmək üçün ən qədim və mötəbər yazılı mənbə Moisey Kalankatlının "Albaniya tarixi" əsəridir [1]. Bərdə yaxınlığındakı Kalankat kəndində yaşamış alban katolikosu Moisey Kalankatlının "Albaniya tarixi"ndə bir sıra şəhərlərin adı çəkilmişdir. Bu əsərdə Albaniyanın qədim şəhərlərindən biri olan Bərdənin orta əsrlər iqtisadi, siyasi, mədəni tarixinə dair tutarlı məlumatlar verilmişdir.

Qarabağın qədim və orta əsr şəhərləri tarixinin öyrənilməsində arxeoloji tədqiqatların müstəsna əhəmiyyəti vardır. Azərbaycan ərazisində XIX əsrin sonu XX əsrin əvvəllərində əcnəbi arxeoloqlar (J.K.Morqan, N.A.Silosani, A.A.İvanovski) tərəfindən Bərdədə də kəşfiyyat xarakterli arxeoloji qazıntılar aparılmışdır.

XX əsrin ortalarında Azərbaycan şəhərlərində əsaslı arxeoloji tədqiqatlar aparılmış, bu tədqiqatlar əsasında əsərlər yazılmışdır. Azərbaycanda arxeoloji qazıntılar zamanı aşkar edilmiş şəhər tipli tikintilərin yeni formalı və bədii tərtibatlıları ilə əvəz edildiyi öyrənilmiş və şərh edilmişdir. Bu tikinti materialları içərisində künclərində qoç başı təsvir olunmuş kapitellər, sütun altlıqları və kirəmitlər xüsusi əhəmiyyət kəsb edir ki, bunlar da inkişaf etmiş şəhər tikintiləri üçün xarakterikdir. Azərbaycanda mövcud olan abidələr və tikinti qalıqları alban-xristian və ondan sonrakı müsəlman Şərqi tipində yaranmış tarixi-dini abidələrin həmin dövrün tikinti mədəniyyətini, memarlıq və incəsənət tiplərinin əlaqəsini və inkişaf ardıcıllığını izləməyə imkan verir.

Tədqiqatlar göstərir ki, tikintidə memarlıq və incəsənətin uzlaşması prosesi getmişdir. Həndəsi və nəbati naxışlarla bədii gözəllik verilmiş sadə quruluşlu binalar öz dövrünün mədəni irsini əks etdirən maddi mədəniyyət nümunələri göstərir ki, bu inkişaf orta əsrlərdə geniş vüsət almışdır. Həndəsi və nəbati naxışlardan təkcə tikintidə deyil, həmçinin məişət əşyalarının hazırlanmasında və toxuculuqda da istifadə edilmişdir.

Qədim dövrdə formalaşmış, ilk və inkşaf etmiş orta əsrlərdə müəyyən inkişaf yolu keçmiş, şəhər mədəniyyətinin mühüm xüsusiyyətlərinin - şəhərsalma mədəniyyətinin, şəhər əhalisinin məişət səviyyəsinin, bütün sənət növlərinin inkişafına səbəb olan proses baş vermişdir.

Tədqiqatlar göstərir ki, qədim və ilk orta əsrlərdə şəhərlərin çoxu sənətkarlıq mərkəzlərinə çevrilmişdir. Şəhərsalma mədəniyyətinin geniş vüsət aldığı ərazilərdən biri Azərbaycanın Qarabağ bölgəsidir. Qarabağ ərazisində qeydə alınmış müxtəlif xarakterli

abidələrdə, xüsusilə Bərdədə (Şortəpə), Füzulidə (Qaraköpəktəpə), Ağdamda (Govurqalada, Ergidə) və Ağcabədidə (Aynian) aparılmış arxeoloji tədqiqatlar qədim və orta əsrlər şəhər mədəniyyəti haqqında geniş təsəvvür yaradır.

Bərdə şəhəri Azərbaycanın zəngin tarixi keçmişə malik, qədim şəhərlərindən biri, Qarabağ regionunun isə ən qədim şəhəridir. Azərbaycanın qədim şəhər mədəniyyətini özündə əks etdirən və eyni zamanda ölkəmizin siyasi həyatında xüsusi yeri ilə fərqlənən, habelə xalqımıza böyük şəhər mədəniyyəti bəxş edən Bərdənin həmin mədəniyyətin davam etməsinə zəmin yaradan şəhər kimi yeri və rolu böyükdür.

Tarixi-arxeoloji tədqiqatlar zamanı müəyyən edilmişdir ki, Albaniyanın Uti nahiyəsinin mərkəzində, Kür və Tərtər çayları arasında ilk insan yaşayışı daş dövründən başlanmış, tunc və dəmir dövründə, bütün bəşər cəmiyyətində olduğu kimi inkişaf etmiş, təsərrüfatın inkişafı, sənət və ticarətin meydana çıxması nəticəsində qədim dövrdə şəhər- Bərdə yaranmış və inkişaf etmişdir. Aparılmış arxeoloji qazıntılar zamanı Bərdənin antik dövrdə şəhər tipli yaşayış məskəni əlamətlərini göstərən çoxlu miqdarda maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Həmin arxeoloji materialların, yazılı mənbələrin tədqiqi nəticələri ilə şəhərin qədim dövrünün tarixini öyrənmək, onun antik dövrdə yaranmasını sübut etmək, ərazinin təbii-coğrafi xüsusiyyətini, həmçinin qədim şəhərin quruluşunu tədqiq etmək mümkün olmuşdur. Məlum olmuşdur ki, Bərdə şəhəri Şərq şəhərləri tipinə uyğun əlamətləri ilə bərabər, özünəməxsus plan quruluşuna malik olmuşdur. Şəhər Tərtər çayının sol sahilində, çaya yaxın, ətraf yerlərə nisbətən hündür bir ərazidə salınmış, kənarları möhrə, çiy kərpic və çay daşlarından hörülmüş enli divar və onun kənarlarını su doldurulmuş xəndəklə əhatə edən müdafiə istehkamına malik olmuşdur.

Bərdə strateji cəhətdən əlverişli, iqtisadi baxımdan inkişaf etmiş şəhər kimi erkən orta əsrlərdə Albaniyanın iqtisadi, siyasi və mədəni mərkəzinə- paytaxtına çevrilmişdir. Bərdə şəhərinin siyasi həyatı V-VII əsrlərdə Albaniya dövlətində baş vermiş siyasi hadisələrlə sıx bağlı olmuş, başqa sözlə, Bərdə şəhərinin siyasi tarixi Albaniyanın siyasi tarixinin fövqündə dayanmışdır. Belə ki, Bərdə Albaniya dövlətinin möhkəmlənməsi uğrunda gedən mübarizənin, xarici müdaxiləçilərə qarşı savaşların, habelə daxili çəkişmələr əleyhinə mübarizənin mərkəzində dayanmışdır. Həmin dövrdə Albaniya qədim dövlətçilik ənənələrinə malik olan, bu ənənələr üzərində möhkəmlənən və öz müstəqilliyini qorumaq uğrunda gərgin mübarizə aparan dövlətlərdən biri olmuşdur. Bərdə Albaniyanın paytaxt şəhəri kimi ictimai həyatın bir sıra amillərini- hərbi-strateji, inzibati, sənətkarlıq və ticarəti, din və mədəniyyəti özündə cəmləşdirərək hərbi gücə, siyasi nüfuza, iqtisadi və mədəni əlaqələrə malik olmuşdur.

Albaniya dövləti nəhəng imperiyaların arasında yerləşməsinə, onların müdaxilələrinə məruz qalmasına baxmayaraq öz suverenliyini əsrlər boyu qoruyub saxlaya bilmişdir. Xüsüsilə, VII əsrdə Albaniya qüdrətli dövlət olmuşdur. Albaniya dövlətinin böyük hökmdarı Cavanşirin çevik siyasətçi, cəsur sərkərdə olması sayəsində Sasani imperiyası, Bizans imperiyası, Xəzər xaqanlığı və Ərəb xilafətinin hökmdarları onunla hesablaşmışdır.

Tədqiqat göstərir ki, Bərdə ilk orta əsrlərdə iqtisadi, ictimai, siyasi və mədəni cəhətdən intensiv inkişaf dövrü keçirmişdir. Yalnız arxeoloji qazıntılar vasitəsilə müəyyənləşdirilən antik şəhərin mədəni təbəqəsi üzərində xeyli sonralar yenidən tikilmiş ilk orta əsr şəhəri yeni forma və quruluşa malik olmuşdur. Həmin dövrdə şəhərin ərazisi təqribən 40 hektarı tutmuşdur.

Şəhər əsrlər boyu iqtisadi inkişaf baxımından əlverişli şəraitə malik olan ərazidə güclü təsərrüfatın, sənətkarlıq və ticarətin inkişafı zəminində sürətlə inkişaf etmişdir. Orta əsrlərdə müxtəlif sənət növləri ilə məşğul olan Bərdə sənətkarları dulus, metal, şüşə və toxuculuq məmulatları istehsalında üstün yer tutmuşlar. Şəhərin hərtərəfli inkişafında həmin sənətkarların mühüm rolu olmuşdur. Bərdədə istehsal edilən məmulatlar nəinki yerli əhalinin tələbatını ödəmiş, hətta xarici bazarlara da ixrac edilmişdir.

Bərdənin daxili şəhərlərarası, həmçinin beynəlxalq su və karvan ticarəti yollarının üstündə yerləşməsi şəhərin sürətlə inkişaf etməsinə səbəb olmuşdur. Qədim "İpək yolu"nun Bərdə şəhərinin inkişafında mühüm roloynamışdır. Arxeoloji qazıntılar zamanı Asiya və Avropanın bir sıra ölkələrinə aid pulların və məmulatların aşkar edilməsi ilə şəhərin geniş ticarət əlaqələrinin mövcud olduğu dəqiqləşdirilmişdir.

V-VII əsrlərdə, həyatın başqa sahələrində olduğu kimi, mənəvi mədəniyyət baxımından da Bərdə şəhəri böyük tarixi bünövrəyə malik olmuşdur. Bərdədə çoxlu elm, təhsil ocaqları yaradılmış, şəhər ölkənin mühüm mədəniyyət mərkəzinə çevrilmişdir. Bərdədə elmə, təhsilə böyük maraq olmuş, alban əlifbası ilə tarixi və bədii əsərlər yazılmış, bir çox dillərdə yazılmış dövrün xeyli qədim dünyavi və dini əsərləri alban dilinə tərcümə edilmişdir. Azərbaycan tarixinin günümüzə qədər gəlib çatan yeganə yazılı mənbəyi olan M.Kalankatlının "Albaniya tarixi" məhz həmin dövrdə Bərdədə alban dilində yazılmışdır.

Bərdə VIII əsrdə Xilafətin şimaldakı mərkəzinə çevrildikdən sonra sürətlə inkişaf etmişdir. Beynəlxalq ticarət yollarının üstündə yerləşməsi Bərdəni Avropanın və Asiyanın bir çox şəhərləri ilə əlaqələndirmiş, bu da şəhərin tərəqqi etməsində böyük rol oynamışdır. Bərdə şəhəri həmin dövrdə Qafqazdan keçən tranzit ticarət yollarının üstündə yerləşən mühüm məntəqə və eyni zamanda Cənubi Qafqazın ticarət yollarının mərkəzi olmuşdur. Mənbələrdə və tarixşünaslığımızda bu, Bərdə-Bab ül-Əbvab, Bərdə-Ərdəbil, Bərdə-Dvin, Bərdə-Tiflis ticarət yolları kimi qeyd edilmişdir [2].

VIII əsrdən X əsrin ikinci yarısınadək Bərdə şəhəri yalnız Azərbaycanın deyil, eyni zamanda Qafqazın, habelə Yaxın və Orta Şərqin sənət və ticarət ocaqlarından biri, ölkənin siyasi, ictimai və mədəniyyət mərkəzi kimi tanınmışdır. Həmin dövrdə şəhər böyümüş, ərazisi 30 kv.km, əhalisi 100 000 nəfərdən çox olmuşdur. Şəhərin antik və ilk orta əsrlərdə möhrə və çiy kərpiclə tikilmiş müdafiə istehkamını artıq bişmiş kərpiclə tikilmiş əzəmətli qala divarı əvəz etmişdir.

Bərdə IX əsr-X əsrin birinci yarısında çiçəklənmə dövrünə, tərəqqiyə malik olmuş, Yaxın və Orta Şərqin möhtəşəm şəhərlərindən biri kimi məşhurlaşmışdır. Məhz bu dövrdə Bərdə mənbələrdə "Arranın anası" adlandırılmışdır [3].

Bərdədə arxeoloji qazıntılar zamanı aşkar edilmiş bir və ikimərtəbəli binaların və çoxotaqlı bina komplekslərinin bünövrələri, üzəri naxışlı kapitellər, daş sütun altlıqları, bişmiş kərpiclə döşənmiş küçə, tünglərlə çəkilmiş su təchizatı xətti Bərdənin VIII-X əsrlərdə ümumi şəhər səviyyəsini göstərir. Daşdan və metaldan düzəldilmiş əmək alətləri, həmçinin tunc, mis, gümüşdən bəzək şeyləri, gildən, şüşədən hazırlanmış məişət və təsərrüfat əşyaları Bərdənin həmin dövrdəki maddi mədəniyyətinin xarakterini əks etdirir.

Orta əsrlərdə Bərdədə doğulmuş, öz fəaliyyətləri, əsərləri ilə Yaxın və Orta Şərq ölkələrində tanınmış "Bərdəi" təxəllüsü daşıyan böyük alimlər nəsli olmuşdur. Onlar Bərdədə və müsəlman dünyasının böyük elm mərkəzlərində dini və dünyəvi təhsil almış, həm Azərbaycanda, həm də dünyanın bir çox ölkələrində fəaliyyət göstərmişlər. Onların arasında riyaziyyatçı, mühəndis, təbib, tarixçi, filosof, hüquqşünas, şair, hədisçi, natiq, münəccim və siyasi xadimlər olmuşdur.

Bərdə X əsrin 40-cı illərində (944/45-ci il), rusların hücumu nəticəsində dağıdılımış, yandırılmış, bununla da tənəzzülə uğramışdır. X əsrin ikinci yarısından etibarən Bərdə siyasi qüdrətini itirmişdir. Şəddadi hökmdarları Bərdə şəhərinin dirçəldilməsinə maraq göstərməmiş, Gəncə, Beyləqan, Təbriz, Naxçıvan və digər şəhərlər inkişaf etmiş, Bərdənin bərpası isə diqqətdən kənarda qalmışdır. X əsrin ikinci yarısı- XI əsrdə xarabalıqlar içərisində qalmış şəhər kənd təsərrüfatının və iqtisadi əlaqələrin hesabına həyatını davam etdirmişdir.

XII əsrin birinci rübündən etibarən Bərdə Azərbaycan Atabəyləri dövlətinin tərkibində olmuş, ilk iqamətgahını Bərdədə yerləşdirən Şəmsəddin Eldəniz 10 il müddətində şəhəri yenidən bərpa etdirmişdir.

Bərdə şəhəri XVIII əsrin sonlarından etibarən yenidən inkişaf etməyə başlamış, həyatını öz qədim bünövrəsi üzərində davam etdirmişdir. Hazırda Bərdə Azərbaycan Respublikasının Qarabağ regionunda böyük rayon mərkəzlərindən biri kimi inkişaf edir.

Bərdə şəhərində nəhəng tikililər – mədəniyyət sarayı, vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidə kompleksi, poçt-rabitə, mehmanxana binaları, zavod və fabriklər, ticarət mərkəzi, bazar kompleksi, məktəb binaları, xəstəxana vəpoliklinikalar, çoxmərtəbəli ictimai və məişət xidməti binaları, körpülər və s. vaxtilə şəhərin həyatını dövrün inkişaf səviyyəsinə uyğun yeniləşdirmiş, son dövrlərdə şəhərdə tikilmiş olimpiya idman kompleksi, Heydər Əliyev muzeyi, akademik Zərifə Əliyeva adına orta məktəb, ictimai binalar, istehsal müəssisələri, salınmış parklar və görülmüş çoxsaylı abadlıq işləri və s. Bərdə üçün daha geniş inkişaf perspektivləri açmışdır.

Yuxarıda adlarını çəkdiyimiz şəhər tipli abidələr sırasında Füzuli şəhəri yaxınlığında aşkar edilmiş qədim Qaraköpəktəpə abidəsi də çox maraqlıdır. Müəyyən edilmişdir ki, e.ə. V-IV əsrlərdə böyük yaşayış yeri olan bu abidə şəhər tipli yaşayış məskəninə çevrilmişdir. Arxeoloji qazıntılar zamanı burada dağılmış sütunlu zalın divarları, üzəri həndəsi və nəbati naxışlarla bəzədilən gil qablar, məişətdə işlədilən müxtəlif avadanlıq və başqa maddi mədəniyyət nümunələri üzə çıxarılmışdlr. Əldə olunan böyük miqdarda maddi mədəniyyət nümunələriQaraköpəktəpənin Sasanilərin Azərbaycanda hökmranlığı dövründə mühüm strateji məntəqə olduğunu təsdiq edir. Sonrakı dövdlərdə bu mühüm yaşayış yerinin iqtisadi və mədəni əhəmiyyəti artmış, Eldənizlərin hökmranlığı dövrünə də tanınmışdır [4].

Abbasqulu ağa Bakıxanov tərəfindən "Gülüstani-İrəm" əsərində Qaraköpəktəpə və Taxtı-Tavus adları ilə qeyd olunmuş bu yaşayşı məskəni barədə"Qarabağnamələr"də də məlumat verilmişdir. Arxeoloq Qüdrət İsmayılzadənin rəhbərliyi altında 1964-cü ildən etibarən bu abidədə arxeoloji tədqiqatlar başlanmış, 1980-ci illərin sonunadək davam etdirilərək tarixi öyrənilmişdir. Arxeoloji tədqiqatlar nəticəsində abidənin e.ə. V minillikdən b.e.-nın XVIII əsrinə qədər yaşayış yeri olduğu müəyyənləşdirilmişdir. Qaraköpəktəpənin eneolit dövründən (e.ə. IV-II minilliklər) başlayaraq son tunc, erkən dəmir və antik dövə aid yaşayış yeri olduğu aşkar edilmişdir [5].

Qaraköpəktəpə arxeoloji tədqiqatlar zamanı qədim dövrə aid təbəqədən böyük, çoxotaqlı evin qalıqları aşkar edilmişdir. Evin divarları iri həcmli əhəngdaşı parçalarından tikilmişdir. Bütün otaqların dördkünc formalı, bir-birindən qalın divarla ayrılmış şəkildə olduğu müəyyənləşdirilmişdir. Döşəməsi bərk torpaq layından ibarət olan otaqların yerləşdiyi ərazinin yaşayış kompleksi, daşla döşənmiş sahənin olduğu müəyyən edilmişdir. Burada eyni zamanda böyük çay daşlarından, həmçinin yonulmamış əhəngdaşı parçalarından tikilmiş dördkünc formalı yaşayış binası, divar qalıqları aşkar olunmuşdur.

Qaraköpəktəpədən tapılmış daş alətlər dən daşları, sürtgəc, bülöv daşları, qurama oraq dişləri, obsidian lövhələr, keramika, başlıca olaraq qara cilalı, müxtəlif formalı qabların parçaları, gil məmulatı arasında ocaq qurğuları, təkər modeli, iy başlıqları, gildən hazırlanmış toppuz başı və metalişləmədə işlədilən butə qalıqları və s. aşkar edilmişdir ki, bunlar da Füzuli şəhərinin qədim xarabalığı olan yaşayış yerinin maddi-mədəniyyət qalıqlarıdır [6]. Təəsüflər olsun ki, Sovetlər dövründə Qaraköpəktəpə abidəsindən aşkar edilmiş artefaktlar Ermitaj muzeyində erməni arxeoloqun adı altında nümayiş etdirilirdi.

Orta əsrlərə aid dini zəmində yaranmış Govurqala şəhərinin xarabalığı Ağdam rayonunun Boyəhmədli kəndi ərazisində yerləşir. Bu abidə geniş bir ərazini tutmuşdur. 1958-ci ildə ilk dəfə burada arxeoloji tədqiqatlar aparılmış III-V əsrlərdən X-XI yüzilliyə qədər yaşayışı özündə əks etdirən 4 m qalınlığında mədəni təbəqə müəyyənləşdirilmişdir [7].

Arxeoloji tədqiqatla müəyyən edilmişdir ki, burada tikinti yüksək sənətkarlıqla icra olunmuşdur. Ağ daşdan inşa edilmiş alban-xristian məbədi Govurqalanın memarlıq xüsusiyyətini xarakterizə etmək üçün ən yaxşı nümunədir.

Arxeoloji qazıntılar zamanı Govurqaladan xeyli maddi nümunələr aşkar edilmişdir ki, bu da şəhər mədəniyyətinin özünəməxsus xüsusiyyətlərini əks etdirir. Bu nümunələr Govurqala sakinlərinin Yaxın Şərqin bir çox ölkələri ilə iqtisadi və mədəni əlaqələri olması barədə fikir söyləməyə imkan vermişdir.

Govurqalanın Alban hökmdarlarının yay iqamətgahı olması və bu abidənin yerli hökmdar nəslinə məxsus qəbiristanlığın məhz burada yerləşməsi barədə elmi nəticə çıxarılmışdır. Govurqalanın ölkənin dini zəmində inkişaf etmiş şəhər tipli möhtəşəm yaşayış məskənlərindən biri olduğu təsdiqlənmişdir.

Albaniyada IV əsrdə xristianlığın dövlət dini elan olunması ölkədə xristian ehkamlarına müvafiq məbədlərin inşa olunmasına, nəticədə dini zəmində abidələrin yaranmasına və sayının artmasına səbəb olmuşdur. Azərbaycanin Ağdam, Laçın, Qubadlı, Xocavənd, Kəlbəcər və b. bölgələrdə alban xristainlığına aid belə məbədlər qeydə alınmış və öyrənilmişdir.

Tarixi-arxeoloji tədqiqatlar göstərir ki, Azərbaycanda dini mahiyət daşıyan tikililərlə yanaşı xristianlıq dövrünə - ilk orta əsrlərə aid müdafiə tikililəri də meydana gəlmişdir. Bunlar da həmin dövrün şəhər tipli maddi mədəniyyət abidələri sırasına daxildir. Bu tikililərin böyük bir qrupu müdafiə istehkamlarıdır. Bizans, Xəzər, Sasani, sonralar isə ərəb təhlükəsinə qarşı ucaldılan müdafə sədləri Azərbaycanın şəhərsalma mədəniyyətində xüsusi bir mərhələ təşkil etmişdir.

Azərbaycanın qədim şəhər tipli abidələrindən biri də Qarabağın möhtəşəm müdafiə tikilisi Kəlbəcər rayonu ərazisində yerləşən Çarabert qalasıdır. Bu, Yuxarı Qarabağ ərazisində mövcud olan Albaniya dövründə bünövrəsi qoyulmuş nadir tikililərdəndir. Bu abidə çox mürəkkəb plan quruluşuna malikdir. Azərbaycanın digər ərazilərində İsmayıllının Talıstan kəndi ərazisində Cavanşir qalası və Zaqatala ərazisində olan Albaniya dövrünə dair şəhər-qala həmin abidənin oxşarlarıdır.

Qarabağ ərazisində öyrənilən, orta əsr şəhərlərinin əsas xüsusiyyətlərini əks etdirən, Amaras məbədi də (Xocavənd) maraqlı abidələrdəndir. Bu abidə R.Göyüşov tərəfindən tədqiq edilmişdir. Məbəd Ağoğlan çayının sol sahilində "Müqəddəs" dərədə tikilmişdir və Amaras adlanan qədim şəhər yerinin mərkəzində yerləşmişdir. Bu abidə dəfələrlə yenidən qurulmuş, bərpa olunmuşdur. Albaniya baziliklərinin yeni tipinin formalaşmasını göstərən Amaras (Ağoğlan) məbədi V əsrin sonu - VI əsrin əvvəlinə aid edilmişdir [8].

Mənbələrdə Amaras hələ xristianlıqdan əvvəl dini ayinlərin icra mərkəzi olmasına dair də məlumatlar verilmişdir. Ölkədə xristianlığın qəbulundan sonra ayrı-ayrı xristian təbliğçilərinin məhz Amarası özlərinə məskən seçməsinə və alban xristianlığının ən möhtəşəm ziyarətgahının məhz Amarasda yerləşməsinə də səbəb buranın hələ xristianlıqdan əvvəl dini mərkəz kimi tanınması olmuşdur. Bu sözün qədim türk dilində «Ağ hun» demək olduğunu bildirmişlər [9].

Arxeoloji tədqiqatlara əsasən abidənin təxminən e.ə. V-IV əsrlərdən etibarən kiçik yaşayış məskəni olması və IV-IX əsrlərə aid şəhər tipli yaşayış məskəni olması təsdiq edilmişdir. İctimai binaları, hamamı, divanxanası və məhəllə kilsəsi olan bu məbəd xüsisilə fərqlənmişdir. IX-XIV əsrlərə dair arxeoloji təbəqənin aşkar edilməsi ilə şəhərə xüsusi tünlər vasitəsilə bulaq suyu gətirilməsi öyrənilmişdir.

Albaniyada xristianlığın rəsmi dövlət dini kimi qəbul edildiyi vaxtdan etibarən məişət arxitekturası cəhətdən yeni formal tikililər və plan quruluşu meydana çıxmışdır. Məlum olmuşdur ki, IV-VII əsrlər tikinti mədəniyyəti xristian arxitekturası tipində yaradılmışdır. Xristian abidələri ilə indi "Ermənistan" adlandırılan ərazinin xristian abidələrinin oxşarlığından istifadə edən bir çox erməni "tarixçiləri" bütün Alban xristian abidələrini "erməni abidələri" kimi qələmə verməyə çalışırlar. Əslində isə ermənilər kütləvi şəkildə nəinki Albaniyada, ümumiyyətlə Qafqazda XIX əsrə qədər olmamışlar, ərazinin və abidələrin də ermənilərə aid olması qeyri mümkündür.

Tarixçi alimlərimiz yazılı mənbələr və arxeoloji tədqiqarlara əsasən sübut etmişlər ki, Azərbaycanın tarixi torpaqları olan Albaniya ərazisində meydana çıxmış şəhərlər də Azərbaycana və onun yerli sakinlərinə -türklərə məxsus olmuş, ilk orta əsrin əvvəlki yüzilliklərində xristianlıq dövrünə uyğun olan memarlıq üslublarında tikililər yaradılmışdır.

Arxeoloji qazıntılar zamanı aşkar edilmiş daşdan ibarət tikinti materialları daha böyük maraq doğurur. Aşağı hissələri kvadrat, yuxarısı isə dairəvi və köbərli quruluşlu, müəyyən

həndəsi və nəbati təsvirli naxışı olan daş sütun altlıqları, üzərində qazma üsulu ilə həndəsi və nəbati naxışlar vurulmuş kapitellər (sütun başlıqları) ilk orta əsrlərə aid olan mədəni təbəqədən aşkar edilmiş nümunələr olub, şəhərlərin qədim tikinti mədəniyyəti haqqında fikir söyləməyə imkan vermişdir [10].

Yazılı mənbələrdə şəhərlərin salınması və bərpası haqqında da müəyyən qədər məlumat verilmişdir [11]. Yuxarıda bəhs etdiyimiz arxeoloji materiallar şəhərlilərin ictimai mühitini, məişət şəraitini əks etdirirsə, tikintilər orta əsr tikinti xüsusiyyətlərinin, tarixi dövrünün öyrənilməsində böyük rol oynayır.

Beləliklə, aşkar edilmiş hər bir arxeoloji material, başqa sözlə maddi mədənyyyət nümunəsi olan əşyalar - tikinti materialları, məişət əşyaları, süfrə qab-qacaqları, həm istehsalı, həm də onların müxtəlif qliptik, teoreftik təsvirlərlə bəzədilməsi əhalinin həyatında özünə yer tutan qədim şəhər mədəniyyətinin səviyəvi cəhətlərini, əsas xüsusyyyətlərini göstərməklə şəhərlərin inkişaf səviyyəsini müəyyənləşdirmək mümkün olmuşdur.

Beləliklə, Azərbaycanın Qarabağ regionunda qədim dövrdə yaranmış qədim şəhərlər, xüsusilə də vaxtilə ölkənin paytaxtı olmuş, qədim beynəlxalq ipək yolunun mərkəzlərindən biri kimi şöhrət qazanmış Bərdə şəhərini beynəlxalq aləmdə tanıtmaq, onun turizm üçün əhəmiyyətini qiymətləndirərək dünya ictimaiyyətinin diqqətini yönəltmək kimi müqəddəs bir işin görülməsinə ehtiyac vardır.

Ədəbiyyat

1. Moisey Kalankatuklu. Albaniya tarixi (tərcümə Z.M.Bünyadovundur). Bakı, Elm, 1993, 235 s.
2. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, Təhsil, 2006, 400 s.
3. Ибн Хавкал. Муджам ал-булдан (Книга путей и царств).Перевод Н.А.Караулова, СМОМПК, вып. XXXVIII.Тифлис, 1908, с. 79-130, s.86.
4. Baxşəliyev, Vəli (2007). Azərbaycanarxeologiyası, Icild.Bakı: Elm. səh. 84-85.
5. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, 1981, 51 s.
6. Yenə orada
7. Göyuşov R.B. Govürqalada arxeoloji qazıntılar. AMM, VIII c., Bakı, 1974.
8. Göyüşov R.B., Quliyev N. M. Orta əsr Bərdə-Dvin ticarət yolu haqqında. AMM, VII c., Bakı, 1973, s.124-129.
9. Жузе П.К. Выдержки переведов по Азербайджану, НАИИ НАНА, инв. Н:504, 505 с.
10. Hacıyev Q.Ə. Bərdə şəhəri: coğrafi, siyasi və mədəni tarixi. Bakı, UniPrint, 2008, 250 s.
11. Moisey Kalankatuklu. Albaniya tarixi (tərcümə Z.M.Bünyadovundur). Bakı, Elm, 1993, 235 s, k.I, f.VIII.

QARABAĞ III-VII ƏSRLƏRDƏ

Məhəmməd Əliyev
tarix üzrə fəlsəfə doktoru
Azərbaycan Universiteti,
Bakı, Azərbaycan
e-mail: magamed-aliev-1967@mail.ru

Xülasə: Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın ictimai-siyasi tarixinin ən mühüm mərhələsi erkən orta əsrlər dövrü təşkil edir. Məhz bu dövr Azərbaycan tarixini öyrənərkən bir sıra çətinliklər yaranır. Bunun ən başlıca səbəbi bir çox antik və erkən orta əsrlər dövrü mənbələrinin təhrif olunması və orada kı faktların və coğrafi məkanların yanlış şəkildə təsvirindən ibarət olmuşdur. XIX əsrin əvvəllərindən başlayaraq Yaxın Şərqin erkən orta əsrlər dövrünə aid olan Bizans, Suriya, Alban mənbələri erməni müəllifləri tərəfindən özlərinə sərfəli qaydada tərcümə edilmişlər. Təqdim edilmiş araşdımada bunların bir çoxuna aydınlıq gətirilmiş və tutarlı faktlar əsasında Orxistenanın-Qarabağın Qafqaz Albaniyasının ayrılmaz tərkib hissəsi olduğu sübuta yetirilmişdir

Açar sözlər: mənbələr, Ormaniya, Orxistena, coğrafi mövqe, qarqarlar, Albaniya.

KARABAKH IN THE III-VII CENTURIES

Mahammad Aliyev
Azerbaijan University,
Baku, Azerbaijan

Abstract: The most important period in the socio-political history of Karabakh, an integral part of Azerbaijan, is the period of the early Middle Ages. It was during this period that a number of difficulties arise in the study of the history of Azerbaijan. The main reason for this was the distortion of many ancient and early medieval sources and the distortion of facts and geographic locations. Beginning in the early 19th century, Byzantine, Syrian and Albanian sources of the early Middle Ages of the Middle East were translated by Armenian authors in their favor. The presented study clarified many of them and, on the basis of convincing facts, proved that in the early Middle Ages Orhisten-Karabakh was an integral part of Caucasian Albania.

Keywords: sources, Ormania, Orhistena, geographical location, gargars, Albania.

КАРАБАХ В III-VII ВЕКАХ

Магомед Алиев
Университет Азербайджан
Баку, Азербайджан

Резюме: Важнейшим периодом общественно-политической истории Карабаха, неотьемлимой части Азербайджана, является период раннего средневековья. Именно в этот период возникают ряд трудностей при изучении истории Азербайджана. Основной причиной этого было искажение многих античных и раннесредневековых источников и искажение фактов и географических местоположений. Начиная с начала XIX века, византийские, сирийские и албанские источники раннего средневековья Ближнего Востока были переведены армянскими авторами в свою пользу. Представленное исследование прояснило многие из них и на основе убедительных фактов доказало, что в раннем средневековье Орхистена-Карабах была неотьемлимой частью Кавказской Албании

Ключевые слова: источники, Ормания, Орхистена, географическое положение, гаргары, Албания.

Tarixi Qarabağın III əsrə doğru tarixi çox mürəkkəb etno-sıyasi və sıyasi-coğrafi proseslərdən keçib gəlmişdi. Erkən orta əsrlərdə Qafqaz Albaniyasının Kür çayının orta axarı boyunda sağ tərəfdə Arsak (Ərsak – M.Ə.) və Uti əyalətləri yerləşirdi: "Onların hər biri, öz növbəsində, həmçinin kilsə-inzibati vahidləri də olan qavarlara-vilayətlərə ayrılırdı" [9, s.13]. Əvvəla, Albaniyanın əyalətləri e.ə. II əsrdə heç bir inzibati vahidə bölünmürdülər. İkincisi, xristianlıq Albaniyada IV əsrin əvvəllərində dövlət dini səviyyəsində qəbul edilmişdi.

Çox təəssüf ki, Qafqaz Albaniyasının tarixi sərhədlərindən bəhs edərkən Azərbaycan tarixşünaslığında bir sıra müəlliflər də erməni tarixşünaslığında formalaşdırılmış saxta fikirləri əsas götürmüşlər. Hətta Azərbaycan tarixşünaslığında yunan və Roma mənbələrində "Armeniya" kimi tələffüz edilən və pəhləvi dilində "yüksəklikdə çəmənlik" mənasını verən "Ormaniya" ərazisi yanlış olaraq "Ermənistan" kimi ifadə olunmaqdadır. Qeyd etmək lazımdır ki, bir sıra yunan-Roma mənbələrində Van gölündən şimali-qərbdə yerləşən bu ərazi "Ormantida" adlandırılmışdır. [7. V.7.§4] Ona görə də tarixi ədəbiyyatda "Ermənistan" terminalogiyası yoxdur, "Armeniya" vardır. Armeniyada isə hansı xalqın yaşaması və hansı xalqın dillərdə danışması haqqında məlumat yoxdur.

Erkən orta əsrlər Qarabağ tarixinə aydınlıq gətirməq üçün,ilk öncə Qafqaz Albanıyasının o dövrdəki coğrafi mövqeyini təyin etmək lazımdır. Qafqaz Albaniyasının tarixi-coğrafi ərazisi antik mənbələrdə nisbətən geniş təsvir edilmiş,lakın bu təsvirlər mənbəşunaslıq baxımından dəqiqliyi ilə araşdırılmamışdır. İlk növbədə nəzərə almaq lazımdır ki,XIX əsrin sonu və XX əsrdə tərcümə edilmiş antik mənbələrin əksəriyyəti erməni müəllifləri tərəfindən redaktə edilmiş və müəyyən təhriflərə yol verilmişdir. Ona görə də belə mənbələrin daha ilkin nüsxələrindən istifadə etmək məqsədəuyğun hesab olunmalıdır. Qafqaz Albaniyasının ərazisi, təbii- coğrafi mövqeyindən bəhs edərkən daha tez-tez qədim antik müəlliflərdən Strabon və ya Klavdi Ptolemeyə istinad olunur. Lakin əksər istinadlar rus dilinə daha son tərcümələrdən götürülür ki, bu tərcümələr də erməni müəllifləri tərəfindən "düzəlişlərə"məruz galmışdır. Strabonun "Coğrafiya" əsəri 1587-ci ildə latın və yunan dillərində nəşr olunmuşdur. Bu mənbə XX əsr tərcümələrindən kəskin şəkildə fərqlənir. Ona görə ki bu nəşrdə düzəlişlər olunmamış və əlavələr edilməmişdir [8]. Məsələn, təəcüb doğursada qeyd etmək lazımdır ki, burada Albaniya haqqında bölümdə 26 tayfa haqqında heç bir məlumat verilmir [8, s.346-347]. Deməli, mənbələri nəzərdən keçirərkən daha çox erkən çap və ya əlyazma variantlarından istifadə etmək lazımdır.

Tarixi ədəbiyyatda Alban dövlətinin təxminən e.ə. III əsrin əvvəllərində yarandığı göstərilmişdir.Bu və ondan sonraki dövr haggında məlumat verən mənbələrdə göstərilmişdir ki, o zaman Albaniyanın cənub sərhəddi Araz çayı boyunca kecir, yəni bütün Araz boyu sahillər Qafqaz Albaniyasının cənub sərhəddidir [11, s.21]. Albaniyanın şimal sərhəddləri haqqında da məlumat bir mənalıdır. Belə ki, bütün mənbə və tədqiqatlarda Albaniyanın şimaldan Qafqaz dağlarının aşağı ətəklərindən bir ərazidə yerləşdiyini təsdiq edirlər.Lakin, Albaniyanın şimal-şərqdən Dərbəndə qədər uzanması haqqında mənbələrdə demək olar ki, məlumat yoxdur. Hətta, T.Məmmədov öz əsərində Albaniyanın şərqdən Kaspi dənizi ilə əhatələndiyini yazarkən, [10, s.51] bu məlumat hansı mənbədən götürdüyünü qeyd etmir, ona görə ki, heç bir ilkin yazılı mənbələrdə bu barədə yazılmamışdır.Qafqaz Albaniyası nəinki Xəzərsahili ərazilər, hətta ondan çox-çox qərbdə yerləşirdi.Sadəcə olaraq müasir erməni tarixciləri indiki Ermənistan üçün coğrafi mövge əldə etmək məqsədi ilə Qafqaz Albaniyasını şərqə doğru sürüşdürmüş və tarixi Albaniya ərazisinin isə vaxtıilə Armeniya tərkibində olması fikirlıərini irəli sürmüşdülər. Yalnız bir-neçə mənbədə Kaspiananın (yəni cənub-qərbi əyalətləri-M.Ə.) Albaniya tərkibinə gatılmasına dair bir-neçə pərakəndə fikir mövcuddur [4.XI.4].



Xəritə 1. Erkən orta əsrlərdə Qafqaz Albaniyasının ərazisi və Orxistenanın-Qarabağın mövqeyi

Eyni zamanda Albaniyanın qərb sərhəddlərinə dair tədqiqatçılar arasında dəqiq fikirlər yoxdur. T.Məmmədov, F.Məmmədova və başqa müəlliflər Albaniyanın qərbdən İberiya ilə həmsərhəd olduğunu bildirirlər [10, s.51; 14, s.62]. Lakin, coğrafi baxımdan Albaniya İberiya ilə şimali-qərb istiqamətindən həmsərhəd olmuşdur. Albaniya haqqında məlumat verən mənbələri daha dərindən təhlil edərkən indiki Ermənistan respublikasının ərazisinin bütünlüklə Qafqaz Albaniyasına aid olduğu tam aydınlığı ilə müəyyən edilir. Məsələn, erkən orta əsr müəlliflərindən biri, Bizans astronomu və coğrafiyaçı Annaniya Şirakatsi coğrafiyaya aid əsərində, Albaniyanın ən böyük vilayətlərindən olan Girdmanın indiki Sevan gölündən şimalda olan ərazilərdə yerləşdiyini göstərmişdir [1, s.17]. Bundan başqa Şirakatsi Kolt və Sakasen vilayətlərinin də coğrafi mövqeyini indiki Ermənistan ərazisində olduğunu göstərir [1, s.17]. A.Şirakatsidən başqa bir çox erkən orta əsr mənbələri də Albaniya ərazisinin cənub-qərb qonşusunda yerləşən ərazinin Ormantida-Armeniya olduğunu qeyd edirlər. Bu mənbələrin təsvirlərinə görə Albaniya Araz çayının bütün yuxarı axarlarını əhatə etmişdi [8, XI, s.346].

Tarixi Orxistena (Arsak) vilayəti sağ sahil Albaniyasının (hazırda Qarabağın bir hissəsi) əyalətlərindən biri idi. Annani Şırakatsiyə görə bu ərazi öz növbəsində 12 kiçik inzibati vahidə bölünürdü [1, s.17]. Lakın,ümümilikdə Qarabağ bölgəsində bəhs edərkən,bu dövrlərdə Qarabağ Albaniyanın Otena (Uti) , Orxistena (Arsak),Sardey (Sünik) və qismən Araksenanın tarixi torpaqlarını əhatə etmişdir [11, s.22]. Alban tayfalarından bir-neçəsi utilər (otenlər),savdeylər və qarqarlar,demək olar,şübhəsiz şəkildə Qarabağ zonasında yaşamışlar. Bütün mənbələr Qarabağın ərazəsinin tayfalarının alban mənşəli olmasını aydın şəkildə təsdiq etmişlər. Məsələyə aydınlıq gətimrmək məqsədi qeyd etmək lazımdır ki,uti-oten alban tayfalarını bir-çox antik müəlliflər tanıyırdılar.Hələ,Herodot öz tarix əsərində utilərin adını çəkir və onların Muğanın sakinləri olan mikilərlə (muğlarla) əlaqələrindən bəhs edir Roma müəllifi Pliniyə görə utilərin yaşadiqları vilayət Araz boyunca Atropatena ilə,onun yuxarıda adı çəkilən mikilərin yaşadıqları Mikana (Muğana) qovuşduğu hissəsi ilə sərhəd idi Mikilər kimi utilərdə e.ə. V əsrin I rübündə tarix səhnəsinə çıxmış və Əhəməni hökmdarı Kserksin (e.ə. 485-462) Yunanıstan üzərində gürüşündə iştirak etmişlər.

Sodilər tayfasını, güman ki, adı Orsakenada (Arsakda) yerləşən Soduken ərazisini adında təsdiq olunan tayfa ilə eyniləşdirmək lazımdır [11, s.22]. Qarqarlar əsas alban tayfalarından biridir. İ.Əliyev təsdiq edir ki, alban əlifbası qarqar dilinin əsasında yaradılmışdır [11, s.22]. Qarabağda yaşayan tayfalar sırasında antik müəlliflər aynianları göstərir. Strabon yazırdı ki, "aynianlar Utidə Ayniana adlanan istehkamlı şəhər yaratmışlar: burada yunan silahını,mis qabları və qəbirləri əxz edirdilər" [8, XI, s.347]. Daha sonra Strabon bu zonada anariakların oluğunu xatırladır və təsdiq edir ki,Uti vilayətində "Anarik şəhəri yerləşir. Belə deyirlər ki, burada yaşayanlar gələcəkdən xəbər verirlər" [8, XI, s.347], yəni fala baxırlar. Bəzi tədqiqatçılar adətən "İranlı olmayanlar" kimi tərcümə olunan

“anriakları” dəyişərək “araniaklar” kimi ifadə edir və belə güman edirlər ki,ola bilsin ki, bu ad alban tayfalarının əfsanəvi ulu əcdadı olan Aranın adından əmələ gəlir.

Qadın ilahəsinə,məhsuldarlıq ilahəsinə pərəstişlə bağlı olan ayinlər haqqında,Utidəki gələcəkdən xəbər verən quş və s. haqqında daha sonraki dövrlərə aid mənbələrdə məlumat vardır. Strabonda belə məlumatalr var ki, Utiyada “əkinçilikdən daha çox talan və müharibə aparmaqla məşğul olan bir sıra başqa tayfalar da” [8, XI, 346] yaşayır ki, həmin taydaların əkinçilikdən daha çox talan və müharibələr məşğul olmaları “ölkənin sərtliyi ilə izah olunur” [8, XI, s.346].

Orxistenadan bəhs edərkən Strabon qeyd edir ki, Orxistena “daha çox sayda atlılar çıxarır” [4, XI, s.502]. Bu deyim, Qarabağ zonasında sonralar Qarabağ atları adlanan at cinsini mövcüd olduğunu ehtimal etməyə imkan verən ən erkən dəlildir. E.ə. I əsrdə Orxistenanın ictimai-siyasi vəziyyətindən bəhs edərkən ilk növbədə qeyd etmək lazımdır ki,bu bölgə həmin dövrdə də Albaniyanin ayrılmaz tərkib hissəsi olmuşdur. O dövrdə Qarabağ zonasında baş vermiş etnik-siyasi proseslər haqqında mənbələrdə tam dolğun məlumat demək olar ki,yoxdur. Çünki,bütün Albaniyada baş verən ümumi etnik proseslər,həmçini onun bir tərkib hissəsi olan Qarabağ ərazisinə-Orxistena və Uti əyalətlərinə də şamil olunurdu.

Tarixşünaslıqda belə bir nöqteyi-nəzər formalaşdırılmışdır ki, (əsasən də erməni tarixşünaslığında – M.Ə) guya işğalçılıq dövründə ermənilər Kür-Araz çayları arası torpaqları da işğal etmişlər. Hətta bir sıra erməni müəllifləri daha çox saxtakarlıqlara yol verərək sübut etməyə çalışırlar ki, bura elə Armeniyanın şimal-şərq hissəsi – yəni, özünün ərazisidir. Əgər Kür çayının cənub sərhəddini antik müəlliflər Albaniyanın sərhəddi hesab etsəydilər bu məsələdə mübahisə etməyə dəyərdi. Lakin antik müəlliflərin əsərlərinin ilkin əlyazma variantlarında Albaniyanln cənub sərhədlərini Araz boyunun təşkili haqqında məlumatlar vardırsa bu fikiri söyləmək tarixi səriştəsizlikdən başqa bir şey deyildir.

İkinci nöqteyi-nəzər millətçilik xüsusiyətlərindən irəli gəlir və cənubi Qafqazın ərazisində erməni etnosunun yerliliyini nəyin bahasına olursa-olsun təsdiq etmək meylindən irəli gələn xalis saxtakarlığın və uydurmanın məhsuludur. Burada ilk növbədə erməni tarixçilərinin özləri üçün yaratdığı saxta dövlətçilik tarixinə nəzər yetirmək lazımdır. Belə ki,erməni tarixçilərinin “Böyük Armeniya” haqqında uydurma fikirləri hətta bir-sıra dünya tarixçilərini də əməlli-başda çaç-baş salmışdır. Çünki, Armeniya ərazisinin olması haqqında əgər antik mənbələrdə məlumat vardırsa,bu onu əks etdirmir ki,bu ərazilərdə erməni etnosu yaşamışdır. Bu ərazinin adı yuxarıda qeyd etdiyimiz kimi və orta fars dillərində “Ormaniya” terminindən irəli dəlir, hal-hazırda Armeniya yaylası (Şərqi Anadoluda) adlandırılan coğrafi məkanın təbiəti relyefi və bitki örtüyü də bu ərazinin bir ormanlıq olduğunu təsdiq edir. Həqiqətən də hələ Əhəməni işğalları zamanı bu əraziyə gəlmiş qədim farslar buranı onun coğrafi quruluşuna görə məhz “Ormaniya” adlandırmışlar.

Məsələnin ikinci tərəfi isə ondan ibarətdir ki, Armeniya ərazisində o dövrlərdə erməni etnosunun yaşamağı haqqında heç bir məlumat belə yoxdur. Ona görə ki, qeyd etdiyimiz kimi əvvəlcə Midiya və sonra da Əhəməni hakimiyyəti dövründən bu ərazilər farslar tərəfindən məsunlaşdırılmışdır.Ondan əvvəl isə bura da tarixi ədəbiyyatdan bizə məlum olduğu kimi xettlər, xaldeylər, hürrillər və diğər qədim tayfalar məskən salmışdılar.

Problemmin üçüncü tərəfi isə “Böyük Armeniya” adlı uydurma dövlətin olub-olmasından ibarətdir. Burada ənənəvi tarixdə artıq öz təsdiğini tapmış bir-sıra mülahizələri yada salmaq yerinə düşür. Belə ki,tarixdən məlumdur ki, e.ə.247-ci ildə İranın Şimal-Şərq hissəsində Arsakilər sülaləsinin Parfiya dövləti meydana gəlmişdir. Daim Selevkilərlə mübarizə aparan Parfiya, öz ərazisini e.ə. II əsrin əvvəlində Xəzər dənizinin cənub sahillərinədək uzada bilmişlər.

E.ə. 190-cı ildə Mağneziya döyüşündə Roma qoşunları III Antioxun və Hannibalın başcılığı ilə Selevki ordularını darma-dağın etdilər. Selevkilərə Kiçik Asiya yarımadasının

Şərq hissəsində mövcud olan Tavr dağlarından qərbə keçməsi qadağan edildi. Bu döyuşdən sonra Selevkilər dövləti tamamilə zəiflədi. Bundan istifadə edən Parfiya qərbə doğru öz ərazisini genişləndirməyə başladı. Atropatena da daxil olmaqla bir sıra aslı ərazilər müstəqilliklərini elan etdilər. Belə müstəqil əyalətlərdən biri də Armeniya oldu. Bu zaman Armeniyada İran mənşəli göstərilsə də əslində Moisey Xorenlinin də göstərdiyi kimi Arsakilərə daha yaxın olmuş Zariadrın oğlu Artaşas hakimiyyəti müvəqqəti şəkildə ələ alır. Strabon yazır ki, Artaksiy və Zariadr,III Antioxun sərkərdələri olmuş və daha sonra ondan bu bölqələrin satraplıq icazəsini almışdılar. Selevkilərin məğlubiyyətindən spnra isə bu ərazini idarə etmək üçün Artaşas və Zariadr Romaya "sədaqət" andı içmişdilər [5.XI.S.500-501]. Və buradan belə bir nəticə əldə etmək olur ki,erməni yazarlarının "Böyük Armeniya" çarlığından bəhs etdikləri bir ərazi sadəcə olaraq ilk əvvəllər Romadan asılılığı qəbul edən bir Selevki satraplığı olmuşdur. Parfiya hökmdarı II Mitridatın dövründə (e.ə.123-88-ci illər) Parfiya öz ərazisini qərbə doğru genişləndirərək Armeniyanı da öz tərkibinə qatmışdır. II Mitridat e.ə. 120-ci ildə bu ərazini işğal edərkən,ərazinin Romadan asılı olan satrapı I Tiqranın oğlu II Tiqranı da girov kimi öz yanında saxlamışdı. E.ə. 95-ci ildə isə o, iyirmi beş il saxladığı II Tiqranı Armeniyaya satrap təyin etmiş və hətta ətraf əyalətləri də onun idarəçiliyinə vermişdi. II Tiqranın hakimiyyətə gəlməsi erməni tarixşunaslıqında elmi həqiqətən tam uzaq olan bir fərziyyə ilə izah olunur. Onlar iddia edirlər ki,guya II Tiqran girorluqdan azad olması üçün II Mitridata şimali-şərq İranda yerləşən 70 məhsuldar vadi vermişdir [15, s.37-38]. Əsir düşən bir insanın torpağı ola bilərmi? – yəqinki bu həqiqəti əks etdirmir. Həm də bu məlumat heç bir mənbədə öz əksini tapmamışdı. II Mitridatın ölümündən sonra II Tiqran öz atalığının (II Mitridatın-M.Ə.) taxtına yiyələnmək məqsədilə, II Mitridatın yerinə hakimiyyətə gəlmiş və nisbətən zəif olan Parfiya hökmdarı I Qotarzla (e.ə. 88-80) mübarizəyə başlayır. Bu dövrdə Parfiyada mərkəzi hakimiyyət uğrunda mübarizələrə rəğmən ölkənin sıyasi durumu xeyli zəifləyir. E.ə. 80-ci illərdə Romanı Sulla və Qay Mari tərəfdarlarının mübarizəsi ilə müşayiət olunan vətəndaş müharibəsi bürüyür. Bu vəziyyətdən istifadə edən Arsakilərin bilavasitə digər mümayəndəsi II Tiqran,öz tabeleyindəki əraziləri genişləndirməyə başlayır və Albaniyanın da bir sıra qərb ərazilərini,yeni indiki Ermənistan respublikasının ərazilərinin bir hissəsini işğal edir, hətta Atropatenanın bir qismini öz tabeliyinə keçirir,lakin bu çox çəkmir,vətəndaş müharibələrindən tezliklə özünə gələn Roma e.ə. 69-cu ildə Lukullun başçılığı ilə Tiqranın ordusunu darma dağın edir. E.ə. 69-cu ildə II Tiqran Romada asılılığı qəbul edərək öz tutduğu torpağlardan əl çəkir. Onun təxminən 15-20 il davam etmiş və Strabonun da işğalçılıq adlandırdığı yürüşləri beləcə başa çatır. Burada yenə də qeyd etmək lazımdır ki, II Tiqranın erməni adlandırılan etnosla heç bir əlaqəsi olmamışdır. Ona görə ki, bu dövrdə belə bir etnos ümumiyətlə mövcud olmamışdır!

E.ə. I əsrin ortalarından bir qayda olaraq Armeniya barışmaz Roma-Parfiya müharobələri meydanına çevrilir. Ərazi gah Parfiyaya gah da Romaya keçir. Burada hansı müstəqil çarlıqdan bəhs etmək olar. Tarixin çox sadə qanunauyduğunluq çərçəvəsindən məsələyə baxdıqda fikir daha aydın dərk edilir.

Beləliklə, e.ə.II əsr və yeni eranın III əsrlər tarixini nəzərdən keçirdikdə belə bir ümumi elmi nəticə əldə etmək olur ki, bu dövrdə nəinki Orxistena-Arsak, hətta bütün Albaniya ərazisində erməni adlandırılan etnosdan söhbət gedə bilməzdi. Əslində bu dövrdə istər Albaniya və istərsə Armeniyanın əraziləri Parfiya imperiyası tərkibində olmuş və Parfiya bu ərazilərə Arsaki nümayəndələrini canişin təyin etmişdilər. Erməni müəllifləri bu Arsaki nümayəndələrini "Armeniya çarları" həm də "Armeniya Arsakiləri" adlandırmışlar.

Yeni eranın III-VII əsrlərində Armeniya ərazisi yenə də növbə ilə ya Roma və onun varisi Bizansdan, ya da Sasanilərdən asılı olmuşdur. Əlbəttə ki,bu dövrdə Armeniyanın alban vilayətlərini işğal etməsindən bəhs etmək ən azı tarixdən xəbərsiz olmağa bərabər olardı. III-VII əsrlərdə bəhs olunan və səhvən bizə erməni müəllifləri kimi qələmə verilən,əsərləri XVIII-XIX əsrlərdə saxtakarcasına tərcümə edilən Bizans tarixçiləri F.Buzand, A.Şirakatsi, Gevond və başqaları, Suriya tarixçiləri Mar Ebrey (M.Xorenatsi), Sebeos, Yegişe və b. əsərlərinə əsaslanır və N. Qorsoyanın da hesb etdiyi kimi, "onların öz ideallarının-zərdüştilik

İranının təhlükəsinə qarşı duran birləşmiş vahid Armeniyanı" [13] əks etdirir. Tam şübhəsizdir ki bu mənzərə "gerçəkliyi təhrif edir",cünki Armeniya III-V əsrlərdə və ondan sonra da "vahid şekildə mövcud olmayıb,birləşmiş halda olmayıb" [13]. Digər tərəfdən yuxarda adl çəkilən və çəkilməyən müəlliflərin nəyinki əsərlərin içi həm də adında saxtakarlıqlara yol verilmişdir. Məsələn, Mar Ebreyin (M.Xorenetsi), F. Buzand və digərlərinin "Tarix" adlı əsərləri "Armeniya tarixi" kimi yazılmışdır. Məsələn, F. Buzandın əsərində Armeniya ərazisindən yanlız müəyyən bir hissədə bəhs olunur,özüdə saxtalaşdırılmış tərcümə şəklində verilmişdir. Deməli, erkən orta əsrlər Cənubi Qafqaz, Armeniya, Suriya və s. bölqələrin həqiqi tarixini düzgün araşdırmaq üçün bu dövrə aid mənbələr çox ciddi mənbəşünaslıq süzgəcindən keçirilməlidir.

Albaniyaya gəldikdə isə III-VII əsrlərdə onun vəziyyəti Armeniyaya nisbətən yaxşı olmuşdur. Belə ki, Parfiya dövlətinin süqutundan sonra,hətta bir müddət Albaniyada canişin olan Arsakilər buranı müstəqil idarə etməyə başlamış,lakın sonradan Sasanilər tərəfindən tutulmuş və uzun zaman ərzində ölkənin daxili müstəqilliyi özündə saxlanmışdı.

IV əsrin əvvəllərində daha doğrusu 313-cü ildə Albaniyada Urnayr tərəfindən xristianlıq qəbul edildi. Bir müddər sonra 30-40-cı illərdə Armeniyada və İberiyada canişin səviyyəsində hakimiyyətdə olan Arsakilər də xristianlıq qəbul etdilər. Vaxtilə atəşpərəst olmuş Arsakilərin bu tədbirə əl atması əslində onların Parfiya Arsakilərindən hakimiyyəti ələ almış Sasanilərə qarşı çevirilm bir siyasəti idi. Onlar Sasanilərin hakimiyyətini qəbul etmək istəmirdilər. Burada kiçik bir haşiyə çıxmaq yerinə düşərdi. Son zamanlar erməni tarixşünaslığında ermənilərin xristianlığı qəbul edən ilk xalq olması eyforiyası ilə Avropanın xristian ölkələrinin diqqətini cəlb etmək siyasəti yürüdulməkdədir Onlar Armeniyada xristianlığın 301-ci ildə qəbul edildiyini iddia edirlər. Lakin erməni tarixçilərinin də təsdiq etdikləri kimi 287-ci ildə Armeniyada canişinlik fəaliyyətinə başlayan III Tridat (287-330) qatı antixristian idi. Hətta o, ermənilərin öz xristian məzhəbinin banisi hesab etdikləri Müqəddəs Qriqorini Armeniya ərazisində xristianlığı yaymaq istəməsinə qarşı çıxmış və onu qaranlıq zindana salmışdı. Qriqori III Tridatın elə hakimiyyəti dövründə 326-cı ildə zindanda vəfat etmişdi. Bəs Qriqori nə zaman xristianlığı yaydı və III Tridatın canişinliyi (erməni tarixşünaslığında çarlığı-M.Ə.) dövründə Armeniyada hansı xristianlıq dövlət dini səviyəsində qəbuı edilmişdi?

Sasani imperiyasının ucqar, Roma ilə həmsərhəd bölgılırində bu əyalətlərin (Albaniya, Armeniya, İberiya) xristianlığı qəbul etməsi əlbəttə ki,Sasani mərkəzi hakimiyyət dairələrinin məmnunluğu ilə qarşılana bilməzdi. Ona görə də Sasani-Roma növbəti qarşıdurmasından sonra 387-ci ildə Albaniya, İberiya bütöv, Armeniyanın usə dörddən üç hissəsi Sasanilərə verildi, burada Roma ilə sərhəddə yerləşən Albaniyanın Kolt,Kombisena və Sakasen əyalətlətləri Albaniyayaya qaytarılır. Sasanilər Armeniya və İberiyada Arsaki canişinlərinin idarətçiliyinə son qoyur və bu ərazilərdə sasani mərzbanları təyin edilir. Albaniyada isə bu proses daha bir əsr təxirə salınır.

Albaniyanın və onun tərribində olan Qarabağın özünün müstəqil Xristian kilsəsi avtokefal katalikosluğu öz əlifbası,özünün zəngin ədəbiyyatı,alban etnosu və s. olmuşdur. Albaniyanın məhz siyasi suverenliyi onun kilsəsinin avtokefallığını təmin etmişdir. [11, s.69]. V-VI əsrlərdə Albaniyanın ehkamçılıq dini mübarizəyə (monofizitlərlə deofizitlərin mübarizəsində) cəlb olunduğu bir vaxtda vəziyyət xeyli mürəkkəbləşmişdi. Belə bir vaxtda Qarabağ ərazisində Aquendə kilsə məclisinin toplanması (488-ci ildə) qanunauyğun bir hal idi. Bu məclisin cağırılması bir daha sübut edirdi ki, Qarabağ məhz həmin dövrdə Alban xristianlığının mərkəzi hesab olunurdu. Elə həmin VI-VII əsrlərdən artıq xristianlığı qəbul etmiş Armeniya ərazisi Arsakirləri özlərini əlahiddə qaydada digər qonşulardan ayrı tutmuş və VII əsrdə ərəb işğallarından sonra ərəblər tərəfindən ərməni adlandırılmış və onların yaşadığı Ormaniya-Armeniya ərazisi isə Ərməniyyə adlandırılmışdı. Ərəblər Bizans və Həbəş xristianlarından əlavə tanıdıqları bir çox xristianları da ərmənilər adlandırmağa başlamış və ərməni-xristian terminləri bir növ eyniləşdirilmişdi.

Arsakilər sülaləsinin süqutundan, Mehranilərin Albaniya taxtına çıxmasına qədər olan dövrdə də Albaniya ardı-arası kəsilməyən müharibələr meydanına çevirilmişdi. Ön Asiyada möhkəmlənmək uğrunda Bizansla İran arasında gedən döyüşlərin böyük bir hissəsi Albaniya torpaqlarında cərəyan edirdi. 571-591-ci illər arasında 20 il müddətində davam edən İran-Bizans müharibələri alban xalqına böyük dağıntılar gətirdi [10, s.249-250]. VII əsrin əvvəllərində İranla-Bizans imperiyası arasında 603-628-ci illər müharibələri zamanı alban torpaqları və xalqı yeni dağıntılara məruz qaldı. Moisey Kalankaytuklu bu barədə belə yazırdı: "Bizans qoşunları qışlamaq üçün Albaniyanın ərazisinə daxil oldu,ölkənin içərilərinə doğru hərəkəti davam etdirdilər. Saysız-hesabsız Bizans orduları öz düşərgələrini Uti valiyətinin Kalankaytuk kəndinin yanında axan çayın sahilində saldılar. Yanlarından keçdikləri kəndlərin özlərini,gözəl bağ və üzümlükləri tapdalayıb xaraba qoydular. Sonra onlar yerlərini dəyişib düşərgələrin Tərtər çayının sahilində Divtakan kəndinin yanında saldılar." [3, k.II, f.10]

Xəzərlərin hücumuna tab gətirməyən,Albaniyadaki Sasani mərzbanı Sema Vişnaps İrana qaçdı. O,ölkədən qaçdıqdan sonra alban ölkəsinə rəhbərlik etmək məsuliyyəti katalikos Vironun çiyninə düşdü. O, "ölkəni dağıntı və fəlakətdən xilas etmək üçün xəzərlərlə danışığa girdi" [3, k.II, f.10.14] Viro Sasani şahının xəbəri olmadan danışıqlar aparmağa cürət etmədi. Buna görə də Xəzərlər yenidən hücuma keçdilər. "Albaniyadaki müxtəlif vilayət və kəndləri,su arxları və çayları,bulaq və meşələri, dağ və dərələri qabaqcadan puşklə öz aralarında bölüşdürdülər və hamılıqla müəyyən bir vaxtla,dağıdıcı basqınlarına başladılar. Ölkəmiz başdan-başa lərzə içində titrəyirdi" [3, k.II, f.10.14]. Katalikos Viro çıxılmaz vəziyyətdə qaldı, gördü ki, İrandan cavab yoxdu, əlverişli vaxt tapıb Arsak vilayətinin keçilməz dağlarında yerləşən və alban feodallarının yaşadığı Çoraberdə qaçdı [3, k.II, f.10.14]. Katalikos Viro burada böyük yığıncaq keçirdi və gələnlər Vironun xəzərlərlə ittifaq başlamağına razılıq verdilər. 630 –cu ildə Viro epidemiyadan öldü.

Ölkədə hakimiyyət Mehranilər nəslindən olan Girdiman knyazı Varaz Qriqorun əlinə keçdi. Albaniyada Mehranilər sülaləsinin hakimiyyətə gəlməsinin elə ilk illəri Yaxın Şərqdə Ərəb Xilafətinin güclənməsinə təsadüf edir. 642-ci ildə Varaz Qriporun yerinə hakimiyyətə Cavanşir gəldi. Cavanşir 654-cü ildə Bizansla, 662-ci ildə Xəzərlərlə , 667-670-ci illərdə ərəb xilafəti ilə münasibətləri normalaşdıra bildi. Cavanşirin hakimiyyət fəaliyyəti haqqında Musa Kalankaytuklu öz məlum əsərində çox geniş məlumatlar vermişdir. Bu arada Girdman knyazlığının paytaxtı olmuş Partav şəhərinin yerləşdiyi coğrafi məkan haqqında ilkin mənbələrdə olan məlumatları diqqətlə çatdirmaq yerinə düşərdi. İlkin tarixi mənbələr əsasında məlum olur ki, Partav şəhəri Bərdə deyildi. Partav indiki Ermənistan Respublikasının Tavuş vilayətinin ərazisində olmuşdur. Cünki Girdman əyaləti həmin ərazidə yerləşirdi. VII əsr ermənilərin özününküləşdirtikləri Bizans tarixçisi Ananiya Şırakarsi də Girdmanın əsasən həmin ərazidə yerləşdiyinə dair məlumat vermişdir. [1, s.17].

Girdman knyazlığının hegemonluğu dövründə Arsak-Qarabağın Albaniya üçün çox böyük əhəmiyyətə malik olduğu yuxarıdaki misallarla daha aydın dərk edilməkdədir. Erkən orta əsr mənbələrində Arsak-Qarabağ Albaniyanın ayrılmaz tərkib hissəsi kimi göstərilmişdir.

Beləliklə, III-VII əsrlər Arsak-Qarabağ bölgəsi Albaniyanınən mühüm ərazilərindən biri kimi ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında mühüm rol oynamışdır.

Ədəbiyyat

1. Аннаний Ширакаци. География VII в. Текст и перевод. Патканов К.П. СПБ., 1877.
2. "История Агван" Мусея Каганкатваци. Пер.Патканова К.П. СПБ.,1861.
3. История Албанской страны Мовсеа Каганкатваци. М.,1860.
4. Страбон, География в семнадцати книгах. пер.Ф.Г.Мищенка, М.,1879.
5. Страбон. География в 17 книгах, Пер. Г.А.Стратановского, М.,1964.
6. Plutarch's lives: Volume the Third./ With notes Historikal and Critical from M.Dacier, London,1727.

7. Geographiae Clavdii Ptolomei Alexandrini. Basilea ex officinal Henricfri Petri Mense Marotp Anne/.Venesia,1552.
8. Strabonis Rerum Geographicarum libri XVII, Excvdebat evstathivs Vignon Atrebat, Paris, 1587.
9. Azərbaycan tarixi 7 cilddə. II cild. Bakı, 2007.
10. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, 2006.
11. Алиев И.Г. Нагорный Карабах: история, факты, события. Баку,1989.
12. Асадов С. Миф о “Великой Армении”. Баку,1999.
13. Гарсоян Н. Армения в IV в. К вопросу уточнения терминов “Армения” и “верность” -ВОН АН Арм. ССР, 1971, №3.
14. Мамедова Ф.Дж. Политическая история и историческая география Кавказской Албании, Баку,1985.
15. Манандян Я.А. Тигран Второй и Рим. Ереван,1943.

AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİ VII – IX ƏSRLƏRDƏ

Ramil Əyyub oğlu Ağayev
tarix üzrə fəlsəfə doktoru
AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu
“Azərbaycanın orta əsrlər tarixi” şöbəsinin
aparıcı elmi işçisi
Bakı, Azərbaycan
e-mail: ramilmahir@gmail.com

Xülasə: Məqalə Qarabağ bölgəsinin VII – IX əsrlər tarixinə həsr olunmuşdur. İlkin yazılı qaynaqların çoxsaylı məlumatları əsasında belə nəticəyə gəlmək olarki, VII – IX əsrlərdə Qarabağ Azərbaycanın qərb bölgələrindən biri olmuş və ölkənin siyasi və sosial-iqtisadi həyatında mühüm rol oynamışdır. VII – IX əsrlərdə Qarabağ bölgəsi əhalisinin etnik tərkibində türkmənşəli tayfalar başlıca rol oynamışdır.

Açar sözlər: Azərbaycan, Ərəb xilafəti, Qarabağ, Arran, türk, əhali.

GARABAGH REGION IN THE VII – IX CENTURIES

R.E. Agayev
Doctor of Philosophy in History,
The Institute of History named
after A.A. Bakikhanov of ANAS,
Baku, Azerbaijan

Abstract: The article has been devoted to history of the Garabagh region of Azerbaijan in the 7th-9th centuries. Based on numerous historic facts from primary sources we can come to the following conclusions: In the 7th-9th centuries Garabagh was one of the western provinces of Azerbaijan and played significant role in political and socio-economic life of the country. The researches have proved that the main components of the ethnic composition of the population of the Garabagh in the 7th-9th were Turkic-speaking tribes.

Key words: Azerbaijan, Arab Caliphate, Garabagh, Arran, Turk, population.

КАРАБАХСКИЙ РЕГИОН В VII – IX вв.

Р.Э. Агаев
доктор философии по истории
ведущий научный сотрудник Института
Истории им. А.А. Бакиханова НАНА,
Баку, Азербайджан

Резюме: Статья посвящена истории Карабахского региона Азербайджана в VII – IX веках. На основе многочисленных исторических фактов из первоисточников можно прийти к следующему заключению: в VII – IX вв. Карабах являлся одним из западных регионов Азербайджана и играл важную роль в политической и социально-экономической жизни страны. Исследования свидетельствуют, что главным компонентом этнического состава населения Карабаха в VII-IX вв. являлись тюркоязычные племена.

Ключевые слова: Азербайджан, Арабский Халифат, Карабах, Арран, тюрк, население.

Azərbaycanın Ərəb xilafətinin tərkibində olduğu dövrdə (VII – IX əsrlər) onun ayrı-ayrı bölgələrinin, o cümlədən Qarabağ bölgəsinin tarixi və etnik coğrafiyası ilə bağlı olan problemlərin tədqiqi Vətən tarix elmi qarşısında duran ən mühüm vəzifələrdəndir.

Ərəb xilafəti dövrü Qarabağ tarixi ilə bağlı xüsusi araşdırma mövcud deyildir. Odur ki, problemin elmi şəkildə araşdırılmasına, tarixi həqiqətlərin ortaya çıxarılmasına böyük ehtiyac vardır. Müasir dövrdə baş verən ictimai-siyasi hadisələr, müstəqil Azərbaycan Respublikasının yerləşdiyi geopolitik məkan, onun müxtəlif bəhanələrlə cəlb edildiyi müharibə Qarabağın tarixi coğrafiyası, siyasi tarixi və əhalisinin etnik tərkibi ilə bağlı olan mövzuların tədqiq olunmasını daha da aktuallaşdırır.

Etno-siyasi, sosial-iqtisadi və mədəni baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsi haqqında müxtəlif dillərdə yazılmış ilkin yazılı qaynaqlarda maraqlı məlumatlara rast gəlinir. Həmin məlumatları araşdırmazdan əvvəl "Azərbaycan" tarixi – coğrafi anlayışı və onun hüdudları haqqında qısa şəkildə bəhs etməyə ehtiyac duyulur.

Yazılı qaynaqların məlumatlarına görə, tarixi Azərbaycan torpaqları Azərbaycan türklərinin yayıldığı ərazilərlə üst-üstə düşür. Həmin ərazilər VII əsrdə Ərəb xilafəti tərəfindən ələ keçirilərək onun tərkibinə iki vilayət – "Azərbaycan" (Cənubi Azərbaycan) və "Arran" (Şimali Azərbaycan) vilayətləri kimi daxil edildi. Lakin ərəb mənbələri həmin ərazilərdən vahid ölkə kimi bəhs edərkən onu məhz "Azərbaycan" adlandırırdılar.

Ərəbdilli müəlliflərin əsərlərində verilən məlumatlara görə, Sasanilər və Ərəb xilafəti dövründə Azərbaycan dedikdə həm Araz çayından cənubdakı ərazilər, həm də Araz çayından şimaldakı Dərbəndə qədər olan ərazilər başa düşülürdü. Başqa sözlə, tarixi Azərbaycan torpaqları cənubda Zəncandan başlayaraq, şimalda Dərbəndə qədər, şərqdə Xəzər dənizi sahillərindən başlayaraq, qərbdə Tiflis şəhəri, Van gölü, Dəclə çayı yaxınlığınadək olan əraziləri əhatə etmişdir. Məsələn, ibn Havqəl yazır: "Sonra Azərbaycanın xəritəsini dərc etdim, oradakı dağları, yolları, Kür və Araz kimi şirin sulu çayları, həmçinin Xilat (Van) və Kəbuzan (Urmiya) göllərini də təsvir etdim. Bu göllərin hər ikisi heç biri dənizlə birləşmir, elə oradaca mən Qabq dağını (Qafqaz dağlarını) göstərdim" [1, 7].

Göründüyü kimi, ibn Havqəl, Azərbaycan şimal sərhədlərini Qafqaz dağları, qərb sərhədlərini isə Van gölünün hüdudları ilə əlaqələndirir. Beləliklə, indi Ermənistan adlandırılan ərazi və onların iddia etdikləri Qarabağ bölgəsi, eləcə də hal-hazırda Gürcüstan Respublikasının tərkibindəki bəzi torpaqlar tarixi Azərbaycan ərazisinin hüdudları daxilində, yəni onun həm də "Arran" adlandırılan Araz çayından şimaldakı torpaqlarında yerləşmişdir.

V.V.Bartolda görə, orta əsrlərin ikinci yarısından etibarən ilkin mənbələrdə "Arran" əvəzinə tez-tez "Qarabağ" tarixi-coğrafi anlayışı işlədilməyə başlanmışdır [2, s.214]. Mənbələrin araşdırılması V.V.Bartoldun bu fikrinin qismən doğru olduğunu söyləməyə imkan verir. Çünki XIII – XIV əsrlərdə yazılmış ərəb və farsdilli mənbələrdə əvvəllər Arran adı altında təqdim edilən şimal ərazilərimizdən yalnız Kür və Araz çayları arasında olan hissəsi

bu ad altında göstərilməkdə davam edirdi. Bununla belə, Kür və Araz çayları arasındakı bütün üçbucağın Qarabağ adlandırılmasını iddia etmək doğru deyildir.

Qarabağın Arranla bağlı olmasını mənbələrdə tez-tez rast gəlinən "Arran Qarabağı" anlayışı da sübut edir. Burada Arran Qarabağı dedikdə heç də "Düzən Qarabağ" deyil, Arranda yerləşən Qarabağ (Arranın Qarabağı) başa düşülür. Başqa sözlə, burada mənsubiyyət bildirilir, yəni haqqında bəhs olunan Qarabağın məhz Arrana aid olduğuna, Arranda yeləşdiyinə işarə edilir və XIII –XV əsrlərdə yazılmış farsdilli mənbələrdə də elə bu şəkildə - "Arran Qarbağı" şəklində təqdim olunur. Orta əsr müəlliflərinin Arran Qarabağı ifadəsini işlətməkdə məqsədləri onun həm Arran ərazisində yerləşdiyini göstərmək, həm də onu türk xalqalarının məskunlaşdığı coğrafiyadakı digər Qarabağ adlanan ərazilərdən fərqləndirmək idi. Məsələ burasındadır ki, türk xalqlarının yaşadığı ərazilərdə başqa "Qarabağlar" da olmuşdur. Bu Qarabağlar sırasında "Səlmas Qarabağı" [3, s.767], "Badğis Qarabağı" [3, s.868] və başqalarını misal göstərmək olar.

Hər bir ölkənin düzənlik, dağlıq, dərə-təpə ərazilərə malik olaması isə təbiidir. Buna görə də Qarabağın daha çox dağlarla əhatə olan hissəsini əsas götürərək qondarma "Dağlıq Qarabağ" terminə qarşılıq olaraq Arran Qarabağını "Düzən Qarabağ" kimi izah etməyə heç bir əsas və ehtiyac yoxdur. Çünki mənbələrdə Dağlıq Qarabağ ifadəsinə rast gəlinmir. Mənbələr onun düzən hissəsindən də, dağlıq hissəsindən də elə vahid Qarabağ kimi bəhs edirlər.

Qeyd etmək lazımdır ki, ayrı-ayrı dövrlərdə, müxtəlif dillərdə yazılmış mənbələrdə "Qarabağ" adı və yaxud onun ayrı-ayrı hissələri müxtəlif şəkillərdə təqdim olunmuşdur. Şübhəsiz, bu ilk növbədə yerli əhali tərəfindən verilən adın həmin əcnəbi dillərə uyğun olaraq tərcümə edilməsi ilə bağlıdır.

Bəzi məlumatlara görə, Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi "Qarabağ" adına bu şəkildə ilk dəfə VII əsrə aid mənbələrdə rast gəlinmişdir [4, s.11]. R.Yüzbaşov Qarabağ adının söz kimi VII əsrdən, əyalət kimi XIII əsrdən işlədilməsindən bəhs edərək yazır ki, vaxtilə Araz çayının sahilində Qarabağ şəhəri olmuşdur [5, s.63-64; 6, s.92]. Əlbəttə, Qarabağ adının VII əsrdə işlədilməsi və daha qədim tarixə malik olması mümkündür.

Ərəb istilası ərəfəsində Sasanilər dövlətinin inzibati bölgüsündən bəhs edən İran tarixçisi S.Nəfisi yazır ki, imperiyanın ərazisi dil və etnik baxımdan müəyyən hissələrə bölünürdü. Belə ki, eyni dil və etnik mənsubiyyətə malik olan ərazilərin öz yerli hökmdarları var idi və onlar Sasani şahına tabe idilər. I Xosrov Ənuşirvanın (531-579) dövründə Sasanilər dövlətinin ərazisi bu baxımdan dörd mərzbanlığa bölünürdü: şərq, qərb, cənub və şimal [7, s.161]. Təsadüfi deyildir ki, tarixi Azərbaycan torpaqları – həm Araz çayından şimaldakı, həm də cənubdakı torpaqlar, eləcə də indiki Ermənistan və Gürcüstan adlanan ərazilər Sasanilər imperiyasının dörd inzibati vahidindən biri olan Şimal canişinliyinin (Şimal kustakının) tərkibinə daxil idi. Pəhləvi mənbələrində həmin canişinlik çox vaxt "Azərbaycan sepəhbudluğu" adlandırılır [8, s.50-51]. Cənubi Qafqaza daxil olan ərazilərin bütövlükdə "Azərbaycan sepəhbudluğu" adlanması təsadüfi deyildir və ərazinin başlıca etnik-dil xüsusiyyətləri ilə bağlı ola bilərdi.

Bir sıra yazılı qaynaqlar (xristian müəlliflərin əsərləri, pəhləvi, ərəb) Sasanilər dövrü Şimali Azərbaycan ərazisinin, yəni antik mənbələrdə Albaniya, ərəb mənbələrində isə Arran adlanan ərazinin ayrı-ayrı vilayətləri haqqında məlumat verirlər. Həmin mənbələr Kür-Araz çayları arasında yerləşən dörd əyalət – Arsax, Uti, Paytarakan və Sünik əyalətləri haqqında da bəhs etmişlər. Elmi ədəbiyyatda həmin əyalətlər Albaniyanın Kürün sağsahili əyalətləri kimi tanınmışdır [9, s.7-8].

V-VI əsrlər erməni mənbələrində Arsax, antik müəlliflərin əsərlərində isə Orxistena adlanan ərazi Sağsahil Albaniyasının mühüm vilayətlərindən biri olmuşdur. "Ermənistan coğrafiyası"na görə, Arsax 12 xırda inzibati vahidə bölünmüşdü [10, s.94].

Arsax adını Urartu mənbələrində rast gəlinən Urdexi adı ilə bağlamaq cəhdləri də vardır. Onun erməni dili ilə bağlı olmadığını bir çox erməni tədqiqatçıları da etiraf edirlər. Bu toponimi, Q.Qeybullayevin qeyd etdiyi kimi, bir neçə şəkildə izah etmək cəhdləri vardır [11, s.210-211]. Lakin həmin fikirlərin heç biri elmi ictimaiyyəti qane edə biləcək tutarlı faktlara əsaslanmır. Ona görə də biz burada həmin fikirlər üzərində dayanmağı məqsədəuyğun hesab etmirik.

Arsaxla həmsərhəd olan Sünik və ya Sisakan (Zəngəzur) Albaniyanın cənub-qərbində, Arazın sol sahilində yerləşirdi. Albanşünaslar təsdiq edirlər ki, Sünik vilayəti etnik, siyasi və mədəni baxımdan Albaniyaya və Atropatenaya bağlı olmuşdur [10, s.95; 12, s.146]. X. Xubuşman və İ. Markvart Süniki ümumiyyətlə, Albaniya vilayəti hesab edirdilər [10, s.96].

Moisey Xorenatsinin və Musa Kalankatlının Alban əlifbası ilə bağlı verdiyi məlumatları da Sünik vilayətinin birmənalı şəkildə Albaniya ərazisi olduğunu göstərir. Belə olan halda Qarabağ ərazisinin Albaniyaya aid olması heç bir şübhə doğurmur.

Ermənilərin əsassız olaraq iddia etdikləri Arsax vilayəti I – VI əsrlərdə alban Arşakilərinin, VI əsrdən VIII əsrin əvvəllərinədək Albaniyanın böyük knyazları – Mehranilərin hakimiyyəti altında olmuşdur. Xristian müəlliflərin əsərlərindən məlum olur ki, alban hökmdarları hunlar və xəzərlər arasında xristianlığı təbliğ etmək üçün Arsaxın din xadimlərini göndərirdilər [10, s.94-95]. Zənnimizcə, bu faktın özü alban adlandırılan etnosla türkmənşəli tayfalar arasında bir bağın, mənşə yaxınlığının olmasına dəlalət edir.

VIII əsrin əvvəllərində ərəblər Albaniyada Mehranilərin hakimiyyətini ləğv etdilər və Qarabağ bölgsi ərəblərin Albaniya deyil, Arran adlandırdıqları vilayətin tərkibində Ərəb Xilafətinin hüdudlarına daxil edildi.

Qeyd etmək lazımdır ki, ərəblərin Bizans inzibati-idarə sisteminə uyğun tətbiq etdiyi "Ərminiyyə" inzibati bölgüsünə Qafqaz hüdudlarından kənarda olan "əl-Ərmən" ölkəsi daxil deyildi. Bu anlayışın bir inzibati-ərazi bölgüsü kimi əsl mahiyyəti elmi ədəbiyyatda öz əksini tapmışdır [13, s.52-57; 14, s.9-10]. "Ərminiyyə" haqqında məlumat verən ərəbdilli müəlliflər (ibn Xordadbeh, əl-Yəqubi, əl-İstəxri, ibn Havqəl və başqaları) bu inzibati bölgünün tərkibində "əl-Ərmən ölkəsi"ni yada salmırlar**.** Başqa sözlə, "Ərminiyyə" inzibati termini ilə "əl-Ərmən" coğrafi terminləri başqa-başqa ifadələrdir.

Əl-İstəxrinin əsərində "ərmən" ("əl-ərmən") ifadəsi ilə "Ərminiyyə" ifadəsi arasındakı fərq açıq-aşkar diqqəti cəlb edir: "Ərminiyyə, Arran və Azərbaycana gəlincə, biz onları bir xəritədə cəmləşdirib, vahid iqlim etdik. Şərqdən onu əl-Cibəl, əd-Deyləm, Xəzər dənizinin qərbi, qərb (tərəfdən) əl-Ərmən və əl-Lan hüdudları, əl-Cəzirə sərhədlərinin bir hissəsi, şimaldan əl-Lan və Qabq dağları, cənubdan əl-İraq və əl-Cəzirə sərhədlərinin bir hissəsi əhatə edir" **[**15, s.108]. Göründüyü kimi "əl-Ərmən ölkəsi" və "Ərminiyyə" bir-birindən fərqli anlayışlardır. Başqa sözlə, burada "Ərminiyyə" nisbi sifətdir və yalnız sonradan inzibati cəhətdən "əl-Ərmənə" aid edilmişdir mənasını verir. Beləliklə**,** "Ərminiyyə" ifadəsinin etnik-coğrafi baxımdan "əl-Ərmənə", "Ərminiyyə" və "Ərmən" ifadələrinin isə əsl adları "haylar" olan etnosa heç bir aidiyyəti yoxdur. Təsadüfi deyildir ki, 1918-ci ildə öz müstəqilliklərini elan etmiş haylar dövlətlərini "Ermənistan" deyil, "Ararat Respublikası" adlandırmış, bununla da "Ərminiyyə" anlayışının onlara aid olmadığını etiraf etmişlər.

Ərəb xilafəti dövründə Arsax və Sünik, eləcə də əl-İstəxrinin Həciran (Naxçıvan) adlandırdığı vilayətlər qeyd-şərtsiz Azərbaycanın tərkibində vilayət olan Arrana aid edilirdi [16, s.138]. Arranın da daxil olduğu Cənubi Qafqaz əmirliyinin mərkəzi isə məhz Qarabağda – "Arranın anası" sayılan Bərdə şəhərində yerləşirdi.

Ərəbdilli müəlliflər öz əsərlərində Qarabağdan bir vilayət və yaxud əyalət şəkilində ayrıca olaraq bəhs etməmişdir. Lakin həmin əsərlərdə Qarabağ bölgəsinə aid olan ayrı-ayrı nahiyələr, ona bitişik ərazilər və bölgədə baş verən bir sıra siyasi hadisələr haqqında maraqlı məlumatlar verilir.

Həmin mənbələrdə əl-Muskuan adlandırılan, Qarabağın indiki Ağdərə rayonu ərazisində lokalizə olunan yer adına rast gəlinir. Əl-Muskuan Musa Kalankatlının əsərində rast gəlinən "Arsax vilayətinin meşələri qalın və dərələri dərin" olan Meskuenklə

eyniləşdirilir. Həmin mənbələrdə rast gəlinən əl-Məsiran isə Ağdam və Ağdərə rayonları arasında lokalizə edilir [17, s.37]. Əl-Bəlazurinin əsərində Tərtər çayı hövzəsində yerləşən Ud nahiyəsinin adına rast gəlinir [18, s.125; 19, s.183]. Bu xristian müəlliflərin əsərlərində rast gəlinən Uti ilə eyniləşdirilir.

Ərəb dilli mənbələrdə Qarabağ bölgəsindəki bəzi coğrafi yer adları haqqında da məlumatlara rast gəlinir. Onlar bəzi hallarda Tərtər çayını Sursur, Qarabağ dağlarını isə Əbu Musa dağları adlandırırlar. Əl-Məsudi də Qarabağ dağlarını Əbu Musa dağları adlandırır və burada bir çox Arran tayfalarının məskunlaşdığını qeyd edir [13, s.48]. Qeyd etmək lazımdır ki, Əbu Musa dağları haqqında elmi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur [16, s.232].

Bir sıra ərəbdilli mənbələrdə və xristian müəlliflərin əsərlərində VIII – IX əsrlərdə Qarabağ və ona yaxın bölgələrdə baş vermiş siyasi hadisələr haqqında da məlumat verilir.

Əsəm əl-Kufi sonuncu Əməvi xəlifəsi II Mərvan ibn Məhəmmədin (744-750) dövründə Azərbaycanda üsyanların başlanması haqqında məlumat verir. Beyləqan sakinlərinin üsyanına Müsafir ibn Kəsir əl-Qəssab başçılıq edirdi. Bu zaman Azərbaycanı Asim ibn Yəzid əl-Hilali idarə edirdi. O, üsyanın Bərdə və ətraf ərazilərə yayılmasının qarşısını almaq üçün öz döyüşçülərini Bərdə şəhərinin qapıları yanında Tərtər çayı boyunca yerləşdirmişdi. Lakin ərəb canişini bərdəlilərin köməyi ilə məğlub edildi və öldürüldü. Müəllif üsyançılarla yeni ərəb əmiri arasındakı döyüşlərin Bərdə yaxınlığındakı "Daş körpü" deyilən yerdə və Bərdə ilə Yunan (indiki Ağcabədi rayonunun ərazisi) arşında baş verdiyini bildirir [14, s.70-71].

Əl-Yəqubi qeyd edir ki, Harun ər-Rəşidin hakimiyyəti dövründə (786-809) Beyləqan əhalisi Bərdəyə gəlmiş və şəhərdəki ərəb canişini əleyhinə üsyan qaldırmışdır. Musa Kalankatlı yazır ki, balasakanlılar (beyləqanlılar) 830-cu ildə yenə də üsyan edərək Arsax əyalətinin bir sıra kəndlərini ələ keçirdilər [16, s.218-219].

Babəkin rəhbərliyi dövründə Xürrəmilər hərəkatı Qarabağ və ətraf bölgələrə də yayılmışdı və həmin ərazilər faktiki olaraq Babəkin hakimiyyəti altına keçmişdi. Mənbələrin verdiyi məlumata görə, IX əsrin 20-ci illərində Babəkin dəstələri əvvəlcə Süniki (Zəngəzuru), onun ardınca isə Arsax və Uti vilayətlərini ələ keçirmişdi [16, s.239].

Mənbələr Yesai Əbu Musanın üsyanı haqqında məlumat verərkən, bu xalq çıxışının Qarabağ bölgəsində baş verdiyini xüsusi vurğulamışlar. Yesai Əbu Musa əvvəcə, ərəblərin hakimiyyətini qəbul etmiş, daha sonra seperatizmə meyl etmişdir. Mənbələr verdiyi məlumata görə, Yesai Əbu Musa bir müddət Babəkin müttəfiqi olmuş Arran knyazlarından idi. O, Buğa əl-Kəbirin başçılığı ilə ərəb ordusundan qorunmaq üçün Beyləqanın 10, Bərdənin 15 fərsəxliyində olan Ktiş qalasına sığınmışdı [16, s.182]. Ktiş Qarabağın əlçatmaz qalalarından biri idi. O, dağın sərt və sıldırımlı yamaclarında meşə ilə örtülmüş bir yerdə salınmışdı. Qalaya çətin keçilən dar bir cığır gedirdi. Bu cığırdan başqa, qalanın şimal tərəfindəki qayalıqlarda yeraltı yol qazılmışdı [16, s.183]. Həmin qalanın xarabalıqları Qarabağda, Xocavənd rayonunun Tuğ kəndinin yaxınlığında indi də qalmaqdadır [13, s.78].

Musa Kalankatlının yazdığına görə, xilafət parçalananda Qriqori Hammam Arsax da daxil olmaqla Alban (Arran) hakimliyini bərpa etdi [10, s.95]. O, əvvəlcə Sacilərdən, sonra isə Salarilərdən asılı idi. Ərəb coğrafi ədəbiyyatının görkəmli nümayəndələrindən olan ibn Havqəl özünün "Kitab surət al-ard" ("Yerin təsviri kitabı") adlı əsərində Sacilər sülaləsinin milli mənsubiyyəti, yəni onun məhz Azərbaycan türk sülaləsi olması və bu bu sülaləyə mənsub dövlətin əsasını təşkil edən Azərbaycan ölkəsinin hüdudları haqqında ətraflı məlumat verir. Müəllif, əsərinin "Ərməniyyə, Azərbaycan və Arran" adlı paraqrafında Azərbaycan dövlətçiliyi ilə bağlı olan çox mühüm məlumat verir: "İndi də biz qərbə doğru Rum (Bizans) ölkəsinin sərhədlərinə qayıdaq, onun şərq sərhədlərində və qonşuluğunda olan İslam ucqarlarını təsvir edək. Onun təsvirinə Ərminiyyə, Arran və Azərbaycan ölkələrindən başlayıram. Mən onlara vahid iqlim kimi yanaşıram. Çünki mənim gördüyümə görə bu iqlim bir şəxsin hakimiyyəti altındadır" [20, s.331].

İbn Hövqəlin təqdim etdiyi məlumatda diqqəti cəlb edən əsas məqam "Bu iqlim bir şəxsin hakimiyyəti altındadır" ifadəsini işlətməsidir. İbn Hövqəl bir qədər sonra öz fikirini daha da dəqiqləşdirərək həmin hökmdarların məhz "Azərbaycan hökmdarları" olduğuna işarə edir. Müəllif yazır ki, Qafqaz dağlarında və ətraf ərazilərdə xırda hökmdarlar vardır. O, bu fikrini aşağıdakı sözlərlə davam etdiririr: "Bu hökmdarların əksəriyyəti hər il Azərbaycan hökmdarlarına müəyyən miqdarda daimi vergi və digər ləvazimatlar aparırlar" [20, s.348].

Sacilər və Salarilərdən sonra Qarabağ, Naxçıvan və indi Ermənistan adlanan bütün ərazilər digər bir Azərbaycan dövlətinin – Şəddadilərin tərkibində olmuşdur. Sacilər və Salarilər kimi Şəddadilər də mənbələrdə Azərbaycan dövləti adlandırılır. Təsadüfi deyildir ki, bir müddət Gəncədə sarayda yaşamış Qətran Təbrizi və Naxçıvanda yaşamış Əsədi Tusi Şəddadi sülaləsi nümayəndələrini "Turan hökmdarı", onlardan asılı olan Naxçıvan əmirini "Naxçıvanşah", "Aranşah" adlandırmışlar **[**21, s.86].

Beləliklə, ərəbdilli müəlliflərin əsərlərində verilən məlumatlara əsasən belə nəticəyə gəlmək olar ki, Qarabağ ərazisi, eləcə də indiki Ermənistan Respublikasının ərazisi həm Ərəb xilafəti dövründə, həm də Sacilər, Salarilər və Şəddadilər dövründə Azərbaycan ölkəsinin qərb torpaqlarına daxil idi.

Həm ərəbdilli mənbələr, həm də xristian müəlliflər Ərəb xilafəti dövründə Arranda, o cümlədən Qarabağ ərazisində məskunlaşmış əhali, onun dili, eləcə də bölgənin çayları, dağları, təbii sərvətləri haqqında da müəyyən məlumatlar vermişlər. Antik müəlliflərin Albaniya, ərəb mənbələrinin Arran adlandırdıqları Şimali Azərbaycan ərazisində, eləcə də Qarabağ bölgəsində yaşayan əhalinin etnik tərkibi və dili haqqında məlumatlar məhdud və qarmaqarışıqdır. Digər tərəfdən həmin müəlliflərin əsərlərində ərazidə işlədilən dillərlə bağlı rast gəlinən məhdud faktlar tədqiqatçılar tərəfindən müxtəlif, öz istəklərinə uyğun şəkildə şərh edilmiş və beləliklə, mövcud etnik mənzərə daha da dolaşdırılmışdır. Bununla belə, ərəb mənbələrinin təhlili Arranın və onun tərkibinə daxil olan Qarabağ bölgəsinin etnik mənzərəsi, əhalisinin dili haqqında müəyyən fikirlər söyləməyə imkan verir.

Ərəb mənbələri Azərbaycan əhalisindən bəhs edərkən onları ümumi şəkildə "türklər" adlandırılar. Təsadüfi deyil ki, Azərbaycanın həm şimalında, həm də cənubunda baş vermiş döyüş səhnələrində ərəblərə qarşı vuruşan başlıca qüvvə türkmənşəli əhali olmuşdur. Mənbələrdə onların haqqında "xəzərlər" və "türklər" şəklində ayrı-ayrılıqda bəhs olunmuşdur. Mənbələrdə bir sıra hallarda "Azərbaycandan olan türklər" ifadəsinə də rast gəlinir. Bir sıra ərəbdilli mənbələr öz əsərlərində yeni eradan əvvəl baş vermiş hadisələrdən bəhs edərkən Azərbaycanın qədim əhalisini "türklər" adlandırırlar [19, s.141-157]. Türk tayfaları Azərbaycan ərazisində, o cümlədən Qarabağ bölgəsində qədim dövrlərdən başlayaraq məskunlaşmış, erkən orta əsrlərdə hunların, sabirlərin və xəzərlərin, XI əsrdə isə səlcuqların axınları ilə onların rolu daha da artmışdır.

Ərəb mənbələrində ermənilərin Cənubi Qafqazda ərəb ordularına qarşı döyüş əməliyyatlarında iştirakı, onların nəinki Qarabağ bölgəsində ümumiyyətlə, Qərbi Azərbaycan torpaqlarında varlığı haqqında heç nə deyilmir. Ermənilərin Qarabağda, eləcə də digər Qərbi Azərbaycan torpaqlarında gəlmə olduğunu bir sıra erməni və rus (A.Şaginiyan, A.Novoseltsev və başqaları) tədqiqatçıları da qəbul edirlər [17, s.144].

F.C.Məmmədova qeyd edir ki, ərəb istilasından ərəfəsində əyalətin əhalisinin əsasını qarqarlar, utilər, hunlar, xəzərlər və basillər təşkil edirdilər [10, s.94]. Q.Ə.Qeybullayev Qarabağın dağlıq hissəsində qarqar, dondar, peçeneq, tərtər, hun, xəzər etnonimləri ilə bağlı toponimlərə rast gəlindiyini qeyd edir [11, s.35].

Bəhs edilən dövrdə Arranın Qarabağ bölgəsinin və ətraf ərazilərin türkmənşəli tayfalar trəfindən məskunlaşdırılması şübhəsizdir. Məsələn, VII əsr Bizans tarixçisi Feofilakt Simokatta türkləri "barbar" adlandırır və yazır ki, onlar bizim tarixçilərin Araks (Araz) adlandırdığı çayın sahillərində, yəni Qarabağ bölgəsinin cənub hüdudlarında yaşayırlar və həmin çayı Əras adlandırırlar [22, s.78].

Təsadüfi deyildir ki, ərəbdilli tarixçilər VII – IX əsrlərdə baş verən hərbi-siyasi hadisələrdən bəhs edərkən Arran da daxil olmaqla, Azərbaycanı birmənalı şəkildə "Xəzər

ölkəsi" adlandırırdılar. Belə olan halda Kür və Araz çayları arasında yerləşən üçbucaqda, o cümlədən Qarabağ bölgəsində türkmənşəli tayfaların yaşaması və türk dilinin hakim dil olması heç bir şübhə doğurmur. Arxeoloji tədqiqatlar da deyilənləri sübut edir. Belə ki, A.A. İessen tərəfindən Azərbaycan ərazisindəki Üçtəpədə, Qrabağ yaxınlığındakı Mil düzündə Xəzər hökmdarına məxsus VII əsrin əvvəllərinə aid qəbir abidəsi də aşkar edilmişdir [23, s.64-65]. Həmin abidə xəzərlərin Azərbaycan torpaqlarında uzun müddət varlığının bariz nümunəsidir.

Xəzərlərin tarixi Azərbaycan türklərin tarixi ilə sıx şəkildə bağlıdır və bu faktı Azərbaycan torpaqlarındakı toponimik materiallar da sübut edir. Bu qəbildən olan toponimik materiallara Azərbaycanın bir sıra bölgələrində, o cümlədən Qarabağ bölgəsində rast gəlinmişdir. Məsələn, Füzuli rayonu ərazisindəki "Xəzərdağ" toponimi "xəzər" etnonimini özündə qoruyub saxlamışdır [24, s.204].

Məlum olduğu kimi, antik müəlliflər və xristian mənbələri indiki şimali Azərbaycan ərazisini Albaniya, əhalisini isə albanlar adı altında təqdim etmiş, onların Qarabağ bölgəsində də məskunlaşdığını göstərmişlər. Lakin bu əsərlərdəki məlumatlar "alban" anlayışının etnik və yaxud ərazinin adına uyğunlaşdırılaraq coğrafi baxımdan işlədildiyini aydın bir şəkildə müəyyən etməyə imkan vermir. Albaniya dövrünü araşdıran tarixçilər də etiraf edirlər ki, həmin müəlliflərin əhali haqqında məlumatları ayrı-ayrı fraqmentlər şəklində qalmışdır. Məlumatların heç də hamısı səhih deyildir, bəziləri ziddiyyətlidir və buna görə də onlar diqqətlə təhlil olunmalıdır [25, s.16]. Başqa sözlə, həmin mənbələr əhalinin etnik mənsubiyyəti, onun dili haqqında qətiyyətli fikir söyləmirlər. Bu isə öz növbəsində müxtəlif elmi mübahisələrə gətirib çıxarmışdır.

"Alban" adı ilə bağlı müxtəlif elmi mübahisələr mövcuddur [26, s.52-55]. Albanşünaslıq uzun müddət digər millətlərə məxsus tarixçilərin inhisarında olmuşdur. Onlar isə Albaniya tarixi ilə bağlı olan məsələlərdə, xüsusilə, onun əhalisinin etnik tərkibi ilə bağlı məsələlərdə təhriflərə və saxtalaşdırmalara yol vermiş, onu tam bir müəmma halına gətirmişlər. Bu etnosla bağlı bütün məsələləri nədənsə ya ermənilərin, ya da Qafqaz dil ailəsinin xeyrinə həll etmək cəhdləri vardır. Bu cəhdlər yeni deyil və XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərindən etibarən mövcuddur.

XX əsr Sovet tarixşünaslığında albanların qafqazdilli olduğunu iddia edən bütöv bir tədqiqatçılar (A.Q.Şanidze, Q.A.Melikişvili, K.A.Klimov, K.V.Trever, İ.M.Dyakonov, S.T.Yeremyan və başqaları) ordusu var idi. Lakin onların tədqiqatlarında bu iddianı sübut edəcək heç bir tutarlı fakta rast gəlinmir.

Ərəb istilası ərəfəsində və Ərəb Xilafəti dövründə Qarabağ bölgəsinin Azərbaycana məxsus olduğunu, türklər tərəfindən məskunlaşdırıldığını "Kitabi-Dədə Qorqud" dastanları da sübut edir. Azərbaycanın, o cümlədən onun Qarabağ bölgəsinin etnik tarixini öyrənmək baxımından "Kitabi-Dədə Qorqud" dastanları böyük elmi əhəmiyyətə malikdir. "Kitabi-Dədə Qorqud" oğuzların, ilk növbədə Azərbaycan türklərinin yazılı yaddaşıdır. O, türklərin Azərbaycanda o cümlədən, Qarabağda qədim dövrlərdən məskunlaşmasını sübut edən, əsl elmi əhəmiyyəti hələ tam şəkildə müəyyən edilməmiş ən əhəmiyyətli ilkin qaynaqlardan biridir. Homerin və Firdofsinin poemaları əsasında Yunanıstan və İran tarixini yaradanlar, "Kitabi-Dədə Qorqud" dastanlarındakı tarixi faktları görməzdən gəlirlər.

"Kitabi Dədə Qorqud"da oğuzların yayıldığı coğrafi ərazilər, onların yerləri-yurdları tam şəkildə aydındır. Dastanda Qarabağın adı çəkilməsə də hadisələrin bir çoxu onun yerləşdiyi bölgədə və onun ətrafındakı ərazilərdə (Bərdə, Əlincə, Gəncə, Göyçə gölü, Göyçə dağı, Qaradağ və.s.) cərəyan edir. "Kitabi-Dədə Qorqud"da rast gəlinən etnik məzmunlu maraqlı faktlardan biri də Qazan xanın "Alpanlar başçısı" adlandırılmasıdır. Bu epizoda "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"da rast gəlinir. Burada indiki Gürcüstan ərazisindəki "Başı açıq" adlı ərazidə kafirlərin casusu Qazan xanı "Alpanlar başı Qazan" adlandırır [27, s.80; 28, s.494]. "Alpanlar" ifadəsinə başqa bir epizodda da rast gəlirik. Belə

ki, “Qazılıq Qoca oğlu Yeynək boyu”nda Yeynəyin dilindən səslənən “Ağ-boz atlar çapdıran alpanlar gördüm” ifadəsi ilə rastlaşırıq [27, s.262; 28, s.87].

Buradakı “alpanlar” ifadəsini iki mənada başa düşmək olar: 1. Etnik məfhum kimi; 2. “İgidlər”, “ərənlər” kimi. Əgər ikinci mənaya üstünlük versək o zaman bu ifadə “alpanlar” deyil, “alplar” şəklində işlədilməli idi. Digər tərəfdən, Qazan xanın düşmənləri olan kafirlərin Qazan xanı tərifləyərək onu “igidlər başı” kimi təqdim etməsi inandırıcı görünmür. Əksinə, bütün dastan boyu onların Qazan xana düşmən münasibətləri və nifrət bəsləmələri açıq-aşkar görünməkdədir.Məlum olduğu kimi, bəhs edilən dövrdə xristian müəlliflər Şimali Azərbaycanı “Albaniya”, “Ağvan”, əhalisini isə “albanlar”, “ağvanlar” adlandırmaqda davam edirdilər. Ərəblər isə eyni tarixi epizodda yerli xalqı türklər adlandırırdılar. Əgər yuxarıdakı epizodda “alpanları” etnik məfhum kimi qəbul etsək, belə bir qənaətə gəlmək olar ki, burada kafirlər tərəfindən “alpanlar” dedikdə elə albanlar başa düşülürdü. Belə olan təqdirdə həmin alpanların və yaxud albanların elə türklər olduğunu qəbul etmək lazım gəlir. Çünki “Alpanlar başı” adlandırılan Qazan xan türk, özü də oğuz türkü idi.

Ərəb istilasından sonrakı dövrlərdə də ölkənin xristian müəlliflər tərəfindən “Ağvan”, “Albaniya” adlandırılmasının davam etməsi bir daha sübut edir ki, elə əvvəlki dövrlərdə də onlar albanlar dedikdə azərbaycanlıları, türkləri başa düşürdülər. Məsələn, XII əsrdə Səlcuqlar, və Atabəylər dövründə baş vermiş hadisələrdən bəhs edən Mxitar Qoş ölkəni yenə də Albaniya, əhalisini isə albanlar adlandırır və bu zaman onun sinonimi kimi “Arran” terminindən də istifadə edir [29, s.264-266]. Beləliklə, ilkin yazılı qaynaqların materiallarının araşdırılması və təhlili nəticəsində aydın olur ki, Qarabağ bölgəsinin tarixi Azərbaycan türklərinin tarixi ilə sıx şəkildə bağlıdır. Bununla belə, qeyd etmək lazımdır ki, ərəb hakim dairələrinin həyata keçirdiyi dini siyasət Qarabağın dağlıq hissəində əhalinin dini baxışlarında müəyyən izlər buraxdı. Lakin bu heç də bölgə əhalisinin etnik tərkibinin dəyişilməsinə gətirib çıxara bilmədi. Bu proses çox sonralar, rusların hakimiyyəti dövründə baş verdi.

İ.P.Petruşevskinin qeyd etdiyi kimi nə Arsax, nə də hazırda ermənilər yaşayan digər vilayət və rayonlar “heç bir zaman erməni mədəniyyətinin mərkəzlərinə mənsub olmamışdır” [16, s.99]. N.Adons isə yazır ki, Arsax həmişə erməni təsir dairəsindən kənarda qalmışdır [30, s.225; 16, s.99]. Ərəb xilafəti dövründə alban ənənələrinin aradan qaldırılmasında erməni kilsəsi başlıca rol oynayırdı [31, s.62-63]. Bir sıra tədqiqatçılar, o cümlədən erməni tədqiqatçıları etiraf edirlər ki, erməni kilsəsi yadellilərin (ərəblərin) əli ilə xristian dinində qalmaqda davam edən tarixi Ağvaniyada (Arranda) və onun bir hissəsi olan Qarabağda yaşayan xalqları yox etməyə çalışırdılar [16, s.99]. N.Vartapetov qeyd etdiyi kimi, erməni kilsəsi həmişə özü üçün yeni şəraitə bacarıqla uyğunlaşırdı və siyasi vəziyyətdən asılı olaraq Səfəvilərə, sonra da rus çarlarına qulluq edirdi; necə ki, vaxtı ilə həmin qayda ilə hərəkət edib Bizans imperatorları, sasani şahları, ərəb xəlifələri, monqollar və digərləri qarşısında baş əymişdilər [16, s.100].

Bir sıra ərəb coğrafiyaşünas-səyyahları bölgədən bəhs edərkən burada yaşayan əhalinin dili haqqında müəyyən məlumat verirlər. Əl-İstəxri Azərbaycan, Arran və Ərminiyyədə mövcud olan dillərdən bəhs edir. Müəllif ölkə əhalisinin dilindən bəhs edərkən cənubda (Azərbaycanda) “azəri”, şimalda (Arranda) daha dəqiq desək, Qarabağ bölgəsində, Bərdə nahiyəsində “arran” dilində danışıldığını göstərir [15, s.113]. Əl-İstəxri əlavə edir ki, Bərdə əhalisinin istifadə etdiyi arran dili asan dildir. Təəssüf ki, müəllif bu dillərin hansı etnosa mənsub olduğuna dair dəqiq məlumat vermir.

İbn Havqəl də Azərbaycan əhalisinin dilindən bəhs edərkən Azərbaycanda “azəri”, Arranda isə “arran” (“arani”) dilində danışıldığını göstərir. Lakin Əl-İstəxri kimi o da həmin dillərin etnik mənsubiyyəti haqqında susur [20, s.348-349].

X əsrdə yaşamış ərəb coğrafiyaçısı əl-Müqəddəsi özünün “Əhsən ət-təqasim fi mərifət əl-əqalim” (“İqlimlərin öyrənilməsi üçün ən yaxşı bölgü”) adlı əsərində yazır ki, Arranda arran dilində danışırlar. Göründüyü kimi, burada dil ölkənin adına uyğun, yəni coğrafi faktorla bağlı olaraq işlədilmişdir [32, s.378]. İstər-istəməz belə bir ehtimal meydana çıxır:

ərəblər "Albaniya" deyil, "Arran" terminină üstünlük verdikləri kimi, "alban dili" əvəzinə "arran dili" işlətmişlər. Başqa sözlə, arran dili elə həmin alban dilidir.

Tədqiqatçıların böyük əksəriyyəti bir-birini təkrar edərək, heç bir fakta istinad etmədən bu dili udin dili ilə bağlamağa cəhd etmişlər. Arran dilinin Qafqaz dil ailəsinə daxil olduğunu iddia edən tədqiqatçılar öz fikirlərini əsaslandırmaq üçün mənbələrdə rast gəlinən hər hansı bir konkret fakta istinad etməmişlər. K.M.Trever yazır ki, bir neçə şəxs və yer adlarından başqa, qədim alban dilinin xarakteri, onun leksikası və qrammatikası haqqında heç nə bilmirik. O, əlavə edir ki, Plini, Ptolemey, Plutarx və başqalarının əsərlərində rast gəlinən adlar isə onların latın və yunan dillərinə uyğunlaşdırılmış formalarıdır [12, s.306-307]. Koryunun, eləcə də Moisey Xorenatsinin əsərlərinə istinad edən K.M. Treverə görə, Mesrop Maştos albanların əlifbasını tərtib etməmişdir, onu yeniləmişdir [12, s.307].

Suriyalı Zaxariya Ritorun əsərində aşkar şəkildə deyilir ki, Arranın öz dili vardır və bu dil əsərdə adı çəkilən digər xristian xalqlardan heç birinin dilinə oxşamır [33, s.81-82]. Z.M.Bünyadov öz əsərində arran dilini alban dili adlandırmış, lakin onun hansı dil ailəsinə aid olması haqqında qəti fikir söyləməmişdir [16, s.170].

Qarabağda da istifadə olunan alban (arran) dili və əlifbası ilə bağlı araşdırmalar hələ XIX əsrin əvvəllərindən başlanmışdır. Çox geniş yayılmış bir fikirə görə, alban əlifbası qarqar dili əsasında tərtib olunmuşdur. Bu iddianın tərəfdarları Mesrop Maştosun, gürcülər üçün əlifba yaratdıqdan sonra albanlar üçün əlifba tərtib etmək üçün Albaniya hökmdarı Arsvalen və patriarx Yereminin yanına gəldiyini bildirən Moisey Xorenatsinin və Musa Kalankatlının məlumatına əsaslanırlar. Həmin məlumat görə, Arsvalen və Yeremi Mesrop Maştosla danışmaq və onun gəlişinin məqsədini öyrənmək üçün Sünik vilayətindən bacarıqlı tərcüməçi Benyamini (Bəncamini) çağırmışdılar. Onlar Mesrop Maştosla birlikdə "qırtlaq, qaba, barbar və çətin səslənən qarqar dilinin əlifbasını yaratdılar" [29, s.37]. S. T.Yeremyan və K. V.Trever yazırlar ki, biz qarqarları alban birliyi tərkibində ən qədim və daha görkəmli tayfalardan biri olduğunu güman edə bilərik. K.V. Trever belə bir nəticəyə gəlir ki, V yüzillikdə Mesrop Maştos alban əlifbasını tərtib edərkən onun əsasında alban dilinin qarqar ləhcəsini qoymuşdur [12, s.49]. Lakin bir sıra sovet dövrü tədqiqatçıları qarqarları qafqazdilli tayfalar sırasına aid edirdilər. Q.Ə. Qeybullayev öz əsərində qarqarları qafqazdilli sayan tədqiqatçıları (P.K.Uslar, E.İ.Krupnov, A.Q.Şanidze, N.Q.Volkova və başqaları) tənqid edərək onların türkmənşəli tayfalardan biri olduğunu yazır. O, qeyd edir ki, Cənubi Azərbaycanda bunu sübut edən bir sıra toponimlər vardır və orada qafqazdilli əhali yaşamamışdır [24, s.201-202].

Musa Kalankatlının məlumatında diqqəti cəlb edən cəhət Mesrop Maştosun haqqında bəhs olunan albanlarla, qarqarlarla tərcüməçi vasitəsi ilə danışmasıdır. Bu, Alban dilinin erməni dilindən tamamilə fərqli bir dil olduğunun aşkar göstəricisidir.

Sovetlər dövründə araşdırmalar aparmış tədqiqatçıların əsərlərində diqqəti cəlb edən əsas cəhət budur ki, onlar alban (arran) dili ilə bağlı sualların cavablarını nəyin bahasına olursa-olsun türk dillərindən kənarda axtarmağa çalışmışlar. Lakin onlar bu istiqamətdə heç bir tutarlı fakt ortaya çıxara bilməmişlər.

İlkin yazılı qaynaqların verdiyi məlumatlar və məntiqi mülahizələr Qarabağ da daxil olmaqla, Şimali Azərbaycanda əhali arasında ünsiyyət vasitəsi kimi istifadə olunan alban (arran) dilinin Qafqaz və iranmənşəli olmadığını birmənalı şəkildə söyləməyə imkan verir. Burada yalnız bir çıxış yolu qalır: onu türk dilləri ilə bağlamaq. Bu ehtimalın doğruluğunu, yəni alban (arran) dilinin türk dili ola bilməsi ehtimalını, onun qafqazmənşəli olduğunu söyləyənlərin özləri də dolayısı ilə qəbul etmişlər. Çünki onlar alban (arran) əlifbasının qarqar ləhcəsi əsasında tərtib olunması məsələsində həmrəydirlər. Qarqarların isə qafqazmənşəli etnos olmasını göstərən heç bir ilkin mənbə yoxdur. Əksinə, qarqarların türkmənşəli xalq olması haqqında ərəb və farsdilli mənbələrdə, eləcə də Suriya mənbələrində kifayət qədər tutarlı faktlar vardır. X əsrdə yaşamış farsdilli naməlum müəllifin "Hüdud əl-aləm" adlı

əsərindədə də qarqar adına Xəzərətrafı tayfaların təsviri zamanı rast gəlinir. Əsərdə qarqarlarla yanaşı, digər Xəzərətrafı xalqlar haqqında da ətraflı məlumat verilir. Sözlərinə davam edən naməlum müəllif daha sonra yazır: "Haqqında bəhs etdiyimiz bu (xalqların) hamısı türklərdəndir" [34, s.70].

Qarabağın ən başlıca etnoslarından biri olan qarqarların türkdilli tayfa ola bilməsi ehtimalı ilk dəfə K.Q.Əliyev tərəfindən irəli sürülmüşdür. K.Q.Əliyevin fikrincə, qarqar dili erməni və Qafqaz dilləri ilə qohumluq əlaqəsinə malik olmamışdır [35, 4].

Digər tərəfdən, xristian müəlliflər, o cümlədən Musa Kalankatlı türkləri həmişə "barbar" adlandırır. O, əlifba ilə bağlı epizodda da qarqarların dilini məhz "barbar dili" kimi təqdim edir.

Mövcud alban (arran) əlifbası ilə Orxon-Yenisey yazıları (Göytürk əlifbası) arasında zahiri oxşarlığın olması da inkaredilməz faktdır. Yeri gəlmişkən, digər etnoslarla bağlı hər hansı bir zahiri oxşarlığı əldə bayraq edənlər nədənsə, türklərlə bağlı məsələlərdə belə yanaşma tərzini yaxına buraxmaq istəmirlər. Mingəçevirdən tapılmış alban epiqrafik abidələrin Göytürk əlifbası əsasında oxunacağı gün heç də uzaqda deyildir. Bu istiqamətdə artıq müəyyən addımlar atılmaqdadır.

Erməni mənbələrində qarqarlar Albaniyanın əsas tayfaları sırasında göstərilir. Albaniyada qarqarlar Mil düzünün şimal hissəsində, Qarabağda, Qarqarçayın hər iki sahilində məskunlaşmışdılar. Moisey Xorenatsi yazır ki, I əsrdə Parfiya şahı Valarş (I Vologez) Arazdan Xunanakertə (Xunan qalasına) və Qafqaz dağlarına qədər uzanan və əhalisi sıx olan bu ölkənin idarəsini adlı-sanlı, ağıllı və müdrik Arana tapşırdı. Moisey Xorenatsi sözlərinə davam edərək yazır ki, utilər, qardamanlar, savdeylər və qarqarlar onun törəmələrindəndirlər [19, 52]. Musa Kalankatlının əsərində həmin oxşar epizod aşağıdakı kimi şərh edilir: "Aran Araz çayından başlayaraq Hunan qalasına qədər uzanan Alban ölkəsinin düzənliklərini və dağlarını miras olaraq almışdır... Uti, Girdiman, Tsvod və Qarqar knyazlıqlarında yaşayan xalqlar da həmin Aranın oğullarının nəslindəndir" [29, 19].

Musa Kalankatlı öz əsərində Albaniya ərazisindəki "Qarqar çölündə" baş vermiş döyüşdən də bəhs etmişdir [29, s.30]. O, əsərin başqa bir yerində qeyd edir ki, qarqarları Qafqaz dağları yaxınlığına Makedoniyalı İsgəndər köçürmüşdür [29, s.35]. Burada Qarqar düzü dedikdə indiki Mil düzü başa düşülürdü.

Hələ XIX əsrdə H. Zeydlits yazırdı ki, Qarqarçay adı onlardan yadigar qalan yeganə xatirədir [36, s.11]. Lakin sonrakı tədqiqatlar göstərdi ki, Qarqar toponimi Azərbaycanda geniş yayılmışdır. Belə ki, XX əsrdə ölkəmizin ərazisində, o cümlədən Qarabağda "Qarqar" etnonimi ilə bağlı çoxsaylı hidronim və toponimlər qeydə alınmışdır [37, s.27].

Zənnimizcə, haqqında bəhs olunan azəri və arran dilləri eyni dilin – Azərbaycan türkcəsinin cənub və şimal ləhcələri ola bilərdi. Onların arasında əsas fərq isə yazı zamanı istifadə edilən qrafika olmuşdur. Azəri dilində əvvəllər pəhləvi, sonralar isə ərəb qrafikasından, arran dilində isə qədim türk əlifbasına (Göytürk əlifbasına) uyğun əlifbadan istifadə edildiyini söyləmək mümkündür.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, tarixi Azərbaycan torpaqlarında, o cümlədən Qarabağda və onunla həmsərhəd olan bölgələrdə Göytürk əlifbası ilə yazılmış epiqrafik abidələrə rast gəlinmişdir. Lakin onların bir çoxu XIX əsrdə məqsədyönlü şəkildə məhv edilmişdir. Bütün bunlara baxmayaraq, onların bəzi nümunələri tarixi Azərbaycan torpaqlarında indi də qalmaqdadır. Bu baxımdan Qarabağla qonşu olan Zəngəzurda aşkar edilən epiqrafik yazılar, xüsusilə, qeyd edilməlidir. Həmin ərazidən XX əsrin 80-ci illərində Nüvədi kənd orta məktəbinin müəllimi Həmzə Vəli tərəfindən yeddi ədəd kitabə tapılmışdır [38, s.13-20]. Həmin kitabələrin hamısı Göytürk əlifbası ilə yazılmışdır. Bu fikri Göytürk əlifbası üzrə bir çox mütəxəssislər də qəbul etmişlər. Məsələn, Orxon-Yenisey yazıları üzrə görkəmli mütəxəssis olan Ə.Rəcəbov yazır: "Həmzə Vəlinin Nüvədi kəndinə aid olan ərazidə tapdığı daş, heç şübhəsiz, göytürk hərfləri ilə yazılmış kitabədir" [39]. Maraqlıdır ki, həmin kitabələrdə türkmənşəli tayfa adlarına da rast gəlinir [38, s.20].

Y.B.Yusifovun qeyd etdiyi kimi, Musa Kalankatlının əsərində rast gəlinən bir sıra leksikoloji materiallar arran dilinin türkməşəli dil olması haqqında fikiri daha qətiyyətlə söyləməyə imkan verir. Bu terminlər sırasında ovçu, tarxan, Türküstan, xaqan, il, alp, türkan, aqelun (ayaqyalın-onlar ayaqyalın Kür çayını keçdi) kimi sözləri misal göstərmək olar. Erməni dilində də türk dillərindən alınma bir çox sözlər vardır [40, s.22- 23].

Ərəbdilli müəlliflərinin əsərlərində rast gəlinən və hal-hazırda da yalnız Azərbaycan türkləri arasında işlənən bir sıra sözlərin təsadüfi olmadığı da qeyd edilməlidir. Bu sözlərə həmin müəlliflərin əsərlərində rast gəlinməsi onların məhz yerli əhali tərəfindən işlədilməsi ilə bağlı idi. Onlardan biri də əl-Bəlazurinin əsərində rast gəlinən "handan-hana" ("hannan-hana") və yaxud "handan-handan" sözüdür.

Əl-Bəlazurinin sözlərinə diqqət yetirək: "Əl-Əşəs ibn Qeys hannan-hana (çətinliklə) (han – Azərbaycan əhalisinin dilində "özünü itirmiş", "çaşmış", "çətin vəziyyətə düşmüş" deməkdir) hərəkət edərək (təqib edərək) onu (Azərbaycanı) Hüzeyfə və Ütbə ibn Fərqadın (əvvəllər) bağladığı sülhə uyğun şəkildə (şərtlərlə) fəth etdi" [18, s.197].

Əl-Bəlazuridə xatırlanan "hannan-hanan" ifadəsi həmin mənada hal-hazırda da Azərbaycanın Qarabağ bölgəsində "hannan-hana", "hannan-hannan" şəkilində işlədilməkdədir. S.B.Aşurbəyli də bu sözün Azərbaycan (türk) dilində olduğunu bildirir və "çətinliklə", "tədricən" mənalarında işlədildiyini qeyd edir [41, s.80].

Bütün yuxarıda deyilənlər Qarabağ da daxil olmaqla Azərbaycanın Araz çayından şimaldakı torpaqlarında ünsiyyət vasitəsi kimi istifadə olunan "arran" dilinin türk dilli olması ehtimalını daha da gücləndirir.

Beləliklə, VII – IX əsrlər Azərbaycan tarixi haqqında məlumat verən ilkin mənbələrin, eləcə də mövcud elmi ədəbiyyatın araşdırılması, müqayisəsi və ümumiləşdirilməsi əsasında belə nəticəyə gəlmək olar ki, Qarabağ bölgəsi siyasi, coğrafi və etnik baxımdan həmişə Azərbaycanla sıx şəkildə bağlı olmuşdur və onun ayrılmaz tərkib hissəsidir.

Ədəbiyyat

1. İbn Havqəl. Kitab surət əl-ard. Əl-qism əl-avval. Leyden: Brill, 1967.
2. Бартольд В.В. Азербайджан и Армения. Сочинения в 9-ти томах. Т. VII. Москва: Наука, 1971.
3. Əbru Hafiz. Zubdət ət-təvarix. Cilde dovvom. Tehran: 1372.
4. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: Real tarix, faktlar və sənədlər. Bakı: Təhsil, 2005.
5. R.Yüzbaşov., K.Əliyev., Ş.Sədiyev. Azərbaycan coğrafi adları. Bakı. 1972.
6. Yüzbaşov R. Dağlıq Qarabağ Muxtar vilayətinin toponimikası. Azərb SSR EA Xəbərləri. Yer haqqında elmlər seriyası, 1969, № 12.
7. Səid Nəfisi Tarix-e ictimai-ye İran əz enqraze Sasaniyan ta enqraze Əməviyyan. Tehran: 1342.
8. Касумова С.Ю. Азербайджан в III-VII вв. Баку: Элм, 1993.
9. Мамедова Ф.Дж. О некоторых вопросах исторической географии Албании I в. до н.э. VIII в. / Историческая география Азербайджана. Баку: Элм, 1987.
10. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı: Azərnəşr, 1993.
11. Qeybullayev Q.Ə. Qarabağ (Etnik və siyasi tarixinə dair). Bakı: Elm, 1990.
12. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М-Л: Из-во Академиии Наук СССР, 1959.
13. Велиханова Н.М. Изменение исторической географии Азербайджана в результате арабского завоевания. Историческая география Азербайджана. Баку: Элм, 1987.
14. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə dair materiallar. Bakı: Nurlan, 2005.

15. Əl-İstəxri. Əl-məsalik va-l-məmalik. Qahirə: 1381.
16. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Elm, 1989.
17. Vəlixanlı N.M. Azərbaycan VII – XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı: Elm və təhsil, 2016.
18. Əl-Bəlazuri. Kitab futuh əl-buldən. Beyrut: Kutub-ul-ilmiyyə, 1420.
19. Ağayev R.Ə. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. Bakı: Turxan NPB, 2017.
20. İbn Havqəl. Kitab surət əl-ard. Əl-qism əs-səni. Leyden: Brill, 1939.
21. Vəlixanlı N.M. Naxçıvanın VII – XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan: Əcəmi, 2015.
22. Симокатта Феофилакт. История. Перевод С.П. Кондратьева. Москва: Наука, 1957.
23. Федоров Я. А., Федоров Г. С. Ранние тюрки на Северном Кавказе. Москва: Издательство Московского университета, 1978.
24. Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994.
25. Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə (e.ə. IV – b.e.III əsrləri). Bakı: Azərnəşr, 1997.
26. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı: Təhsil, 2006.
27. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Tərtib edəni S.Əlizadə. Bakı: Öndər, 2004.
28. Kitabi-Dədə Qorqud Ensiklopediyası. İki cilddə. I cild. Bakı: Yeni nəşrlər evi, 2000.
29. Kalankatlı Moisey. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. (Müqəddimə,tərcümə, qeyd və şərhlərin müəllifi akademik Z.M.Bünyadov). Bakı: Avrasiya press, 2006.
30. Адонц Н. Армения в эпоху Юстиниана. Ереван: Изд-во Ереванского Университета, 1971.
31. Алиев И.Г. Нагорный Карабах: История. Факты. События. Баку: Элм, 1989.
32. Əl-Müqəddəsi. Əhsən ət-təqasim fi mərifət əl-əqalim. Leyden: Brill, 1967.
33. 33. Пигулевская Н. В. Сирийские источники по истории народов СССР. М-Л: Наука, 1941.
34. Hudud əl-aləm min əl-məğrib ilə-l-məşriq. Tehran: 1983.
35. 35. Алиев К.Г. К вопросу о племенах Кавказской Албании (отдельный оттиск). Москва: Наука, 1964.
36. Мирзазаде Ч.Х. Топонимы Азербайджана в средневековых арабских географических источниках. Баку: Элм, 1988.
37. Qukasyan V. Qafqaz Albaniyası (tarixi-filoloji etüdlər). Bakı: Öyrətmən, 1993.
38. Vəli H. Nüvədi kitabələri. Bakı: Oğuz eli, 1998.
39. "Xalq" qəzeti. 4 sentyabr 1996-cı il.
40. Юсифов. Ю.Б. Об актуальных проблемах этнической истории Азербайджана. Проблемы изучения источников по истории Азербайджана (сборник статьей). Баку: Изд-во АГУ, 1988, с. 15-39.
41. Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı: Avrasiya press, 2006.

QARABAĞ BÖLGƏSİ XV-XVII YÜZİLLİKLƏRDƏ

Tofiq Hümbət oğlu Nəcəfli
A.A. Bakıxanov adına Tarix İnstitutu, AMEA,
tarix üzrə elmlər doktoru
Bakı, Azərbaycan
e-mail: tofignajafli@gmail.com

Xülasə: Əlverişli təbii şəraiti, saf iqlimi, təmiz suları, meşələri, zəngin təbii ehtiyatları ilə dünyanın ən qədim insan məskənlərindən biri olan Qarabağ bölgəsi Azərbaycanın tarixi torpağıdır. XV-XVII əsrlərin mənbələrində Qarabağ, daha çox "Arran Qarabağ" və ya "Qarabağ bəylərbəyiliyi" kimi təqdim olunmuşdur. Bu dövrdə Qarabağ Azərbaycanın digər bölgələri ilə birlikdə Baharlı (Baranlı), Bayandurlu və Səfəvi sülalələrinin hakimiyyəti altında olmuşdur. O dövrün mənbələrinə görə, Qarabağ əhalisinin əksər hissəsini yerli Oğuz türk tayfaları, ərazisini də və onlara aid Oymaqlar (ərazi vahidi) təşkil edirdi.

Açar sözlər: Azərbaycan, Arran Qarabağ, Qarabağ bəylərbəyiliyi, Oğuz türk tayfaları.

GARABAGH REGION IN THE XV-XVII CENTURIES

Tofig Hummat oglu Najafli
Doctor of Sciences in History,
The Institute of History named
after A.A. Bakikhanov of ANAS,
Baku, Azerbaijan

Abstract: Garabagh region of Azerbaijan, one of the ancient human settlements in the world with her favorable natural conditions, wonderful climate, limpid waters, forests, few natural resources and at the same time with unusual pastures has been one of the beautiful lands throughout its history. Garabagh, covering vast areas in the sources in most cases is presented as "Arran Garabagh". In the XV-XVII centuries Garabagh was part of the Azerbaijani states of Garagoyunlu, Aghgoyunlu and Safavi. As confirmed by the sources of the time, the main part of the Garabagh people were Oguz Turkic tribes of indigenous origin, and oymags (territorial unit) belonging to them.

Key words: Azerbaijan, Garabagh, Arran Garabagh, the Safavi state.

КАРАБАХСКАЯ ОБЛАСТЬ В XV-XVII ВЕКАХ

Тофик Гуммат оглы Наджафли
доктор наук по истории
Институт Истории им. А.А. Бакиханова
НАНА, Баку, Азербайджан

Резюме: Карабахская область Азербайджана, одно из древнейших человеческих поселений в мире с ее благоприятными природными условиями, прекрасным климатом, прозрачными водами, лесами, многочисленными природными ресурсами на протяжении всей своей истории была одной из красивейших земель. Карабах, охватывающий обширные территории, в источниках в большинстве случаев представлен как "Арранский Карабах". В XV-XVII веках Карабах, наряду с другими регионами Азербайджана, находился под властью Бахарлы (Баранлы), Баяндурлу и Сефевидов. Как подтверждают источники того времени, основную часть гарабагского население составляли Огузские тюркские племена коренного происхождения, а также принадлежащие им оймаги (территориальная единица).

Ключевые слова: Азербайджан, Арран Карабах, Гарабагское бейлербейство, тюкские племена.

Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir. Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi «Qarabağ» adı əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir [26,11]. Bəzi tədqiqatçılar heç bir mənbə göstərmədən Qarabağ toponiminin VII əsrdən etibarən dilimizdə işlənildiyini qeyd edirlər [19, s.191; 26,11]. Əslində bu fikir hələ XX əsrin 60-cı illərində irəli sürülmüşdür. Ş.M.Sədiyev Qarabağ adının mənasından, onun toponim olaraq işlənilməsi tarixindən bəhs edərkən göstərmişdir ki, Qarabağ sırf Azərbaycan sözü olub və ən azı VII əsrdən dilimizdə işlənilməkdədir [42,15]. Təəssüf ki, bu fikri səsləndirən müəlliflər heç bir ilkin qaynağa istinad etməmişlər.

Əhməd əl-Bəlazurinin (820-892) verdiyi məlumata görə, Abbasi xəlifəsi Mənsur (745-775) Yezid ibn Useyd əs-Sülemini geri çağıraraq Həsən ibn Kahtəbə ət-Taini Arrana vali təyin etmiş, Amir ibn İsmaili də yardımçı qüvvələrlə ona köməyə göndərmiş və birləşmiş qüvvələr üsyan qaldıran əl-Həsən Müşaili məğlub edərək öldürmüşdü. Əl-Bəlәzuri Beylaqanda bir çayın və Bərdə yaxınlığında gözəlliyi ilə məşhur olan «əl-bağ» adlı "Gözəl bağın" əl-Həsən Müşailə məxsus olduğunu diqqətə çatdırır [29, s.411]. Müəllif yazır ki, bağça mənasını verən bağ fars sözüdür. Digər İslam coğrafiyaşünasları və tarixçiləri deyil, məhz iranlı əl-Bəlazurinin bunu xatırlatmasını qəribsəməmək lazımdır. Onun verdiyi məlumatdan görünür ki, «Qarabağ» adı monqol işğalından sonra deyil, daha əvvəl işlənməyə başlanmışdır [29, s.411]. Əgər belə olmasaydı, Qarabağ sözünü erməni dilinə tərcümə olunmuş halda XII əsrdə yaşamış Anili Samuel «Sev ayqi» (Qara bağ) deyə işlətməzdi. Bir qədər ondan sonra yaşamış tarixçi Tovma Ardsruni isə Qarabağ sözünü tərcümə etmədən olduğu kimi «Qarabağ» deyə işlətmişdir [17,7].

Azərbaycanda geniş ərazini əhatə edən Qarabağ orta əsr mənbələrdə əksər hallarda «Arran Qarabağı» kimi verilir. «Arran Qarabağı» terminінə ilk dəfə Fəzlullah Rəşidəddinin «Came ət-təvarix» əsərində 1284-cü ilin hadisələrindən bəhs olunarkən təsadüf olunur [40,170; 39,98]. Dövrün tarixçiləri bu ərazini «Arran Qarabağı» adlandırmaqla onu başqa Qarabağlardan, ilk növbədə Türkmənistanın cənub-şərq və Əfqanıstanın şimal-qərb ərazilərində mövcud olan «Baqdis Qarabağı»ndan fərqləndirmək istəmişlər [40, s.98]. Qarabağın tarixən bir-biri ilə sıx, iqtisadi və mədəni əlaqədə olan dağlıq və düzən əraziləri coğrafi baxımdan Arranın tərkib hissəsi idi. Qaynaqlarda bəzən Qarabağ ilə Arran eyniləşdirilib vahid ərazi kimi də təqdim olunurdu. Əslində isə Arran daha geniş ərazini əhatə edən inzibati-coğrafi vahid olub, Azərbaycanın şimal hissəsi hesab edilirdi. Qarabağ Azərbaycan tarixçisi Əbu Bəkr əl-Qütbi əl-Əhərinin təbiri ilə desək «Arranın paytaxtı», daha doğrusu onun mərkəzi hesab olunurdu [12, s.57]. «Qarabağ» istilahı XIV yüzilliyin sonu – XV yüzilliyin əvvəllərində «Arran» termini ilə yanaşı işlənmiş, bəzən onu əvəz etmiş və inzibati ərazi baxımından isə Arranın mərkəzi sahələrini əhatə etmişdi. Qarabağ dağlıq və dağətəyi yerləri birləşdirən vahid ərazidən ibarət olmuşdu. Mirzə Camal Cavanşir «Qarabağ tarixi» əsərində Qarabağ xanlığının sərhədləri barədə yazır: «Qədim tarix kitablarının yazdığına görə, Qarabağ vilayətinin sərhədləri belədir. Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər-Araz çayıdır. İndi Sınıq körpü Qazax, Şəmşəddil və Dəmirçi Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahı ilə Krasnı most, yəni Qızıl körpü adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhəddi Kür çayına qədər – Goran çayıdır və Kür çayı çox yerdən keçib Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı, Ərikli adlanan uca Qarabağ dağlarıdır» [18, s.107-108].

Qarabağ Arranın tərkib hissəsi kimi XIV-XV yüzilliklərdə Azərbaycanda baş vermiş ictimai-iqtisadi hadisələrin mərkəzlərindən biri idi. Elxanların daim Qarabağda qışlamaları, bir sıra dövlət səviyyəli hadisələrin burada baş verməsinə səbəb olmuşdu. Elxani hökmdarlarından üçü – Qazan xan, Arpa xan və Ənuşirəvan səltənət taxtına Qarabağda çıxmış, ikisi isə – Arqun xan və Əbu Səid Qarabağda vəfat etmişlər [40, s.101-102].

1335-ci ildə Elxani hökmdarı sultan Əbu Səidin ölümündən sonra Elxanilər dövlətinin tənəzzülə uğraması, parçalanması və nəhayət süqut etməsi Qarabağa da öz təsirini göstərmişdi. Qarabağ hakimi Əmir Surğan və anası Satıbəy Xatun Hülakülər dövlətində şiddətlənən feodal ara müharibələrinin fəal iştirakçılarına çevrildilər. 1338-ci ildə hakimiyyət uğrunda mübarizə aparan feodal qrupları ilk növbədə Çobanilərlə Cəlairilər arasında bağlanan müqaviləyə əsasən Arranın tərkib hissəsi kimi Satıbəy Xatun və Əmir Surğanın sərəncamında qaldı. Çox keçmədən Qarabağ hakimi Satıbəy Xatunun Hülakülər dövlətinin padşahı seçilməsindən başlayaraq Qarabağ uzun müddət Çobanilərin fəaliyyəti ilə bağlı tarixi hadisələrin mərkəzində durmuşdu [20,32; 40,103].

XIV yüzilliyin II yarısında Azərbaycan Cəlairilər dövlətinin tərkibinə daxil olduqdan sonra Qarabağ ərazisi də bu dövlətin nəzarətinə keçdi. Sultan Əhmədin hakimiyyətinin ilk vaxtlarında Qarabağ Cəlairi əmirləri tərəfindən idarə olunurdu. Əmir Teymurun Azərbaycana yürüşlərindən sonra Qarabağ demək olar ki, tamamilə onun buradakı canişininin tabeliyində olmuşdu. Qarabağ Əmir Teymurun qış iqamətgahına çevrilmişdi. Dövrün mənbələrində Teymurun və eləcə də ondan əvvəlki Hülakü və Cəlairi hökmdarlarının Qarabağda qışlamaları barədə çoxsaylı faktlara təsadüf olunur. Əmir Teymur Qarabağ ərazisindən özünün qərbdəki düşmənlərinə qarşı mübarizəsində başlıca istinadgah kimi istifadə etmişdi.

XV yüzilliyin əvvəllərində tərkibinə Qarabağın da daxil olduğu Cəlairilər dövləti Əmir Teymurun yürüşü nəticəsində dağıldı. Sultan Əhməd Bağdada qaçdığı üçün Azərbaycanı Əmir Teymurun oğlu Miranşah idarə edirdi. 1404-cü ilin martında Əmir Teymur Qarabağ qışlağından Səmərqəndə dönən zaman Hülakü ulusuna daxil olan ərazilərin idarəsini nəvəsi Ömər Mirzəyə tapşırdı [43,70]. 1405-ci ildə Teymurun vəfatı onun imperiyasında sülalə ixtilaflarına, övladları arasında hakimiyyət uğrunda arası kəsilməyən toqquşmalara zəmin yaratdı. Azərbaycan yeni müharibələr meydanına çevrildi. Əlverişli siyasi vəziyyətdən faydalanan yerli hakimlər xalq kütlələrinin yardımı ilə müstəqillik uğrunda mübarizəyə başladılar [6,78]. Bu mübarizəyə Şirvan şahı I İbrahim (1382-1417) rəhbərlik edirdi. Ölkənin ayrı-ayrı vilayətlərində yadelli ağalığına qarşı başlanan mübarizədən istifadə edən I İbrahim 1406-cı ildə Kür çayını keçərək Gəncəni və Qarabağın böyük bir hissəsini nəzarət altına almışdı. Bu dövrdə qaynaqların qeyd etdiyinə görə, Qarabağ hakimi Qaramanlı tayfasından olan Yar Əhməd idi [4,394]. Gəncə və Qarabağ hakimi Yar Əhməd Qaraman, Şirvanşah I İbrahim, Ərdəbil hakimi Bistam Cagir, Şəki hakimi Seyid Əhməd Teymuri Ömər Mirzəyə qarşı mübarizədə öz qüvvələrini birləşdirdilər. Ömər Mirzə birləşmiş qüvvələrlə döyüşə girməkdən çəkinərək geri döndü və Azərbaycanın şimal torpaqları Teymurilərdən tamamilə azad edildi. 1406-cı ilin mayında Şirvanşah I İbrahim Təbrizi ələ keçirsə də, Cəlairi Sultan Əhmədin yürüş xəbərini eşidərək geri dönmək məcburiyyətində qaldı. Şirvanşah I İbrahimin Azərbaycan torpaqlarını birləşdirmək təşəbbüsü bir nəticə verməd.

Bu dövrdə Azərbaycanın cənub torpaqları Teymuri Əbu Bəkrin hakimiyyəti altında qalmışdı. Qaraqoyunlu Tayfa birliyinin başçısı Qara Yusif 1406-cı ildə Naxçıvan və 1408-ci ildə isə Sərdrud döyüşlərində Teymuri Əbu Bəkri məğlub edərək Teymurilərin Azərbaycandakı ağalığına son qoydu. 1410-cu ildə Qara Yusif Təbriz yaxınlığında keçmiş müttəfiqi Sultan Əhmədi məğlub edərək Cəlairi sülaləsinin hakimiyyətinə son qoydu və mərkəzi Təbriz şəhəri olan Azərbaycan dövlətini onun mənsub olduğu Baharlı (Baranlı) sülaləsi idarə etməyə başladı. Bu sülalənin hakimiyyətinə ilk vaxtlar Qarabağ, Cənubi Azərbaycan, Şərqi Anadolunun bir hissəsi, Ərəb İraqı və Əcəm İraqı daxil idi [6,81; 30,56; 11, s.62-63].

Qarabağı idarə edən Qaramanlı tayfaları Qaraqoyunlu tayfa ittifaqına daxil olaraq bu dövlətin siyasi tarixində əhəmiyyətli rol oynadılar. 1412-ci ilin dekabrında Qara Yusifin Şirvanşah I İbrahim, Şəki hakimi Seyid Əhməd və gürcü çarı Konstantinin birləşmiş qüvvələrinə qarşı döyüşündə Yar Əhmədin rəhbərliyi altında «Qaraman əsgərləri» yaxından iştirak etmişdi. Kür çayının sahilində baş vermiş bu döyüşdə Qara Yusif Qarabağ dəstələrinin yardımı ilə qələbə qazanmışdı [37,160; 30, s.58-59; 11,62].

1420-ci ildə Qara Yusifin ölümü Teymuri hökmdarı Şahruxun Azərbaycanı işğal etməsinə şərait yaratdı. Arran Qarabağında qışlayan Şahruxun hüzuruna gəlmiş qonşu hakimlər arasında Qarabağ hakimi Yar Əhməd Qaramanla yanaşı, qardaşı Şirzad da olmuşdu [15,188]. Lakin 1421-ci ilin aprelində Şahruxun Qarabağı tərk etməsi ilə teymurilərə qarşı Gəncə və Bərdədə Yar Əhməd Qaramanlının üsyanı başladı. Teymuri tarixçisi Fəsih Xəvafi yazır ki, bu zaman Qaraköpəkdə olan Şahrux oğlu Baysunqur Bahaduru Yar Əhmədə qarşı göndərdi [15,190]. Faruk Sümer yazır ki, Yar Əhməd Qaramanlı Gəncə-Qarabağ ətrafında olan Cağatay ulusundan vergi toplamış olan təhsildarlara hücum edərək mallarını əllərindən almışdı. Buna görə də Şahrux Baysunquru Yar Əhmədin üzərinə göndərdi. O, Gəncəni tərk edərək Gürcüstan torpağındakı Esfərzən qalasına sığınsa da, daha sonra aman diləyərək Şahruxun hüzuruna gəldi və əhf olundu [43,118; 9, s.226-227]. Fəsix Xəvafi yazır ki, Şahrux Qara Yusifin varisi İsgəndərlə Aləşgərd döyüşündə vuruşan zaman Yar Əhməd Qaramanlı Bərdə qalasından gətirilərək edam olundu [15,190].

Bu zaman İsgəndər Şahruxun Azərbaycanda möhkəmlənməsinə ciddi müqavimət göstərmişdi. Tərəfdarları arasında ara çəkişmələrinin başlanmasına baxmayaraq İsgəndər dövlətin bütövlüyünü qoruyub saxlamışdı. Şahrux yalnız 1429-cu ildə Azərbaycana ikinci yürüşü zamanı Səlmas döyüşündə İsgəndəri məğlub edərək Azərbaycana tam yiyələnmiş və ölkəni tərk edən zaman hakimiyyəti İsgəndərin qardaşı Əbu Səidə vermişdi. Lakin az sonra İsgəndər hakimiyyəti qardaşından geri almışdı. 1435-ci ildə Şahrux Azərbaycana yenidən yürüş etmiş və Qarabağda qışlamışdı. O, 1436-cı ilin yazında Azərbaycanın idarəsini İsgəndərin digər qardaşına, Teymurilərin asılılığını qəbul edən Cahan şaha tapşırmışdı. İsgəndər bununla razılaşmayaraq hakimiyyətini qəsb edən qardaşına qarşı mübarizəyə başlamışdı. Lakin 1438-ci ildə «dövlətinin əsas əmirlərindən» olan Piri bəy Qaramanlının Cahan şahın tərəfinə keçməsi nəticəsində vəziyyət dəyişdi. Həftçeşmə yaxınlığında qardaşı ilə döyüşə girməyən İsgəndər Əlincə qalasına qaçdı və orada öldürüldü [46,90; 43,139; 11,62].

Güman etməyə əsas vardır ki, Piri bəy Qaramanlı Gəncə və Bərdə hakimi olmuş və görünür Yar Əhməd Qaramanlını əvəz etmişdi. Cahan şahın dövründə də Qarabağ Baharlı sülaləsinin nəzarətində qalmışdı. Lakin 1467-ci ildə Cahan şahın Ağqoyunlu tayfa birliyinin başçısı Həsən bəylə döyüşdə öldürülməsindən sonra Qarabağ Baharlı sülaləsinin digər torpaqları kimi yeni sülalənin – Bayandurlu dövlətinin tərkibinə daxil olmuşdu. Cahan şahın oğlu Həsənəli atasının öldürülməsindən sonra ordu toplayaraq vəziyyətdən çıxmağa çalışmışdı. Lakin 1468-ci ildə Mərənd yaxınlığında Həsən bəylə döyüşdə məğlub olaraq xilas olmaq üçün Qarabağa qaçmış və Bərdəyə gəlmişdi. Əbubəkr Tehrani yazır ki, Cahan şahın ölümündən sonra həmin vilayətin hakimi olmuş Piri bəy Qaramanlının övladları əvvəlcə onu tutub Həsən bəyin hüzuruna göndərmək istədilər, lakin sonra bu fikirdən daşınıb ona imkan verdilər ki, Ərdəbilə getsin və böyük şeyxlərin hüzuruna pənah aparsın [46,250; 11,62].

Dövrün qaynaqlarında Qarabağ Şahrux ordusunun, sonra da Baharlı və Bayandurluların ənənəvi qışlaq yeri kimi xatırlansa da, bu vilayət haqqında konkret məlumatlar çox azdır. Həsən bəy Təbrizi tutub özünü Azərbaycanın padşahı – sultanı elan etdikdən sonra və varisi sultan Yaqubun hakimiyyətinin ilk dövründə (1478-1490) Gəncə və Bərdə vilayətləri mərkəzi hakimiyyətin yerli tayfa başçılarından təyin etdiyi rəhbərlərin idarəsi altında qalmaqda davam etmişdi. Bayandurlu tarixçisi Fəzlullah ibn Ruzbehan Xuncinin qeyd etdiyinə görə, Gəncə və Bərdə vilayətlərinin idarəsi sultan Yaqub tərəfindən oğlu Baysunqura həvalə olunmuşdu [25,87; 11,63].

F.R.Xunci Səfəvi şeyx Heydərin 1488-ci ildə Şirvan və Dağıstana yürüşü zamanı Qarabağ haqqında müəyyən məlumat verir. Müəllif yazır ki, şeyx Heydər «Bərdə vilayətində olan Çalabert dairəsinə çatan zaman baş qazinin mülkü olan bu ərazini qarət etdi və zimmilər icmasının əmlakını müsadirə etdi. Bu zimmilər (yəni xristian albanlar – T.N.) sülh şəraitində yaşayaraq cizyə və üşr vergisini ödəmiş, əzabdan və zülmdən azad olmuşdular» [25,86].

F.R.Xunci sultan Yaqubun hakimiyyəti dövründən bəhs edərkən yazır ki, o qış dövrünü ya Təbrizdə, ya da Qarabağda – Qaraağacda keçirirdi [25,119; 11,63]. Onun sözlərinə görə, Qaraağac «Tall Sultanın ətəklərində yerləşirdi və zirvəsi düşərgənin ortasında ulduzlara yük-

səlirdi. Təəccüblüdür ki, meşənin ortasında ətrafı düzənlik olan belə bir zirvə necə yüksəlmişdi» [25,101; 11,63]. F.R.Xuncinin məlumatlarından aydın olur ki, bu ərazi Sultanbud torpaqlarında yerləşmişdi. Çünki, Qaraağaca gələn hökmdarı «Sultanbud torpaqları yenicə çiçək açmış gül-çiçəkləri ilə salamlamışdı» [25,120]. Nəzərə almaq lazımdır ki, tarixçinin xatırlatdığı Sultanbud torpaqları Bərdə-Ağdam yolundan şərqdə yerləşirdi.

Dövrün qaynaqlarında Qarabağ sultan Yaqubun oğlu Baysunqurun qısa hakimiyyəti dövrünün hadisələri şərh olunarkən yenidən xatırladılır. 1492-ci ildə Eybə Sultan Bayandurla Baysunqur arasındakı döyüş Gəncə və Bərdə arasında baş vermişdi. Eybə Sultan öz bayrağı altında Qarabağ Qacarlarını birləşdirə bilmişdi. Ona görə də, baş vermiş döyüşdə Baysunqur məğlub olmuş və 1493-cü ilin avqustunda baş vermiş ikinci döyüşdə də öldürülmüşdü [25,143-144].

Bu fakt bir daha təsdiq edir ki, artıq bu dövrdə Qacar tayfası Qarabağda yaşayırdı. Azərbaycan Səfəvi dövlətinin yaranmasında əsas rol oynayan Qızılbaş tayfalarından biri olan Qacarların mənşəyi və Azərbaycanda məskunlaşması tarixilə bağlı tarixşünaslıqda müxtəlif yanaşma mövcuddur. Türk tarixçisi Z.V.Toğanın qənaətinə görə, Qacarlar Azərbaycana Oğuz xanın İran səfərlərində gəlib yerləşmiş və monqolların Azərbaycana yürüşləri vaxtı Xalxal ətrafında yaşamışdılar. Qacarlar Hülakü ordusuna yardım edərək onlarla birlikdə Şam tərəflərinə göndərilmiş, Teymurilər və Baharlılar dövründə isə oradan təkrar Azərbaycana qayıtmışdılar [47,56; 32, s.137-138]. «Qızılbaşlar tarixi» müəllifinin təsdiq etdiyinə görə, Qacarlar qədimdən Gəncə və Bərdədə yaşamışdılar və onların bir qismi də Şamdan gəlmişdi [21,36].

Bu faktlar bir daha təsdiq edir ki, Oğuz boylarından olan Qacarlar hələ monqol yürüşləri ərəfəsində Azərbaycanda yaşamış və monqol hücumları qarşısında digər türkmanlarla birlikdə Şərqi Anadoluya çəkilmişdi. Qacarlar XV yüzillikdə Ağqoyunlu tayfa birliyinə daxil olmuşdu. XV yüzilliyin 90-cı illərində Bayandurlu taxt-tacı uğrunda şiddətli mübarizədə Qarabağda yaşayan Qacarların yaxından iştirak etmişdi. F.Sümerin yazdığı və dövrün qaynağının təsdiq etdiyi kimi Həsən padşahın nəvəsi Rüstəm Mirzənin Əlincə qalasından azad edilərək taxt-taca gətirilməsində Gəncə ətrafında yaşayan Qacarlar əsas rol oynamışdı [44,53]. Rüstəm padşah 1497-ci ildə Gödək Əhməd tərəfindən məğlub edildiyi zaman, yenə də Gəncə ətrafındakı Qacar bəyinə sığınmış və ondan yardım istəmişdi. Qacar bəyi Rüstəmə yardım etsə də o, 1497-ci ilin yazında baş vermiş döyüşdə məğlub olmuş və ələ keçirilərək öldürülmüşdü. F.Sümerin qənaətinə görə, bu zaman Qacar tayfasının başında Ziyad bəy olmuşdu [44,54].

XV yüzilliyin son rübündə Şeyx Heydərin ətrafında toplanmış Qızılbaş tayfaları arasında Qarabağ Qacarları da xüsusi yer almışdı. İ.P.Petruşevskinin fikrincə, XV yüzilliyin sonunda qızılbaş tayfalarına vaxtilə Ağqoyunlu tayfa birliyində olan Qacar (Ağcaqoyunlu Qacar – T.N.) türk tayfası da qoşulmuşdu [38,91]. Bu dövrdə Bayandurlu dövlətində daxili ziddiyyətlər daha da kəskinləşmiş və 1500-cü ildə dövlət iki yerə parçalanmışdı. Cənubi Azərbaycan, Arran (Qarabağ), Naxçıvan və Diyarbəkr sultan Əlvəndin, Ərəb İraqı, Fars və Kirman sultan Muradın əlində qalmışdı [37,179; 8,84].

Qacarların Azərbaycanın yerli tayfalarından olduğunu F.Sümerin belə bir fikri də təsdiq edir ki, Ərzincanda İsmayıl Səfəvinin ətrafında toplanan Qızılbaş tayfa əmirləri sadalanarkən onlardan Bayram bəy Qaramanlının, Piri bəy Qacarın və Hadim bəy Talışın Anadoludan olmadığının göstərilməsidir [44,21]. 1499-cu ildə İsmayıl Lahicanı tərk edib Ərdəbil istiqamətində hərəkət edən zaman onun yanındakı sadiq müridləri arasında Qara Piri bəy Qacar da olmuşdu. Zeynəlabdin Əli «Təkmilətül-əxbar» əsərində yazır ki, göstərdiyi igidliyinə görə «Tozqoparan» ləqəbini alan Qara Piri bəy Qacar İsmayıl tərəfindən 1501-ci ilddə sultan Əlvəndə qarşı göndərilən avanqard qüvvələrə rəhbər təyin edilmişdi [8,146].

XVI yüzilliyin başlanğıcında Qarabağ Azərbaycan Səfəvilər dövlətinin tərkibinə mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyi kimi daxil olmuşdu. Tarixşünaslığımızda Qarabağ bəylərbəyliyinin şah I İsmayıl dövründə (1501-1524) deyil, şah I Təhmasib dövründə

yarandığı və Ziyadoğlulardan Şahverdi xanın bəylərbəyi olduğu fikri əsaslı yer tutmuşdur. Şah I İsmayıl dövründə Qarabağ hakiminin kim olduğu məlum olmasa da, O.Əfəndiyevin yazdığı kimi, bu dövrdə Qarabağı Qacar tayfa əmirləri idarə etmişdi. Görünür, məhz bu dövrdə Qarabağda üstünlük Qaramanlılardan Qacarlara keçmişdi [11,64]. Anonim azərbaycanlı müəllif tərəfindən qələmə alınmış «Tarix-i aləmara-yi şah İsmayıl» adlı əsərdə İraqi-Ərəbin qızılbaş ordusu tərəfindən fəth olunması və I İsmayılın Xadim bəy Xüləfanı Bağdad hakimi təyin etməsi ilə əlaqədar olan 1508-ci il hadisələrindən bəhs edərkən əlavə edir ki, Səfəvi şahı aparılan mübarizədə fədakarlıq göstərmiş qızılbaş əmirlərini yüksək qiymətləndirmiş və onların övladlarını müxtəlif yüksək vəzifələrə təyin etmişdi. Anonim müəllif buna misal olaraq qeyd edir ki, I İsmayıl «Qarabağın və o sərhəddin bəylərbəyiliyini Qara Pirinin oğlu Rüstəm bəyə inayət etmişdi» [3,170; 28,166]. Bu məlumatdan aydın olur ki, I İsmayıl dövründə yaradılmış Qarabağ bəylərbəyiliyi ilk vaxtlar Qara Piri bəy Qacarın oğlu Rüstəm bəy Qacar tərəfindən idarə edilmişdi. Osmanlı müəllifi Heydər Çələbi öz «Rüznamə»sində Çaldıran döyüşündə öldürülən qızılbaş əmirləri arasında Gəncə və Bərdə valisi olan Sərdar bəy Qacarın adını çəkir [44,37]. Güman etməyə əsas vardır ki, Sərdar bəy Qacar da həmin nəslin nümayəndəsi olmuşdur. Çünki, Ziyadoğlu Qacar nəsli Qarabağ bəylərbəyiliyinə I Təhmasib dövründə bəylərbəyi təyin olunmuşdu. F.Sümerin fikrincə, Qacar boyunun başlıca obaları Ağcaqoyunlu, Axçalu, Şam Bayatı, Yivə və İyirmidördlü olmuşdu [44, s.183-184].

1547-ci ilin əvvəllərində Gürcüstan səfərindən dönən I Təhmasib Yevlaxda dayanmışdı. O.Əfəndiyev «Xülasət ət-təvarix»in verdiyi məlumata əsaslanaraq yazır ki, Gürcüstan yürüşündən qayıdan zaman I Təhmasib Şahverdi xan Ziyadoğlu Qacarın evinə düşmüşdü. Buradan o, Şirvanda üsyan qaldırmış olan Əlqas Mirzəyə qarşı Şahverdi xan Ziyadoğlunu digər əmirlərlə birlikdə göndərmişdi [10,84]. Şahverdi xan öz qüvvələri ilə Qəndəhar yürüşünə də qatılmış və bundan sonrakı mühüm hərbi səfərlərdə yaxından iştirak etmişdi. Görünür, bu dövrdə Şahverdi xan Qarabağ bəylərbəyi olmuşdu. Çünki, 1552-ci ildə Ərzurumda Osmanlı hakimi İsgəndər paşaya qarşı döyüşdə o, Qarabağ bəylərbəyi kimi xatırlanmışdı [10,93; 33,232].

Qarabağ bəylərbəyliyində Ziyadoğlu Qacarlar irsi hakim olmuş və Qarabağ xanlığının yaranmasına qədər, kiçik fasilələrlə 300 ilə qədər öz nəzarətində saxlamışdılar. Qarabağ bəylərbəyləri olan Ziyadoğlu Qacarlar haqqında çox mühüm məlumat şah II Abbas dövründə Qarabağ bəylərbəyi Murtuzaqulu xan Qacarın vəziri olmuş Məhəmməd Məsumun «Xülasət əs-siyar» əsərində verilmişdir. M.Məsum Ziyadoğlu Qacar nəslinin XVI yüzyilliyin 40-cı illərindən - XVII yüzilliyin 60-cı illərinə qədər, təxminən yüzillik tarixini öz əsərində işıqlandırmışdır. O, Ziyadoğlu nəslindən Şahverdi xan, İbrahim xan, Yusif Xəlifə, Məhəmməd xan, Mürşüdqulu xan, Məhəmmədqulu xan və Murtuzaqulu xanın fəaliyyətinə geniş yer vermişdir. Ziyadoğlu Qacar nəslinin Qarabağ bəylərbəyliyindəki fəaliyyəti yalnız M. Məsumun əsərində ətraflı şəkildə işıqlandırılmışdır. Müəllif Ziyadoğlu nəsli ilə bağlı yazır ki, Lahicanda olan Xəzər bəy şah I Təhmasibə öz oğlu Ümmət xanı təqdim etmişdi. Şah dövlətə xidmətdəki sədaqətini nəzərə alaraq ona «Ziyadoğlu» ləqəbini bağışlamışdı. Ümmət xanın ölümündən sonra onun oğlanları şahın sərəncamında olmuşdu. Onun oğlu Şahverdi xan Qarabağ bəylərbəyi təyin olunmuşdu [36,59].

Şahverdi xan Səfəvi sarayının siyasi həyatında əhəmiyyətli rol oynamışdı. Şah I Təhmasib 1547-ci ildə göstərdiyi tarixi xidmətləri nəzərə alaraq Şahverdi xana "sultan" titulu vermişdi. M.Məsum yazır ki, XVI yüzyilliyin 40-50-ci illərində Osmanlı-Səfəvi hərbi əməliyyatları zamanı Şahverdi sultanın hərbi hissələri Ərzurumu mühasirəyə alan İsgəndər paşanın qüvvələrini məğlub etmişdi. Düşmənin məğlub edilməsi Qızılbaş ordusuna növbəti qələbə qazanaraq İrəvanı öz əlində saxlamağa imkan vermişdi. Şah I Təhmasib bu xidmətinə görə, Şahverdi sultana «müsahib» titulunu vermiş, həm də Qarabağın dörd mülkü ilə yanaşı, Şəki əyalətinə daxil olan Danəki adlı yeri də ona bağışlamış və öz ehtiyacını daha yaxşı təmin etmək üçün Şirazdan lazım olan şeyləri alıb gətirməsi üçün min tümən illik məvacib verilməsini əmr etmişdi [36,59-60].

Şahverdi sultanın şahın əhatəsindəki yüksək zümrəyə daxil edilməsi və torpaq bəxşişləri alması (indi artıq onun 5 mülkü və xamesalə vergisini toplamaq hüququ vardı – T.N.), Qarabağ hakiminin şah sarayında mühüm nüfuz sahibi olduğunu göstərir. Şahverdi sultan 1568-ci ildə ölmüş, 3 oğlu qalmışdı. Onlardan biri – Xəlil xan hələ atasının sağlığında Astrabad bəylərbəyi və buradakı Qacar tayfasının başçısı olmuşdu. M.Məsum yazır ki, hazırda Astrabadda yaşayan qacarların bir hissəsi onun nəslindən olan mülazimlərdir. Şahverdi Sultanın ölümündən sonra onun digər iki oğlu – İbrahim xan və Yusif Xəlifə 1576-cı ilə kimi ardıcıl olaraq Qarabağ bəylərbəyi və buradakı qacarlara rəhbərlik etmişdi. Şah II İsmayıl Qarabağ qacarlarını, o cümlədən Ziyadoğlu nəslini özünün şəxsi düşməni hesab etmişdi. Çünki, Şahverdi sultanın tərəfdarlarının nəticəsində İsmayıl Mirzə atasına şübhəli bilinmiş və I Təhmasib tərəfindən Qəhqəhə qalasında 20 ildən artıq siyasi məhbus kimi saxlanılmışdı [36,60].

1576-cı ildə I Təhmasibin ölümü zamanı başlıca Qacar əmirlərindən biri Şahverdi Sultanın oğlu Yusif Xəlifə olmuşdu. O, Qarabağ bəylərbəyi və Sultanəli Mirzənin lələsi təyin edilsə də, şahın ölümü ilə bağlı hələ də Qəzvində qalmışdı. 1576-cı ildə Səfəvi taxt-tacı uğrunda mübarizə zamanı Yusif Xəlifə Ziyadoğlu II İsmayılın rəqibi olan Heydər Mirzənin tərəfini saxlamışdı. Buna görə də, II İsmayıl şah taxtına çıxdıqdan sonra Yusif Xəlifəni Qarabağ bəylərbəyi və Qacar tayfasının rəhbəri vəzifəsindən azad etsə də, Qarabağ bəylərbəyliyini digər Qızılbaş tayfasına vermədi. Bu zaman Yusif Xəlifə qardaşı oğlu Peykər Sultan tərəfindən öldürüldü. Şah bəylərbəyliyi ilk öncə Peykər Sultana, sonra isə İmamqulu xan Qacara verdi. Məhəmməd Xudabəndə dövründə 1580-ci ildə Peykər Sultan Şirvan bəylərbəyi təyin edildi və nəticədə Qacar əyanlarının bir hissəsi Şirvana köçərək orada torpaq mülkləri aldılar [38,122; 10,138,150].

1578-1590-cı illərdə Səfəvi-Osmanlı müharibəsi dövründə İmamqulu xan Qarabağ qoşunu ilə Azərbaycan uğrunda mübarizədə fəal iştirak etmişdi. Lakin 1588-ci ildə qızılbaşlar Arazın cənub sahillərinə çəkilmək məcburiyyətində qalmışdı. Bu zaman onlar arasında Qacar və İyirmidördlü tayfası da olmuşdu [10, s.150-151, s.158-160, s.197-199; 11,65].

F.Sümer yazır ki, II İsmayıl və Məhəmməd Xudabəndə dövründə Qacarlar yenə Qarabağ bölgəsindəki yurdlarında yaşayırdılar. Bu zaman Qarabağ bəylərbəyi olan İmamqulu xan Osmanlı qüvvələri ilə vuruşaraq yurdunu qorumuş, Fərhad paşa ordusunun Qarabağı işğal etməsindən sonra tayfasının bir qismi ilə Arazbara çəkilmişdi. O, Qacarların Yivə obasından idi. Osmanlı işğalı zamanı Qarabağda Qacarlar, Otuziki, Qazaxlar, İyirmidördlü, Qaramanlı və digər tayfalar yaşayırdı. Qarabağın Osmanlı idarəçiliyinə keçməsi nəticəsində qacarların bir hissəsi Osmanlı hakimiyyəti altında qalmaq istəməyərək Arazın cənubundakı Səfəvi torpaqlarına köç etdilər [44,145].

İmamqulu xan Qacar özünün böyük sərkərdəlik qabiliyyəti göstərmiş, Osmanlı ordusuna qarşı on ildən artıq mübarizə aparmışdı. Onun 1587-ci ildə Gəncədə ölümündən sonra Məhəmməd xan Ziyadoğlu Qacar Qarabağ bəylərbəyi təyin olundu. Şərəf xan Bidlisinin yazdığına görə, 1588-ci il sentyabrın 1-də Fərhad paşa Gəncəni ələ keçirən zaman Məhəmməd xan Ziyadoğlu ətrafdakı 40-50 min evdən ibarət olan ulusunu Araz çayının kənarına köçürmüşdü. Fərhad paşa qacarları burada da rahat buraxmamış və sentyabrın sonunda Arazbara yürüş edərək, onları və qoyun sürülərini qarət etmişdi [7,294; 22,370; 31,50].

Bütün bu məlumatlar bir daha təsdiq edir ki, Qarabağ bəylərbəyliyini irsi olaraq Ziyadoğlu Qacar nəsli idarə etmişdi. Şahverdi Sultanın nəvəsi Astrabadlı Xəlil xanın oğlu Məhəmməd xanın dövründə Ziyadoğlu nəsli Osmanlı ordusu tərəfindən təkcə Şirvandan deyil, həm də Qarabağdan çıxarılmışdı. Beləliklə, Qacarlar Qarabağı tərk edərək Ərdəbil bölgəsində məskunlaşmışdılar [38, s.122-123].

Lakin Ziyadoğlu Qacarlar Qarabağın Osmanlı ordusu tərəfindən işğal edilməsi ilə barışmamışdılar. Məhəmməd xan Qacar 1589-cu ildə Qarabağa yürüş edərək Gəncə şəhərini mühasirəyə almışdı. Bundan xəbər tutan Təbriz mühafizi Cəfər Paşa şah I Abbasa elçi göndə-

rərək sülh danışıqlarının başlandığı bir dövrdə bu hadisənin yol verilməz olduğunu bildirməsi öz nəticəsini vermişdi. Səfəvi şahı sultan III Muradla sülh danışıqlarının başlandığını nəzərə alaraq Məhəmməd xan Qacarı Gəncə mühasirəsindən geri çağırmışdı [22,378].

Şah Abbas 1603-cü ildə Osmanlı ordusu tərəfindən tutulmuş əraziləri geri almaq üçün hərbi əməliyyatlara başlayan zaman Hüseyn xan Qacarı da Qarabağ üzərinə yürüşə göndərmişdi. Osmanlı idarəsində qalmış qacarların demək olar ki, hamısı Hüseyn xan Qacara qoşulmuşdu. 1606-cı ildə qızılbaşlar tərəfindən Gəncənin ələ keçirilməsi ilə Qarabağ ərazisi osmanlılardan tamamilə azad edilmişdi. Lakin Hüseyn xan Qacar Qarabağ əhalisinin şikayəti nəticəsində gözdən düşdüyünə görə, Qarabağ bəylərbəyliyi yenə Ziyadoğlulardan Xəlil xanın oğlu Məhəmməd xana verilmişdi.

Qarabağın Ziyadoğlu nəslinin irsi mülki olduğunu bu fakt da təsdiq edir ki, şah I Abbas tərəfindən Qarabağ azad edildikdən sonra, onun idarəsi yenidən Ziyadoğlu nəslinin əlində qalmışdı. Bu nəsildən olan Hüseyn xan Qacar, sonra isə Məhəmməd xan Qacar ikinci dəfə bəylərbəyi təyin edilmişdi. 1614-cü ildə Kartli-Kaxetidə şah rejiminə qarşı üsyana Gəncə əhalisi də qoşulmuş və Məhəmməd xan üsyançılar tərəfindən öldürülmüşdü. Bundan sonra Qarabağı Məhəmməd xanın oğlanları Mürşüdqulu və Məhəmmədqulu xan idarə etmişdi. M.Məsumun yazdığına görə, şah I Abbasın hakimiyyətinin son illərində Məhəmmədqulu xan Ziyadoğlu Qacar iftiraların qurbanı olmuş və o, bəylərbəyi vəzifəsindən azad olunmuşdu. Bu hadisə təkcə Məhəmmədqulu xan Qacara qarşı yönəlmiş bir akt olmamışdı. Burada şah I Abbasın qüdrətli Qızılbaş hərbi-köçəri əyanlarına qarşı yönəlmiş siyasətini də göz önünə almaq lazımdır. 1627-ci ildə I Abbas tərəfindən Mə-həmmədqulu xan tutduğu vəzifədən azad edilmiş, Ziyadoğlu nəsli Qarabağ bəylərbəyliyindən uzaqlaşdırılmış və onu şah qulamlarından olan sərkərdə Allahverdi xanın oğlu Davud xan əvəz etmişdi. Mənşə etibarilə qacarlara yad olan Davud xan, həm də Qarabağdakı Qacar tayfasının başçısı təyin olunmuşdu [38,123]. Görünür bu tədbir Qacar tayfa əyanlarını zəiflətmək məqsədi güdmüş və bu tayfaya məxsus qoşunu mərkəzi şah hökumətinin itaətkar alətinə çevirməyə yönəldilmişdi. I Abbasın ölümü ərəfəsində vəzifədə yalnız iki Qacar əmirinin olması onların nə qədər gözdən düşmüş olduğunu göstərir. Bunlardan biri Çuxursəd bəylərbəyi Əmirgünə oğlu Təhmasibqulu xan və digəri Bərdə valisi iyirmidördlü Peykər xan idi.

M.Məsumun verdiyi məlumata görə, 1632-ci ildə şah Səfi Davud xanı mərkəzi hakimiyyətə qarşı qiyam qaldırmış Teymurazı müdafiə etdiyinə görə hakimiyyətdən uzaqlaşdırmış və Qarabağ bəylərbəyliyini yenidən Ziyadoğlu nəslindən olan Məhəmmədqulu xana qaytarmışdı. Məhəmmədqulu xan şahın hüsnü-rəğbətini qazanaraq 1633-cü ildə kürdlərin qiyamının yatırılmasında yaxından iştirak etmiş və 1635-ci ildə isə İrəvan yaxınlığındakı hərbi əməliyyatlar zamanı şah ordusuna uğurla rəhbərlik etmişdi. Məhəmmədqulu xan ölümünə kimi Qarabağ bəylərbəyliyini idarə etmişdi. Ondan sonra bəylərbəyliyi qardaşı Murtuzaqulu xan idarə etmişdi. Murtuzaqulu xan 1664-cü ildə ölmüş və onu qardaşı oğlu I Uğurlu xan əvəz etmişdir [38, s.123-124; 36,61; 31,51]. Şah II Abbas dövründə Qacarların İyirmidördlü obasından Hüseyin Əli bəy ilə Peykər xanı tanıyırıq. Bərdə valisi olan Peykər xanı Şah Səfi dövründə İbrahim xan əvəz etmişdi. İbrahim xan sonra Bərdə valiliyindən azad edilmiş və elçi kimi İstanbula göndərilmişdi [38,188].

Yuxarıda qeyd etdiyimiz kimi, Qarabağ Qacarları Azərbaycanın milli dövlətçilik tarixində çox böyük xidmətləri olan qədim türk tayfalarından biri olmuşdu. Tarixi qaynaqlar göstərir ki, XVI yüzyilliyin əvvəllərindən başlayaraq Nadir xan Əfşarın şah seçilməsinə kimi Qacarlar demək olar ki, fasiləsiz olaraq Gəncə-Qarabağ bəylərbəyliyində bəylərbəyi vəzifəsini tutmuşdular. Bəzi vaxtlarda Gəncə-Qarabağ bəylərbəyləri hətta, Şərqi Gürcüstanın idarəsini də öz əllərinə almışdılar [1,30]. Səfəvi şahı Süleyman (1666-1694) Kaxeti çarlığının idarəsini özünün etibarlı adamlarından olan Gəncə bəylərbəyi Abasqulu xan Qacara (1688-1695) tapşırmışdı. Abasqulu xanı isə Kəlbəli xan Qacar (1695-1710) əvəz etmişdi. Abasqulu xanın atası Həbib, Kəlbəli xanın atası isə Uğurlu xan Qacar olmuşdu [13,69]. Şah Hüseynin hakimiyyəti dövründə də (1694-1722) Qacar tayfa əmirləri Kaxetiyə hakim təyin edilmiş və 8 il oranı idarə etmişdilər [2, s.586,588].

Orta yüzilliklərdə Qarabağ ərazisi öz təbii şəraiti, əlverişli iqlimi, şəffaf suları, meşə örtüyü, yeraltı sərvətləri və eyni zamanda nadir otlaqları, ovlaqları ilə zəngin olan tarixi bir vilayət kimi o dövr hökmdarlarının həmişə diqqət mərkəzində olmuşdu. Kür və Araz çayları ilə suvarılan Qarabağ torpaqlarında bol taxıl, meyvə-tərəvəz, bostan bitkiləri, üzüm və s. becərilirdi. XV yüzilliyin əvvəllərində Əmir Teymurun Qarabağda abadlıq işləri aparması, ilk növbədə Beyləqana su arxı çəkdirməsi burada təsərrüfatın daha da inkişaf etməsinə səbəb olmuşdu. Ov zamanı xarab olmuş qədim kanala rast gələn Əmir Teymur onun təmizlənməsi barədə göstəriş vermiş və kanal bir ay ərzində bərpa edilmişdi. Bu kanal öz başlanğıcını Araz çayından alıb Beyləqanda Sərcəbil adlı yerdə Pir-kamar məzarı yaxınlığında qurtarırdı. Uzunluğu təxminən 60-70 km olan həmin kanal Teymurun göstərişi ilə «Bərlas nəhri» adlandırıldı [40, s.106-107]. Qarabağın dağlıq və dağətəyi əraziləri heyvandarlığın inkişafı üçün geniş imkanlar açırdı. Qarabağ öz ipəyi ilə də məşhur idi. Səyyah İohann Şiltberger Qarabağda Kür çayının sahillərində dünyada ən yaxşı ipəyin istehsal olunduğunu yazmışdı [45,67].

XV-XVII yüzilliklərdə Azərbaycan ərazisindən keçən baş ticarət yolunun mühüm qolu Qarabağdan keçirdi. Qarabağ ticarət yolu Bəkrəbad kəndindən keçərək Araza çatır, sonra isə Qarabağ ərazisinə daxil olurdu. Araz sahilindən Gəncəyə kimi olan 34 fərsəxlik (210-220 km) yol Xar, Qark, Ləmbəran, Bazarcıq, Bərdə, Cuzbuq, Xanəgah-Şutur kimi ticarət mərkəzləri və yaşayış məskənlərindən keçirdi. Daha sonra bu yol Şəmkir, Yurt-Şadakban, Ağstafanı keçib Tiflisə çatırdı. Qarabağ yolunun ümümi uzunluğu 45 fərsəx (280-300 km.) olmuşdu [40,107].

Qarabağ əhalisi və onun etnik tərkibi haqqında ən mühüm məlumat 1593-cü ildə Osmanlı maliyyə məmuru İmamzadə Mehmed tərəfindən tərtib olunan «Gəncə-Qarabağ icmal dəftərin»də verilmişdir. *«İcmal dəftəri»nin* tarixi toponimlərimiz, o cümlədən, Qarabağ bəyləribəyiliyinə məxsus kəndlərimiz, qışlaq və yaylaqlarımız barədə verdiyi məlumatlar olduqca qiymətlidir.

*«İcmal dəftəri»*nin verdiyi məlumatdan aydın olur ki, XVI əsrin sonunda Səfəvi – Osmanlı müharibəsinin (1578-1590) gedişində Azərbaycanın əksər əraziləri, o cümlədən Qarabağ bəylərbəyiliyinin də Osmanlı hakimiyyəti altına keçməsi ilə bəylərbəyilikdə yaşayan yerli əhalinin böyük bir hissəsi ata-baba torpaqlarını tərk etmək məcburiyyətində qaldı. Əhalinin bir hissəsi, həmçinin Dağlıq Gəncə və Axıstabad sancağında yaşayan qızılbaş *Zülqədər tayfasından* olan *Şəmsəddinli camaatı, Qacar, Qaramanlı, Bayat tayfalarının bəzi oymaqları* digər qızılbaş tayfalarından fərqli olaraq yaşadığı bölgəni tərk etməyərək *Qazaxlılar* kimi Osmanlı hakimiyyətini qəbul etdi.

İstər XVI əsr boyunca, istərsə də XVII əsrdə Osmanlı – Səfəvi qarşıdurmasında məqsəd kimi irəli sürülən siyasi maraqlarla yanaşı, hər iki dövlətin dini-təriqət maraqları da mühüm vasitə kimi ön plana çəkilirdi. İki əsrə yaxın bir dövr ərzində müəyən fasilələrlə osmanlıların hərbi üstünlüyü nəticəsində ələ keçirilən Azərbaycan torpaqlarında Osmanlı müftilərinin müharibələrdən əvvəl şiəliklə bağlı verdikləri fitfaların gerçəkləşdirilməsi üçün müvafiq şərait yaranırdı [16,14].

Döyüşlər zamanı insan tələfatı və əsir düşənlərlə yanaşı, Səfəvi dövlətinin ayrı-ayrı bölgələrində o cümlədən, Gəncə – Qarabağ əyalətində şiə əhalinin qonşu Şirvan və Təbriz əyalətlərinə köçləri baş verirdi. Şiə təriqətindən olan bu köçkünlər qonşu əyalətlərə köç etməklə həm öz təriqətində qalma fürsəti tapır, həm də təriqətini dəyişmədiyinə görə Osmanlı müftilərinin fitvalarının onlara qarşı tətbiq edilməsindən xilas olurdular. Osmanlı idarəsində qalan və köçə bilməyən əhali isə üzdə təriqətini dəyişməklə vəziyətdən çıxa bilirdi. Lakin Səfəvilər osmanlıları tutduqları ərazilərdən çıxardıqdan sonra təriqətlərini dəyişmiş insanlar təkrar əvvəlki təriqətlərinə dönsələr də, səfəvilərin və osmanlıların yenə də sərt münasibətləri ilə üzləşirdilər. Səfəvilər həmin şəxslərə mənəvi zərbə olan «dönük» damğası vurur, osmanlılar isə cərimə tətbiq edərək onlara qeyri-müsəlmanlardan aldıqları baş vergisi olan «bədəli-cizyə» vergisini ödətdirirdilər [16,14].

Səfəvi – Osmanlı müharibəsi zamanı bölgədə yaşayan müsəlman şiə əhali doğma torpağını tərk etdiyi üçün icmal dəftərində bəzi kəndlərdə insanların yaşamadığı, kəndlərin boş olduğu gös-tərilir. XVI əsrdə ərzində bölgədə baş verən hərbi-siyasi proseslər nəticəsində əhalinin miqrasiyası, onun yerləşməsi və etnik strukturunda müəyyən dəyişikliklər baş vermişdi. Lakin əsrin sonynda Osmanlı – Səfəvi qarşıdurması zamanı baş vermiş əhalinin məcburi miqrasiyasının nəticələri daha ağır olmuşdu [16,14]. XVI əsrin sonlarında Osmanlı tarixçisi İbrahim Rəhimizadə yazırdı ki, Azərbaycanı ələ keçirmək üçün osmanlılara köməyə gələn Krım xanı Qazi Gəray qoşunu ilə Gəncə – Qarabağ əyalətinə soxularaq Gəncə ilə Bərdə arasındakı ərazidə talanla məşğul olmuş, geri dönəndə isə 30 minə qədər adamı əsir aparmışdı [16,15]. Təbrizli Arakel də, Krım tatarlarının Gəncə, Bərdə, Çalaberd, Xaçın və Dizağı talan etdiklərini qeyd edir [5,466]. İ.Rəhimizadə özünün «Gənciney-i fəth-i Gəncə» adlı əsərində yazır ki, 1588-ci ildə Gəncə – Qarabağ bəylərbəyi Ziyadoğlu Məhəmməd xan Osmanlı ordusunun Gəncə şəhərinə yaxınlaşmasından beş-on gün əvvəl tabeliyində olan 40-50 min evdən artıq ulusunu, mal-mülkünü toplayaraq əyalətdən çıxardı və Araz çayını keçərək Qaradağda yerləşdirdi [14,196]. İ.Rəhimizadə sözünə davam edərək yazır ki, bu zaman Qəncə – Qarabağ əyalətinin qeyri-müsəlman olan məlikləri gəlib osmanlılara itaətini bildirdilər və bunun müqabilində öz vəzifələrində qalmaqla yanaşı, həm də yeni torpaqlar aldılar [14,199].

Qarabağ bəylərbəyiliyinin əhalisinin əsas hissəsini qədim yerli tayfalar – Azərbaycan türkləri təşkil edirdi. Bu dövrdə xalqın vahid bir etnos kimi formalaşması çoxdan başa çatdığından əvvəllər etnik mənsubiyyəti müəyyənləşdirməkdə mühim rol oynayan tayfa adları tədricən sıradan çıxır, bunun əvəzində daha çox «müsəlman» və yaxud «türk» terminləri işlədilirdi. Bununla belə haqqında bəhs etdiyimiz *«İcmal dəftəri»ndə Qaramanlı, Qacar, Hacılı, İyirmidördlü, Otuzikili, Cavanşir, Kəsəmənli, Göycəli və Şəmşəddinli* kimi qədim Azərbaycan türk tayfalarının adına tez-tez rast gəlmək mümkündür.

*«İcmal dəftəri»*nin Qarabağın əhalisi və onun etnik tərkibi haqqında verdiyi məlumatlar mühüm əhəmiyyət kəsb edir. Dəftərdə osmanlı işğalı zamanı (1588-1606) Qarabağı tərk etməyərək osmanlıların hakimiyyəti altında qalan *Qacar* tayfasına məxsus 8 oymağın adı çəkilir:

1. *Qaraca-Sevgülən* – Bərdə nahiyəsində, 2. *Qaytaq* – Bərdənin Sir nahiyəsində və Xaçın sancağının Çalaberd nahiyəsində, 3. *Qolsuzlu* – Bərdənin Sir nahiyəsində, 4. *Ağcaqoyunlu* – Xaçının Çalaberd nahiyəsində, 5. *Gəngəldili* – həmin ərazidə, 6. *Əylənli* – yenə həmin yerdə, Bərdə və Gəncə ətrafında, 7. *Şam Bayatı* – Xaçının Çalaberd nahiyəsində, 8. *Yıva-Qacar* - Qaraağacda və Gəncə sancağında yaşayırdı [23, s.206-207].

Dəftərdə Qarabağın *Qaramanlı* tayfasına məxsus üç oymağın adı çəkilir: Şəmkir Aranı nahiyəsində və Gəncə vilayətinin Axıstabad sancağında *«qədimdən Qaramanlı və Kəsəmənli camaatı yaşayırdı»*. Axıstabad Aranı nahiyəsinin Yalnızağac kəndində *qaramanlı camaatı*, Xanlıq kəndində isə *Qaramanlı tayfasının Rüstəmbəyli camaatı* yaşayırdı. Həkəri sancağında və Dizaqda *Sorluk tayfası, Hacı-Vacardıki və Hacı-Tırnagerd camaatı* yaşayırdı. Gəncənin şimal-qərbində, Tovuz və Şəmkir Aranı nahiyələrində *şəmsəddinlilər,* həmin nahiyənin Xınam arxı kəndində isə həmin tayfanın *Qapanlı camaatı* yaşayırdı [23, s.206-208].

«İcmal dəftəri»ndə Gəncə vilayətinin Qaraağac bölgəsində yaşayan Hacılı tayfasına məxsus 31 oymağın adı öz əksini tapmışdır: *1. Əlişarlı, 2. Bukavullu, 3. Canılı, 4. Çıraclı, 5. Davılı, 6. Davudlu, 7. Dəmirçilər, 8. Ton-Əli, 9. Əmir Alyanlı, 10. Əmir Həsənli, 11. Qazili, 12. Hindimallı, 13. Xəlifəli, 14. İsabəyli, 15. İsmail-Qazılı, 16. Qədim İsmailli, 17. Kağan Ərli, 18. Qara Sofilu, 19. Kərəməddinli, 20. Qoruqçulu, 21. Qoyunlu Mahmud, 22. Qul Mahmudlu, 23. Kürələr, 24. Mirxanili, 25. Sarsarlı, 26. Sazağanlı, 27. Səməli, 28. Səməli-yi Artuc, 29. Sökəli, 30. (Oxunmur), 31. Törəli* [23, s.208-209; 35, s.245-246].

«İcmal dəftəri»nə görə Gəncə vilayətinin Arasbar, Qaraağac, Bərdə və Şütur nahiyələrində *«Otuzikili»* tayfası yaşayırdı: 1. *Atlucalı* – Bərdədə, 2. *Padar* – Arasbarda, *Keştasf nahiyəsində,* 3. *Bay Əhmədli* – Qaraağacda və Xaçın nahiyəsində, 4. *Buğdayüzü* – Qaraağacda, 5. *Cancanlı* - Arasbarda, 6. *Cavanşir* – Arasbarda, 7. *Dögərli* – Arasbarda, 8. *Həsirli* – ərazi göstərilməyib, 9. *Hüseyinli* – Arasbarda, 10. *Kəpənəkçi* – Yevlaxda, 11. *Kır-*

qallı – Ağcabədidə, 12. *Əski – Kumanlı* – ərazi göstərilməyib, 13.*Yeni - Kumanlı* – ərazi göstərilməyib, 14. *Lalə – Bükili* – Gəncədə, 15. *Maqsudlu* – Xaçın sancağının Çalaberd nahiyəsində, 16. *Maqsudlu-Bəzirganlı* – Nəhri Hakda (Torpaq – Arx), 17. *Maqsudlu-Həmidli* – Qaraağacda, 18. *Məhəmmədşahlı* – Şütur nahiyəsində Həmzəli yaxınlığında, 19. *Molla Əbdülcəlilli* – Gəncə Aranı nahiyəsində, 20. *Molla Əbdülməcidli* – Xaçında, 21. *Müqəddəmli* - Arasbarda, 22. *Sarıhacılı* - ərazi göstərilməyib, 23. *Silkəli* – Arasbarda , 24. *Şirvanşalı* – Bərdədə, Arasbarda, 25. *Üç Oğlan* – ərazi göstərilməyib, 26. *Yay – Okçu* – Bərdədə, 27. *Veysəlli* – Çalaberddə yaşayırdı [23, s.211-212; 35,246]. F.Kırzıoğlu bu tayfaya məxsus yerdə qalan beş oymağın adını qeyd etməsə də, F.Sümer *Əhmədli, Göyçəli, Qaraqoyunlu və Ozan* oymaqlarının da *Otuzikililərdən* olduğunu göstərir [43,198].

Qarabağ düzündə, Bərdədən cənubda yerləşən becərilən torpaqlar «*Otuzikili»lərin* adı ilə bağlı olmuşdu. XVI əsrdə bu ərazi xırda Azərbaycan tayfalarının yaratmış olduğu birliyin irsi mülkü olmuşdu. Bu birliyə daxil olan Cavanşir oymağı bu tayfaların irsi başçısı kimi tanınmışdı. İsgəndər bəy Münşinin 1628-ci il qızılbaş əmirlərinin siyahısında *«Cavanşir, Otuzikili tayfasının və Qarabağ əmirlərinin başçısı Otar Sultan»* qeyd edilmişdir [39,136; 11,67; 35,246].

Qarabağın *«İyirmidördlü»* tayfası da Azərbaycan türk tayfalarının süni birliyi kimi yaranmışdı. Bəhs olunan Osmanlı icmal dəftərində bu tayfaya məxsus 24 oymağın adı çəkilir: 1. *Əlişarlı* – Bərdə vilayəti Sir bölgəsində, 2. *Alpaut* – Gəncə vilayətinin Yevlağ nahiyəsində, ayrıca Bərdənin Sir nahiyəsində, 3. *Bəxşeyişli* – Şütur nahiyəsində, 4. *Bəxtiyarlı* – Qaraağacda, 5. *Dərəbəyli* – Yevlağ nahiyəsində, Qaraağacda, 6. *Gədə Əhmədli* – Yevlağ nahiyəsində, 7. *Gökçəli* – Yevlağda, 8. *Molla Əlili* – Yevlağ və Bərdədə, 9. *Pir Mahmudlu* – İncərud nahiyəsində, 10. *Sarıhacılı* – Çalaberd nahiyəsində, 11. *Seydi – Zəng* – Yevlağda, 12. *Tobulu* – Sir nahiyəsində, 13. *Tokacılu* – Yevlağ nahiyəsində və Bərdədə, 14. *Tərəli* – Bərdədə, 15. *Yollu* – Qaraağacda, 16. *Varvara* – ərazi göstərilməyib, 17. *Yasavullu* - İncərud nahiyəsində, 18. *Zənd* – Yevlağ nahiyəsində [21, s.213-214]. Tür-kiyə tarixçisi F.Kırzıoğlu öz əsərində *«İyirmidördlü»*lərin 18 oymağının adını qeyd etmişdir [21, s.213-214]. H.Məmmədov isə icmal dəftərində bu tayfaya aid olan daha 6 oymağın – *Dördlər, Dürhəsənli, Ərəbli, Göyçəliyi – Varvara, Xəlləcan və Dədəxəlillinin* adını qeyd edir [21, s.213-214; 16,20].

«İyirmdördlü» adlı inzibati dairə Tərtər çayı boyunda yerləşirdi və mərkəzi Bərdə şəhəri idi. Şərəf xan Bidlisinin verdiyi məlumata görə, bu tayfa birliyi Şah Təhmasib dövründə yaranmışdı və Əhməd bəy Portal oğlu İyirmidörlü tayfa birliyinin başçısı təyin edilmişdi [7,370; 34,247]. İsgəndər bəy Münşinin 1628-ci il əmirlər siyahısından bəlli olur ki, Şah Abbasın hakimiyyətinin sonlarında Ziyadoğlu nəslindən olan Peykər xan Qacar *iyirmidördlülərin* xanı titulunu qazanmış və Bərdə hakimi olmuşdu [39,135; 35,247]. Şərəf xan Bidlisi isə «Şərəfnamə» əsərində kürd tayfalarının bir çoxunun adını qeyd etdikdən sonra yazır ki, «digər iyirmi dörd kürd tayfası Qarabağın Aranında yaşayır və «iyirmidörd» ümumi adı altında tanınırlar» [7,370]. «Gəncə – Qarabağ əyalətinin icmal dəftəri»ndə *İyirmidördlülər* haqqında daha dolğun məlumat olduğundan bu fikrin yanlış olduğunu söyləmək mümkündür. *Qacarlar, Qaramanlılar, Şəmsəddinlilər, Hacılılar və Otuzikililərin oymaq-ları* haqqında da ətraflı məlumat verilən bu mənbədə *İyirmidördlü* tayfasının bütün 24 oymağı, Bərdə, Sir, İncərud, Çalaberd, Şütur, Qaraağac, Yevlağ və Pətəklik nahiyələrində qışlaqlarının olması barədə məlumat verilir. *«İcmal dəftəri»ndə* iyrmidördlülərin heç bir oymağının kürd olduğu qeyd olunmayıb. Onların Qarabağ tərəkəmələri olduğu xüsusi olaraq vurğulanmışdır.

Qeyd etmək lazımdır ki, Osmanlı mənbələrində, xüsusən də *«icmal»* dəftərlərində müsəlmanlardan yalnız kürdlərin etnik mənsubiyyətləri qeyd olunurdu. *«Gəncə – Qarabağ əyalətinin icmal dəftəri»*ndə *«iyirmidördlü»*lərlə bağlı verilən məlumat Şərəfxan Bidlisinin fikirlərinin yanlış olduğunu bir daha sübut edir.

Ümimiyyətlə, XVI əsrin sonuna kimi Gəncə – Qarabağ əyalətində kürdlərin yaşamasını dövrün heç bir mənbəsi təsdiq etmir. Kürdlər Qarabağ bölgəsinə XVI əsrin sonunda – Osmanlı – Səfəvi müharibəsinin gedişində yerləşdirilmişdi. Çünki, Osmanlı ordusu Qarabağ bəylərbəyliyini ələ keçirən zaman yerli türk – müsəlman şiə əhali Osmanlı hakimiyyətini qəbul etməyərək yaşadığı ata-baba yurdlarını tərk etmişdi. Sultan III Murad isə işğal olunmuş bölgələrdə özünə sosial dayaq yaratmaq məqsədilə Diyarbəkrdən və Dəclə çayı sahillərindən sünni kürdləri köçməyə məcbur olmuş şiə məzhəbli Azərbaycan türklərinin – qızılbaşların torpaqlarında yerləşdirirdi [22, s.437-438].

Osmanlılar tərəfindən tərtib edilən 1593-cü il *«icmal dəftəri»nin* təsdiq etdiyi kimi Gəncə – Qarabağ əyaləti Azərbaycan turklərinin, onlara məxsus tayfa və oymaqların yurdu olmuşdur. Oturaq həyat tərzi ilə yanaşı, yaylaq-qışlaq maldarlığı ilə məşğul olan Azərbaycan türkləri bu bölgənin əzəli sahibi olmuşdur. *«İcmal dəftəri»ndə* qeyd olunan yaşayış məntəqələrinin, kəndlərin, yaylaq və qışlaqların, yer adlarının türk mənşəli olması fikrimizi bir daha təsdiq edir.

Qarabağ bəylərbəyliyi Səfəvi imperiyasının on üç inzibati vilayətindən (bəylərbəyliyindən) biri olmuşdu. Bu vilayətin daxilində dairələr (mahallar) mövcud olmuşdu. Dairələr çox zaman ölkə (feodal mülkü) kimi tayfa başçılarının irsi mülkiyətində olmuşdu. O.Əfəndiyevin qeyd etdiyi kimi, Qarabağ bəylərbəyliyinin dəqiq sərhədlərini müəyyən etmək çətin olsa da, təxmini olaraq onun tarixi Arran vilayətini, yəni Kür və Araz çayları arasındakı ərazini əhatə etdiyini söyləmək müm-kündür. XVI-XVII yüzilliklərdə Qarabağ bəylərbəyliyinin tərkibinə mərkəzi Gəncə olan Axstabad, Cavanşir, Bərguşad, Qazax və Şəmşəddil dairələri daxil olmuşdur [39,134; 11, s.68-69]. Səfəvi imperiyasının dövlət quruluşu məsələlərinə həsr olunmuş «Təzkirətül-müluk» adlı əsərdə Qarabağ bəylərbəyliyinin coğrafi vəziyyəti, inzibati bölgüsü və iqtisadi vəziyyəti haqqında maraqlı məlumatlar verilmişdir. Burada Qarabağ bəylərbəyliyinə daxil olan və hakimlər tərəfindən idarə olunan 9 nahiyyənin adları sadalanır və onların iqtisadi və hərbi vəziyyəti haqqında mühüm statistik məlu-matlar verilir. Zəyəm hakimi 5998 tümən, 5980 dinar illik mədaxilə və 515 nəfərlik qoşuna Ağstafa hakimi 852 tümən 5930 dinar mədaxilə və 700 nəfərlik qoşuna, Cavanşir hakimi 2102 tümən 8000 dinar gəlirə və 832 nəfərlik qoşuna, Bərgüşad hakimi 341 tümən 2750 dinar gəlirə və 300 nəfərlik qoşuna, Qara-Ağac hakimi 636 tümən 5434 dinar gəlirə və 210 nəfərlik qoşuna, Lori və Pəmbək hakimi 1545 tümən 8434 dinar gəlirə və 550 nəfərlik qoşuna, Arazbar ölkəsinin və Bayəzidli elinin hakimi 601 tümən 8345 dinara və 300 döyüşçüyə, Simavi və Tərkür ölkəsinin hakimi isə 300 tümən 2945 dinara və 47 döyüşçüyə malik idi. Gəncədə oturan bəylərbəyinin illik mədaxili 8614 tümən 9435 dinar, xidmətində olan qoşunun sayı isə 1430 nəfər təşkil edirdi. Beləliklə Qarabağ bəylərbəyliyinin ümumi gəliri 24780 tümən 9988 dinar, daimi qoşununun ümumi sayı 6084 nəfər olmuşdu [27, s.76-78; 28, s.167-168]. Səfəvi dövrünün rəsmi dövlət quruluşu və inzibati bölgüsü haqqında ən dəyərli və mötəbər mənbə olan «Təzkirətül-müluk»da Qarabağ ərazisində hər hansı bir xristian məlikliyin mövcud olduğu qeyd edilməmişdir.

Beləliklə, XV-XVII yüzilliklərdə Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuş və Azərbaycan feodal dövlətlərinin tərkibində qalmışdı. Yuxarıda qeyd etdiyimiz kimi Qarabağ əhalisinin əsas hissəsini türk dilli Azərbaycan tayfaları və onun oymaqları təşkil etmişdi. Burada, həmçinin digər etnik qruplar (xristian albanlar və kürdlər) olsa da, onların rolu əhəmiyyətli səviyyədə olmamışdır.

Ədəbiyyat

1. Adıgözəl bəy M. Qarabağnamə, Qarabağnamələr. Birinci kitab. Bakı, 1989.
2. АКАК, Тифлис, 1868, т.2, с. 586, док. 166; с, 588, док.172.
3. Aləmara-ye şah Esmail (ba moqəddeme-yo təshih-o təliq-e Əsğər Montəzer Saheb). Tehran, 1349.
4. Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956.

5. Аракел Даврижеци. Книга историй. М., 1973.
6. Azərbaycan tarixi. Yeddi cilddə. Üçüncü cild, Bakı, 1999.
7. Бидлиси Шараф хан Шамсаддин. Шереф-наме. Перевод, предисловие, примечание, приложение Е.И.Васильевой, т.1, М, 1967.
8. Эфендиев О.А. Образование азербайджанского государства Сефевидов в начале XVI в. Баку, 1961.
9. Эфендиев О.А. «Всеобщая история Хафиза Абру как источник по истории Закавказья первой четверти XV в. – Источниковедческие разыскания 1979. Тбилиси, 1984.
10. Эфендиев О.А. Азербайджанское государства Сефевидов в XVI в. Баку, 1981.
11. Эфендиев О.А. Карабах в составе государств Каракойунлу, Аккойунлу и Сефевидов (XV-XVII вв.). /Карабах. Очерк истории и культуры. Баку, 2004.
12. Əbu Bəkr əl-Qütbü əl-Əhəri. Tarix-e Şeyx Uveys. Fars dilindən tərcümə və müqəddimə, şərhlər və qeydlər M.D.Kazımov və V.Z.Piriyevindir. Bakı, 1984.
13. Həmidova Ş. Gürcü mənbələri Gəncə haqqında.- Azərb. EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1999, №2.
14. Hərimi R.İ. Osmanlı qoşunlarının Azərbaycana yürüşləri (XVI əsrin sonu). Bakı, 2007.
15. Фасих Хавафи. Муджмали Фасихи. Перевод, предисловия и указатели Д.Ю.Юсуповой, Ташкент, 1980,
16. Gəncə – Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, 2000.
17. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, 1993.
18. Qarabağnamələr. Birinci kitab. Bakı, 1989.
19. Qarabağnamələr (üç kitabda), III Kitab, (tərtibçi və son sözün müəllifi N.F.Axundovundur). Bakı, 2006.
20. Qəzvini Həmdullah Mustofi. Zeyl-e Tarix-e qozide. Giriş, tərcümə, şərhlər və göstəricilər M.D.Kazımovun və v.Z.Piriyevindir, Bakı, 1986.
21. Kırzıoğlu F. Osmanlıların Kafkaz ellerini fethi (1451-1590), Ankara, 1976.
22. Kırzıoğlu F. 1593 (H.1001) yılı Osmanlı vilayet Tahrir Defterinde anılan Gence-Karabağ sancakları «Ulus» ve «Oymakları»- Edebiyat Fakültesi Araştırma Dergisi Ahmet Cafaroğlu Özel Sayısı, sayı 10, Ankara, 1979.
23. «Qızılbaşlar tarixi». Tərcümə və şərhlər M.Ə.Məhəmmədinindir, Bakı, 1993.
24. Qeybullayev Q.Ə. Qarabağ (etnik və siyasi tarixinədair). Bakı, 1990.
25. Хунджи Фазлуллах ибн Рузбехан. Тарих-и алам -ара-йи Амини. Перевод с английского на руский Т.А. Минорской. Баку, 1987.
26. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı: 2005.
27. Mirza Səmia. Təzkirətul-muluk (be kuşeş-e dr. S.M.Dəbirseyadqi). Tehran, 1368.
28. Musalı N. Səfəvilər zamanında Qarabağ bəylərbəyiliyinin yaradılması və onun inzibati quruluşu. «Qarabağ Dünən Bu Gün və Sabah» V Elmi-əməli konfransın materialları. Bakı, 2006.
29. Nesirov E. Abbasiler'den Safeviler'e Karabağ'ın Askeri-Siyasi Tarihine Bakış. SUTAD, 42, 2017, s. 409-436.
30. Nəcəfli T.H. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, 2000.
31. Nəcəfli T və Nəcəfli G. XVI-XVIII yüzilliklərdə Qacarların Azərbaycanın siyasi həyatında rolu. Şah İsmayıl Xətai. Elmi –praktik konfransın materialları, Bakı, 2006, s. 47-54.
32. Najafli T, Najafli G. Role of Qajars in Azerbayjans politikal life in XVI-XVII centuries. Азербайджан и азербайджанцы. Баку, 2006, №1-4, p.137-147.

33. Nəcəfli T. Ziyadoğlu Qacarlar Qarabağda. «Qarabağ dünən bu gün və sabah» V Elmi-əməli konfransın materialları. Bakı, 2006, s.230-235.
34. Nəcəfli T. Qarabağ XV yüzillikdə. «Qarabağ dünən, bu gün və sabah» 6-cı elmi- əməli konfransının materialları. Bakı, 2007, s. 309- 319.
35. Nəcəfli T. Qarabağ XVI əsrdə. «Qarabağ dünən, bu gün və sabah» 7-ci elmi- əməli konfransının materialları. Bakı, 2008, s. 237-248.
36. Павлова И.К. Хроника времен Сефевидов. Москва, 1993.
37. Петрушевский И.П. Государства Азербайджана в XV в.- Сб. статей по истории Азербайджана, вып.1, Баку, 1949.
38. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI -начале XIX в.в., Л., 1949.
39. Петрушевский И.П. Государство Азербайджана в XVI-XVII вв. Сб. статей по истории Азербайджана. Вып. 1, Баку, 1949
40. Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003.
41. Рашид ад-дин Фазлуллах. Джами ат-таварих. т.III. Составитель научно-критического текста на персидском языке- А.А.Али-заде. Первод с персидского языка А.К.Арендса. Баку, 1957.
42. Sədiyev Ş.M. Qarabağən mənası. “Elm və Həyat” jurnalı, №3, Bakı, 1963.
43. Sümer F. Kara Koyunlular. I cilt, Ankara, 1967.
44. Sümer F. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolu. Ankara, 1976.
45. Щильтбергер Иоганн. Путешествие по Европе, Азии и Африке с 1394 года по 1427 год. Баку, 1984.
46. Tehrani Əbubəkr. Kitab-i Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi Rahilə Şükürova, Bakı, 1998.
47. Toğan Z.V. Azerbaycan etnografisine dair, «Azerbaycan Yurt Bilgisi», c. II, sayı 14, İstanbul, 1933.

QARABAĞ XANLIĞI

Emiliya Əliyeva
AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun
böyük elmi işçisi, t.ü.f.d., dosent
e-mail: emiliaaliyeva11@gmail.com

Xülasə: Məqalədə Pənahəli xan Cavanşirin (1747-1763) qurduğu Qarabağ xanlığından bəhs olunmuşdur. 21 mahaldan ibarət olan bu xanlıqda Pənahəli xanın hakimiyyəti illərində Bayat, Şahbulaq və Şuşa kimi qalalar tikildi. Bunun sayəsində Şəki hakimi Hacı Çələbi xanın, Astrabad və Mazandaran hökmdarı Məhəmməd Həsən xan Qacarın və Urmiyalı Fətəli xan Əfşarın Qarabağı ələ keçirmək cəhdləri uğurla dəf edildi. Qarabağ xanlığının müdafiə qabiliyyətinin gücləndirilməsini Pənahəli xanın varisi İbrahimxəlil xan (1763-1806) davam etdirdi. İbrahimxəlil xan, öz hakimiyyətini qoruyub saxlayacağı ümidilə Qarabağ xanlığı ilə Rusiya arasında 14 May 1805-ci ildə Kürəkçay müqaviləsini bağladı və Rusiyanın himayəsinə keçməyə qərar verdi. Lakin Qarabağ xanının ümidləri doğrulmadı. 1813-cü ildə Qacarlarla ilk müharibənin uğurla başa çatmasından sonra Rusiya dövləti 1822-ci ildə Qarabağ xanlığını ləğv etdi.

Açar sözlər: xanlıq, məliklik, Şuşa, Pənahəli xan, İbrahimxəlil xan, qala, hücum, mühasirə, müqavilə.

GARABAGH KHANATE

E.K. Aliyeva
Doctor of Philosophy in History,
The Institute of History named
after A.A. Bakikhanov of ANAS,
Baku, Azerbaijan

Abstact: The Garabagh (Karabagh) khanate founded by Panahaly khan Javanshir (1747-1763) in 1747, consisted of 21 districts. During the reign of Panahaly khan the Bayat, Shahbulaq and Shusha fortresses were founded in the territory of the khanate, the marches of Shaki ruler Haji Chalaby khan, Mazandaran and Astrabad ruler Mahammadhasan khan Gajar and Urmia ruler Fataly khan Afshar to Garabagh were repulsed. Ibrahimkhalil khan (1763-1806), who made Garabagh one of the strongest state institution of the South Caucasus, not only expanded his property, but also strengthened the khanate's defense capabilities and prevented the attacks of powerful ruler such as Agha Mahammad shah Gajar. In the end of 18th and in the beginning of 19th centuries, Russia and Iran-Gajar states were serious threat to the independence of the Garabagh khanate. Ibrahimkhalil khan, hoping to protect his power under the patronage of Russia, signed the Kurakchay treaty with this state on May 14,1806. However, his hopes didn't come true. The Russian government, that won the first war with the Iran-Gajar state (1804-1813), abolished the Garabagh khanate in 1822.

Keywords: khanate, meliks, Panahali khan, Şuşa, İbrahimkhalil khan, fortress, attack, besiecement, treaty.

КАРАБАХСКОЕ ХАНСТВО

Э.К. Алиева
доктор философии по истории
Институт Истории им. А.А. Бакиханова
НАНА, Баку, Азербайджан

Резюме: Карабахское ханство, основателем которой являлся Панахали хан Джаваншир (1747-1763), состоялся из 21-го магала. В период правления Панахали хана были построены такие крепости, как Баят, Шахбулаг и Шуша, благодаря которым были успешно отражены попытки захвата ханства правителями Шеки Гаджи Челеби хана, Астрабада и Мазандарана Мухаммед Гасан хана Каджара и Урмии Фатали хана Афшара. Дела укрепление обороноспособности Карабахского ханства была продолжена и Ибрагимхалил ханом (1763-1806), наследником Панахали хана. Реальной угрозой для независимости Карабахского ханства в конце XVIII- начале XIX в. стали Россия и Каджарская государства. Ибрагимхалил хан в надежде сохранения своей власти решил перейти под покровительство России, что было закреплено Кюрекчайским договором, заключенным 14 мая 1805 года между Карабахским ханством и Россией. Однако надежды Карабахского хана не оправдались. Российское государства после успешной завершение первой войны с Каджарами в 1813 г. встал на путь ликвидации Карабахского ханства, что было совершено в 1822 г.

Ключевые слова: ханства, меликства, Панахали хан, Шуша, Ибрагимхалил хан, крепость, наступление, осада, договор.

1747-ci ildə Nadir şah Əfşarın imperiyasının süqutundan sonra yaranmış Azərbaycan xanlıqlarından biri olan Qarabağ xanlığı Kiçik Qafqaz dağlarının cənub-şərqində Kür və Araz çayları arasındakı əraziləri əhatə edirdi. Xanlıq Azərbaycanın Şamaxı, Cavad, Qaradağ, Naxçıvan, İrəvan, Gəncə və Şəki xanlıqları ilə həmsərhəd idi. Digər Azərbaycan xanlıqları ilə müqayisədə daha böyük ərazini əhatə edən Qarabağ xanlığı naiblər, məliklər və minbaşılar tərəfindən idarə edilən 21 mahala, o cümlədən 5 xristian məlikliyinə bölünürdü [3, s.179].

Qarabağ xanlığının əsasının qoyulması Cavanşirlər tayfasının Sarıcalı oymağından olan Pənahəli xanın (1747-1763) adı ilə bağlıdır. Əvvəllər Nadir şahın ordusunda xidmət etmiş Pənahəli xan onun ölümündən sonra özünü müstəqil xan elan etmiş və uzun müddət Qarabağ xanlığını möhkəmləndirmək üçün həm daxili, həm də xarici düşmənlərlə mübarizə aparmışdı. İlk dövrlərdə Pənahəli xanın hakimiyyəti üçün mənşəcə alban olan, lakin erməni kilsəsinin təsiri altında ermənileşmiş və qriqorianlaşmış Çiləbörd, Gülüstan, Xaçın, Vərəndə və Dizaq kimi məlikliklər ciddi təhlükə yaradırdı. Lakin məliklər arasındakı ziddiyətlərdən məharətlə istifadə edən Pənahəli xan onların qüvvələrini parçalamaqla asılı vəziyyətə salmağa nail oldu[25, s.80]. Bununla belə, erməni kilsəsinin və Rusiya imperiyasının əlində oyuncağa çevrilmiş məliklər sonralar Qarabağ xanları üçün ciddi problemlər yaratmaqda davam etdilər.

Yeni yarandığı dövrdə möhkəmlədirilmiş şəhər-qalanın olmaması Qarabağ xanlığının müdafiə imkanlarını xeyli zəiflədirdi. Azərbaycanda və İranda hakimiyyət uğrunda getdikcə güclənən qanlı müharibələr şəraitində xanlığın təhlükəsizliyini təmin edə biləcək belə qalanın tikilməsi həyati zərurətə çevrilmişdi. Vəziyyəti düzgün qiymətləndirən Pənahəli xan bu məqsədlə 1748-ci ildə Bayat qalasını, 1752-ci ildə isə Şahbulaq qalasını tikdirdi. Lakin tezliklə bu qalalardan heç birinin yetərincə etbarlı olmadığını başa düşən Pənahəli xan daha güclü müdafiə imkanlarına malik yeni paytaxt şəhəri salmaq üçün əlverişli yer axtarışına başladı və yaxın adamlarının məsləhəti ilə dəniz səviyyəsindən 1300-1600 m yüksəklikdə yerləşən, üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylası üzərində dayandı. Əldə olan məlumatlar göstərir ki, 1753/1754-cü ildə həmin dağ yaylasında Qarabağ xanlığının üçüncü paytaxtı olan Şuşa şəhərinin tikintisinə başlanıldı və qısa müddət ərzində əhalinin təhlükəsiz yaşamasını təmin edəcək zəruri işlər görülüb başa çatdırıldı. 1756/1757-ci ildə xanlığın paytaxtı əvvəllər öz banisinin adı ilə Pənahabad adlandırılan Şuşa şəhərinə köçürüldü [6, s.18-22].

Pənahəli xanın Qarabağ xanlığının müdafiəsini gücləndirmək üçün gördüyü tədbirlər Şəki və Şamaxı xanlarını ciddi şəkildə narahat etməyə başladı. Qarabağ xanının daha da güclənəcəyindən və hələ Nadir şahın dövründə əldə etdikləri imtiyazları itirəcəklərindən ehtiyat edən məliklər Şəki hakimi Hacı Çələbiyə müraciət edərək Qarabağa yürüşə dəvət etdilər [7, s.34]. 1748-ci ildə Şəki, Şamaxı xanlarının və Qarabağ məliklərinin birləşmiş qüvvələri Bayat qalasını mühasirəyə aldılar. Lakin müttəfiqlərin qalanı bir aydan artıq mühasirədə saxlamalarına baxmayaraq uğur qazana bilmədilər və geri çəkildilər [7, s.34]. Qarabağın xristian məlikləri məhz "Bayat savaşı"ndan sonra, zahirən də olsa Pənahəli xanın hakimiyyətini tanımağa məcbur oldular.

Pənahəli xan "Bayat savaşı"nı uğurla başa vursa da, Hacı Çələbi xanın Qarabağa yenidən hücum etməyəcəyinə əmin deyildi. Şəki xanının Qarabağa gözlənən yeni hücumunu qabaqlamaq qərarına gələn Qarabağ xanı ona qarşı Gəncə, Qaradağ, İrəvan və Naxçıvan xanlıqlarından ibarət ittifaq yaratmağa nail oldu. Bu ittifaqa gürcü çarı II İrakli də qoşuldu. Müttəfiqlər Şəki xanlığı üzərinə birgə hücumun detallarını müzakirə etmək üçün 1752-ci il martın 21-də Gəncə yaxınlığındakı Qızılqaya deyilən yerdə görüşdülər. Lakin II İrakli gözlənilmədən hücum edərək Azərbaycan xanlarını əsir götürdü. II İraklinin xəyanətindən xəbər tutan Hacı Çələbi xan öz ordusu ilə Gəncə xanlığına tərəf hərəkət edərək gürcü ordusunu ağır məğlubiyyətə uğratdı və əsir düşmüş Azərbaycan xanlarını, o cümlədən Pənahəli xanı əsirlikdən azad etdi [17, s.156-157; 8, s.20].

Şuşa şəhərinin əsasının qoyulmasından az sonra isə Qarabağ xanlığı daha ciddi sınaqlarla üzləşməli oldu. İranda ali hakimiyyət uğrunda mübarizədə xeyli uğur qazanmış Astrabad və Mazandaran hakimi Məhəmmədhəsən xan Qacar və Urmiya hakimi Fətəli xan Əfşar öz hakimiyyətlərini Şimali Azəraycana da yaymağa çalışırdılar. 1757-ci ilin avqustunda Məhəmmədhəsən xan Qacar 30 minlik ordu ilə Qarabağa hücum etdi və Şuşa şəhərini mühasirəyə aldı. Bununla belə, Məhəmmədhəsən xan qarşısına qoyduğu məqsədə çata bilmədi. Qarabağın qəhrəman döyüşçüləri Qacar hakiminə nəinki Şuşa şəhərini ələ keçirməyə imkan vermədilər, əksinə qəfil hücumlarla onun ordusuna ağır zərbə vurdular [7, s.41]. Bir tərəfdən Şuşa ətrafındakı döyüşlərdə düçar olduğu uğursuzluq, digər tərəfdən isə İranda ali

hakimiyyətə əsas iddiaçılardan olan Kərim xan Zəndin Astrabad, Mazandaran və Gilana hücum xəbəri Məhəmmədhəsən xanı Qarabağdakı döyüşləri dayandırmağa və tələsik geri çəkilməyə məcbur etdi [19, III h., s.243].

Qarabağ xanlığı 1759-cu ildə daha güclü düşmən olan urmiyalı Fətəli xan Əfşarın hücumuna məruz qaldı. Onu da göstərmək lazımdır ki, Fətəli xan Qarabağa yürüş ərəfəsində Cənubi Azərbaycan xanlıqlarının əsas hissəsini özündən asılı vəziyyətə sala bilmişdi [17, s.158]. Buna baxmayaraq o, Qarabağda çox ciddi müqavimətlə üzləşdi. Şuşa şəhərini hücumla ələ keçirməyin mümkün olmadığını görən Fətəli xan onun 6 kilometrliyində düşərgə salaraq öz məqsədinə mühasirə yolu ilə çatmaq qərarına gəldi. Pənahəli xanın asılılığından çıxmaq üçün fürsət axtaran Çiləbörd hakimi Məlik Hətəm və Talış hakimi Məlik Usub da ona qoşuldu [8, s.21; 11, s.43]. Lakin bu da vəziyyəti dəyişdirmədi. Pənahəli xanın rəhbərlik etdiyi qarabağlı döyüşçülərin qəfil hücumları nəticəsində Fətəli xanın itkiləri günbəgün artırdı [2, s.162].

Şuşanı hərbi yolla ələ keçirə bilməyən Fətəli xan öz məqsədinə çatmaq üçün Pənahəli xanla danışıqlara başlamağa məcbur oldu. Onu da göstərmək lazımdır ki, Urmiya ordusunun Şuşanı mühasirədə saxladığı 6 ay müddətində xanlıqda vəziyyət xeyli pisləşmiş, şəhərin ərzaqla təminatı işində ciddi problemlər yaranmışdı. Bütün bunları nəzərə alan Pənahəli xan Urmiya xanlığından asılılığı qəbul etməyə və sədaqət əlaməti olaraq oğlu İbrahimxəlil ağanı Fətəli xanın düşərgəsinə göndərməyə məcbur oldu [1, s.118; 23, s.127]. Lakin bu asılılıq tamamilə formal xarakter daşıyırdı. Mənbələrdə Pənahəli xanın Fətəli xana hər hansı formada xərac ödəməsi və yaxud vassal kimi onun yürüşlərində iştirak etməsi haqqında heç bir məlumat yoxdur.

Pənahəli xan mövcud ağır hərbi-siyasi şəraitə baxmayaraq, yalnız xarici hücumların qarşısını almaqla kifayətlənməmiş, öz xanlığının ərazisinin xeyli genişləndirilməsinə də nail ola bilmişdi. A.A.Bakıxanov yazırdı ki, Pənahəli xan Qaradağ xanlığının Mehri və Güney mahallarını, Naxçıvan xanlığının Tatev və Sisian mahallarını, İrəvan xanlığının Tərtər-Kolanı mahalını, Təbriz xanlığının Zəngəzur və Qafan mahallarını Qarabağ xanlığına birləşdirmiş, öz nüfuzunu Ərdəbilə qədər yaymışdı [17, s.155].

Pənahəli xan Urmiya xanlığının asılılığından çıxmaq və oğlunu girovluqdan azad etmək üçün də fürsət gözləyirdi. Belə bir fürsət Kərim xan Zəndin Məhəmmədhəsən xan Qacar və Fətəli xan Əfşar üzərində çaldığı ardıcıl qələbələrdən sonra yarandı. Kərim xan Zəndin 1762-ci ildə Fətəli xanın iqamətgahı olan Urmiya qalasına təşkil etdiyi həlledici yürüşdə iştirak edən Pənahəli xan öz məqsədinə nail oldu. Urmiya qalasını ələ keçirən Kərim xan Zənd İbrahimxəlil ağanı əsirlikdən azad edib Qarabağ xanı təyin etdi. Pənahəli xan isə digər Azərbaycan xanları ilə birlikdə Fətəli xan Əfşar üzərində qələbəni bayram etmək bəhanəsi ilə Kərim xan Zəndin paytaxtı Şiraza aparıldı və ömrünün sonuna qədər burada saxlanıldı [11, s.48-49].

Qarabağ xanlığı İbrahimxəlil xanın hakimiyəti dövründə (1763-1806) daha da güclənərək Cənubi Qafqazın ən nüfuzlu dövlət qurumlarından birinə çevrilmişdi. Onun dövründə Şuşa şəhərinin Pənahəli xan tərəfindən inşa etdirilmiş qala divarlarının yeni, daha da möhkəm divarlarla əvəz edilməsi, Gəncə qapıları yaxınlığında İç qalanın, eləcə də Qarqar çayın sahilində Əskəran qalalarının inşa edilməsi [6, s.29-40] Qarabağ xanlığının paytaxtını faktiki olaraq alınmaz qalaya çevirmişdi. İbarahimxəlil xan ordu quruculuğuna da böyük diqqət verirdi. Bəzi məlumatlara görə, Qarabağ xanı 10-15 minlik orduya malik idi [9, s.199]. Zərurət yarandıqda Dağıstan xalqlarından muzdla tutulan əsgərlərdən də istifadə edilirdi. İbarahimxəlil xanın Avar hakimi Ömər xanla qohumluq əlaqəsi yaratması da Qarabağ xanlığının hərbi qüdrətini daha da gücləndirmişdi.

Qarabağ xanlığının kifayət qədər hərbi və iqtisadi potensiala malik olması İbrahimxəlil xanın fəal xarici siyasət yeritməsi üçün əlverişli zəmin yaradırdı. Onun xarici siyasətində Gəncə xanlığına sahib olmaq önəmli yer tuturdu. 1780-ci ildə Kartli-Kaxetiya çarı II İrakli ilə

birləşən Qarabağ xanı Gəncə xanlığını ələ keçirdi. Bundan sonra Gəncə İbarahimxəlil xanın və II İraklinin təyin etdiyi nümyəndələr tərəfindən idarə olunmağa başladı [4, s.93-94]. Lakin 1783-cü ildə Rusiyanın himayəsi altına keçmiş II İraklinin bir tərəfdən İbrahimxəlil xanın hakimiyyətini tanımaq istəməyən məlikləri dəstəkləməsi, digər tərəfdən isə Gəncə xanlığına təkbaşına sahib olmaq cəhdləri bu iki hakim arasında münasibətləri düşmənçilik səviyyəsinə gətirib çıxardı. Bu düşmənçilik 1783-cü ildə Gəncə şəhərində baş vermiş üsyan nəticəsində xanlığın tamamilə İbrahimxəlil xanın təsiri altına düşməsindən sonra daha da gücləndi. Bu isə Gəncə xanlığına sahib olmaq uğrunda II İrakli ilə İbrahimxəlil xan arasında mübarizənin yenidən qızışmasına səbəb oldu [4, s.95-96].

XVIII əsrin 60-80-ci illərində Qarabağ xanlığının iqtisadi cəhətdən dirçəlməsi və müdafiə qabiliyyətinin güclənməsi Azərbaycan torpaqlarında erməni dövləti yaratmağı planlaşdıran məliklər arasında tələşı daha da gücləndirdi. Rusiya və II İrakli tərəfindən qızışdırılan Dizaq məliyi Yesay, Çiləbörd məliyi Məclum və Gülüstan məliyi Bəyləryan açıq şəkildə İbarahimxəlil xana tabe olmaqdan boyun qaçırdı. Bununla belə, Qarabağ xanı 1781-ci ildə məlikləri müəyyən qədər zərərsizləşdirməyə müvəffəq oldu. Separatçılıq fəaliyyətlərini davam etdirə bilməyəcəklərini başa düşən digər məliklər isə Gürcüstana qaçdılar[10, s.85-86].

XVIII əsrin sonlarından başlayaraq Rusiyanın Qafqaz siyasətində "erməni məsələsi"nin gündəmə gətirilməsi Qarabağ xanlığının mövcudluğu üçün ciddi təhlükə mənbəyinə çerildi. Özünü "əzabkeş erməni xalqının müdafiəçisi kimi" qələmə verən Rusiya hökuməti Qarabağ xanlığının ərazisində erməni dövləti yaratmaqla gələcək işğalları üçün dayaq yaratmağı planlaşdırırdı. Erməni ideoloqları Rusiyanı Cənubi Qafqaza yürüşə şirnikləndirən ermənilər öz danoslarında Qarabağı erməni torpağı kimi, burada yaşayan xristian əhalini isə erməni kimi qələmə verirdilər [12, s.109-126]. Məhz bu danosların nəticəsi idi ki, Rusiya hökuməti Qarabağ ərazisində erməni dövləti yaratmağı 1782-ci ildə Cənubi Qafqaza planlaşdırdığı yürüşün əsas məqsədlərindən biri elan etmişdi. Rusiyanın Şərq siyasətinin aparıcı simalarında olan Q.A.Potyomkin Qafqazdakı rus ordusunun komandanından təcili olaraq İbrahimxəlil xanı hakimiyyətdən devirməyi və Qarabağda erməni dövləti yaratmağı tələb etmişdi [26, s.185].

Rus-erməni alyansının planlarından vaxtında xəbər tutan İbrahimxəlil xan yaranmış təhlükəni Rusiyanın himayəsinə keçməklə aradan qaldırmağa cəhd göstərdi. Xan daxili müstəqilliyinin saxlanılması və təhlükəsizliyinin təmin edilməsi şərtilə Rusiyanın himayəsi altına keçməyə hazır olduğunu bildirdi. Lakin onun Rusiyanın hakimiyyət orqanları ilə bu məsələ ətrafında apardığı danışıqlar heç bir nəticə verməsi. Qarabağda tezliklə erməni dövlətinin yaradılacağına əmin olan Rusiyanın hakim dairələri İbrahimxəlil xanın təklifini rədd etdilər [22, s.99-100].

İbrahimxəlil xan 1783-cü ildə Rusiya hökümətinə himayə xahişi ilə yenidən müraciət etdi və öz elçisi Musa Sultanı Peterburqa göndərdi. Elə həmin il Rusiyanın dinc yolla Krıma sahib olması və Kartli- Kaxetiya çarlığını öz himayəsi altına alması Qarabağda erməni dövləti yaratmaq məsələsinə də təsirsiz ötüşmədi. Cənubi Qafqaza ordu göndərməyin Osmanlı Türkiyəsi ilə yeni müharibəyə səbəb olacağından və bununla da əldə edilmiş uğurların itiriləcəyindən ehtiyat edən Rusiya hökuməti müvəqqəti olaraq bu planı təxirə salmaq qərarına gəldi [10, s.146-147]. Yaranmış yeni şəraitdə İbrahimxəlil xanın məlikləri cəzalandıracağından ehtiyat edən Rusiya hökuməti onunla mülayim rəftar etməyə başladı. Qarabağ xanının elçisi Musa Sultan Peterburqda böyük bir dövlətin elçisi kimi qarşılandı. Rus çarı II Yekaterina Q.A.Potyomkinə Qarabağ xanlığını Kartli-Kaxetiya çarlığı ilə 1783-cü ildə imzalanmış Georgiyevsk müqaviləsinin şərtləri ilə Rusiya himayəsinə qəbul edilməsi haqqında danışıqlar aparmaq göstərişi vermişdi [10, s.147]. Bununla belə, Rusiya hökümətinin Qarabağ xanlığı ilə apardığı danışıqlar görüntü xarakteri daşıyırdı. Çar hökuməti Qarabağda erməni dövləti yaratmaq məsələsini yalnız təxirə salmış, onu gündəlikdən heç də çıxarmamışdı.

XVIII əsrin 90-cı illəri Qarabağ xanlığının tarixində ən mürəkkəb dövrlərdən birinə çevrildi. İranın və Cənubi Azərbaycanın çox böyük hissəsini nəzarət altına alan və qarşısına

Səfəvilər dövlətinin sərhədlərini bərpa etmək vəzifəsi qoyan Ağa Məhəmməd xan Qacar Azərbaycanın şimal xanlıqlarını da tabe etmək məqsədilə hazırlıq işlərinə başlamışdı. Güclü düşmənin hücumunu təkbaşına dəf edə bilməyəcəyini başa düşən İbrahimxəlil xan ona qarşı İrəvan, Lənkəran, Avar xanlıqlarından və Kartli-Kaxetiya çarlığından ibarət ittifaq yaratmağa cəhd göstərdi [7, s.50].

Ağa Məhəmməd xan Qacar 1795-ci ilin yazında 60 minlik ordu ilə Naxçıvan-İrəvan, Lənkəran-Muğan və Qarabağ istiqamətlərindən Şimali Azərbaycana hücuma başladı. Bu hücumu çoxdan gözləyən İbarahimxəlil xan onu dəf etmək üçün Şuşanın qala divarlarını daha da möhkəmləndirmiş, şəhər qarnizonunun sayını 15 min nəfərə çatdırmışdı. Elə bunların nəticəsi idi ki, Ağa Məhəmməd xanın Şuşaşını birbaşa hücumla ələ keçirmək cəhdi uğursuzluqla nəticələndi. Qacar ordusunun Şuşa şəhərini bir aydan artıq mühasirədə saxlaması da nəticəsiz qaldı. Qarabağlıların qəfil hücumları nəticəsində xeyli itki verən Ağa Məhəmməd xan şəhərin mühasirəsindən əl çəkməyə məcbur oldu. Ağa Məhəmməd xan 1795-ci il sentyabrın 12-də Tiflisi alıb yandırdıqdan sonra Şuşanı ələ keçirmək üçün ikinci dəfə cəhd göstərsə də uğur qazana bilmədi. Müasirlərdən biri yazırdı ki, Avar hakimi Ömər xandan xeyli kömək almış İbrahimxəlil xan düşmən ordusuna ağır zərbə vuraraq Gürcüstandan əsir götürülmüş 800 nəfər gürcünü azad etmişdi [27, s.86]. Ciddi itkilərə məruz qalmış Ağa Məhəmməd xan Qacar 1796-cı ilin əvvəllərində Cənubi Qafqazı tərk etməyə məcbur oldu.

1796-cı ildə Azərbaycan torpaqları general V.Zubovun başçılıq etdiyi rus ordusunun yürüşünə məruz qaldı. Bu ordunun qarşısında qoyulmuş əsas vəzifələrdən birini Qarabağda erməni dövləti yaratmaq təşkil edirdi. Rusiya hökümətinin V.Zubova verdiyi gizli təlimatda göstərilirdi ki, "Qarabağın erməni məlikləri və əhalisi bizim Ararat patriarxının başçılığı ilə Rusiya himayəsinə qəbul edilsin" [24, s.29]. Sənəddə göstərilən "Ararat patriarxı" V.Zubovun məsləhətçisi təyin edilmiş erməni arxiyepiskopu İ.Arqutinski idi. O, özünün Qarabağ məliklərinə göndərdiyi gizli məktubunda rus ordusunun əsas məqsədinin "ermənilərі müsəlmanların əsarətindən xilas etmək olduğunu" bildirmişdi [21, s.147-148].

Qarabağ xanlığının mövcudluğu üçün ciddi təhlükənin yaranması İbrahimxəlil xanı bu təhlükəni sovuşdurmaq üçün tədbirlər görməyə vadar etdi. O, Şamaxı və Şəki xanları ilə ittifaqa girərək artıq Dərbənd, Quba, Bakı və Şamaxı xanlıqlarını işqal etmiş general V.Zubovun öldürülməsi üçün plan hazırladı. Planın həyata keçirilməsi Zubovun düşərgəsində olan Nurəli xan adlı birisinə tapşırıldı. Planın uğurla həyata keçiriləcəyi təqdirdə müttəfiqlər başsız qalmış rus ordusuna hücum edib onu məhv etməli idi. Lakin qəsdin üstü vaxtından əvvəl açıldlğından planı həyata keçirmək mümkün olmadı [19, II h., s.398]. Bununla belə, rusların Qarabağda erməni dövləti yaratmaq planı da baş tutmadı. 1996-cı il noyabrın 6-da II Yekaterinanın vəfatından sonra hakimiyyət başına gəlmiş I Pavel yürüşü yarımçıq dayandırdı və rus ordusunu geri çağırdı.

1797-ci il də Qarabağ xanlığı üçün daha ciddi sınaq ili oldu. Rus ordusunun sonuncu dəstələri Azərbaycanı tərk etdikdən dərhal sonra artıq şah titulunu qəbul etmiş Ağa Məhəmməd Qacar Şimali Azərbaycan xanlarına müraciət edərək onlardan tabe olmağı tələb etdi və cavab gözləmədən hücuma başladı. Birinci yürüşdə olduğu kimi, bu dəfə də əsas hücum hədəfi kimi Qarabağ seçilmişdi. Bu dövrdə Qarabağ xanlığında vəziyyət xeyli pisləşmişdi. Hələ 1795-ci il yürüşü zamanı Qacar ordusunun törətdiyi dağıntılar, eləcə də üç il davam etmiş dəhşətli quraqlıq nəticəsində baş vermiş aclıq Qarabağ xanlığının müdafiə imkanlarını xeyli zəiflətmişdi. Buna baxmayaraq, Qacar ordusu Qarabağda çox ciddi müqavimətlə qarşılaşdı. Şuşaya gedən yolun üzərində tikilmiş Əskəran qalalarını ələ keçirmək üçün bu ordu bir həftə vaxt və 2000 nəfər əsgər itirmişdi [10, s.200].

Şuşa şəhərini mühasirəyə alan Qacar ordusu onu ağır toplardan fasiləsiz atəşə tutdu. Qala divarlarının tezliklə dağılacağını görən İbrahimxəlil xan qəfil hücumla düşmən topxanasını məhv etsə də geriyə çəkilmək yolu kəsildiyindən Car-Balakənə getməyə məcbur oldu. Ağa Məhəmməd şah Şuşaya daxil oldu. Lakin bundan bir neçə gün sonra öz

xidmətçiləri tərəfindən qətlə yetirildi. Başsız qalmış Qacar ordusu tələsik Şuşanı tərk etdi [11, s.174-175].

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Rusiya və İran-Qacar dövlətlərinin fəal müdaxiləsi nəticəsində Azərbaycanın digər xanlıqları kimi, Qarabağ xanlığının da vəziyyəti olduqca mürəkkəbləşmişdi. Ağa Məhəmməd şahın ölümündən sonra hakimiyyətə gəlmiş Fətəli şah (1797-1834) Azərbaycan xanlarından tabe olmağı tələb edirdi. Bununla belə, Qarabağ xanlığının Ağa Məhəmməd şaha ciddi müqavimət göstərdiyini yaxşı bilən Qacar şahı İbrahimxəlil xanla daha mülayim rəftar edərək ona qohum olmağı təklif etdi. İbrahimxəlil xan bu təklifin arxasında nəyin dayandığını yaxşı başa düşsə də, Qarabağda yaranmış ağır vəziyyət onu bu təkliflə razılaşmağa məcbur etdi və qızı Ağabəyim ağanı Fətəli şahın hərəmxanasına göndərməli oldu. Xanın əslində girov kimi Tehrana göndərilən oğlu Əbülfət ağa isə Qacar ordusunda yüksək vəzifəyə təyin edildi [18, s.553]. Bununla da İbrahimxəlil xan təhlükəni müvəqqəti də olsa sovuşdura bilidi.

Qarabağ xanlığı üçün ən ciddi təhlükəni çar Rusiyası yaradırdı. İran-Qacar dövlətinin onu qabaqlayacağından ehtiyat edən çar hökuməti 1801-ci ildən Cənubi Qafqazda daha fəal işğalçı siyasət yeritməyə başladı. Elə həmin il Şərqi Gürcüstanla birlikdə Azərbaycanın Şəmşəddil, Qazax və Borçalı sultanlıqları, 1803-cü ildə Car-Balakən camaatlığı, 1804-cü ilin əvvəlində isə Gəncə xanlığı Rusiya tərəfindən işğal edildi. Bütün bunlar 1804-cü ilin iyununda Rusiya ilə İran-Qacar dövləti arasında müharibənin başlanmasına gətirib çıxardı.

Qafqazdakı rus qoşunlarının komandanı general P.Sisianov müharibənin ilk aylarında əsas diqqəti mühüm strateji əhəmiyyəti olan İrəvan qalasının ələ keçirilməsinə yönəltdi. Lakin rus ordusunun İrəvan qalasını ələ keçirmək üçün göstərdiyi bütün cəhdlər uğursuzluqla nəticələndi. Döyüşlərin gedişində 2 min nəfərə yaxın hərbçi itirərək ağır məğlubiyyətə uğrayan rus ordusu İrəvanın mühasirəsindən əl çəkərək geri çəkilməyə məcbur oldu [5, s.298-303].

General Sisianov uğursuz İrəvan yürüşündən sonra Qarabağ xanlığını işğal etmək üçün hazırlaşmağa başladı. Fətəli şah da Qarabağ xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Əhməd bəy Cavanşirin təbirincə desək, xanlığın paytaxtı Şuşa şəhəri qacarlar üçün Cənubi Qafqazın açarı, ruslar üçün isə İranın qapısı hesab edilirdi [2, s.182]. Lakin Fətəli şahın İbrahimxəlil xanı Rusiyadan uzaqlaşdırmaq cəhdləri heç bir nəticə vermədi. Qarabağ xanının rus ordusuna qarşı çıxacağı təqdirdə onun bütün xərclərinin şah xəzinəsindən ödəniləcəyi təklifi də artıq Rusiyanın himayəsinə keçmək qərarına gəlmiş İbrahimxəlil xanı fikrindən döndərə bilmədi [13, s.232].

1805-ci ildə general Sisianovun nümayəndəsi mayor Lisaneviç Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi haqqında müqavilənin şərtlərini İbrahimxəlil xana təqdim etdi. İbrahimxəlil xanın bu məsələni müzakirə etmək üçün topladığı divanda bütün bəylər xanlığın Rusiyanın hakimiyyəti altına keçməsinə qəti etiraz etdilər [20, s.406]. Fətəli şahın sərkərdəsi Pirqulu xan isə İbrahimxəlil xanı bu addımı atmaqdan çəkindirməyə çalışaraq yazırdı ki, "...belə bir hərəkətdən bütün nəsilləriniz xəcalət çəkəcək, bütün əraziniz tar-mar ediləcək" [15, sən.1427]. Lakin bunlar xanı öz fikrindən daşındıra bilmədi.

1805-ci il mayın 14-də Gəncə yaxınlığında yerləşən Kürəkçayda İbrahimxəlil xanla general Sisianov arasında 11 maddədən ibarət olan müqavilə imzalandı. Müqaviləyə görə Rusiyanın himayəsi altına keçən Qarabağ xanlığı daxili müstəqilliyini saxlasa da xarici siyasət hüququndan məhrum edilirdi. Xan öz üzərinə Şuşa şəhərində 500 nəfərlik rus qarnizonu yerləşdirmək, çar xəzinəsinə ildə 8000 çervon xərac ödəmək, həmçinin, sədaqət əlaməti olaraq, nəvələrindən birini həmişəlik Tiflisə göndərmək öhdəliyi götürdü. Çar hökuməti isə bunun müqabilində Qarabağ xanlığında hakimiyyətdə ancaq İbrahimxəlil xanın varislərinin olacağına və xanlğın ərazi bütövlüyünün pozulmayacağına zəmanət verdi [15, sən. 1436]. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Kürəkçay müqaviləsinin maddələrinin heç birində ermənilərə aid bir kəlmə də yoxdur. Müqavilə Azərbaycan xanı İbrahimxəlil xanla Rusiya arasında bağlanmışdı.

Hadisələrin sonrakı gedişi İbrahimxəlil xanın Kürəkçay müqaviləsini imzalamaqla necə böyük yanlışlığa yol verdiyini göstərdi. 1806-cı il iyunun 14-nə keçən gecə Lisaneviçin başçılıq etdiyi 200 nəfərlik rus hərbi dəstəsi qəflətən xanın düşərgəsinə soxularaq onu 17 nəfər ailə üzvü ilə birlikdə amansızlıqla qətlə yetirdi [14, s.69]. Bu hadisə bölgədə ruslara qarşı ciddi narazılıq və üsyanlara səbəb olsa da, rus komandanlığı əlavə qüvvə yeritməklə vəziyyəti sabitləşdirə bildi. Qarabağ xanı vəzifəsinə İbrahimxəlil xanın varisi Mehdiqulu xan gətirildi.

Mehdiqulu xanın hakimiyyəti dövründə Qarabağda vəziyyət daha da ağırlaşdı. Xanlığın ərazisi Qacar və rus ordusu arasında döyüş meydanına çevrildi. Hərbi əməliyyatlar nəticəsində yaranan kütləvi aclıq, dağıntı və xəstəliklər əhalinin vəziyyətini dözülməz həddə çatdırdı. Qarabağın təsərrüfatla məşğul olmaq imkanını itirən əhalisi vəziyyətdən çıxış yolunu yaşayış yerlərini kütləvi şəkildə tərk edərək İrana qaçmaqda görürdü. Rus məmurlarının verdikləri məlumatdan aydın olur ki, Qarabağda yaşayan ailələrin sayı 1805-ci ildən 1813-cü ilə qədər iki dəfə azalaraq 10 mindən 5 minə düşmüdü [16, sən. 696].

Rusiya ilə İran-Qacar dövləti arasında 1804-1813-cü illərdə baş vermiş müharibə başa çatdıqdan sonra Rusiya hökuməti onun tərkibinə müqavilə imzalamaq yolu ilə daxil olmuş xanlıqların, o cümlədən Qarabağ xanlığının mövcudluğu məsələsinə münasibətini kəskin şəkildə dəyişdirdi. İran-Qacar dövlətinə qarşı müharibədə Qarabağın maddi və insan ehtiyatlarından kifayət qədər yararlanmış Rusiya müharibədən sonra onu ləğv etmək xəttini götürdü. 1816-cı ildə Qafaqazın baş komandanı təyin edilmiş A.P.Yermolov çar I Aleksandra yazırdı ki, müqavilə yolu ilə imperiyanın tərkibinə qatılmış xanlıqların müstəqil fəaliyyət göstərmələri Rusiya qanunlarının bu bölgələrdə tətbiq edilməsinə imkan vermir. Mehdiqulu xanı xəyanətdə günahlandıran Yermolov çardan onun oğlu Cəfərqulu ağanı varis kimi təsdiq etməməyi xahiş edirdi [15, sən. 1264].

Rusiya hökümətinin Qarabağ xanlığını ləğv etmək planının həyata keçirilməsində mənşəcə Qarabağ ermənisi olan general Mədətov mühüm rol oynadı. Mehdiqulu xana qarşı müxtəlif təxribatlara və şər-böhtan kampaniyasına başlayan Mədətov ona məxsus əmlakı ələ keçirir, hakimiyyətini məhdudlaşdırırdı. Bunlar azmış kimi, Mədətov Qarabağ xanını adam öldürməkdə də günahlandırdı [28, s.519-520]. Tezliklə həbs ediləcəyindən qorxuya düşən Mehdiqulu xan 1822-ci ildə İrana qaçmağa məcbur oldu. Bundan istifadə edən Rusiya hökuməti Kürəkçay müqaviləsinin şərtlərini pozaraq elə həmin il Qarabağ xanlığını ləğv etdi və onun ərazisində açıq müstəmləkəçilik siyasəti yeritməyə başladı.

Ədəbiyyat

1. Dəlili H. Azərbaycanın cənub xanlıqları XVIII əsrin ikinci yarısında. Bakı, 1979.
2. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1748-1805-ci illərdə siyasi vəziyyətinə dair. Qarabağnamələr, I kitab, Bakı, 1989.
3. Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, 2007.
4. Həmidova Ş. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı, 2014.
5. İrəvan xanlığı. Rus işğalı və ermənilərin Şimali Azərbaycana köçürülməsi. Bakı, 2009.
6. Mahmudov Y., Mustafayev C. Şuşa-Pənahabad. Bakı, 2012.
7. Mirzə Adıgözəl bəy. Qarabağnamə. Qarabağnamələr. Bakı, 1989.
8. Mirzə Yusif Qarabağı. Tarixi-safi. Qarabağnamələr. II kitab, Bakı, 1991.
9. Mir Mehdi Xəzani. Kitabi-tarixi Qarabağ. Qarabağnamələr. II kitab, Bakı, 1991.
10. Mustafayev C. Azərbaycan xanlıqlar dövründə. Bakı, 2012.
11. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, 2010.
12. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaratmaq cəhdləri. Bakı, 2007.

13. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbarahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri. Qarabağnamələr. II kitab, Bakı, 1991.
14. Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, 2004.
15. АКАК, т. II, Тифлис, 1868.
16. АКАК, т.V, Тифлис, 1873.
17. Бакиханов А.А. Гюлистан-и Ирам. Редакция, комментарии, примечания и указатели академика З.М.Буниятова. Баку, 1991.
18. Берже Ад. Фатали-шах и его дети. Русская старина. т.50, 1886.
19. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. ч.II-III, СПб., 1869.
20. Дубровин Н.Ф. Закавказье от 1803-1806 года. СПб., 1866.
21. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. ч. III, СПб., 1888.
22. Иоаннисян А.Р. Россия и армянское освободительное движения в 80-х годах XVIII века. Ереван 1947.
23. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, 1948.
24. Мамедова Г. О походе В.Зубова в Азербайджан 1796 г. Баку, 2003.
25. Мамедова Г.Н. К вопросу о христианских меликах и меликствах Северного Азербайджана в XVIII в. Гарабаг: Кюрекчайский договор – 200. Баку, 2005
26. Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке. М., 1966.
27. Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII -начало XIX в. Баку, 1989.
28. Потто В.А. Кавказская война в отделных очерках, эпизодах, легендах ибиографиях. т.II, СПб., 1885.

QARABAĞIN XRİSTİAN ALBAN MƏLİKLƏRİ

Güntəkin Nəcəfli
AMEA Tarix İnstitutunun
"Qarabağ tarixi" şöbəsinin müdiri, dosent
Bakı, Azərbaycan
e-mail: guntekin.cemil@gmail.com

Xülasə: Məqalədə Qarabağın xristian alban məliklərinin tarixinin bəzi mühüm məqamları işıqlandırılmışdır. Erməni müəllifləri və onların digər həmfikirləri Qarabağ ərazisində mövcud olmuş beş xristian məlikliyinin rolunu şişirtməyə, hər bir məlikliyi az qala "erməni milli dövlətçiliyinin nümunəsi", "əsrlər boyu erməni dövlətçililiyi ənənələrini qoruyub saxlayan, yaşadan" qurum, knyazlıq və s. kimi təqdim etməyə və eyni zamanda erməni əhalisini tarixi Qarabağ ərazisinin yerli sakinləri olduğunu sübut etməyə çalışırlar. İlkin qaynaqlar əsasında sübut olunur ki, Qarabağın alban məliklərinin heç birinin soyadı tanınmış erməni nəsillərindən deyildi. XVIII əsrdə Qarabağ məlikləri I Pyotra və II Yekaterinaya ünvanladıqları məktublarında özlərini Alban və ya Arşaki nəslinin nümayəndələri kimi təqdim edirdilər.

Açar sözlər: Qarabağ bəylərbəyliyi, Qarabağ xanlığı, alban məlikləri, Pənahəli xan Cavanşir.

THE CHRISTIAN ALBANIAN MELIKS OF GARABAGH

Guntekin Najafli
Institute of History of ANAS,
Head of the department ща
Karabakh history, associate professor
e-mail: guntekin.cemil@gmail.com

Abstract: The article highlights some important moments in the history of the Christian Albanian meliks of Garabagh. Armenian authors and like-minded people to them exaggerate the role of the five Christian meliks that existed in Garabagh, try to present each melikdom as an "example of Armenian national statehood", as an structure, the principality that "have preserved and maintained the traditions of Armenian statehood for centuries", and so on. At the same time, they are trying to prove that the Armenian population is a native people of the historical Garabagh territory. Basing on primary sources, is proved that none of the Albanian meliks of Garabagh were of an Armenian descent. In the 18th century, the Garabagh meliks, in their letters to Peter I and Catherine II introduced themselves as representatives of the Albanian or Arshaki dynasty.

Keywords: Garabagh beylerbeyate, Garabagh khanate, Albanian meliks, Panahali khan Javanshir.

АЛБАНСКИЕ ХРИСТИАНСКИЕ МЕЛИКСТВА КАРАБАХА

Гюнтекин Наджафли
Институт Истории НАНА
заведующий отделом "История Гарабаха", доцент
e-mail: guntekin.cemil@gmail.com

Резюме: В статье освещены некоторые важные моменты из истории христианских албанских меликств Карабаха. Армянские авторы и их единомышленники значительно преувеличивают роль пяти христианских меликств, существовавших на территории Карабаха, пытаясь представить практически каждое меликство как «образец армянской национальной государственности», как княжество, веками сохранившее традиции армянской государственности, одновременно стараясь доказать, что армяне являются исконно местным населением исторической территории Карабаха. Согласно данным первоисточников было доказано, что фамилия ни одного албанского мелика Карабаха не имеет отношения к армянскому происхождению. В письмах, адресованных Петру I и Екатерине II в XVIII в., карабахские меликства представлялись потомками албанской и аршакской династии.

Ключевые слова: Карабахское беглярбекство, Карабахское ханство, албанские меликства, Панахали хан Джаваншир.

İndiki Ermənistana sahib olduqdan sonra erməni tarixçiləri arasında tarixi Qarabağ ərazisinin qədim erməni torpağı olması haqqında uydurma konsepsiya inkişaf etməyə başladı. Bu konsepsiyaya görə, tarixi "Ermənistan"ın bir parçası olan Qarabağ XVIII əsrin ortalarında (1747-1748) köçəri türk tayfaları tərəfindən zəbt olunmuş və burada xanlıq yaranmışdı. Burada yaşayan xristian məliklər isə ermənidirlər.

Bu konsepsiyanın kökündən yanlış olduğunu sübuta yetirmək üçün Qarabağın tarixinə qısa bir ekskursiya etməyimiz lazımdır.

Makedoniyalı İsgəndər (e.ə.336–323) Əhəməni dövlətinə son qoyduqdan sonra Azərbaycanın şimalında siyasi proseslər yeni mərhələyə qədəm qoydu. Makedoniyalı İsgəndərin qısa müddətli hakimiyyətindən sonra, onun ölümü ilə imperiyası parçalandıqda Azərbaycanın cənubunda Atropatena, şimalında isə Albaniya dövlətləri yarandı. Albaniya

dövləti təxminən e.ə. IV və e.VIII əsrlərində mövcud olaraq, 1200 ilə yaxın dövr ərzində Azərbaycan tarixində böyük rol oynadı. Albaniya sərhədlərini genişləndirərək bütün Qarabağ ərazisini əhatə etdi və bu dövlət Qarabağı öz tərkibində qoruyub saxlamaq üçün misilsiz mübarizə apardı və bəzi istisnalarla buna nail ola bildi. ...Qarabağ Azərbaycan Albaniya dövlətinə məxsus olduğu kimi, burada yaşayan etnoslar – uti, sovdey, qarqar və başqaları da alban tayfaları idilər [bax: 18, 18].

Ermənilər Kiçik Asiyanın şərqində mövcud olmuş erməni çarlığını qondarma "Böyük Ermənistan" adlandırır və köçüb məskən saldıqları bütün əraziləri erməni torpaqları elan etməyə cəhd edirlər. Roma imperiyasının e.ə. 66-cı ildə II Tiqranı darmadağın etməsi ilə uydurma "Böyük Ermənistan" əfsanəsi puça çıxdı, bu ərazidə yaşayan digər etnoslar kimi ermənilər də Romanın vassalına çevrildi. Bu vəziyyət IV əsrədək davam etmişdir. Belə olduğu halda, ermənilərin Albaniyanın tarixi torpaqlarını Ermənistanın tərkib hissəsi kimi qələmə verməsi heç bir elmi-tarixi əsasa malik deyil. Halbuki, ermənilərdən fərqli olaraq Azərbaycan Albaniya dövləti müstəqil siyasət yeritməkdə davam edirdi və Qarabağın tarixi vilayətləri onun tərkibinə daxil idi. "Mənbələrin tədqiqi və I-IV əsrlərdəki gerçəkliklərin öyrənilməsi bizi əmin edir ki, Albaniyanın cənub sərhədi Araz çayı boyunca keçmişdir" [bax: 18, 20].

Qarabağın tarixində əsas dəyişikliklər Ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin aradan qaldırılması ilə baş verdi. ...Albaniyanın tarixi Arsak (Ərsak) bölgəsi əhalisinin əvvəlcə qriqoryanlaşdırılmasına, bunun ardınca da ermənileşdirilməsinə başlandı. Azərbaycanın bu bölgəsində qriqoryanlaşdırma və ermənileşdirmə proseslərinin səbəbləri, gedişi və ermənilərin Ərəb Xilafəti ilə əməkdaşlığının mahiyyəti və b. problemlər, onun tarixi ədəbiyyatda necə əks olunması məsələləri akad. Z.Bünyadov tərəfindən xüsusi olaraq tədqiq edilmişdir" [bax: 9, 85-100; 18, 20-22].

Qeyd etmək lazımdır ki, Qarabağın dağlıq hissəsində yaşayan əhali yerli Azərbaycan-alban və yaxud xristian alban-qıpçaq tayfaları olmuş və sonradan qriqoryanlaşdırılmışlar. Dövrlə səsləşən xalqımızın milli-mənəvi sərvəti olan "Kitabi-Dədə Qorqud" dastanlarında oğuz-qıpçaq qarşıdurması fonunda cərəyan edən hadisələr heç də təsadüfi deyil. Ərəb xilafəti parçalandıqdan sonra Albaniyanın dağlıq ərazisində Sünik və Alban-Xaçın knyazlıqları yarandı. "XII əsrin sonlarına yaxın Sünik padşahlığı dağıldı, buradakı hakim sülalə 1166-cı ildən knyaz Qriqorun və Smbatın ölümü ilə kəsilmiş oldu. XII əsrin sonu – XIII əsrin əvvəllərində Arsak (Ərsak) ərazisində təşəkkül tapan Xaçın knyazlığı Albaniya dövlətinin bir növ davamı idi. Təbii ki, digər tədqiqat mövzusu olsa da qeyd etmək lazımdır ki, Qarabağın bütün alban kilsələrinin kitabələrində qıpçaq türklərinin izləri dövrümüzədək gəlib çatmışdır.

Qarabağın xristian alban əhalisindən danışarkən buradakı qıpçaq türklərinin izlərini unutmaq lazım deyil. Alban kilsəsi ilə bağlı olan bir epizod erməni-qriqoryan kilsəsinin alban kilsəsinə qarşı amansız mübarizədə dini üsullardan deyil, siyasi fitnəkarlıqdan istifadə etdiyini və son nəticədə buna nail olduğunu göstərir. Burada Ərəb xilafəti dövründə erməni katolikosu İlyanın xəlifə Əbdülməlikə alban kilsəsi haqqında donosu və bununla əlaqədar cəza tədbirləri və 1836-cı ildə alban kilsəsinin ləğv edilərək, erməni kilsəsinə tabe edilməsi nəzərdə tutulur [14, XI].

Bu proseslərin baş verdiyi IX-XIII əsrin əvvəlləri, xüsusilə Sacilər, Atabəylər, Şirvanşahlar dövrü bütün Cənubi Qafqazda Azərbaycanın qüdrətinin daha da artdığı bir dövr idi. Sacilər və Atabəylər faktik olaraq Azərbaycanın tarixi torpaqlarını siyasi cəhətdən birləşdirmişdilər. Keçmiş Albaniyanın ərazisində yaranmış Xaçın knyazlığı Azərbaycan Albaniya dövlətində hökmdarlıq etmiş sülaləyə (510-705) – Mehranilər nəslinə mənsub olan Həsən Cəlalın dövründə (1215-1261) yüksək inkişaf mərhələsinə çatmışdı. Təsadüfi deyil ki, dövrün narrativ və epiqrafik abidələrində o, "Xaçın ölkələri knyazı", "Xaçın və Arsax ölkələrinin əzəmətli knyazı" titulları ilə yanaşı, "Albaniya hökmdarı" titulu ilə də anılır [bax: 18, 22-23]. Həsən Cəlalın zamanında Alban memarlığının ən mühüm incilərindən biri olan Gəncəsər monastırı tikilmişdi. Monastırın üzərindəki kitabədən məlum olduğu kimi bu abidə Alban-Xaçın hökmdarı Həsən Cəlal və anası Hurişah Xatun (Xorişə) tərəfindən 1216-1238-ci

illərdə inşa edilmişdir. Monastır tikilib qurtarandan sonra Həsən Cəlal tikilinin üzərinə bu dini abidəni Alban xalqı üçün inşa etdirdiyini bəyan edən kitabə yazdırmışdır: "Mən, Həsən Cəlal onu mənim Alban xalqım üçün inşa etdim". Onu da qeyd etmək lazımdır ki, bu monastır kompleksi həmçinin əksər Alban xristianlıq abidələri kimi daha qədim zamanlara aid tapınağın üzərində inşa edilmişdir [Bax: 12, 2585].

XIII əsr alban müəllifi Gəncəli Kirakos da öz əsərində Həsən Cəlalı Xaçın vilayətinin sahibi, Xaçın və Arsax ölkəsinin hakimi adlandırırdı [32, 189, 257].

Alban-Xaçın knyazlığı Eldənizlər dövlətinə tabe olmaqla, həm qıpçaqlarla, həm də monqollarla qohumluq əlaqələri yaratmaqla bir müddət daxili müstəqilliyini qoruyub saxlaya bilmişdi. Qıpçaq qızı Hurişah Xatun və oğlu Həsən Cəlal tərəfindən Gəncəsər monastır kompleksinin inşa etdirilməsi və Azərbaycan ərazisində yerli xristian əhalinin vahid dini mərkəzinə çevirilməsi Alban etnosunu erməni və gürcü işğalçılarının hücumlarına qarşı qorudu, tamamilə məhv olmaqdan xilas etdi [Bax: 12, 2587].

Monqolların birinci yürüşü zamanı (1220-1222) zəifləmiş Atabəylər dövlətinə son qoyan Xarəzmşah Cəlaləddinin Azərbaycanda hökmranlığı zamanı (1225-1231) Qarabağ da onun hakimiyyəti altında idi. Monqolların ikinci yürüşü və Azərbaycanın işğalının başa çatması ilə (1231-1239) Qarabağ digər Azərbaycan torpaqları kimi Ali monqol xaqanlığının (1239-1256), sonra isə Hülakulər (Elxanilər) dövlətinin (1256-1357) tərkibində idi. Mərhum tədqiqatçı V.Z.Priyev "Qarabağ" toponiminin Azərbaycandan başqa Qars, Şimali Qafqaz, Türkmənistan, Özbəkistan, Əfqanıstanda və s. yerlərdə də mövcud ulduğunu yazaraq həmin dövrdə "Qara" və "bağ" söz birləşməsi – "Qarabağ", artıq, konkret coğrafi əraziyə şamil edil-diyini vurğulayır. Daha sonra müəllif yazır: "Arran Qarabağı" adı ilk dəfə Rəşid əd-Dinin "Came ət-təvarix" əsərində 1284-cü il hadisələrinin şərhi ilə əlaqədar xatırlanır". Bu dövrdə Qarabağ Arranın daxilində dağlıq və dağətəyi torpaqları birləşdirən vahid ərazidən ibarət idi [28, 97-99].

XV əsrdə Qarabağ Azərbaycan Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468–1501) dövlətlərinin tərkibində idi. Lakin Qaraqoyunlular dövründə Qarabağın sonrakı tarixində özünü göstərəcək bir hadisə baş verdi. XV əsrdə keçmiş alban hakimi Həsən Cəlalın nəsli (Cəlalilər) Qaraqoyunlu Cahan şahdan"məlik"titulu aldı. Sonralar Cəlalilər nəslinin mülkü beş alban feodal knyazlıqları – məlikliklərinə (Gülüstan, Ceraberd (Çiləbörd – G.N), Xaçın, Vərəndə, Dizaq) parçalandı [8, 41-42; 18, 23-24]. M.Nersisyanın redəktəsi ilə çap olunan məqalə və sənədlər toplusunda Əmir Teymurun (1370-1405) "alban xalqını Qarabağdan sürgün etdiyi" və "ermənilərin Qarabağa gələrək burada məskunlaşması" haqqında məlumat verilməsinə [25, 51] baxmayaraq, digər erməni müəllifləri bu fakta biganə yanaşırlar.

Azərbaycan Səfəvi dövlətinin yaranması ilə (1501) bütün Azərbaycan torpaqlarının mərkəzləşdirilməsinə başlandı. XVI əsrin ortalarında Azərbaycan torpaqlarının vahid dövlət halında mərkəzləşdirilməsi başa çatdı. Bununla, Azərbaycan Səfəvi dövləti regionun Osmanlı imperiyasından sonra ikinci ən qüdrətli dövlətinə çevrildi. Belə olduğu halda, o dövrdə ermənilərin hər hansı etnik-siyasi üstünlüyü mümkün olan məsələ deyildi. Əksinə, həmin dövrdə Azərbaycanın etnik və siyasi sərhədləri daha aydın şəkil almışdı. Səfəvilər Azərbaycanda 4 bəylərbəyilik yaratdılar ki, onlardan biri də Qarabağ və ya Gəncə bəylərbəyiliyi idi. Osmanlıların bu torpaqlarda tərtib etdikləri icmal və müfəssəl dəftərlər həmin bəylərbəyiliyin inzibati-ərazi bölgüsü haqqında aydın təsəvvür yaradır. 1593-cü il məlumatına görə, Gəncə-Qarabağ əyaləti 7 sancaq, 36 nahiyəyə bölünürdü. Burada qeydə alı-nan 1,3 mindən çox toponimik vahidlərin hamısı, demək olar ki, azərbaycanlılara məxsus idi. Bunlardan heç biri ermənilərə məxsus olmamışdır [12, 5, 8, 9, 21; 18, 24].

XVII əsrin əvvəllərində baş verən hadisələrdən bəhs edən Arakel Təbrizli öz əsərində "albanlar ölkəsi Qarabağ" yazırdı [bax: 24, 226].

Qarabağ bəylərbəyliyi ərazicə Səfəvilər dövlətinin böyük əyalətlərindən biri idi. "Əyalətin sərhədləri şimalda Kür çayı boyunca davam etmiş, Kürün Araz çayı ilə birləşdiyi

yerdən Araz çayı boyunca qərbə doğru, Bərgüşad livasına və buradan da şimal istiqamətində Göyçə gölünün şərq hissəsindən keçərək yenə də şimala doğru, Tiflis əyalətinə daxil olmuş, Borçalının cənub hissəsi və Taşır nahiyəsi ilə həmsərhəd olan Lori qəzasına qədər uzanırdı" [12, 7]. Gəncə-Qarabağ bəylərbəyliyi XVI əsrin əvvəlindən XVIII əsrin ortalarına kimi irsi olaraq Ziyadoğlu Qacarlar nəslinə məxsus idi [26, 122-123; 27, 250].

Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan torpaqları, o cümlədən Qarabağ Səfəvi, Rusiya və Osmanlı dövlətləri arasında müharibələr meydanına çevrildi.

Səfəvilərin son dövründə - 200 il ərzində Azərbaycan Ziyadoğlu Qacarların idarəçiliyində olan Gəncə-Qarabağ bəylərbəyliyinin tərkibində yerli inzibati-ərazi vahidi kimi beş xristian məlikliyi yaranmışdı. 1736-cı ildə Muğan qurultayında şah seçilərkən onun hakimiyyətini qəbul etməyərək, keçmiş Səfəvi imperiyasının bərpasını arzulayan Gəncə-Qarabağ bəylərbəyliyini və digər qacarlar sülaləsinin nümayəndələrinin imtiyazlarını əllərindən alan Nadir şah Əfşar xristian məikləri Qarabağ bəylərbəyliyinin idarəçiliyindən çıxarıb birbaşa Azərbaycan canişini təyin etdiyi qardaşı İbrahimin sərəncamına verdi [Bax: 31, 87]. Nadir şah bununla da həmin ərazidə özünə qarşı gözlənilə bilən güclü qüvvəni parçalamaq istəyirdi.

Nadir şahdan sonra Qarabağ məlikləri "Otuzikili" tayfa birliyinin başçısı, Cavanşir tayfasından olan, müstəqil Qarabağ xanlığının qurucusu Pənahəli xana tabe oldular. O, qeyd olunan məliklər arasındakı nifaqdan bacarıqla istifadə edərək onları tabe edə bilmiş və "öz vassalına çevirmişdir". Qarabağ xanlığın paytaxtı Pənahəli xan tərəfindən ...tikilmiş Pənahabad qalası olmaqla tezliklə Azərbaycan xanlıqları arasında ən güclü xanlıqlardan birinə çevrildi [26,136].

Qeyd olunan dövrdə, Qarabağ xanlığı ərazisində xristian məlikliklərin olması ilə başqa xanlıqlardan fərqlənirdi. Rusiya dövlətinin himayə etdiyi və ermənilər tərəfindən təhrik edilən bu məliklərdən bəziləri hələ Pənahəli xanın dövründən başlayaraq bir tərəfdən xanlıq daxilində mərkəzləşməyə mane olur, digər tərəfdən xaricdən Qarabağ xanlığına qarşı basqınların təşkilinə və həyata keçirilməsinə kömək etməklə xanlığın müstəqilliyini sarsıtmağa çalışırdılar [15, 36-37; 22, 57-58].

Erməni müəllifləri və onların digər həmfikirləri Qarabağ ərazisində mövcud olmuş beş xristian məlikliyinin rolunu şişirtməyə, hər bir məlikliyi az qala "erməni milli dövlətçiliyinin nümunəsi", "əsrlər boyu erməni dövlətçililiyi ənənələrini qoruyub saxlayan, yaşadan" qurum, knyazlıq və s. kimi təqdim etməyə və eyni zamanda erməni əhalisini tarixi Qarabağ ərazisinin yerli sakinləri olduğunu sübut etməyə çalışırlar. Məsələn: erməni tarixçisi A.R.İoannisyan Qarabağ və İrəvan torpaqlarını erməni əhalisinin əsas hissəsinin cəmləşdiyi "tarixi Ermənistan ərazisi" adlandırmaqla yanaşı, Nadir şah dövründə Qarabağ ərazisində olan xristian məlikləri "faktiki olaraq müstəqil hakimlər, öz ərazilərində tam ixtiyar sahibi, özlərinə məxsus hərbi qüvvəyə malik knyazlıqlar" kimi təsvir etmişdir [17,15-16]. Bütün bu iddiaların həqiqəti əks etdirmədiyini sübuta yetirmək üçün ilkin mənbələrə baxmaq kifayətdir.

XIX əsr Qarabağ salnaməçilərinin əksəriyyəti Xəmsə mahalının beş məliklərindən yalnız birinin – Xaçın məliklərinin yerli Həsən Cəlal övladı olduğunu, digərlərinin isə Azərbaycanın müxtəlif vilayətlərindən Qarabağa gəldiyini: Dizaq məliyi Yeqan – Loridən, Vərəndə məliyi Şahnəzər – Göyçədən, Çiləbörd məliyi Allahqulu – Mağavizdən (Zəngəzur – G.N), Gülüstan (Talış) məliyi Usubun isə – Şirvandan gəlmə olduğunu qeyd edirlər [Bax: 15, 36-37; 16, 12-14].

Dövrün digər bir mənbəsində "Təzkirət əl-Muluk"da …Qarabağ məliklərinin adları yoxdur. Bu onunla izah oluna bilər ki, …bu məlikliklər "ölkə"yə nisbətən daha xırda feodal mülkləri idilər, ikincisi məlikliklər XVII-XVIII əsrdə formalaşmışlar və XVIII əsrin əvvəllərində onların irsi mülklər kimi statusu hələ tam tanınmırdı" [20, 37]. Erməni müəllifi P.T.Arutyunyan da öz əsərində Xaçın məliklıyindən başqa digər məliklərin banilərinin Qarabağa gəlmə olduqlarını etiraf edərək yazır: "Vərəndə məlikliyinin əsasını qoyan Şahnəzəryanlar nəslindən olan Mirzə bəy adlı birisi 1603-cü ildə Qeqarkunidən (Göyçə gölü yaxınlığında yer adı – G.N.) Vərəndəyə (Qarabağ) köçüb gəlmişdi. Gülüstan məlikliyinin banisi "Qara yüzbaşı" Abov XVII əsrin əvvəllərində öz təbəələri ilə Udin kəndi Nicdən Talış

(Qarabağ) kəndinə köçmüşdü. Çiləbörd məliklərinin sələfi Sünik xanını öldürüb 1687-ci ildə öz təbəələri ilə Qarabağa köçmüş məlik Esay idi. Dizaq məlikliyinin banisi məlik Yeqan idi. Məlik Yeqanlar ailəsi Qarabağa XVIII əsrin əvvəllərində, bir məlumata görə İrandan, digər məlumata görə isə Loridən (Gürcüstan) köçmüşdülər. Qarabağın xristian məlikləri içərisində yalnız Xaçın məlikləri – Həsən Cəlalyanlar tam yerli mənşəli idilər [6, 60-61; 20, 38].

XX əsrin ortalarından başlayaraq günümüzədək erməni tarixçiləri Qarabağ və Zəngəzurun qeyri-müsəlman əhalisini erməni xalqı kimi təqdim etməklə yanaşı, həm də onların ağır sosial problemlər içində yaşadıqları... bunun üçün Qərbi Avropa ölkələrinə və Rusiya çarı I Pyotrla əlaqə yaratdıqlarını iddia edən yüzlərlə əsər yazmışlar. Onların bu iddialarının söykəndiyi əsas mənbə rolunu isə çox zaman XIX əsrin sonlarında erməni əsilli Q.A.Ezov tərəfindən "Böyük Pyotrun erməni xalqı ilə əlaqələri" (30) adlanan əsərindəki məlumatlar oynayır. Əsərə Münhen Elmlər Akademiyası arxivindən, Moskva və Sank-Peterburq Xarici İşlər Kollegiyasından əldə edilmiş 1698-1736-cı illəri əhatə edən 305 sənəd daxil edilmişdir. Latın və erməni dillərində tərtib edilən bu sənədlərin rus dilinə tərcüməsi zamanı Q.A. Ezov bilərəkdən bir sıra saxtakarlığa yol vermişdir. Əsərin "Giriş" hissəsində "Rusiya hökumətinin erməni xalqı ilə əlaqələri" adlı 145 səhifəlik "tarixi icmal" yazan müəllifin Azərbaycanın tarixi ərazilərinə, ümumiyyətlə türk-müsəlman dünyasına qarşı qərəzli münasibəti aydın görünür. Qeyd etmək lazımdır ki, Q.A.Ezovun tərtib etdiyi bu sənədlər toplusuna yazdığı "tarixi icmal" özündən sonra gələn xələflərinin əksəriyyəti üçün "əvəzolunmaz mənbə" rolunu oynamışdır. Kitabda təqdim edilən sənədlərin əksəriyyətində XVIII əsrin I qərinəsində erməni kilsəsi və liderlərinin müxtəlif vasitələrlə öncə Qərbi Avropa dövlətlərinin, sonra isə Rusiyanın köməyi ilə torpaqlarımıza, alban kilsəsinə qarşı həyata keçirdikləri məqsədyönlü fəaliyyəti izləmək mümkündür.

Sənədlər arasında Azərbaycan torpaqlarını, o cümlədən Qarabağı ələ keçirmək və bu torpaqlarda erməni dövləti yaratmaq məqsədilə İsrail Ori tərəfindən öncə Avropa dövlətlərinə və sonra Rusiya çarı I Pyotra təqdim edilən layihə və hərbi planlar mühüm yer tutur. Müəllif yazır: "1699-cu il aprelin 4-də Üçkilsəyə gələn İsrail Ori niyyətinin burada baş tutmayacağını bildiyi üçün öz sirrini burada açmadı. Çünki, Üçkilsə katolikosu Elizarın (1682-1691) ölümündən sonra burada çəkişmələr davam edirdi və katolikos yeri hələ boş qalırdı. Üçkilsədən əliboş qayıdan İ.Ori Alban katolikosluğunun yerləşdiyi Gəncəsər monastırına gəldi. O, burada 5 yepiskopun iştirakı ilə yığıncaq keçirsə də rədd cavabı aldı [30, XXII]. Həmin dövrdə Alban katolikosluğunun mərkəzi olan Gəncəsər monastırının din xadimlərinin İsrail Oriyə rədd cavabı verməsi alban kilsəsinin Səfəvi dövlətinə sadiqliyinin, müstəqil (avtokefal) olmasının və erməni qriqoryan kilsəsinin təsirinə düşmədiyinin ən mühüm sübutudur.

Sənədlər içərisində Qarabağ və Zəngəzurun alban məliklərinin adından tərtib olunan saxta məktublar daha çox diqqəti cəlb edir. Belə ki, Alban katolikosluğundan rədd cavabı alan İsrail Ori bu dəfə Zəngəzur torpaqlarına üz tutur. O, 1699-cu il aprelin 9-da Angeqakot (Əngəlyurd – G.N.)* adlanan yerə – məlik Safrazın malikanəsinə gələrək burada onu öz planları ilə tanış edir [30, XXII]. İsrail Ori burada xristian məlikləri toplayaraq kürfüristin məktubunu öz şəxsi izah və əlavələri ilə oxuyur. Məliklərin yazdığı cavab məktubunda onlar kürfüristə öz təşək-kürlərini bildirərək, "köləlik və təfriqədən çıxmaq üçün yenidən ümidləndiklərini, İsrail Orini

*1699-cu il aprelin 9-da İsrail Orinin toplantı keçirdiyi Əngələvid (Əngəlyurd) kəndinin adı Q.A.Ezov tərəfindən ermənilәşdirilərək "məlik Safrazın malikanəsinin olduğu "Anqeqakot qəsəbəsi" (местечко Ангегакот)" kimi təqdim edilir [30, XXIII]. Bir qədər sonra, 1727-ci ilin avqustunda Osmanlı dövlətinin bölgədəki məmurları tərəfindən tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Sisyan nahiyəsinə tabe olan bu kəndin adı "Əyləgüd" kimi qeyd edilmiş və burada cəmi 6 qeyri-müsəlmanın yaşadığı haqqında məlumat verilmişdir [21, 249].

özlərinə başçı, vardapet Minası isə ona köməkçi təyin etdiklərini və ona tamamilə inanaraq ağ vərəqlərə (ծէրմակ Թուղթ) öz imzalarını çəkərək ona verdiklərini bildirirlər" [30, 19].

İsrail Orinin Zəngəzurun xristian məliklərinə ağ vərəqlərə imza çəkdirməsi onun əsas niyyətindən xəbər verir. O, xristian məliklərinə ağ vərəqlərə imza çəkdirmişdi ki, həmin vərəqlərə vardapet Minasın köməyi ilə çoxsayda şişirdilmiş saxta məlumatları yazdıqdan sonra onları Avropa hakim dairələrinə təqdim etsin. Avropa hakim dairələrinə təqdim etdiyi məktubların nəticəsi olmadıqda isə onların sadəcə başlıqlarını dəyişərək Rusiya çarı I Pyotra təqdim edə bilmişdi.

Onu da qeyd etmək lazımdır ki, ağ vərəqlərə imzası qoyulan 10 nəfər Qafan məliklərindən bəzilərinin adı və soyadı rus dilinə tərcümə edilərkən ermənileşdirilmişdir. Sənədin erməni dilində olan variantında [30, sən.6, c.20] bu şəxslərin adları belədir:

1. Hakiz (Elias) Flipos oğlu,
2. Asdadur Saruxan oğlu,
3. Melkon Səfraz oğlu,
4. Narın bəy Şahnəzər oğlu,
5. Bahum Melkon oğlu,
6. Bağdasar Tağevos oğlu,
7. Yavr Ağacan oğlu,
8. Nav Yohannes oğlu,
9. Bağdasar Melkon oğlu,
10. Şahin Sukias oğlu,

Sənədi rus dilinə çevirən Ezov Zəngəzur məliklərinin adlarını ermənileşdirməyə çalışaraq "Asdadur – Aslatur, Saruxan – Sarkon, Narin bəy – Narıbek" və s. kimi təqdim etmişdir [30, sən.8, c.27].

Zəngəzur məliklərinin adından kürfüristə göndərilən məktubun sonunda yazılırdı: "Bizim hər şeyimiz – pulumuz, əmlakımız, silah daşımağa qadir adamlarımız var. Yalnız ölkəmizə rəhbərlik edən başçımız yoxdur… Gəlişiniz naminə bütün əmlakımızla, qanımızla və canımızla sizə xidmət etməyə hazırıq" [30, XXII-XXIII]. Məktubdakı bu cümlələr Səfəvi dövlətinin tərkibində yaşayan qeyri-müsəlman əhalinin necə firavan yaşamasını söyləməyə imkan verir. Və həmçinin, Q.A.Ezovun "tarixi icmal"ındakı Səfəvi dövləti ərazisində yaşayan xristianların "həddən ziyadə ağır" və "hüquqsuz vəziyyəti"nin acnacaqlı təsvirləri [30, XXII-XIX və s.] və İsrail Orinin Avropanın yüksək dairələri ilə olan görüşlərində xristianları "əzabkeş", "acı taleli", "kafirlərin zülmü altında olan xalq" [30, XXIII; 23, 49] kimi təqdim etməsinin tamamilə saxta olduğunu deməyə əsas verir. Bəllidir ki, İsrail Orini müsəlman dövlətlərinə böhtan atmaqla öz təhrikçilik fəaliyyətinə bir növ haqq qazandırmağa çalışırdı. Bütün bu faktlar bir daha sonrakı dövrlər erməni tarixçiləri üçün mənbə rolu oynayan Q.A.Ezovun kitabındakı bütün şərhlərin uydurma olduğunu təsdiq edir.

Bundan başqa həmin dövrdə alban nəslinin davamçısı olan Həsən Cəlal tərəfindən idarə edilən Gəncəsər monastrının müstəqil olmasını daha bir fakt təsdiq edir.

1709-cu ildə İsfahandan geri qayıdan İsrail Ori Qarabağa gələrək burada alban katolikosu Həsən Cəlal və alban xristian məliklərlə görüşür. Orinin əsas məqsədi Qarabağda mövcud olan karvan yolları, xüsusilə ipək istehsalı ilə məşğul olan bölgələr haqqında Rusiya hakim dairələrinə məlumat toplamaq idi. Alban katolikosu Həsən Cəlal onunla görüşündə Rusiya dövlətinə siyasi rəğbətini açıqca etiraf etmişdi. Onun bu cür mövqe tutmasının səbəbi görünür Rusiya hakim dairələrindən alban kilsəsinin xeyrinə bəzi güzəştlər əldə etmək istəyi olmuşdu. "Erməni-rus əlaqələrin"nin II cildinin I hissəsinin giriş mətnində bu haqda qeyd olunur ki, "Həsən Cəlalyan Moskva, Həştərxan və Rusiyanın cənubunda məskunlaşmış ermənilər öz kilsəsinin nüfuz dairəsinə salmağa çalışırdı. Heç təsadüfü deyildir ki, katolikos Həsən Rusiyaya siyasi meyli ilk qəbul edənlərdən …biri olmuşdu" [bax: 3, XXI-XXII].

Erməni tarixçiləri və onların həmfikirləri tərəfindən ictimaiyyətin beyninə belə bir fikir də yeridilməkdədir: Qarabağ məlikliklərinin əhalisi ermənilərdən ibarət olmuşdur. Lakin Rusiya Federasiyasının müxtəlif arxivlərindən əldə etdiyimiz sənədlər bu iddianın tamamilə

uydurma olduğunu və erməni alimlərinin arxiv sənədlərini belə saxtalaşdırmaqdan çəkinmədiklərini bir daha sübut edir. 1723-cü ilin martında Qarabağ məliklərindən dördü I Pyotra ünvanladıqları məktubda özlərini "alban türkləri" kimi təqdim etdikləri halda [1, л.л.2-2об; л.л.10-11; 19, 15.], məktubun rus dilinə tərcümə edilmiş variantında "alban türkləri" əvəzinə, "alban müsəlmanları" ifadəsi işlədilmişdir [2, c.30-31; 19, 15].

Bundan başqa, Qarabağın xristian məliklərinin 1781-ci il 2 sentyabr tarixində II Yekaterinaya ünvanladıqları məktubunun erməni dilində olan variantında məliklər özləri haqqında "biz Arşaki (Արշակուն) və Alban (Աղվան) taxt-tacının çarları nəslinə məxsusuq" ifadələrini yazmışlar [29, л.л.5-6; 19, 15]. Erməni tarixçiləri həmin sənədi rus dilində təqdim edərkən qeyd etdiyimiz cümləni saxtalaşdırıb "biz erməni rəisləri nəslindənik" ifadələri ilə əvəz etmişlər [5, s.183-184; 19, 15].

Qeyd etdiyimiz kimi, erməni tarixşünaslığında Qarabağın xristian məlikləri birmənalı şəkildə erməniləşdirilir və onların tarixən bu ərazidə məskunlaşmış, mənşəcə Azərbaycan albanlarından olması tamamilə inkar olunur. Atkin Müriel də Qarabağ xanlığı daxilində ermənilərin nüfuzedici səsə malik olduğunu iddia edir [7, 12]. Bu haqda qafqazşünas Veliçkonun fikirləri də maraqlıdır. Müəllif XX əsrin əvvəllərində yazırdı ki, "tərkibinə həm indiki Yelizavetpol quberniyası, həm Tiflis quberniyası, həm də Dağıstanın bir hissəsi daxil olan diyar ermənilərdən xristianlığı qəbul edən, lakin erməni mənşəli olmayan xalqların məskənidir. XIX əsrin əvvəllərinə qədər Üçmiədzin katolikosu ilə rəqabət aparan, bəzən də tamamilə ondan asılı olmayan ayrıca Ağvan, yaxud Gəncəsər katolikosu da mövcud idi. Vaxtilə Ağvan katolikosunun dindarları olmuş xristianlar indi erməni hesab edilir və onların qarışıq xasiyyətlərini götürüblər" [10, 66].

Hətta XVIII əsrin II yarısında tərtib edilmiş Rusiya İmperiyası Xarici Siyasət arxivinə məxsus sənədlərdə də "İbrahim xana tabe olan Qarabağ məlikləri" kimi təqdim edilmişdir:

1. Məlik Məclum Adəm oğlu – Carabert (Çiləbörd – G.N) hakimi
2. Məlik Abov İosif oğlu – Gülüstan hakimi
3. Məlik Şahnəzər Hüseyn oğlu – Vərəndə hakimi
4. Məlik Allahverdi Mirzəxan oğlu – Xaçın hakim
5. Məlik Baxtam Yeqanın nəvəsi – Dizaq hakimi [2, 144-149об].

Göründüyü kimi məliklərin heç birinin soyadı tanınmış erməni nəsillərindən deyildi. XVIII əsrdə Qarabağın xristian alban məliklərinin məktublarının erməni dilində tərtib olunması heç də onların erməni olması demək deyildir. Tarixin bütün mərhələlərində rəsmi yazılarını digər dillərdə tərtib edən xalqlar və dövlətlər olmuşdu. Məsələn, orta əsrlərdə bütün Qərbi Avropa latın dilində, XI əsr Səlcuq sultanları, XIII əsr Hülakü hökmdarları və XVI-XVII əsrlər Moğol şahları rəsmi yazılarını fars dilində yazırdı.

Qarabağın xristian alban məliklərinin tamamilə erməniləşdirilməsi 1836-cı ildə ermənilərin təhriki ilə mərkəzi Gəncəsər olan alban apostol kilsəsinin ləğv edilməsindən sonra baş verdi. Belə ki, həmin ildə Rusiya Sinodunun qərarı ilə müsəqil alban kilsəsi rəsmi olaraq ləğv edilərək diofizit mərkəzi statusunu itirdi və erməni qriqorian kilsəsinin təsiri altına keçdi [11, 194-209]. Bunula da, ərəb Xilafəti zamanında olduğu kimi, Qarabağdakı bütün alban monastr və kilsələrinə məxsus əlyazmalar erməni qriqorian kilsəsinin – Üçkilsənin əlinə keçdi. Və həmin sənədlərdəki alban-qıpçaq türkçəsindəki yazıların saxtalaşdırılmasına başlanıldı.

Bu istiqamətdə görüləcək işlər Qarabağın xristian alban əhalisinin tarixi ilə bağlı bir sıra açılmamış məqamlara aydınlıq gətirməyə, həm də erməni saxtalaşdırmalarına tutarlı cavab verməyə imkan verəcəkdir.

Ədəbiyyat

1. Архив Внешней Политики Российской Империи (АВПРИ), ф.100 “СРА” оп.100/4, дело 1.
2. АВПРИ, ф.100 “СРА” оп.100/4, дело 464 (Историческое описание о Карабахских меликах).
3. Армяно-русские отношения в первой трети XVIII века. (Сб. документов. Под редакцией Ашота Иоаннисяна), т.II, ч.I, Ереван: «Изд-во АН Арм. ССР», 1964.
4. Армяно - русские отношения в первой трети XVIII века. (Сб. документов. Под редакцией Ашота Иоаннисяна), т.II, ч.II, Ереван: «Изд-во АН Арм. ССР», 1967.
5. Армяно - русские отношения XVIII веке. (1760-1800 гг.) Сборник документов, т.IV, ч.II, Ереван: «Изд-во АН Арм. ССР», 1990.
6. Арутюнян П.Т. Освободительное движение армянского народа в первой четверти XVIII века, Москва: «Изд.-во Академии наук СССР», 1954.
7. Atkin M. Russia and Iran 1780-1828, Menneapolis: University Of Minnesota Press, 1980.
8. Azərbaycan tarixi (7 cilddə), III cild. Bakı: “Elm”, 1999.
9. Bünyadov Z. Azərbaycan VII–IX əsrlərdə. Bakı: “Azərnəşr”, 1989.
10. Величко В.Л., Кавказ. Русское дело и междуплеменные вопросы. (СПб., 1904), Баку: «Элм» 1990.
11. Высочайше утвержденное положение *об* управлении делами Армяно-Григорианской церкви *в* России, 11 марта 1836 года. Полное собрание законов Российской империи (ПСЗРИ), собр.2-е., т.11, отд.,1, СПб., 1837, № 8970.
12. Əlizadə R., Nəciyev E. Qarabağın Alban-Qıpçaq tarixinə dair. Akademik Tarih ve Düşünce Dergisi. Cilt: 7/Sayı: 4. Türkiye, Aralık, 2020.
13. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: “Şuşa”, 2000.
14. Qafqazda “erməni məsələsi”. Rusiya arxiv sənədləri və nəşrləri üzrə (Ön söz: Tale Heydərov. Tərtibçi-müəlliflər: T.K.Heydərov, T.H.Bağıyev, K.K.Şükürov), I cild. 1724-1904. “Elm”, Bakı: 2010.
15. Qarabağnamələr. Bakı: “Yazıçı”, 1989.
16. Qarabağnamələr, (ikinci kitab). Bakı: “Yazıçı”, 1991.
17. Иоаннисян А.Р. Россия и Армянское освободительное движение в 80- х г. XVIII веке. Ереван: «Изд-во АН Арм. ССР», 1947.
18. Mahmudov Y. Şükürov K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı: “Təhsil”, 2005.
19. Mahmudov Y., Najafli G. The resettlement of Armenians to the lands of North Azerbaijan – the irrefutable truth of history, Turkhan, Baku 2020.
20. Mustafayev T. Qarabağ (Gəncə) bəylərbəyliyi XVIII əsrin I qərinəsində. Azərb. EA Xəbərləri, tarix, fəls. və hüquq seriyası, Bakı: 1988, №3.
21. Naxçıvan sancağının müfəssəl dəftəri. (Giriş və tərcümənin müəllifləri, akd.Z.Bünyadov, t.e.n.H.Məmmədov). Bakı: “Sabah”, 1997.
22. Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı: “Nurlan”, 2002.
23. Наджафли Г. Азербайджан в XVIII-XIX веках. Бишкек: «Бийиктик», 2010.
24. Даврижеци А. Книга Историй. (Перевод с армянского, предисловие и комментарий А.А.Ханларян). Москва: “Наука”, 1973.
25. Нерсисян М. Из истории армяно-русских отношений. Кн. I, документы. Ереван: «Изд.-во Академии Наук Армянской ССР», 1956.
26. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении XYI - начале XIX вв. Л. «Изд. Ленинградского государственного ордена Ленина Университета имени А.А.Жданова», 1949.
27. Петрушевский И.П. Государства Азербайджана в XVI-XVII вв. Сборник статей по истории Азербайджана, вып. I. Баку: 1949.
28. Piriyev V.Azərbaycan XIII-XIV əsrlərdə. Bakı: “Nurlan”, 2003.

29. Российский Государственный Военно-Исторический Архив (РГВИА), ф.52, оп.1/194, дело 270.
30. Эзов Г.А. Сношения Петра Великого с армянским народам. (Документы). СПб.: «Типография Императорской Академии Наук», 1898.
31. Эфендиев О.А. Еще раз о так называемых «Гарабагских меликствыах» Гарабаг: Кюрекчайский договор – 200. Баку: 2005.
32. Կիրակոս Գանցակեցի: Հայոց պատմութուն: «Սովէտական գրող», Երեվան, 1982 (Gəncəli Kirakos. Ermənilərin tarixi. "Sovet yazıçısı", İrəvan: 1982).

QARABAĞ XANLIĞININ MƏRKƏZİ - ŞUŞA ŞƏHƏRİ

Camal Mustafayev
tarix üzrə elmlər doktoru, professor
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
Bakı, Azərbaycan
e-mail: mustafayev1954@list.ru

Xülasə: Məqalədə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin simvoluna çevrilmiş Şuşa şəhərinin mövcud olduğu bütün müddət ərzində mürəkkəb, eyni zamanda şərəfli bir inkişaf yolu keçməsindən bəhs olunmuşdur. Ən güclü düşmənlərin belə qarşısında baş əyməyən Şuşa milli memarlığımızın, musiqi mədəniyyətimizin inkişafına əvəzsiz töhfələr vermiş, uzun müddət Qarabağın inzibati və siyasi mərkəzi rolunu oynamışdır. Şuşada mövcud olan 17 küçənin (məhəllənin) hamısının Azərbaycan dilində adlanması, Azərbaycan türklərinin şəhər əhalisinin milli tərkibində mütləq üstünlüyünü, Şuşanın yalnız Azərbaycana məxsus olduğuna inandırıcı sübutdur. Şuşa çox qısa müddətdə təkcə Qarabağ xanlığının deyil, bütün Azərbaycanın mühüm iqtisadi mərkəzinə çevrildi. Şuşalı tacirlər Qonşu Azərbaycan xanlıqları ilə yanaşı, Türkiyə, İran, Rusiya və Avropa ölkələri ilə ticarət aparırdılar. Çoxsaylı Şuşa sənətkarları Qarabağ xanlığının sənaye malları ilə təmin olunmasında mühüm rol oynamışdılar.

Açar sözlər: Şuşa, Qarabağ xanlığı, Pənahəli xan, İbarahimxəlil xan, qala divarları, ticarət, sənətkarlıq.

SHUSHA AS THE CAPITAL OF KHARABAGH KHANATE

Jamal Mustafayev
Doctor of Historical Sciences, professor
Azerbaijan State University of Oil and Industry,
Baku, Azerbaijan

Abstract: The city of Shusha played the role as the capital of Karabagh khanate in 1756-1822, founded by Panahaly khan in the middle of the 18th century. Having had suitable military strategic position the city was strengthened by both Panahaly khan and his successor Ibrahimkhalil khan and became a virtually impregnable fortress. The city of Shusha that was formed as an Azerbaijani city consisted of the parts called Tabrizly and Yukhary during the khanate period. The fact that each of the 17 quarters built in these parts were named only in Azerbaijan language and fact that 2/3 of the people living in the city were Azerbaijani Turks it once again confirms that Shusha is only an Azerbaijani city. The city became one of the centers of trade and crafts not only in Karabagh khanate but also in whole Azerbaijan, in a short time. Merchants from Shusha had trade relations not only with neighbouring Azerbaijani khanates but also with Turkey,Iran,Russia and European countries. Craftsmen had an important role in supplying the areas of Karabagh khanate with industrial products

Key words: Shusha, Karabagh khanate, Panahaly khan, Ibrahimkhalil khan, castle walls, trade, crafts.

ЦЕНТР КАРАБАХСКОГО ХАНСТВА - ГОРОД ШУША

Дж.М. Мустафаев
Доктор исторических наук, профессор
Азербайджанский ГосударственныйУниверситет
Нефти и Промышленности,
Баку, Азербайджан

Резюме: Город Шуша, основа которой была заложена Панахали ханом в середине XVIII века, с 1756 по 1822 год выполнял функции центра Карабахского ханства. Несмотря на то, что город имел очень выгодные военно-стратегические позиции, он постоянно укреплялся новыми оборонительными сооружениями Карабахскими ханами, что превратило его в непреступную крепость. Шуша, сформировавшийся как азербайджанский город, состоял из двух частей, называвшихся «Тебризли» и «Юхары». Азербайджанские названия всех 17-ти улиц (магалле), расположенных в этих частях, и абсолютное преимущество тюрков-азербайджанцев в национальном составе городского населения, являются убедительным доказательством о принадлежности Шуши только Азербайджану. Город за очень короткий срок превратился в экономический центр не только Карабахского ханства, но и всего Азербайджана. Шушинские купцы вели оживленную торговлю. Наряду с соседними азербайджанскими ханствами торговля велась с Турцией, Ираном, Россией и европейскими странами. Многочисленные шушинские ремесленники играли важную роль в обеспечении Карабахского ханства промышленными товарами.

Ключевые слава: Шуша, Карабахское ханство, Панахали хан, Ибрагимхалил хан, городские стены, торговля, ремесло.

Şuşa şəhərinin meydana gəlməsi XVIII əsrin ortalarında Azərbaycanda, o cümlədən həmişə onun ayrılmaz tərkib hissəsi olmuş Qarabağda, daha dəqiq desək Qarabağ xanlığında yaranmış hərbi-siyasi şəraitlə sıx bağlı olmuşdur. Bu dövrdə meydana gəlmiş digər Azərbaycan xanlıqlarından fərqli olaraq Qarabağ xanlığında paytaxt şəhəri funksiyasını yerinə yetirməli olan möhkəmləndirilmiş şəhər-qalanın olmaması xanlığın banisi Pənahəli xan Cavanşirin (1748-1763) vəziyyətini xeyli ağırlaşdırmışdı. Xanığın daxilində gedən hakimiyyət uğrunda çəkişmələr, ən başlıcası isə qonşu xanlıqların, Cənubi Azərbaycanda və İranda hakimiyyət uğrunda mübarizə aparan hakimlərin istənilən vaxt Qarabağa hücum təhlükəsi Pənahəli xanı bu təhlükədən qorunmaq üçün real addımlar atmağa məcbur edirdi. 1748-ci ildə xanlığın Kəbirli mahalında ətrafına qalın qala divarları çəkilmiş Bayat qalası məhz bu məqsədlə salınmışdı [6, s.111-112; 4, s.108]. Qalaya xan ailəsindən başqa ətraf kəndlərdən, hətta Təbriz və Ərdəbil şəhərlərindən xeyli sayda sənətkar köçürülmüşdü. Bayat qalası əsasının qoyulmasından az sonra Şəki hakimi Hacı Çələbi xanın və Pənahəli xanın hakimiyyətini tanımaqdan imtina edən Qarabağın alban-xristian məliklərinin birgə hücumuna məruz qaldı. Müttəfiqlər qalanı bir aydan artıq mühasirədə saxlasalar da ələ keçirə bilmədilər və geri çəkilməyə məcbur oldular [8, s.19-20]. Lakin bu hücumdan sonra Bayat qalasının daha güclü düşmənlərin hücumu qarşısında tab gətirə bilməyəcəyini başa düşən Pənahəli xan Qarabağ xanlığının paytaxtı rolunu oynamalı olan yeni bir qalanın əsasını qoymaq qərarına gəldi və tezliklə indiki Ağdam şəhərindən 10 km aralıda yerləşən Şahbulaq qalasının tikintisinə başlamaq haqqında əmr verdi. Qarabağ tarixçilərinin verdiyi məlumatdan aydın olur ki, Şahbulaq qalasının tikintisi 1751/1752-ci ildə başa çatdırılmış və əvvəllər Bayat qalasında yaşayan əhali buraya köçürülmüşdü.

Lakin tezliklə Şahbulaq qalasının da Qarabağ xanlığının təhlükəsizliyini təmin edə bilməyəcəyini başa düşən Pənahəli xan düşmən hücumları üçün əlçatmaz olan daha əlverişli bir yerdə yeni şəhər-qalanın əsasını qoymaq qərarına gəldi. O, bu məqsədlə topladığı məşvərət məclisində demişdi: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirəyə ala bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daima açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz bir an belə

kəsilməməlidir" [6, s.115]. Uzun və gərgin axtarışlardan sonra dəniz səviyyəsindən 1300-1600 m hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş hündür dağ yaylası Qarabağ xalığının yeni paytaxtının salınması üçün daha əlverişli hesab edildi. Yaylanın dördüncü tərəfində - şimal-şərqində yerləşən dar və dolanbac cığır yeni paytaxtın mahallarla əlaqəsini təmin etmək üçün yetərli idi. Son dövrlərdə aparılan araşdırmalar göstərir ki, Pənahəli xanın əmri ilə 1753/1754-cü ildə məhz bu dağ yaylasında Qarabağ xanlığının üçüncü paytaxtının – Şuşa şəhərinin tikintisinə başlanılmış və əhalinin təhlükəsiz yaşaması üçün zəruri işlər görülüb başa çatdırıldıqdan sonra, daha doğrusu 1756-cı ildə xanlığın paytaxtı buraya köçürülmüşdü [10, s.57-61; 11, s.39]. Şəhər əvvəlcə öz banisinin adı ilə Pənahabad, sonralar isə yerləşdiyi relyefə uyğun olaraq Şuşa (qədim türk dilində "yayla", "piramida", "şiş qaya") adlandırıldı.

Şəhərin salındığı ərazinin relyefi onun tezliklə güclü müdafiə qalasına çevrilməsinə gətirib çıxarmış və memarlığına ciddi təsir göstərmişdi. İstər Pənahəli xan, istərsə də onun varisi İbrahimxəlil xan (1763-1806) Şuşanı hərbi cəhətdən daha da möhkəmləndirmək üçün təbii müdafiə vasitələri ilə kifayətlənməyərək bir sıra güclü müdafiə qurğuları da inşa etdirmişdilər. Bu qurğular içərisində hər iki xanın inşa etdirdiyi uzunluğu 2,5 km olan qala divarları mühüm əhəmiyyət kəsb edirdi. Pənahəli xanın dövründə bu divarlar bir qədər sürətlə və tələsik inşa edildiyindən tezliklə yararsız hala düşmüş və onun yenidən tikilməsinə ehtiyac yaranmışdı. Qarabağ tarixçisi Mirzə Camalın verdiyi məlumata görə, İbrahimxəlil xanın əmriylə yeni qala divarlarının tikintisinə 1783/1784-cü ildə başlanılmış və bu iş üç il ərzində başa çatdırılmışdı [6, s.143]. Digər Qarabağ tarixçisi Mirzə Yusif Qarabağinin yazdığına görə kifayət qədər möhkəm tikilmiş "bu divardan nə top gülləsi, nə də başqa bir şey keçməzdi. Çünki divar daş və əhənglə bərkidilmişdi" [7, s.18].

Hadisələrin sonrakı gedişi Pənahəli xanın güclü strateji mövqeyə malik olan Şuşa şəhərinin əsasını qoymaqla vaxtında müdrik qərar qəbul etdiyini göstərdi. Şəhərin Qarabağ xanlığının paytaxtına çevrilməsindən cəmi bir il sonra – 1757-ci ilin avqustunda Mazandaran və Astrabad hakimi Məhəmmədhəsən xan Qacar 30 minlik ordu ilə Şuşa üzərinə hücuma başladı və Xatın arxı deyilən yerdə düşərgə saldı. Lakin onun Şüşanı ələ keçirmək üçün bir ay ərzində göstərdiyi bütün cəhdlər uğursuzluqla nəticələndi. Mirzə Adıgözəl bəyin yazdığı kimi, Şuşanın qəhrəman müdafiəçiləri düşmən əsgərlərini qırır, "azuqə gətirən adamlarını, qoşun əhlinin heyvan və mal-qarasını qarət edib aparırdılar" [5, s.41]. Nəticədə böyük itkilər verən Məhəmmədhəsən xan Qacar Şuşanın mühasirəsindən əl çəkməyə məcbur oldu.

Şuşanın çox güclü müdafiə imkanlarına malik olduğu Urmiya hakimi Fətəli xan Əfşarın Qarabağa yürüşü zamanı bir daha təsdiq olundu. İran və Cənubi Azərbaycanın xeyli hissəsini nəzarət altına alan Fətəli xan hakimiyyətini Şimali Azərbaycana da yaymaq üçün 1760-cı ildə böyük bir ordu ilə Qarabağa yürüş etdi. Lakin xanlığın paytaxtı Şuşa şəhərini hücumla ələ keçirməyin mümkün olmayacağını başa düşən Urmiya hakimi onu mühasirəyə aldı. Lakin altı ay davam etmiş mühasirə heç bir nəticə vermədi. Fətəli xanın Şuşanı ələ keçirmək üçün təşkil etdiyi sonuncu hücum urmiyalılar üçün xüsusilə ağır olmuşdu. Mirzə Camalın verdiyi məlumatdan aydın olur ki, bu hücum zamanı Urmiya xanı, ölən və əsir düşənlərlə birlikdə, 2 min nəfər əsgər itirmişdi [6, s.117]. Şuşanı ələ keçirməyin mümkün olmadığını başa düşən Fətəli xan hiylə işlədərək Pənahəli xanın oğlu İbrahimxəlil ağanı girov götürməklə Qarabağ xanlığını asılı hala salsa da, özünün əsas məqsədinə çata bilmədi və geri çəkilməyə məcbur oldu.

Şuşanın xarici aləmlə əlaqəsinin təmin edilməsi məqsədilə dörd qala qapısı inşa edilmişdi. Bu qapılardan üçünün – Gəncə, Ağoğlan və İrəvan qapılarının adları dövrümüzədək gəlib çatmışdır. Adı və yeri naməlum qalan dördüncü qapı, çox güman ki, qala divarları İbrahimxəlil xan tərəfindən yenidən tikilərkən ləğv edilmişdi. Şuşanın əsas qapısı olan Gəncə qapısı qalanın şimalında, İrəvan qapısı (bəzən Xəlfəli qapısı da adlandırılırdı) qərbində,

Ağoğlan (həm də Şuşakənd və Topxana qapısı kimi tanınırdı) şərqində yerləşirdi [12, s.32-34].

Şuşa şəhərinin əsasının Qarabağ xanlığının intensiv olaraq xarici hücumlara məruz qaldığı bir dövrdə qoyulması onun srukturuna ciddi təsir göstərmişdi. Azərbaycanın əksər orta əsr şəhərləri üçün xarakterik olan İç qala Pənahəli xanın hakimiyyəti dövründə şəhərin daha əlverişli yerlərində kiçik qalaları xatırladan imarətlərlə əvəz olunmuşdu. Mir Mehdi Xəzani yazırdı ki, Pənahəli xan özü və oğlanları İbrahimxəlil, Mehrəli və Talıbxan üçün "imarəti-məqrub yapmışdı ki, düşmən qalaya gələn çağda lazımi yerləri mühafizə edə" bilsin[4,s.198]. Bu imarətlərdən hər birinin ətrafına künclərində bürcləri olan qala divarları çəkilmişdi.

Pənahəli xanın hakimiyyəti dövründə Şuşada İç qalanın tikilməməsinin əsas səbəbi, heç şübhəsiz ki, hər an gözlənilən hücumlar qarşısında vaxt məhdudluğu olmuşdu. Elə bu səbəbdən də Şuşada İç qalanın tikintisi Qarabağ xanlığında hərbi-siyasi vəziyyətin nisbətən sabitləşdiyi İbrahimxəlil xanın hakimiyyəti dövründə həyata keçirilmişdi. Onun dövründə Gəncə qapıları yaxınlığında uca bir təpənin üstündə tikilmiş İç qalanın daxilində divanxana, iki böyük imarət və bir neçə yardımçı bina yerləşirdi. Xan ailəsinin təhlükəsizliyini təmin etmək məqsədilə İç qalanın ətrafına qalın qala divarları çəkilmişdi.

Qarabağ xanları Şuşa şəhərinin təhlükəsizliyini təmin etmək üçün ona aparan yollar üzərində möhkəm müdafiə qurğularının tikintisinə də böyük əhəmiyyət verirdilər. Belə qurğuların ən parlaq nümunələrindən biri Qarqarçayın hər iki sahilində inşa edilmiş möhtəşəm Əskəran qalaları idi. Qarabağ tarixçilərinin bəziləri həmin qalaların tikintisini Pənahəli xanın adı ilə bağlasalar da, bu fikir özünü doğrultmur. Ehtimal etmək olar ki, Pənahəli xan Qarqarçayın sahilində qala tikdirməyi planlaşdırsa da, bu işi həyata keçirməyə vaxtı və imkanı çatmamışdı və onun tikintisini oğlu İbrahimxəlil xana vəsiyyət etmişdi. Əskəran qalalarının İbrahimxəlil xan tərəfindən tikilməsi ehtimalını Mirzə Camal Qarabağı və Mir Mehdi Xəzani də təsdiq edir. Mir Mehdi Xəzani bu münasibətlə yazırdı: "İbrahim xanın bir ümdə əsəri dəxi Əskəran dağının iki qalasıdır. Çünki Şirvan, Şəki və Dağıstan xalqı Pənah xan ilə düşmən idilər. Ehtiyatən vəsiyyət elədi ki, İbrahimxəlil xan bu iki dağın arasında iki qala təmir edə" [4, s.201].

Şuşa şəhərindən 25 km aralıda, Qarqarçayın hər iki sahilində tikilmiş Əskəran qalaları, hər şeydə əvvəl, düşmənin Qarabağ xanlığının paytaxtına düzənlikdən baş verə biləcək hücumlarının qarşısını almaq üçün nəzərdə tutulmuşdu. Qalaların çayın sağ sahilində yerləşən hissəsi uzunluğu 250 metrə çatan ikiqat divardan ibarət idi. Çay daşı ilə hörülmüş bu divarın eni 2, hündürlüyü isə bəzi yerlərdə 9 metrə çatırdı [24, s.321]. Əskəran qalaları çox əlverişli mövqeyə malik idilər. Belə ki, Qarqarçayın sahili çox hündür və sıldırımlı olduğundan düşmən bu qalaları ələ keçirmədən Şuşaya doğru irəliləyə bilməzdi. Çayın hövzəsi ilə hərəkət etmək məşburiyyətində qalan düşmənin yolunu isə burada tikilmiş iki bürc kəsirdi [21, s.22]. Ağa Məhəmməd şah Qacar 1797-ci ildə Şuşaya ikinci yürüşü zamanı Əskəran qalalarını ələ keçirmək üçün bir həftəyə yaxın vaxt və 2 min nəfər əsgər itirmişdi.

İbrahimxəlil xanın dövründə yenidən daha etibarlı inşa edilmiş qala divarları, İç qala və Əskəran qalaları Şuşanın müdafiə imkanlarını daha da gücləndirdi. Fransız müəllifi Jan Gevr yazırdı ki, "Ağa Məhəmməd xan Qacarın dövründə Şuşa kiçik, gözəl şəhərdi, möhkəm hasarının hündürlüyü şəhərin bütün cəhətlərində bərabərdi, hasarın elə yerləri var idi ki, oradan mühacimlərin (hücum edənlərin – C.M.) başına daş, qaynar su və ya ərimiş qurğuşun tökmək olurdu" [3, s.130]. Məhz bunların nəticəsi idi ki, bütün İranı və Cənubi Azərbaycanı özünə tabe etmiş Ağa Məhəmməd şah Qacar 1795 və 1797-ci illərdə Şuşaya hücumları zamanı çox ciddi çətinliklərlə üzləşmişdi.

1795-ci ilin iyulunda 85 minlik ordu ilə Şimali Azərbaycana yürüşə başlayan Ağa Məhəmməd xan Qacar əsas diqqəti Cənubi Qafqazın açarı hesab edilən Qarabağ xanlığının, ilk növbədə isə onun paytaxtı Şuşa qalasının alınmasına yönəltdi. Lakin atası Məhəmmədhəsən xan Qacar və urmiyalı Fətəli xan kimi, onun da Şuşanı hücumla ələ keçirmək cəhdi iflasa uğradı. Onun şəhəri 33 gün mühasirədə saxlaması da heç bir nəticə vermədi. Jan Gevr yazırdı ki, Ağa Məhəmməd xan bir müddət Şuşanın qala divarlarını

toplardan atəşə tutduqdan sonra əmin oldu ki, onun topları "qalanın hasarını dağıtmağa qadir deyi, bu işdən əl götürdü, nəticəsi olmayan işə vaxt və barıt sərf etmək istəmədi" [3, s.130].

1796-cı ildə artıq "şah" titulu qəbul etmiş Ağa Məhəmməd Qacar 1797-ci ildə Qarabağa növbəti yürüşü zamanı da Şuşanın qala divarlarının möhkəmliyinə bir daha əmin oldu. 1795-ci ilin uğursuz yürüşündən nəticə çıxaran şah bu dəfə öz məqsədinə çatmaq üçün topçularına dağıntı əmələ gələnə qədər qala divarlarının eyni nöqtəsinə fasiləsiz atəş açmağı əmr etdi və məqsədinə nail oldu. Şuşanın tezliklə düşmən tərəfindən işğal ediləcəyini başa düşən İbrahimxəlil xan şəhərdən çıxaraq qəfil hücumla Qacarın topxanasını məhv etdi. Lakin qalaya qayıtmaq üçün yolun düşmən tərəfindən kəsilməsi Qarabağ xanını Car-Balakənə çəkilməyə məcbur etdi [17, s.209]. Yaranmış vəziyyətdən istifadə edən Ağa Məhəmməd şah Şuşaya daxil oldu. Lakin onun buradakı hakimiyyəti cəmisi bir neçə gün çəkdi və tezliklə öz xidmətçiləri tərəfindən qətlə yetirildi. Başsız qalan Qacar ordusu tələsik Şuşanı tərk etdi [8, s.54].

Şuşanın bir şəhər kimi formalaşıb inkişaf etməsində üç əsas mərhələ özünü aydın şəkildə göstərir. Əldə olan materiallar belə bir qənaətə gəlməyə əsas verir ki, şəhərin əsasının qoyulduğu vaxtdan Pənahəli xanın ölümünə qədər davam etmiş birinci mərhələdə (1754-1763) mövcud hərbi-siyasi şəraitlə əlaqədar tikinti işləri çox sürətlə və bir qədər tələsik aparılmışdı. Bu tələskənlik özünü bir tərəfdən İç qalanın olmamasında, digər tərəfdən isə müdafiə qurğularının və ictimai binaların istər monumentallıq, istərsə də keyfiyyət baxımından sonrakı dövrlərdə inşa edilmiş tikililərdən xeyli aşağı səviyyədə olmasında göstərirdi. Bu fikri orta əsr müsəlman şəhərlərinin memarlıq strukturunda mühüm rol oynayan və adətən möhtəşəm xarakter daşıyan Cümə məscidinin Pənahəli xanın dövründə Şuşada qarğıdan tikilməsi [1, s.275] də təsdiq edir.

Pənahəli xanın hakimiyyəti dövründə Şuşanın ən qədim hissəsi olan "Aşağı məhəllə" salınmışdı. Mirzə Camalın verdiyi məlumatdan aydın olur ki, bu hissə əvvəllər yaxınlıqda yerləşən Şuşakəndin əkin və otlaq sahəsi olmuşdu [6, s.116]. Salındığı ilk dövrdən Qarabağ xanlığının 1822-ci ildə ləğv edilməsinə qədər bu hissə "Təbrizli" adı ilə tanınmışdır. Şuşanın bu ilk hissəsinə "Təbrizli" adının verilməsi onun ilk sakinlərinin əsas hissəsini vaxtilə Bayat və Şahbulaq qalalarında məskunlaşmış Təbriz və Ərdəbildən köçürülmüş sənətkarların təşkil etməsi ilə izah etmək lazımdır. Sonralar dağ yamacında yeni məhəllələrin salınması ilə əlaqədar "Təbrizli" məhəlləsi kimi tanınan bu hissə şəhərin yeni relyefinə uyğun olaraq "Aşağı məhəllə" və yaxud "Çuxur məhəllə" adlandırılmışdır.

Beləliklə, xanlıqlar dövründə "Təbrizli məhəlləsi" kimi tanınan ilk hissə sonralar Şuşa şəhərinin böyüyüb inkişaf etməsində həlledici rol oynamışdı. Qarabağ xanlığının tarixini yazmış Baharlının verdiyi məlumata görə, bu hissədə 9 məhəllə - Çuxur, Qurdlar, Culfalar, Seyidli, Quyular, Hacı Yusifli, Merdinli, Qazançalı və Çöl qala məhəlləsi salınmışdı [1, s.277]. Rus məmurları tərəfindən 1823-cü ildə tərtib edilmiş "Qarabağ əyalətinin təsviri"ində verilən məlumata görə Şuşanın bu hissəsində 162 ailə yaşayırdı [20, s.4-5].

Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi (1763-1806) Pənahəli xanın varisi İbrahimxəlil xanın adı ilə bağlıdır. Onu da göstərmək lazımdır ki, Pənahəli xanın hakimiyyət dövrü ilə müqayisədə İbrahimxəlil xanın hakimiyyəti dövründə Qarabağ xanlığında vəziyyət xeyli sabitləşmişdi. Belə ki, bir tərəfdən mərkəzi hakimiyyətə qarşı çıxan məliklərin müqaviməti qırılmış, digər tərəfdən isə Qarabağ xanlığını ələ keçirməyə çalışan qonşu Azərbaycan hakimlərinin yürüşləri iflasa uğramışdı. Xanlığın daxilində və ətrafında yaranmış bu müvəqqəti nisbi sabitlik quruculuq işlərini daha əsaslı və kefiyyətli şəkildə həyata keçirməyə imkan verirdi. Heç də təsadüfi deyil ki, İbrahimxəlil xanın hakimiyyətinin ilk 30 ilində həm Şuşada, həm də bütölükdə Qarabağ xanlığında inşa edilmiş müdafiə qurğuları, saraylar, karvansaralar, məscidlər və digər ictimai tikililər özlərinin daha möhtəşəm olmaları ilə seçilirdilər. Bəzi məlumatlara görə İbraimxəlil xanın hakimiyyəti döründə Şuşada

aparılmış tikinti işlərinə görkəmli dövlət xadimi və şair Molla Pənah Vaqif rəhbərlik etmişdi [25, s.101].

Şuşanın İbrahimxəlil xanın dövründə saliınmış ikinci hissəsi "Yuxarı məhəllə" adlandırılmışdı. Şəhərsalma üçün əlverişli olan birinci hissənin ərazisindən fərqli olaraq, ikinci hissənin salındığı yer bu iş üçün elə də əlverişli deyildi. Dağ yamacında yerləşən bu ərazi sıx meşə ilə örtülü olduğundan onu ilk növbədə yaşayış evlərinin tikilməsi üçün yararlı hala salmaq tələb olunmuşdu. Daha doğrusu, tələbat yarandıqca ərazi meşələrdən təmizlənir və onun yerində yeni məhəllələr salınırdı. Yenə də Baharlının verdiyi məlumata görə, Şuşanın relyefinə görə "Yuxarı məhəllə" adlandırılan bu hissəsində 8 yeni məhəllə - Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamamqabağı və Təzə məhəllələri salınmışdı [1, s.277].

Şəhərin "Qazançalı" adlanan üçüncü hissəsi də dağlıq ərazidə salınmışdı. Mirzə Yusif Qarabağinin verdiyi məlumatdan aydın olur ki, bu hissənin tikintisi Qarabağ xanlığının 1806-cı ildə Rusiya imperiyasının tərkibinə qatılmasından sonra başlamış və bütün XIX əsr ərzində davam etmişdi. Əvvəlki iki hissə ilə müqayisədə "Qazançalı məhəlləsi"ndə daha çox əhali yaşayırdı. Burada salınmış 12 məhəlləyə misal olaraq Çiləbörd, Dərə, Bağlar və digərlərini göstərmək olar [7, s.19].

Əldə olan materiallar sübut edir ki, Şuşa şəhərinin əsası, mənfur qonşularımızın irəli sürdükləri əsassız ərazi iddialarının əksinə olaraq, qədim Azərbaycan torpağı olan Qarabağda Azərbaycan türkləri tərəfindən qoyulmuş və mövcud olduğu bütün dövrlərdə özünün azərbaycan-türk xarakterini qoruyub saxlamışdır. Bunu, hər şeydən əvvəl, şəhərdəki bütün məhəllələrin adlarının ancaq Azərbaycan türkcəsində olması təsdiq edir.

Bu qarətlərdən ruhlanan ermənilərin növbəti hədəfi Qacar kəndi oldu: "Kədərli Veysəlli hadisəsindən sonra erməni daşnaksutyunlar yüz əlli evdən ibarət Qacar kəndinə hücuma başladılar" [5, s.52]. 3 mindən çox yaxşı silahlanmış erməni qüvvələrinə qarşı Qacar kəndinin cavanları ov tüfəngi və xəncərlərlə igidliklə savaşdılar. Qonşu azərbaycanlı kəndlərindən də qacarlılara yardıma gəldilər. Düşmən ağır itkilər verdi: "Qacar müharibəsində müsəlmanların mal zərəri 90 minə qədər olub, can tələfatı isə 12 nəfərdir. Ermənilərdən 150 nəfər hərb meydanında qətl olunmuş, 200-ə qədəri yaralanmışdı. ... Hətta bəzi ermənilərin sözünə görə ermənidən tələfat 253 nəfərə yaxın idi" [5, s.55].

1905-ci ilin iyun ayında Şuşada ermənilərin şəhərin azərbaycanlılar yaşayan məhəllələrinə hücum xəbərini alan Cəbrayıl və Qaryagin bəyləri, tacirləri 1 mindən çox atlı və piyada könüllü gənc ilə yardıma getdilər. Bu dəstə Şuşaya kəsədən çatmağa imkan verən Molla Nəsrəddin yolu ilə gedərkən Şuşa qəzasının Şeyxməli kəndində dayanmalı oldular. Burada xəbər tutdular ki, Ağa bəy İşxanov 1 minlik erməni dəstəsi toplayıb və Nur Məhəmməd dəyirmanı adlı geniş bir düzdə onlara hərbi təlim verir. Cəbrayıl qəzasının igidləri dərhal həmin dəstənin üzərinə hücum edib ermənilərə böyük tələfat verdilər, Ağa bəy İşxanov və digər zabitləri də atları ilə birlikdə ələ keçirdilər [5, s.57-58].

Rusiya hökumətinin yerli nümayəndələri bu qarşıdurmalarda bir qayda olaraq ermənilərin yanında yer alırdılar. M.S.Ordubadi bəhs edilən əsərində bununla bağlı belə bir faktı qələmə almışdı: "Sabit Hadrut ikinci sahəsinin pristavı Davidov o sahənin strajnikləri ilə bir firqə erməni götürüb Arış kəndinə hücum edirlər. Kəndin bir tərəfini odlayıb aradan çıxırlar" [5, s.63]. Görkəmli ədib təəssüflə qeyd etmişdi ki, "Hökumət göz açıb bu mahalda sülh-barışığı bərpa etmədi. Zira, onun da Şuşada böyük tədarükləri var idi. Qalaşçapov son faciədə hökumət qoşunlarını ermənilərə kömək üçün Şuşada saxlayır, mahalda isə sülhü bərpa etmək üçün bir nəfər də olsun hökumət qoşunu tapılmır" [5, s.67].

Elə çar hakimiyyəti nümayəndələrinin bu himayəçiliyinin nəticəsi idi ki, erməni silalı dəstələri 1905-ci ilin oktyabrında Tərtər və Xaçın bölgələrində azərbaycanlı kəndlərinə basqın etdilər. Oktyabrın 3-də Sırxavənd kəndini dağıtdılar, dinc sakinləri, hətta südəmər körpələri də qəddarlıqla məhv etdilər. Ardınca Umudlu, Hacıqərvənd, Çıraqlı, Gülablı, Kolanı, Malıbəyli,Paprəvənd və digər kəndlər qarət edildi, əhalisi didərgin salındı. Buna cavab olaraq yerli azərbaycanlı gənclər Cənubi Azərbaycandan köməyə gəlmiş könüllü atlı dəstənin fəal yardımı ilə ermənilər yaşayan Aranzəmin və Pircamal kəndlərinə hücum etdilər, 213 erməni qulduru məhv edildi, qalanları isə meşələrə, dağlara qaçaraq gizləndi [8, s.60].

Bütövlükdə, ermənilər tərəfindən 1905-1906-cı illərdə 158 azərbaycanlı əhali yaşayan kənd qarət edilmiş və dağıdılmış, 500-dən çox cinayət hadisəsi törədilmişdi [8, s.36].

Erməni silahlı dəstələrinin Qarabağda və digər bölgələrdə dinc azərbaycanlı əhaliyə qarşı qətl və qarətlərinin qarşısının alınmasında bu dövrdə Azərbaycanın qeyrətli ziyalı və əsilzadələri tərəfindən yaradılmış Difai partiyası çox böyük rol oynadı. Difai partiyasının ən böyük şöbəsi "Qarabağ birlik məclisi" idi. Bu təşkilat Qarabağın hər yerində erməni silahlı dəstələrinə qarşı əhalinin müqavimətini təşkil etdi. Kərim bəy Mehmandarovun başçılıq etdiyi "Qarabağ birlik məclisi"nin 400 nəfərlik döyüş drujinası var idi [9, c.V, 144-145]. Bu silahlı dəstə erməni quldurlarının törətdiyi qətl və qarətlərin qarşısının alınmasında böyük xidmət göstərdi.

Birinci dünya müharibəsi başlandıqdan sonra erməni siyasi xadimləri Rusiya hakim dairələrinin, xüsusən Qafqaz canişini, ermənilərə rəğbətini hər fürsətdə göstərən İ.Voronsov-Daşkovun fəal yardımı ilə erməni gənclərini silahlandırdılar. Həm Qafqaz cəbhəsində döyüşən Rusiya ordusu tərkibində, həm də könüllü dəstələr şəklində fəaliyyət göstərən ermənilər öncə işğal bölgələrində – Şərqi Anadoluda türk və kürd müsəlman əhaliyə qarşı kütləvi soyqırımları həyata keçirdilər. Müharibənin sonrakı mərhələsində isə İrəvan, Bakı və Gəncə quberniyalarında, xüsusən də Qarabağ bölgəsində azərbaycanlı əhaliyə qarşı kütləvi qətl və qarətlərə başladılar.

Müharibə başlandıqdan sonra Qarabağda və digər bölgələrdə erməni əhalisinin müxtəlif yollarla silah tədarük etməsi və müsəlman əhaliyə qarşı zorakılıqların artması hakim dairələrin də diqqətindən yayınmamışdı. Yelizavetpol qubernatoru 1915-ci il fevralın 6-da qəza rəislərinə xəbərdarlıq etmişdi ki, Qafqaz cəbhəsində döyüşlər baş verən yerlərdən qeyri-leqal surətdə silah və patronlar dəmir yolu vasitəsilə daşınır və yerli əhali silahlandırılır. Qubernator göstəriş vermişdi ki, dəmir yolu stansiyalarında nəzarəti gücləndirib, yüklərin yoxlanmasını təşkil etsinlər [10, s.616]. Quberniyadan hərbi xidmətə çağırılan ermənilərin Qafqaz Ordusunda döyüşdükləri nəzərə alınarsa, quberniyaya gizli yolla silah göndərənlərin də kimliyi aydın olar.

Ermənilərin silahlanmalarının digər mənbəyi Osmanlı dövlətinin cəbhə bögələrindən Qarabağa və İrəvan quberniyasına köçən ermənilərin hesabına idi. Yelizavetpol qubernatorunun 1915-ci il avqustun 1-də polis rəislərinə gizli göstərişində bildirilirdi ki, quberniyaya yaxın zamanda Türkiyədən qaçqın ermənilər böyük kütlə halında köç edəcək. Polis rəislərinə ermənilərin odlu silah və döyüş sursatı gətirmələrinə mane olmaq tapşırılırdı [10, s.618].

Bu qabaqlayıcı tədbirlərə baxmayaraq, Birinci dünya müharibəsinin son mərhələsində çoxlu sayda erməni Qafqaz cəbhəsindən fərarilik edərək özləri ilə xəzinəyə məxsus silahları: tüfəng, pulemyot və onlara döyüş sursatını oğurlayıb Qarabağa, xüsusən də Cavanşir

qəzasında yaşadıqları kəndlərə daşıyıb gətirmişdilər. Bu cinayətkar əməllərə onları erməni ziyalıları təhrik edir, Rusiya polis işçiləri də buna göz yumurdular. Qəzada ermənilərin qonşuluğunda yaşayan müsəlmanlar isə ağıllarına da gətirmirdilər ki, bu gətirilən silahlar tezliklə onlara qarşı çevriləcəkdir. Yalnız tək-tük hallarda Yevlax stansiyasında, şose yolu üzərindəki Bərdə kəndində ermənilərdən silah müsadirə edilirdi. Rusiyada dövlət çevrilişi baş verdikdən sonra (1917-ci il Fevral inqilabı – R.Ə.) erməni kəndlərinə silah və döyüş sursatı daşınması demək olar ki, açıq şəkil aldı. Elə o zamandan da qonşu müsəlman əhaliyə qarşı düşmənçilik hərəkətləri çoxaldı. Xüsusən dağətəyi bölgədə yerləşən Kolanı kənd cəmiyyətinə məxsus 12 yaşayış məntəqəsi daha çox ziyan gördü. Bu yaşayış məntəqələri erməni kəndləri ilə əhatə olunduğundan kənardan yardım ala bilmədilər. 1917-ci ilin dekabr ayında erməni silahlı dəstələri Kolanı kənd cəmiyyətinə məxsus kəndlərə quldur basqınları edərək müsəlman əhalidən zorla pul vəsaiti toplamağa başladılar, mal-qoyunlarını ələ keçirdilər. Yerli əhalini məcbur etdilər ki, erməni silahlı dəstələrini ərzaqla təmin etsin. Kolanı camaatı bu ağır şərtlərlə uzun müddət yaşamağa məcbur qaldılar [11, siy.10, iş 161, v.1].

1917-ci il Fevral inqilabı nəticəsində Romanovlar sülaləsinin devrilməsi, Rusiyada yeni yaranmış Müvəqqəti hökümətin Cənubi Qafqazı idarə etmək üçün yaratdığı Xüsusi Komitənin bacarıqsızlığı, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Qarabağda erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı zorakılıqlarının artmasına gətirib çıxardı. 1917-ci il Oktyabr çevrilişindən sonra Petroqradda bolşeviklərin hakimiyyətə gəlməsi ilə əlaqədar Cənubi Qafqazda gürcü-azərbaycanlı-erməni siyasi xadimləri Sovet hakimiyyətini qəbul etmədilər, Cənubi Qafqaz Komissarlığı təsis etdilər. Lakin nə Cənubi Qafqaz Komissarlığı, nə də 1918-ci ilin fevralında fəaliyyətə başlayan Cənubi Qafqaz Seymi regionda hərc-mərcliyin və özbaşınalığın, xüsusən də erməni silahlı dəstələrinin türk-müsəlman əhaliyə qarşı qətl və qarətlərinin artmasının qarşısını ala bildi.

Daşnaklar və digər erməni millətçi qüvvələri 1917-ci il Fevral inqilabı və Oktyabr bolşevik çevrilişindən sonra Cənubi Qafqazda yaranmış anarxiyadan və Qafqaz cəbhəsinin dağılmasından məharətlə istifadə etdilər. 1918-ci ilin mart-aprel aylarında Bakıda, ardınca da Azərbaycanın digər bölgələrində – Şamaxı, Quba, Zəngəzur, Qarabağ və digər yerlərdə on minlərlə azərbaycanlının kütləvi surətdə ölümünə səbəb olan qırğınlar təşkil etdilər. Bu qırğınlar Qafqaz cəbhəsindəki rus hərbi hissələrinin tərkibində iştirak edən və silahlarını təhvil verməyən erməni zabit və əsgərləri tərəfindən həyata kecirildi. 1918-ci ilin yazında Antanta dövlətlərindən, xüsusən Böyük Britaniyadan maliyyə yardımı alan erməni hərbi birliklərinin azərbaycanlı əhaliyə qarşı zorakılıqlarının miqyası genişləndi. Bakıda və eyni adlı quberniyanın qəzalarında, həmçinin Qarabağ bölgəsində daşnak-bolşevik qüvvələrinin həyata keçirdikləri soyqırımı aktları xüsusilə çoxlu sayda azərbaycanlı əhalinin məhv edilməsi ilə nəticələndi [12, c.66; 13, c.71-74].

1918-ci ilin may ayında müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi xalqımızın qeyrətli oğullarının böyük hünəri idi. Məhz gənc AXC hökuməti xalqımızı erməni-rus silahlı dəstələrinin kütləvi qətl və qarətlərindən qorumaq üçün Batumda Osmanlı dövləti ilə sülh və dostluq müqaviləsi bağladı, Osmanlı rəhbərlərindən hərbi yardım xahiş etdi. İlk vaxtlar Osmanlı və Azərbaycan hərbi qüvvələri əsasında yaradılmış Qafqaz İslam ordusu Bakını xilas etməyi qarşısına əsas məqsəd kimi qoyduğu üçün, erməni silahlı dəstələrinin Azərbaycanın qərb torpaqlarında, xüsusən də Qarabağ bölgəsində azərbaycanlı əhaliyə qarşı zorakılıqlarına vaxtında cavab verə bilmədi.

Erməni silahlı dəstələrindən birinin başçısı Andranik Ozanyanın əmri ilə 1918-ci ilin yayında və payızında Zəngəzur və Şuşa qəzalarında azərbaycanlılar yaşayan kəndlər top atəşi ilə məhv edildi və ya yandırıldı. AXC hökümətinin başçısı Fətəli xan Xoyski 1918-ci il avqustun 23-də İstanbula – Azərbaycan nümayəndə heyətinin başçısı Məhəmməd Əmin Rəsulzadəyə ünvanladığı məktubunda qeyd edirdi ki, Andranikin erməni qoşunları Qarabağa

hücum edib, Zəngəzurun bir hissəsini tutmuş, Şuşa ilə bizim əlaqəmizi kəsmişdir. Nə qədər ki, Bakı məsələsi həll edilməyibdir, biz heç nə edə bilmirik [14, s.54].

1918-ci ilin yayında və payızında erməni quldur dəstələrinin əsas hədəflərindən biri də Cəbrayıl qəzasında yaşayan azərbaycanlı əhalini məhv etmək, bölgəni tamam ələ keçirmək idi. 1918-ci ilin avqust ayında erməni silahlı dəstəsi Cəbrayıl qəzasının Sirik kəndinə hücum etmişdi. Bu hücum zamanı 11 kişi, 10 qadın, 14 uşaq öldürülmüş, 10 ev yandırılmış, bütün kəndin mal-qarası və ev əşyaları talan edilmişdi [15, s.200]. Həmin il avqustun sonunda başqa bir erməni silahlı dəstəsi də Cəbrayıl qəzasınını Məzrə kəndinə hücum etmişdi. Ermənilər kəndin 6 sakinini qətlə yetirmiş, sonra da kəndə od vurmuşdular. Kəndi müdafiə edə bilməyən silahsız sakinlər qaçmağa məcbur qalmışdılar [15, s.200].

Bakının 1918-ci il sentyabrın 15-də azad edilməsindən dərhal sonra Qarabağda erməni quldur dəstələrinə qarşı Azərbaycan-Osmanlı hərbi qüvvələri hərbi əməliyyatlara başladı. Tezliklə Qarabağda qətl və qarətlər törədən erməni hərbi birlikləri dağıdıldı. AXC-nin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin müxbiri Xəlil İbrahimin həmin qəzetdə çap etdirdiyi "Qarışıq günlərdə Qarabağın vəziyyəti" adlı məqaləsində Əsgəran-Xankəndi istiqamətindən yolu kəsilən və demək olar ki, mühasirədə qalan Şuşada azərbaycanlılara qarşı vuruşan ermənilərin sonradan Azərbaycan dövlətini tanımasından, Osmanlı qoşunlarını təntənə ilə qarşılamasından bəhs etmişdir: "Belə bir kritik məqamda İsmail Haqqı bəyin (Osmanlı sərkərdəsi – R.Ə.) şəhərdəki (Şuşadakı – R.Ə.) ermənilərə ünvanladığı Ağdama nümayəndələr göndərməyi tələb edən məktubu çatdırıldı. Ermənilər tərəfindən 5 nümayəndə göndərildi. O biri gün onlardan ikisi Şuşaya qayıdıb xəbər verdi ki, onların yoldaşlarından 3-ü Ağdamda saxlanılıb, onlar isə türklərin şəhərin dərhal təslim edilməsi barədə tələbini çatdırmaq üçün göndərilib. ... Elə həmin gün bir neçə erməni bir əldəqayırma top, bir pulemyot və 80 tüfənglə şəhərin komendantının yanına gəlib təslim olduqlarını və Azərbaycan dövlətinin hakimiyyətini tanıdıqlarını bəyan etdi... O biri gün Ağdama İsmayıl Haqqı bəyə və Cəmil Cihad bəyə (Osmanlı sərkərdəsi – R.Ə.) bu hadisə haqda xəbər çatdırmaq üçün çapar göndərildi" [16, 1.XI.1918, №24].

Lakin Osmanlı dövlətinin Birinci dünya müharibəsində məğlub olması və Mudros barışığı şərtlərinə görə Azərbaycandan öz ordusunun çəkməsi nəticəsində Qarabağın erməni silahlı quldurlarından təmizlənməsi işi yarımçıq qaldı. 1918-ci ilin son aylarında Andranikin quldur dəstəsi Qarabağda yenidən azərbaycanlılara qarşı qətl və qarətləri geniş miqyasda davam etdirməyə başladılar. 10 dekabr 1918-ci il tarixli sayında "Azərbaycan" qəzeti Qarabağda onlarla kəndin Andranikin quldur dəstəyi tərəfindən yandırılıb külə çevrildiyini xəbər vermişdi. Qəzet həmin yandırılmış kəndlərin qadın və uşaqlarının aclıqdan və soyuqdan məhv olduqlarını bildirirdi [16, 10.XII.1918, №29].

1918-ci ilin payızında Cəbrayıl qəzasında 3 erməni kənd cəmiyyətinin silahlı dəstələri qonşu müsəlman kəndlərinə basqın etdilər. Daha əvvəl qəzanın erməni kəndlərinin sakinləri azərbaycanlı qonşuları ilə dinc yanaşı yaşamaq istədiklərini dəfələrlə bildirsələr də, gizlicə silahlanır və fürsət gözləyirdilər. AXC hökümətinin soyqırımı hadisələrini araşdırmaq üçün yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının Qarabağ və Zəngəzur üzrə istintaq qrupunun rəhbəri müstəntiq N.Mixaylovun təqdim etdiyi məruzədən aydın olur ki, 1918-ci ilin dekabr ayında və 1919-cu ilin yanvar-fevral aylarında erməni silahlı dəstələri bir-birinin ardınca Cəbrayıl qəzasının azərbaycanlılar yaşayan kəndlərinə basqınlar etmiş, dinc sakinləri öldürmüş, mal-qarasının oğurlayıb aparmışdılar.

1918-ci ilin sonunda bir erməni silahlı dəstəsi Doşullu kəndinə basqın etmişdi. Dəstə başçısı Andranikin adından tələb etmişdi ki, əhali kəndi tərk etsin. Əks təqdirdə bütün kənd əhalisini məhv etməkdə hədələmişdi. Kəndin sakinləri bütün əmlakını ataraq tələsik öz ev-eşiyini tərk etməyə məcbur qalmışdı [11, siy.10, iş 161, v.5].

1918-ci ilin dekabr ayında Cəbrayıl qəzasının Düdükçü və Aşıq-Məlikli kəndləri də erməni silahlı dəstələrinin basqınına məruz qalmışdı. Bu kəndlərin əhalisi də silahlı ermənilərin təzyiqi ilə evlərini tərk etməli olmuşdu. Həmin kəndlər ermənilər tərəfindən qarət edilmiş, sonra da yandırılmışdı. 1918-ci ilin sonunda Xələfli, Şıxlar, Tatar və Eyvatlı

kəndlərinə də ermənilər basqın etmişdilər. Silahsız azərbaycanlı əhali öz evlərini atıb qaçmışdı [11, siy.10, iş 161, v.5].

1919-cu ilin ilk aylarında Qafqazdakı ingilis qüvvələrinə arxalanan erməni silahlı dəstələri Qarabağın dağlıq bölgələrində yerli azərbaycanlı əhaliyə qarşı qətl və qarətlərin miqyasını daha da genişləndirdilər. Nəticədə 40 minə qədər azərbaycanlı minillərboyu yaşadığı ata-baba yurdlarından didərgin düşdü, Cəbrayıl, Şuşa və Cavanşir qəzalarının düzənlik hissələrinə qaçmalı oldu [17, c.174].

Cəbrayıl qəza rəisinin 1919-cu il fevralın 17-də verdiyi məlumata görə, 1919-cu ilin yanvarında ermənilər Qaradağlı kəndinə basqın etmiş, əhaliyə məxsus qoyun sürüsünü aparmışdılar. Daha sonra Hadrut kəndinin ermənіləri Zərgər kəndinə basqın etmiş, əhalini qarət etmişdilər. Həmin vaxt erməni dəstələri Baliyant, Eyvazlı, Dolanlar, Haxullu kəndlərinə də basqınlar təşkil etmişdilər [11, siy.10, iş 161, v.4]. Fövqəladə Təhqiqat Komissiyasının qənaətinə görə, həmin qanlı hadisələr zamanı Cəbrayıl qəzasının azərbaycanlı əhalisinə 10 milyonlarla manat maddi ziyan vurulmuşdu.

Gəncə qubernatoru İbrahim ağa Vəkilovun Azərbaycan Daxili işlər nazirliyinə göndərdiyi 10 fevral 1919-cu il tarixli teleqram da bu baxımdan maraqlı faktlarla zəngindir. Teleqramda bildirilirdi ki, Qarabağa ingilis komandanlığının təmsilçiləri gəldikdən sonra ermənilərin dinc azərbaycanlı əhaliyə qarşı quldurluq hərəkətləri artmışdır. Qubernator daha sonra Cəbrayıl qəzasına aid aşağıdakı faktları qeyd etmişdi: 3 dekabr 1918-ci ildə ermənilər Hoğa kəndini mühasirəyə alıb 10 müsəlmanı, o cümlədən kəndin mülkədarı Əsəd bəy Cavanşiri və ailə üzvlərini öldürmüşlər. Dekabrın 5-də ermənilər Qarakollu kəndinə basqın edib, Molla Nəbiyə məxsus 40 baş malı aparmışlar. Dekabrın 7-də ermənilər Arış kəndinə basqın edib camaata məxsus 80 baş qoyunu aparmışlar [18, siy.10, iş 80, v.2].

Gəncə qubernatoru İ.Vəkilov daha sonra məlumat vermişdi ki, 1919-cu ilin yanvar ayında erməni dəstələri Düdükçü kəndinə hücum edərək əhalinin bütün əmlakını qarət etmişlər. Təkcə kəndin mülkədarı Camal bəy Vəzirova dəyən ziyan 100 min manatdan artıqdır. Qubernatorda teleqramın sonunda bildirmişdi ki, ermənilər Hadrutda cəmləşmişlər və sürətlə silahlanmaqdadırlar [18, siy.10, iş 80, v.2].

Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təcavüzkar siyasəti 1918-ci il dekabrın 20-də Azərbaycan Parlamentinin fövqəladə iclasında müzakirə edildi, Qarabağda azərbaycanlı əhaliyə qarşı qətl və qarətlər törədən Andranikin və digər erməni birləşmələrinin qarşısının alınması tədbirlərinə xüsusi diqqət yetirildi. Hökumət başçısı Fətəli xan Xoyski çıxışında bildirdi ki, bizim ordu Qarabağda Andranikin ordusunu sıxışdırmış, Şuşadan və Zəngəzurdan vurub çıxarmışdı. Andranik də noyabra kimi qaçıb gizlənmişdi. Osmanlı ordusu Azərbaycanı tərk edən kimi, Andranik yenidən ortaya çıxmış, Qarabağda qəddarlıqlarını davam etdirmişdir [19, I c., s.97-101]. Parlamentdə çıxışında Azərbaycan hökumətinin başçısı Qarabağın müsəlman əhalisinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirlər görüləcəyini bəyan etdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti erməni silahlı dəstələrinin qətl və qarətləri nəticəsində qaçqın düşmüş azərbaycanlı əhaliyə yardım göstərilməsi üçün dərhal hərəkətə keçdi. Hökumətin tapşırığı ilə Himayəçilik nazirliyinin Qarabağ dairəsi üzrə müfəttişliyi Cəbrayıl, Şuşa və Cavanşir qəzalarında qaçqınlara zəruri yardımlar edilməsi üçün Ağdam, Qaryagin, Şuşa şəhərlərində və Bərdə kəndində bu qaçqınlara yardım məntəqələri təşkil etdi. İlk günlərdə bütövlükdə qaçqınların ən zəruri ehtiyaclarının qarşılanması üçün 20 min manat vəsait xərcləndi. Bundan əlavə, qaçqınlara 7524 pud buğda, 2 min pud düyü, 1770 pud arpa, 3284 pud darı, 48 pud sabun, 60 pud duz, 55 pud şəkər, 1 min cüt döşək ağı, 240 arşın parça paylanmışdı. Həmçinin Ağdamda qaçqınlar üçün açılmış yemək məntəqəsində onlara hər gün 1funt (400 qram) çörək verilirdi [17, c.175].

AXC tərəfindən 1919-cu il yanvarın 15-də Qarabağ general-qubernatorluğunun yaradılması və general-qubernator Xosrov bəy Sultanovun qətiyyətli tədbirləri nəticəsində

bölgədə azərbaycanlı əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində böyük uğurlar qazanıldı. Qarabağ general-qubernatorluğunun yaradılması bölgələrdə erməni silahlı dəstələrinə qarşı məqsədyönlü mübarizə aparılmasına imkan verdi. Qatı millətçi erməni xadimləri Şuşadan və digər yerlərdən qovuldu. Erməni silahlı dəstələrinə ağır zərbə vuruldu.

1919-cu il aprelin 3-də Müttəfiq qoşunları komandanlığı adından ingilis polkovniki Şatelvortun X.Sultanovun səlahiyyətini tanıması erməni dairələrində böyük hay-küyə səbəb olsa da, Qarabağda Azərbaycan hökümətinin qətiyyətli tədbirlər görməsinə şərait yaratdı. 1919-cu il iyunun 4-də Şuşa-Yevlax yolunun təhlükəsizliyini təmin etmək üçün yol boyunca hərbi postlar qoyuldu [9, V c., s.414]. 1919-cu il iyulun 19-25-də aparılan uğurlu döyüşlərdən sonra Qarabağda "erməni idarəçiliyi" ləğv edildi, onun təmsilçiləri isə regionu tərk etdilər. Belə bir şəraitdə Dağlıq Qarabağ ermənləri Qarabağ general-qubernatoru ilə anlaşmaya razılıq verdilər. 1919-cu il avqustun 15-də Dağlıq Qarabağın erməni icmasının VII qurultayı 4-cü səhər iclasında AXC hökümətinin təklif etdiyi 26 maddədən ibarət razılaşmanı qəbul etdi. Həmin razılaşmada qeyd edilirdi ki, "Qarabağın dağlıq hissəsində, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında (Dizaq, Vərəndə, Xaçın və Carabert) məskunlaşmış ermənilər özlərinin Azərbaycan Respublikası ərazisində olduqlarını qəbul edirlər" [20, 26.VIII.1919, №167]. Bu razılaşma Qarabağın müxtəlif bölgələrində yaşayan dinc əhalinin, həm azərbaycanlıların, həm də ermənilərin təhlükəsizliyini müəyyən müddət ərzində təmin etdi.

Beləliklə, 1919-cu ilin yayında Qarabağın dağlıq bölgələrində Azərbaycan Respublikasının suveren hüquqları qəti şəkildə bərpa edildi. Dağlıq Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan hökumətinin hakimiyyətini tanımaq barədə general-qubernator Xosrov bəy Sultanovla saziş bağladıqdan sonra Qarabağ general-qubernatoru yanında altı nəfərdən (üç azərbaycanlı və üç erməni) ibarət şura yaradıldı, millətlərarası prinsipial məsələlərin bu şurada müzakirə edilməsi qərara alındı [20, 26.VIII.1919, №167; 21, II c., s.129].

Həmin vaxt Şuşada olmuş ingilis hərbi müxbiri Robert Liddell öz gözü ilə müşahidə etdiklərini "Erməni-Tatar razılaşması – Qafqazda sülhün bərpası" adlı məqaləsində belə şərh etmişdi: "Ən mürəkkəb məsələlərdən biri Yelizavetpol (Gəncə – R.Ə.) quberniyası çərçivəsində Qarabağ məsələsi idi. Bu məsələ yalnız yaxın vaxtlarda həll edilmişdir. Bu münasibətlə Bakıda təşkil edilmiş banketdə həm tatar (azərbaycanlı – R.Ə.), həm də erməni nümayəndələr qılıncları qınına qoymaq qərarına gəldilər. İndi Qarabağda əmin-amanlıqdır. Sakinlərin dediyinə görə, burada əvvəllər heç vaxt bu dərəcədə sakitlik olmamışdır. Onlar (ermənilər – R.Ə.) mənə deyirlər ki, Şuşada və Qarabağda əvvəllər heç vaxt bu qədər sakitlik və qayda-qanun olmamışdır. Ermənilər şəhərin tatar (azərbaycanlı – R.Ə.) hissəsinə azad şəkildə gedir, tatarlar (azərbaycanlılar – R.Ə.) isə heç bir təhlükə hiss etmədən azad şəkildə erməni hissəsinə daxil olurlar. Ermənilər Azərbaycan hökumətində vəzifələr tuturlar" [18, siy.10, iş 103, v.7].

Lakin Qarabağ ermənilərinin AXC hakimiyyətini tanıması və AXC hökumətinin onlara milli-mədəni muxtariyyət hüququ verməsinə [22, 5.IX.1919, № 187] baxmayaraq, sonrakı dövrdə daşnakların təsiri altında Dağlıq Qarabağ ermənləri öz məkrli niyyətlərindən əl çəkmədilər, Dağlıq Qarabağı Ermənistana birləşdirmək istiqamətində pozucu fəaliyyətlərini davam etdirdilər. Məhz onların 1920-ci ilin yazında Qarabağda silahlı qiyam qaldırması nəticəsində Azərbaycan Ordusunun əsas qüvvələrinin Dağlıq Qarabağa göndərilməsi bolşevik Rusiyasının XI Qırmızı Ordusunun Azərbaycanı asanlıqla işğal etməsinə əlverişli şərait yaratdı.

Ədəbiyyat

1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.Əliyarlının redaktəsi ilə. Bakı, "Azərbaycan" nəşriyyatı,1996, 872 s.
2. Qarabağ. Əsrlərin salnaməsi. "İrs" nəşriyyat evi, Dubay, 2016, 256 s.

3. Məmmədov C. Karabağın etnik yapısının oluşumuna tarihsel ve demoqrfik baxış. “Qarabağ: bildiklərimiz və bilmədiklərimiz”. Məqalələr toplusu. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2010, s.551-569.
4. Сеидзаде Д.Б. Из истории азербайджанской буржуазии в начале XX века. Баку, 1978.
5. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-musəlman davasının tarixi. Bakı, “Qafqaz” nəşriyyat evi, 2007, 184 s.
6. Кариби. Красная книга. «История Азербайджана по документам и публикациям». Баку, Элм, 1990, с.149-167
7. Mir Möhsün Nəvvab. «1905-1906-cı illərdə erməni-müsəlman davası». Bakı, «Azərbaycan» nəşriyyatı, 1993, 128 s.
8. Məmmədov N.R. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik). Bakı, “Təhsil”, 2009, 272 s.
9. Azərbaycan tarixi. Yeddi cilddə, c.V, Bakı, Elm, 2001, 672 s.
10. Azərbaycan tarixi arxiv sənədlərində. XIX-XX əsrlər. Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Azərbaycan Dövlət Tarix Arxivinin sənədləri. Bakı, Çaşıoğlu: 2012, 752 s.
11. Azərbaycan Respublikası Dövlət Arxivinin 970 saylı – AXC Xarici İşlər Nazirliyinin fondu
12. Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Баку: Типография Шарг-Гарб, 2011, 712 с.
13. Мамедзаде Н. Геноцид азербайджанцев в Карабахском регионе Азербайджана (1918-1920). Баку, «Елм», 2017, 342 с.
14. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку, Изд-во «Азербайджан»,1998,632 с.
15. Əsədova R.B. AXC dövründə dinc əhalinin təhlükəsizliyi məsələsi. Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsi” mövzusuna həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Əsərləri. Xüsusi buraxılış, № 74, 75, 76, 2018, s.199-202
16. «Азербайджан», 1918-1920 гг.
17. Адрес-календарь Азербайджанской Республики на 1920 г. «История Азербайджана по документам и публикациям». Баку, Элм, 1990, с.167-179
18. Azərbaycan Respublikası Dövlət Arxivinin 894 saylı – AXC Daxili İşlər Nazirliyinin fondu
19. AXC (1918-1920) Parlament. Stenoqrafik hesabatlar. I kitab, Bakı, “Azərbaycan” nəşriyyatı, 1998, 976 s.
20. «Знамя труда», 1919 г.
21. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2 cilddə, c.I, Bakı, Lider nəşriyyat, 2004, 440 s.; c.II, Bakı, Lider nəşriyyatı, 2005, 472 s., II c., s.129
22. «Борьба», 1919 г.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QARABAĞ GENERAL-QUBERNATORLUĞU: PROBLEMLƏR VƏ NƏTİCƏLƏR

İsmayıl Musa
Tarix üzrə elmlər doktoru, professor
Bakı Dövlət Universiteti,
Bakı, Azərbaycan
e-mail: Ismayilmusa54@gmail.com
ismayilmusa@bsu.edu.az

Xülasə: Məqalədə general-qubernatorluğun təşkilinin səbəbləri açıqlanır. Habelə Müttəfiqlərin-Böyük Britaniya komandanlığının qubernatorluğun yaradılması ilə bağlı mövqeyi, yanaşması və onlar arasındakı münasibətlərin xarakteri, problemləri təhlil olunur. Sonda general – qubernatorluğun və onun başçısı X. Sultanovun fəaliyyətinin nəticələri nəzərdən keçirilir.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, Qarabağ general-qubernatorluğu, Böyük Britaniya komandanlığı, X.Sultanov.

THE KARABAKH GENERAL – GOVERNATORE OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC: PROBLEMS AND RESULTS

Ismayil Musa
Doctor of Historical Sciences, professor
Baku State University
Baku, Azerbaijan

Abstract: The reasons of the creation of General-governorate was explained in the article. It also analyzes the position and approach of the Allies - the British Command on the establishment of the governorship, the nature and problems of relations between them. The results of the activities of the General-governorate and its head X. Sultanov are considered at the end.

Keywords: Azerbaijan Democratic Republic, Karabakh General-governorate, the British Command, X. Sultanov.

КАРАБАХСКОЕ ГЕНЕРАЛ – ГУБЕРНАТОРСТВО АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ: ПРОБЛЕМЫ И РЕЗУЛЬТАТЫ

Исмаил Муса
Доктор исторических наук, профессор
Бакинский Государственный Университет,
Баку, Азербайджан

Резюме: В статье раскрываются причины образования генерал-губернаторства. Также исследуются позиция, подход Союзнического – Велико Британского командования в связи с образованием генерал-губернаторства и характер, проблемы отношений между ними. В конце рассматриваются результаты деятельности генерал- губернаторства и его главы Х. Султанова.

Ключевые слова: Азербайджанская Демократическая Республика, Карабахское генерал – губернаторство, Союзническое-Велико Британское командование, Х. Султанов.

Dünya dövlət quruculuğu (idarəetmə) təcrübəsinə və beynəlxalq hüquqa görə hər bir ölkədə inzibati-ərazi bölgüsünün aparılması zəruri, daxili məsələ və normal qanuni haldır.Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC-nin) öz tarixi ərazisində Qarabağ general – qubernatorluğunu yaratması da əsla istisna deyil. Yəni hər bir müstəqil dövlət kimi AXC də öz torpaqlarında sərbəst surətdə istənilən sayda və formada inzibati-ərazi vahidlərini yarada

bilərdi və yaratmışdı da. Ancaq dövrün çox gərgin beynəlxalq şəraiti, xüsusilə də, ermənilərin Azərbaycana əsassız ərazi iddiaları və törətdikləri türk – müsəlman soyqırımları üzündən Qarabağ general - qubernatorluğunun təşkili həm də danılmaz tarixi zərurət idi. Bu kontekstdə də onun yaradılması aşağıdakı özəl səbəblərdən irəli gəlir və mühüm spesifik amillərlə şərtlənirdi:

- Şuşa, Zəngəzur və s. qəzaların erməni əhalisinin 1917-ci ilin əvvəllərindən etibarən özlərinin xüsusi inzibati vahidlərini (quberniyalarını – Qandzaq və s.) yaratmağa can atmaları;
- adıçəkilən bölg ələrin dinc türk -müsəlman əhalisinə qarşı zorakı lıqların çoxalması (Tarixdən də yaxşı məlumdur ki, erməni – müsəlman münaqişə və davalarının hamısında, o cümlədən də 2020-ci ildəki İkinci Qarabağ müharibəsində Azərbaycan tərəfi dinc erməni əhalisinin, xüsusilə də qadın, uşaq və yaşlıların qırılması hallarına yol verməyibdir. Halbuki, ermənilər, daima etdikləri təki, 2-ci Qarabağ müharibəsi zamanı da dinc azərbaycanlı əhaliyə qarşı vəhşiliklər törətməklə Gəncə, Tərtər və s. ərazilərimizdə xeyli uşaq, qadın və b. ölümünə səbəb oldular);
- bölgələrdə yaşayan ermənilərin separatçılıq meyll ərinindaha da məqsədyönlü (Azərbaycandan ayrılaraq Ermənistana birləşmək) xarakter alması və Andranikin "Naxçıvan yürüşü"nün də bu məqsədə xidmət etməsi;
- AXC hökum ətinin üzl əşdiyi probleml ər, təbii-coğrafi ç ətinliklər və s. görə bölgələrdəki erməni separatçı hərəkətlərinin əngəllənməsinin mürəkkəbliyi;
- general-qubernatorluğa qatılan q əzaların Azərbaycanın əzəli torpaqları olması və onların əhalisinin çoxluğunu türk-müsəlmanların təşkil etmələri;
- dini-milli mənsubiyyətindən asılı olmayaraq general -qubernatorluğun bütün əhalisinin hüquqlarının t əminatlı müdafi əsi (Azərbaycan Respublikası 2-ci Qarabağ müharibəsi ərəfəsi və dövründə olduğu kimi, hazırkı postsavaş mərhələsində də - dövlətimizin vətəndaşlığını qəbul edəcək –ermənilərin hüquqlarının, həmişə olduğu kimi, bundan sonra da, qorunacağını dəfələrlə bəyan etmişdir).

AXC hökuməti bu kimi səbəb və amillərə əsaslanaraq özünün 1919-cu il 15 yanvar tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarından ibarət Qarabağ general – qubernatorluğunun yaradılması haqqında qərar qəbul etdi [1,f.894, siy.1, iş 43, v.13-14]. Hökumətin digər bir, yəni 1919-cu il 29 yanvar tarixliiclasının çox düzgün qərarı ilə AXC-nin ilk Hərbi naziri, tanınmış dövlət adamı və siyasi xadim, əslən Laçından olan Xosrov bəy Sultanov general – qubernator təyin olundu [1, f.894, siy.9, iş 5, v.11].

Yeri gəlmişkən, burada iki maraqlı və uzunmüddət çoxlarına bəlli olmayan faktdan da bəhs etmək lazım gəlir. Belə ki, AXC Daxili İşlər Nazirliyi (DİN-i) general – qubernator vəzifəsinə öncə müsəlman, inquş, təcrübəli hərbçi – inzibatçı Qud Qudiyevin namizədliyini[1,f.894, siy.9, iş 5, v.18-19]təklif etmişdi. Yalnız AXC-nin dövlət (türk) dilini bilməməsi səbəbindən onun həmin vəzifəyə təyinatı məsləhət bilinməmişdi. Başqa bir diqqətçəkici fakt isə AXC hakimiyyətini devirməyə çalışan bolşeviklər partiyasının fəalı, əslən Qubadlıdan olan Ç.İldırımın general – qubernatorun müavini təyin edilməsidir.

Müttəfiqlərin komandanlığının (general V.Tomsonun) Qarabağla Zəngəzurun AXC-nin müvəqqəti idarəçiliyinə verilməsini bəyan etməsi və mərkəzi Şuşa şəhəri olan Qarabağ general – qubernatorluğunun yaradılmasına pozitiv, obyektiv yanaşması Ermənistan (Ararat) Respublikasının rəhbərliyini xeyli qayğılandırdı. Ermənistanın Xarici İşlər naziri S.Tiqranyanın 1919-cu ilin yanvar-mart aylarında Azərbaycan hökumətinə notalarında, teleqramında, habelə general V.Tomsona 1919-cu il 11 mart tarixli 559 saylı teleqramında və daşnak mətbuatında AXC-nin ünvanına bu cür kəskin və əsassız ittihamlar irəli sürüldü[1,f.894, siy.10, iş 152, v.2;2, 31.I.1919]. Belə ki:

- AXCQarabağ general-qubernatorluğunun yaradılması "Ermənistanın ərazi hüquqlarına qəsd" və iki qonşu xalq arasında münasibətlərin kəsilməsi aktı kimi sə ciyyələndirildi;

- general-qubernatorluğun böyük hissəsi Ermənistanın ayrılmaz ərazisi sayıldı;
- Andranikin quldur dəstəsinin işğalçılıq və zorakılıq hərəkətləri Qarabağ -Zəngəzurun erməni əhalisinin öz müstəqilliklərini Azərbaycan və Türkiyənin qəsbkarlıq siyasətindən silahlı müdafiə kimi qələmə verildi;
- AXC-nin Qarabağ və Zəngəzuru ələ keçirərək Araz – Türk Respublikası (Azərbaycanın Naxçıvan bölgəsində müvəqqəti dövlət qurumu . – İ.M) ilə birləşməsi və öz hüdudlarını Türkiyə sərhədlərinədək genişləndirmək məqsədini güddüyü vurğulandı;
- Müttəfiqlərdən (ingilislərdən) AXC hökumətinin "zadəga n dairələrinin məsuliyyətsizliyinə və feodalizminə" son qoyulması , V.Tomsonun işə qarışması və general – qubernatorluğun ləğv edilməsi tələb olundu.

Ermənistan xarici siyasət idarəsinin bu hədyan və hədələri, məlum səbəblərdən, əsla cavabsız qala bilməzdi. Buna görə də Xarici İşlər Nazirliyinin (XİN-in) Ermənistan hökumətinə diplomatik etirazlarında, ələlxusus da, nazir əvəzi A.Ziyadxanın 1919-cu il 21 yanvar tarixli, 178 saylı notasında və həmçinin ″Azərbaycan″ qəzetinin yazılarında AXC hökumətinin Qarabağ general – qubernatorluğu ilə əlaqədar ədalətli və əsaslandırılmış mövqeyi bir daha açıqlandı [1,f.970, siy.1, iş 152, v.3; 2, 30.I.1919, 31.I.1919, 15.II.1919].

Qarabağ general – qubernatorluğunun yaradılması və onun idarəçiliyi məsələləri Ermənistan hökumətinin V.Tomsonun iştirakı ilə 1919-cu ilin mart-aprel aylarında keçirilən müşavirələrində də qaldırıldı [3,s.284;4,f.89/223, siy.1, iş 72, v.26; 2,09.IV.1919]. Birinci müşavirədə Qarabağın dağlıq hissəsinin Ararat Respublikasının tərkib hissəsi olduğunu təkrarlayan daşnak hökuməti həmin ərazinin idarəçiliyinin yerli ermənilərə (Milli Şuraya) verilməsini tələb etdi.

Qeyd etmək lazımdır ki, Böyük Britaniya komandanlığı ilə Qarabağ general – qubernatorluğunun münasibətlərində həm anlaşma, uzlaşma, birgə fəaliyyət və həm də ziddiyyətli, gərgin hallar, məqamlar olmuşdu. Birincilərə bu kimi faktlar nümunə ola bilər:

a) komandanlığın təmsilçisi, yüksək vəzifəli ingilis hərbçisi Şatelvortun 1919-cu il 3 aprel tarixli bəyanatı ilə X.Sultanovun general – qubernator təyin olunması tanınmış və təsdiqlənmişdi. AXC XİN-in Azərbaycanın Ermənistandakı səfiri M.Təkinskiyə 1919-cu il 18 iyun tarixli teleqramından da aydın olur ki, X.Sultanov aprelin 3-də Müttəfiqlərin (İngiltərənin) komandanlığı tərəfindən rəsmən general – qubernator kimi tanınmışdı.
b) komandanlıqla qubernatorluq daşnak generalı Andranikin erməni quldursilahlı dəstələrinin Qarabağ və Zəngəzur ərazilərindən çıxarılması məsələsində də uzlaşmaya nail ola bildilər. X.Sultanovun Andranikin dəstəsinin Azərbaycanın əhalisinə yaratdığı təhlükə və qubernatorluqda sabitliyin təminatının zəruriliyi ilə bağlı əsaslı izahı və mövqeyi komandanlıq tərəfindən müdafiə olundu.Qubernator Andranikin ″məsələsi″nin dinc yolla həllinə dair ifrat ehtiyatlı siyasətin nəticəsizliyi qənaəti ilə onun Azərbaycandan çıxarılmasını lazım bildi. Britaniya komandanlığı da bu təklifi dəstəkləyərək onun həyata keçməsinə israr etdi. Azərbaycan hökumətinin 1919-cu il 26 mart tarixli iclasının qərarına müsbət yanaşıldı. Nəticədə Andranikin silahlı dəstəsi 1919-cu ilin aprelində Azərbaycandan çıxarıldı[5, f.277,siy.2, iş 43, v.9 arx;6, 25.II.1965];
c) Britaniya komandanlığı X.Sultanovun ermənilərin 1919-cu ilin iyununda törətdikləri ″Şuşa təxribatı″nın zərərsizləşdirilməsinə də yardım etdi. Onun nümayəndələri azərbaycanlı məmurlarla birlikdə - Şuşa ermənilərinə silah paylayan Erməni Milli Şurasını – şəhərdən uzaqlaşdırdı [1, f.970, siy.1, iş 65, v.71;2, 18.VI.1919];
d) General – qubernatorluğun yaradılması ilə dərhal, yəni 1919-cu ilin fevralında ingilis mayoru Mak Mossenə və xüsusi komissiyaya X.Sultanova yardım göstərilməsi tapşırıldı. Xüsusi komissiyaya verilən təlimatda bir sıra diqqətçəkici məsələlər qeyd edilmişdi. Belə ki, orada:

- X.Sultanovun general – qubernator təyin olunması bildirilirdi;
- qubernatorun: 1) ″modus vivende″ tapmaq, 2) vilayəti qüvvə tətbiq olunmadan idarə etmək, 3) ərazi iddiaları barədə məsələ qaldırmaqdan çəkinmək kimi vəzifələri sadalanırdı;

- ən başlıcası da, qoşunların tərxis olunmasına dair təlimatın Andranikə çatdırılması tapşırıldı və s. ;

e) General V.Tomson Ermənistan hökumətinin üzvlərilə keçirdiyi – öncə barələrində bəhs etdiyimiz – müşavirələrdə X.Sultanovun məlum təyinatına edilən etirazlarla diplomatcasına belə razılaşmamışdı:″Sultanov ingilis zabiti Mak Mossenə tabe olacaqdır″;

f) Qarabağın Erməni Milli Şurasının sədri A.Şahnəzərovun Şatelvortla görüşlərində bu qubernatorluğun yaradılmasını mübahisə obyektinə çevirməsini ingilis zabiti hədəli ahənglə belə qarşılamışdı: Azərbaycana və onun general qubernatorluğuna qarşı hər hansı zorakılıqlar İngiltərə əleyhinə çıxışlardır; biz o dərəcədə güclüyük ki, sizi tabe olmağa məcbur edə bilərik [5, f.276, siy.9, iş 40, v.5-13].

Komandanlıqla qubernatorluğun münasibətlərində müəyyən ziddiyyətlər və ciddi gərginlik halları da olmuşdu. Onların bir qismi belə səciyyələndiriləbilər:

1. Müttəfiqlərin komandanlığının V.Tomson və digər yüksək vəzifəli təmsilçilərinin – qubernatorluğun (şəxsən də X.Sultanovun səmərəli fəaliyyətini bəzən çətinləşdirən, bəzən də əngəlləyən) – ziddiyyətli mövqeləri, açıqlamaları və s. Məsələn, V.Tomsonun [7, s.137; 1, f.970, siy.1, iş 62, v.66]:

- Zəngəzurla Qarabağın AXC-nin və Naxçıvanın isə Ermənistanın müvəqqəti idarəçiliyinə verilməsinə və məsələnin Paris Sülh konfransı tərəfindən həll ediləcəyinə dair bəyanatları;
- Qarabağda general – qubernatorluğun yaradılmasını müvəqqəti hal kimi səciyyələndirən müddəası, yanaşması və s.;

2. Böyük Britaniya komandanlığının X.Sultanovla müavini Ş.Mahmudbəyovunvə yerli azərbaycanlı əhalinin AXC-nin müvafiq dövlət qurumlarına çatdırdıqları çoxsaylı məlumatlarda [1, f.895, siy.1, iş 299, v.5] vurğuladıqları belə bir vacib məqama önəm verməməsi və diqqət yetirməməsi. Belə ki, həmin materiallar Ermənistanın Azərbaycan ərazilərini tutan nizami qoşun hissələrinin tərkibində erməni əsilli ingilislərlə amerikanların və Lənkəran bolşevik dəstəsində qulluq edən erməni zabitlərinin olmasını açıqlayırdı. Bunlar döyüş meydanlarında qalan meyidlərlə və öldürülənlərin sənədləri ilə təsdiqlənərək sübuta yetirilirdi. (Sözgəlişi, 2-ci Qarabağ müharibəsində Azərbaycan ərazilərindəki işğalçı erməni ordusunun sıralarına Suriya, Fransa, Rusiya, Livan ermənilərinin və həmin dövlətlərin digər əhalisindənolanların da cəlb edilmələrinə dair xeyli faktlar vardır).
3. Bəzi elmi-siyasi baxışlara görə, komandanlığın Andranik ″məsələsi″nin ləğvindəki qətiyyətli mövqeyi heç də onun Azərbaycanın ədalətli haqqını təmin etmək və AXC hökumətinin (qubernatorun) müvafiq tələblərini yerinə yetirmək istəyindən irəli gəlmirdi. Yəni əslində komandanlıq bu mövqeyi ilə onun Transqafqazda sülhyaratma missiyasının nəticəsizliyi barədə Paris Sülh Konfransında formalaşan – İngiltərənin beynəlxalq nüfuzuna ciddi xələl gətirə biləcək – fikri aradan qaldırmağa çalışırdı.
4. Komandanlıqla general – qubernator arasında tədricən yaranan gərginlik tezliklə daha da artdı. X.Sultanov, özünün də vurğuladığı kimi, ″dörd aylıq fəaliyyəti ərzində ingilislərsiz bir addım da belə atmamasına baxmayaraq″ komandanlığın ultimatum ahəngli tələbləri ilə qarşılaşdı. Bu halın səbəbləri (əslində bəhanələri) sırasında, təbii ki, qubernatorun komandanlığı vədlərinə əməl etməməkdə, AXC-nin ərazi bütövlüyü məsələsində ziddiyyətli, əslində isə tərəfsizlik adı altında ermənipərəst siyasət yetirməkdə və bunlarla da ermənilərin Qarabağ – Zəngəzurda möhkəmlənmələrinə xidmət göstərməkdə təqsirləndirməsi də mühüm yer tutur. Digər yandan da, komandanlıq X.Sultanovu fəaliyyətsizlikdə və səhlənkarlıqda günahlandırmağın əsassızlığının və mümkünsüzlüyünün fərqində idi. Habelə X.Sultanov ingilislərin Qarabağ məsələsindəki ziddiyyətli mövqeyi ilə barışmadığına görə nəinki Transqafqazda, hətta Avropa və Amerikada da ermənilərin mühüm hədəfinə çevrilmişdi.

Qarabağ general – qubernatorluğunun yaradılması, fəaliyyəti və, ümumiyyətlə, mahalın problemləri iləəlaqədar məsələlərdə X .Sultanovun mülahizə və tə klifləri çox maraqlı və dəyərlidir. Həmin fikir və təkliflər Xosrov bəyin AXC hökumətinə "Qarabağda ingilis siyasəti ilə əlaqədar olaraq yaranmış vəziyyət və onun düzəldilməsi üçün zəruri tədbirlər" adlı məlumat-məruzəsində, habelə ingilis generalı Şatelvortla Qarabağ məsələsinə dair 1919-cu il iyunun 25-də apardığı müzakirələrdə səslənmişdi [1, f.894, siy.10, iş 135, v.44-47 arx., 49]. Onlar problemin ayrı -ayrı məqamlarına daha dərindən nüfuz edil məsi baxımından əhəmiyyətlidir. Həm bu cəhət, həm də Birinci və II Qarabağ müharibələrininnəticələri baxımından X.Sultanovun mülahizə və təkliflərinin nəzərdən keçirilməsinə ehtiyac vardır.

X.Sultanov Şatelvortla söhbətdən belə bir nəticəyə gəlmişdi : ingilislərin guya bizə münasibətdə qərəzsiz lik və xeyirxahlıq göstərərək Qarabağ məsələsində bitərəf mövqe tutmaları problemin həllini yubatmış və sayıqlığımızı azaltmışdır ;belə hal isə ermənilərin xeyrinə olmuşdur.Bu cür nəticələrə general – qubernatorun AXC-nin Baş nazirinə və DİN-ə yolladığı 1920-ci il 2 yanvar tarixli məktubda da gəlinmişdi: onun qubernatorluğun Zəngəzur qəzasının bəzi yaşayış məntəqələrində azsaylı mühafizəçi və partizanın ümidinə qalan Azərbaycanlı əhalinin çıxılmaz vəziyyətinə dair dəfələrlə verdiyi bəyanatların elə bir əməli xeyirinin olmaması; ermənilərin təcavüzkarlıq planları – fəaliyyətlərinin dəyişməz olaraq qalması və onlara qarşı tədbirlərin görülməməsi; azərbaycanlı əhalisinin hər cür təhlükəsizliyinə yardım göstəriləcəyinə bel bağlamağın mümkünlüyü sualının qoyulması.

Qubernatorun AXC Nazirlər Şurasına və DİN-ə ünvanladığı başqa bir - Bakıda 1920-ci il yanvarın 20-də alınan – məktubundan onun hətta istefa verməsi fikrinə düşməsi də bəlli olur. Belə bir hal isə ingilislərin ikili siyasətinə qarşı qaldırılan məsələlərin nəticəsizliyi ilə yanaşı həm də AXC hökumətinin qubernatorluqla bağlı maliyyə - hərbi yönümlü işlərinin qarşılaşdığı çətinliklər (partizan dəstələrinin təşkilindən ötrü ayrılan hələlik 5 mln. man.həcmindəki vəsaitin hazırkı vəziyyətdə yalnız 2 mln. manatının buraxılması; vəd olunan güllələrin çatdırıla bilməməsi və s.) ilə izah olunur.

X.Sultanovun yerli şəraiti bilməsinə əsaslanan qənaətlərini, vəziyyətdən çıxış yolu kimi təklif etdiyi təcili həyata keçirilməli olan tədbirləri və onların lən gidilməsi (yaxud da, qəbul olunmaması) şəraitindəgözlənilən nəticələri belə qruplaşdırmaq olar.

a) Gəlinən qənaətlər:
   - Qarabağ-Zəngəzur məsələsinin həllində ingilislərin köməyindən qətiyyətlə imtina edilməsi, çünki onlar bu işdə bizə yalnız maneçilik törədirlər;
   - məcburedici tədbirlər görülməzsə , ermənilər Azərbaycan hökumətinin tabeçiliyinə razıolmayacaqlar;
   - bu məsələni bir ay da həllsiz qoymaq əhalini hökumətin gücsüzlüyünə inandırmaq , müsəlman hissəsində anarxiyaya səbəb olmaq və bölgədən həmişəlik əlini üzmək deməkdir;

b) Təcili həyata keçirilməli olan tədbirlər:
   - Dağlıq Qarabağ ermənilərinə Azərbay can hakimiyyətini tanımaq barədə altı günlük ultimatum verilməsi;
   - bütün ermənilərə müsəlman rayonlarını tərk etmələrinin təklif olunması (Şuşa şəhəri üçün istisna ediləcəyibildirilməklə);
   - Azərbaycan hökuməti tanınmayacağı təqdirdə altı gündə n sonra hərbi əməliyyatlara başlanılması;

c) Təxirəsalınmaz tədbirlərin görülməyəcəyi şəraitdə ola biləcək nəticələr:
   - ermənilərin Zəngəzurdan irəliləmələri və Dağlıq Qarabağdakı həmmillətləri ilə birləşmələri;
   - müsəlman rayonlarında anarxiya;
   - Qarabağın itirilməsi ehtimalı.

Qeyd edək ki, ingilislər X.Sultanovun fəaliyyətindən xeyli qayğılanaraq onun vəzifəsindən kənarlaşdırılmasını tələb etdilər [1, f.894, siy.10, iş 135, v.44]. AXC

rəhbərliyinin və X.Sultanovun üst-üstə düşən qənaətlərinə görə, onun vəzifədən uzaqlaşdırılması bu kimi fəsadlar törədə bilərdi. Belə ki, bununla:

- ermənilərdə ingilislərin onları müdafiə etmələrinə inam möhkəmlənər və bu əsasda da AXC-ni tanımamalarına şərait yaranardı;
- həmçinin müəslman əhalidə onların taleyinin Ermənistanla ingilislərin ittifaqının ixtiyarına buraxılması təki məyusedici təəssürat oyanardı.

AXC hökuməti bu və başqa səbəbləri nəzərə alaraq komandanlığın tələbi ilə razılaşmadı. X.Sultanov general – qubernator olaraq öz fəaliyyətinə davam etdi. 1919-cu ilin avqustunda Böyük Britaniya silahlı qüvvələri Azərbaycandan getdi. Avqustun 26-da Qarabağ ermənilərinin VII qurultayının təmsilçiləri Şuşada X.Sultanovla saziş imzaladılar [1, f.2905, siy.1, iş 20, v.3]. Bu aktla da ermənilər AXC-nin Qarabağdakı hakimiyyətini tanıdılar. Beləliklə, Azərbaycanın Qarabağa dair suveren hüquqları bərpa edildi. (Bütün bunlarda da, təbii ki, X.Sultanovun böyük əməyi və mühüm rolu oldu). 1920-ci il yanvarın 11-də isə AXC-nin Paris Sülh konfransı tərəfindən de-fakto tanınması həm də Qarabağın Azərbaycana ərazi mənsubiyyətinin təsdiqi demək idi. Bu kimi siyasi – diplomatik uğurların ardınca Azərbaycan ordusunun 1920-ci ilin martında Ermənistan qoşunları üzərində çaldığı tarixi əsgəran zəfəri AXC-nin Qarabağdakı mövqelərini daha da möhkəmləndirdi.

Qarabağ general – qubernatorluğu AXC-nin süqutunadək, yəni Şimali Azərbaycanın yenidən Rusiya tərəfindən işğalına qədər mövcud oldu. Onun ləğvindən sonra X.Sultanov 12 gün Şuşa qəza inqilab komitəsinin sədri işlədi [8, s.161-162]. (Sözgəlişi, Ermənistan hökumətinin Azərbaycanın Şura hakimiyyətinə göndərdiyi 1920-ci il 12 may tarixli notada bu hala belə bir formada etiraz edilirdi: “ ... erməni qırğınının (?! – İ.M.) təşkilatçısı Sultanov qırmızı lenta taxaraq yenə hakimiyyətdədir” [1, f.28, siy.1, iş 70, v.3,5; iş 99, v.44]. Bununla sabiq general – qubernatorun indi Şuşa qəza inqilab komitəsinin sədri olmasına işarə edən ermənilər X.Sultanovu əvvəllər Müsavat, hazırda isə şura hökumətlərinə xidmət göstərməkdə ittiham etməklə onu nüfuzdan salmağa çalışırdılar).

X.Sultanov az sonra qardaşı ilə (Sultan bəylə) birlikdə Sovet hökumətinin qərəzli, sinfi – ideoloji münasibəti ilə üzləşdi. O, bir müddət həbsdə qaldı və sonra da xaricə gedərək ömrünün sonunadək mühacir həyatını yaşamaq məcburiyyətində qaldı.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Arxivi.
2. Газ. «Азербайджан», Баку, 1918-1920 гг.
3. Галоян Г. Рабочее движение и национальный вопрос в Закавказье, 1900-1922. Ереван:1969.
4. Ermənistan Mərkəzi Dövlət Arxivi.
5. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi.
6. Газ. «Коммунист», Ереван.
7. Svyataxovski T. Rusiya Azərbaycanı 1905-1920-ci illər – ″Azərbaycan″ jurn. Bakı: 1989.
8. Yaqublu N. Cümhuriyyət qurucuları. Bakı: 2018.

DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN YARADILMASI

Fazil Eynulla oğlu Baxşəliyev
tarix üzrə elmlər doktoru, professor
Bakı Dövlət Universiteti,
Bakı, Azərbaycan
e-mail: bfazil4444@mail.ru

Xülasə: Məqalədə 1920-ci illərin əvvəllərində Cənubi Qafqazda sovet hakimiyyətinin qurulması ilə Qarabağ ətrafındakı başlayan siyasi proseslərdən və bu bölgənin dağlıq hissəsində muxtariyyət qurulana qədər davam edən hadisələrdən bəhs edilmişdir. Azərbaycanda bolşeviklərin hakimiyyətə gəlməsindən sonra Ermənistanın Qarabağa əsassız iddiaları təhlil edilmiş, RK(b)P Qafqaz Bürosun iclaslarında Dağlıq Qarabağın ərazi mənsubiyyəti məsələsi ilə bağlı müzakirələrinə xüsusi diqqət yetirilmişdir.

Açar sözlər: Qarabağ, Azərbaycan, Sovet Rusiyası, Ermənistan.

THE CREATION OF THE NAGORNO-KARABAKH AUTONOMOUS REGION

F.E. Bakhshaliyev
Doctor of Sciences in History, professor
Baku State University,
Baku, Azerbaijan

Abstact: The article indicates that the political processes around Nagorno-Karabakh since the Bolshevization of the Transcaucasus began in the early 1920s and continued until the formation of autonomy in the mountainous part of this region. But with the coming to power of the Bolsheviks in Azerbaijan, Karabakh turned into an object of unfounded claims from Armenia. Almost all Bolshevik leaders have repeatedly expressed their views on the issue of the ownership of Nagorno-Karabakh at various levels, and especially in the Caucasian Bureau of the RCP (b).

Keywords: Karabakh, Azerbaijan, Soviet Russia, Armenia.

СОЗДАНИЯ НАГОРНО-КАРАБАХСКОЙ АВТОНОМНОЙ ОБЛАСТИ

Ф.Э. Бахшалиев
Доктор исторических наук, профессор
Бакинский Государственный Университет,
Баку, Азербайджан

Резюме: В статье указывается, что политические процессы вокруг Нагорного Карабаха с большевизации Закавказья в начались начале 1920-х годов и продолжались до образования автономии в нагорной части этого региона. С приходом к власти большевиков в Азербайджане Карабах превратился в объект необоснованных претензий со стороны Армении. Почти все большевистские лидеры неоднократно высказали свои мнения по вопросу о принадлежности Нагорного Карабаха на разных уровнях и в особенности в Кавказском бюро ЦК РКП(б).

Ключевые слова: Карабах, Азербайджан, Советская Россия.

1920-ci ildə Cənubi Qafqazda baş verən bir sıra hadisələr Qarabağın siyasi taleyinə güclü təsir göstərdi. Qafqazı işğal edən Sovet Rusiyası Dağlıq Qarabağda uzunmüddətli münaqişə ocağı yaratmağı bacardı. Moskva təmsilçiləri sovetləşmənin ilk aylarında Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi elan etmişdilər. Lakin Moskva 1921-ci ilin yazından başlayaraq bu bölgəni Ermənistana birləşdirməyin yollarını axtarmağa başladı. Bunun mümkünsüz olduğu bəlli olduqda, bolşeviklər aşağıdakı prinsipə əsaslanan taktikaya əl atdılar. Burada erməni muxtariyyəti elan edildi və erməni əhalisinə geniş hüquqlar verildi.

Bütün bu ədalətsizlik və özbaşınalıqlar 1923-cü ilin 7 iyulunda Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) qurulması ilə nəticələndi [5, s.95].

İndi isə məsələ üzərində daha ətraflı dayanmaq istərdik. Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə Qarabağ probleminin dərhal aradan qalxmasına bəslənilən ümidlər özünü doğrultmadı. Əslində bu problemin iki yeni yaranmış sovet respublikasının arasında həll ediləcəyini gözləməyin də heç bir mənası yox idi. Çünki müstəqilliyin elan edilməsinə baxmayaraq hər iki respublikada bütün işlər Moskva və onun burada yerləşdirilmiş Sovet ordusu tərəfindən idarə olunurdu.

Lakin ilk vaxtlar təbii olaraq regionda vəziyyət olduqca mürəkkəb idi. Sovet hakimiyyəti Cənubi Qafqazda mövqeyini ancaq 1922-ci ildə müəyyən qədər möhkəmləndirməyə nail oldu. Moskva Cənubi Qafqazda öz təsirini daha da gücləndirmək üçün hər iki respublika arasındakı millətlərarası mübahisələrin həllinə mümkün qədər daha çox qarışmağa çalışırdı. Bu mənada hər iki xalqın yaddaşında və taleyində dərin izlər buraxmış siyasi hadisələr, kütləvi qırğınlara səbəb olmuş Qarabağ məsələsi Moskva üçün olduqca əlverişli idi.

Moskva bu müddət ərzində özünü guya məsələnin dinc yolla həllinə çalışmış kimi göstərir, yerli kommunistlər arasında Qarabağın, Naxçıvanın və eləcə də Zəngəzurun ərazi mənsubiyyəti uğrunda gərgin diplomatik mübarizədə özünü münsif kimi aparırdı. Baxmayaraq ki, Sovet Azərbaycanın və Sovet Ermənistanının müstəqilliyi formal xarakter daşıyırdı, hətta hər bir xırda məsələ belə Moskvanın iradəsi ilə həll olunurdu, amma hər bir tərəf öz mövqeyinin haqlı olduğunu sübut etməyə çalışırdı. Bu isə erməni tərəfin Qarabağ və digər haqsız ərazi iddialarının ətrafında Moskvaya manevr etmək üçün şərait yaradırdı.

Sovet Rusiyasının siyasətində Dağlıq Qarabağın taleyinə diqqət yetirilməsi 19 iyun 1920-ci ildə ortaya çıxdı. Həmin gün o vaxtkı Xarici İşlər üzrə Xalq Komissarı G.Çiçerin, Rusiya Kommunist (bolşevik) Partiyası (RK(b)P) Qafqaz Bürosuna rəhbərlik edən G.Orconikidzeyə bir teleqram göndərmişdi ki, Qarabağ və Zəngəzurun "Rusiya silahlı qüvvələri" tərəfindən işğalının zəruri olduğunu nəzərə alaraq bu məsələnin həllini təmin etsin. G.Orconikidze dərhal "Azərbaycan heç bir halda Qarabağ və Zəngəzur olmadan qala bilməz" deyə cavab vermişdi [5, s.36].

Lakin G.Çiçerin o vaxt Leninə və Cənubi Qafqaz kommunistlərinə yazdığı bir çox məktublarda "Qarabağın tarixi erməni ərazisi olduğu" ifadəsini də işlətmişdi. Buna cavab olaraq Azərbaycandan G.Çiçerinə, həmçinin onu dəstəkləyən Milli işlər üzrə Xalq Komissarı İ.Stalinə çoxsaylı teleqramlar göndərilmişdi. Nəticədə G.Çiçerin 29 iyun 1920-ci ildə Leninə göndərdiyi məktubda "Azərbaycanın daxili vəziyyətindən şəxsən xəbərdar olmadığını" etiraf etmək məcburiyyətində qalmış və mühakimələrinin "qafqazlı həmsöhbətləri"nin danışıqları əsasında yarandığını etiraf etmişdi [4, c.3]. Burada "qafqazlı həmsöhbətlər" dedikdə o, Sovet Rusiyası və Ermənistan daşnak hökuməti nümayəndələri arasında Moskvada və Tiflisdə apardığı danışıqları nəzərdə tuturdu.

Bu birtərəflilik çox təəccüblü idi. Həmin səbəbdən bölgədəki vəziyyətlə daha yaxından tanış olan, üstəlik Azərbaycana heç də rəğbət bəsləməyən G.Orconikidze, 19 iyun 1920-ci ildə Moskvaya G.Çiçerinə göndərdiyi teleqramda Qarabağ və Zəngəzurun "özlərini Azərbaycan Sovet Respublikasının bir hissəsi hesab etdiklərini" bildirmişdi. O, Çiçerinə tövsiyə etmişdi ki, "ümumiyyətlə, mənim fikrimcə, Azərbaycan təmsilçisi Moskvaya çağırılmalı, onunla birlikdə Azərbaycan və Ermənistan arasında bütün ərazi mübahisələri həll edilməlidir. Özü də bu, Ermənistanla müqavilə imzalanmasından öncə edilməlidir, çünki daşnaklara inam nəhayət burada bizi çətin vəziyyətə salacaq" [5, s.36].

Başqa bir teleqramda Cənubi Qafqaz kommunistləri N.Nərimanov, B.Mdivani və digərləri G.Çiçerinə bildirmişdilər ki, "Sovet Azərbaycanın tərkibinə keçmiş, lakin mübahisəli olması iddia edilən Zəngəzur və Qarabağa gəldikdə, bu yerlərin gələcəkdə mübahisəsiz Azərbaycanın daxilində qalmalı olduğu qətiyyətlə elan edilməlidir" [3].

1920-ci ilin iyun - iyul aylarında Cənubi Qafqazdan Mərkəzə çox sayda belə teleqram, məktublar göndərilmişdi. G.Orconikidze bunları ümumiləşdirmiş halda V.Leninə, İ.Stalinə və G.Çiçerinə yazdığı məktubda əks etdirmiş, bu bölgələrin Azərbaycana aid olduğunu açıq şəkildə bildirmiş və xəbərdarlıq etmişdi ki, "Ermənistan hökuməti qəsdən yalan məlumat vermişdir və orada Azərbaycana qarşı haqsız münasibət güclüdür. Erməni yoldaşlar (bolşeviklər – F.B.) bununla Azərbaycanda bizim mövqelərimizi təhlükə altına atmış olurlar" [11, s.23-24].

Lakin 1920-ci il noyabrın sonunda Ermənistanda Sovet hakimiyyətinin qurulması Qarabağ probleminin həllində erməni kommunistlər üçün əlverişli şərait yaratdı. Elə o vaxt Moskva Azərbaycan hökumətinə və Sovet Ermənistanı hökumətinə bu gündən sonra iki "qardaş" sovet respublikası arasında sərhəd olmadığı, Zəngəzurun Ermənistana keçdiyini və Dağlıq Qarabağa öz müqəddəratını təyinetmə hüququ verildiyini bildirən Bəyannamə ilə müraciət etmək barədə tapşırıq verdi. Azərbaycan hökuməti ertəsi gün Sovet Ermənistanı hökumətinə bu məzmunda bir teleqram göndərmişdi. Azərbaycan hökumətinin başçısı N.Nərimanov Bakı Sovetinin iclasında Bəyannamənin mətnini oxudu: "Bu andan etibarən heç bir ərazi məsələsi iki xalq – çoxəsrlik qonşu xalqlar olan ermənilər və müsəlmanlar arasında qan tökülməsinə səbəb ola bilməz. Dağlıq Qarabağ əhalisinin hüquqları tam təmin olunur və onlara öz müqəddəratını təyinetmə hüququ verilir" [6, s.1].

Ancaq Ermənistanda bu sənəd fərqli şəkildə tərcümə olunub nəşr olundu. 2 dekabr tarixində İrəvanda "Kommunist" qəzetinin erməni dilindəki nəşrində Bəyannamədəki bu hissə belə səsləndirilmişdi: "Bundan sonra heç bir ərazi məsələsi əsrlərlə qonşu xalqların, ermənilərin və müsəlmanların arasında qan tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan bölgələri Sovet Ermənistanının ayrılmaz bir hissəsidir və Qarabağın əməkçi kəndlilərinə öz müqəddəratlarını təyinetmə hüququ verilir" [11, s.9].

Göründüyü kimi, erməni tərcüməsində Zəngəzur və Naxçıvan haqqında da saxtakarlığa yol verilmişdi. Ardınca "Dağlıq Qarabağ" anlayışından "Dağlıq" sözü çıxarılaraq sadəcə "Qarabağ" ifadəsi işlənmişdi. Ancaq ehtimal ki, bu da erməni tərəfə qeyri-kafi görünmüşdü və 7 dekabr tarixində həmin qəzet N.Nərimanovun 30 noyabr 1920-ci il tarixli təbrik teleqramının mətninin tərcüməsini təhrif edilmiş formada yenidən çap etmişdi: "Dağlıq Qarabağ, Zəngəzur və Naxçıvan Ermənistan Sosialist Respublikasının ayrılmaz bir hissəsi olaraq tanınır" [2, s.31].

Azərbaycan kommunistləri bundan xəbər tutaraq onun təkzib edilməsini tələb etdilər. Ancaq Sovet Ermənistanda buna əhəmiyyət vermədilər. Bunun bir izahı var. Ermənistanda daşnaklar o dövrdə siyasi hakimiyyətlərini itirsələr də, yeni respublikanın həyatında kifayət qədər əhəmiyyətli rol oynamaqda davam edirdilər. Ermənistan kommunistləri daşnakların bir çoxunu müvəqqəti də olsa, əvvəlki vəzifələrində saxlamışdılar. Bu, xüsusən Qarabağda və Zəngəzurda azərbaycanlılara qarşı vəhşilikləri ilə tanınan daşnak generalı Dronun xidmət etdiyi Sovet Ermənistanı ordusuna aid idi.

1921-ci il fevralın ortalarında Ermənistandakı bu bolşevik-daşnak ittifaqı sonuncunun üsyanı ilə sona çatdı. İrəvanı ələ keçirən daşnaklar Ermənistanın bir hissəsi üzərində hakimiyyətlərini bərpa etdilər. Yalnız 1921-ci il aprelin ortalarında təcili olaraq Gürcüstandan keçib gələn Sovet ordu hissələri daşnakları İrəvandan qovdu. Daşnaklar bundan sonra Zəngəzurda yerləşdilər. Çünki burada onların əhalinin bir hissəsi, xüsusi ilə də Türkiyədən gələn erməni mühacirləri üzərində təsiri hələ də güclü idi.

Sovet Ermənistanı Moskvadan göndərilən kömək gələnə qədər vaxt qazanmaq məqsədi ilə daşnak üsyanının iştirakçıları əfv etdiyini bildirmiş və eyni zamanda yerli əhalinin diqqətini yayındırmaq məqsədi ilə daşnaklarla danışıqlara başlamışdı. Nəticədə, Ermənistan Kommunist (bolşevik) Partiyası rəhbərliyi 1921-ci ilin iyun ayında Zəngəzurda ermənilərin ələ keçirmək istədiyi Qarabağ və Zəngəzur məsələsini yenidən gündəmə gətirdi. 12 iyun 1921-ci ildə Ermənistan hökuməti bəyanat verdi ki, Azərbaycan İnqilab Komitəsinin bəyannaməsi əsasında və Ermənistan Sovet Sosialist Respublikası ilə Azərbaycan Sovet

Sosialist Respublikası arasındakı razılaşmaya görə Dağlıq Qarabağın bundan sonra Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi olduğu elan edilir" [4, s.47].

27 iyun 1921-ci ildə Rusiya Kommunist (bolşevik) Partiyası Qafqaz Bürosu Rəyasət Heyətinin toplantısı keçirildi. Elə həmin gün Tiflisdəki Azərbaycan nümayəndə heyəti üzvlərinin N.Nərimanovla teleqrafla çox vacib bir söhbəti olmuşdu. N.Nərimanov bildirmişdi ki, ermənilər əgər Rəyasət Heyətinin üzvlərinə, "mənim Bəyannaməmi" misal gətirsələr, bildirin ki, bəyannamədə həqiqətdə belə deyilir: Dağlıq Qarabağ əhalisinə öz müqəddəratını sərbəst təyinetmə hüququ verilir".

N.Nərimanov daha sonra tezliklə Tiflisə sənədlər göndərəcəyini bildirdi və xüsusi vurğuladı ki, "o zaman aydın olacaq ki, erməni yoldaşlarımız müstəsna olaraq ərazilər haqqında düşünürlər, ancaq ermənilərin və müsəlmanların yoxsul əhalisinin rifahı və inqilabın güclənməsi barədə yox" [11, s.14].

Bu vaxt qərar verildi ki, iyul ayının əvvəlində Tiflisdə Qafqaz Bürosu Plenumunun təcili iclası çağırılsın. 2 iyul tarixində plenum öz işinə başladı. İlk iki gün ermənilərin Gürcüstana qarşı ərazi iddiaları - Axalkalaki və Borçalı bölgələrini tələb etmələri müzakirə edildi. Bu məsələdə tərəflər arasında münasibətlər çox gərgin idi. Mayın sonundan Nalçikdə məzuniyyətdə olan İ.Stalin istirahətini saxlayaraq təcili olaraq iyun ayının sonunda Tiflisə gəldi və Qafqaz Bürosu Plenumunun 2 - 7 iyul 1921-ci il tarixli iclaslarında fəal şəkildə iştirak etdi. Müzakirələrin sonunda Axalkalaki və Borçalı bölgələrinin Gürcüstan SSR tərkibində saxlanmasına qərar verildi [10, s.426-427].

4 iyulda I.Stalinin iştirakı ilə Qafqaz Bürosunun plenumunda, S.Kirov (Azərbaycanın partiya təşkilatının gələcək rəhbəri) və G.Orconikidzenin təklifi ilə aşağıdakı qətnamə layihəsi səsverməyə çıxarıldı: "Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil edilsin, yalnız Dağlıq Qarabağda plebisit (səsvermə) keçirilsin" [5, s.58].

Plenar iclasda iştirak edirdilər: İ.Stalin - PK(b)P Mərkəzi Komitəsinin üzvü, eyni zamanda Qafqaz Bürosu üzvləri G.Orconikidze, F.Maxaradze, N.Nərimanov, A.Myasnikov, S.Kirov, A.Nazaretyan və Y.Fiqatner.

Qarabağ məsələsinin müzakirəsi zamanı iki baxış ortaya çıxdı.

Səsverməyə aşağıdakı təkliflər çıxarılmışdı:

a) Qarabağı Azərbaycanın tərkibində saxlamaq (lehinə səs verdilər: Nərimanov, Maxaradze, Nazaretyan; əleyhinə səs verdilər: Orconikidze, Myasnikov, Kirov və Fiqatner);

b) ermənilər və müsəlman əhalisinin iştirakı ilə Qarabağ ərazisində referendum keçirmək (lehinə səs verdilər: Nərimanov və Maxaradze);

c) Qarabağın dağlıq hissəsi Ermənistanın tərkibinə daxil edilsin (lehinə səs verdilər: Orconikidze, Myasnikov, Fiqatner və Kirov);

d) yalnız Dağlıq Qarabağda, yəni ermənilər arasında referendum keçirilsin (lehinə səs verdilər: Orconikidze, Myasnikov, Fiqatner, Kirov və Nazaretyan) [2, s.39].

Səsvermənin nəticələrinə görə, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına səbəb olan bir qərar qəbul edildi.

Yuxarıda deyilənlərlə əlaqəli sual yaranır: bir neçə ay əvvəl "Azərbaycanı Qarabağsız təsəvvür edə bilməyən" Orconikidze və Kirov niyə 1921-ci ilin iyunundan sonra bu qədər kəskin şəkildə fikirlərini dəyişdilər və iyul ayında Qafqaz Bürosunun iclasında Azərbaycanın əleyhinə səs verdilər?

Belə güman etmək olar ki, Dağlıq Qarabağın gizli bir müzakirə obyektinə çevrilməsi, daha sonra Qafqaz Bürosunda açıq müzakirələr (1921-ci ilin iyun-iyul aylarında), habelə Dağlıq Qarabağı Ermənistana zorla vermək cəhdləri Sovet Rusiyası ilə Türkiyə arasında 16 mart 1921-ci ildə bağlanmış Moskva müqaviləsi ilə əlaqələndirilmişdi. Naxçıvanın Azərbaycan tərkibində saxlanmasını əks etdirən bu müqavilənin imzalanmasından sonra Sovet Rusiyası təmsilçiləri Dağlıq Qarabağı Ermənistan SSR-ə verməklə erməni bolşeviklərini təskin etmək mövqeyi tutmuşdular.

Qafqaz Bürosunun 4 iyul 1921-ci il tarixli qərarının mətni və siyasi mənası arasında çox uyğunsuzluqlar vardı və bu o demək idi ki, bəzi müddəalar bilərəkdən kimlərinsə əli ilə çox məharətlə saxtalaşdırılırdı. Akademik T.Köçərliyə görə "erməni müəllifləri bu qərarla bağlı "kiçik" bir düzəliş etmişdilər: yəni "verilsin" ifadəsi "saxlanılsın" ifadəsi ilə əvəz olunmuşdu [1, s.102].

Qafqaz Bürosunun 4 iyul 1921-ci il tarixli qərarının qəbulu zamanı N.Nərimanov qəti bir açıqlama verdi: "Qarabağ məsələsinin Azərbaycan üçün əhəmiyyətini nəzərə alaraq bunun RK(b)P Mərkəzi Komitəsinin müzakirəsinə çıxarılmasını zəruri hesab edirəm". Yalnız N.Nərimanovun kəskin etirazı sayəsində həmin gün Qafqaz Bürosunun iclası aşağıdakı mətni son qərar kimi qəbul etdi: "Qarabağ məsələsinin ciddi bir fikir ayrılığına səbəb olduğunu nəzərə alaraq, RK(b)P Mərkəzi Komitəsinin Qafqaz Bürosu məsələnin müzakirəsinin təxirə salınmasını zəruri hesab edir" [2, s.39].

Beləliklə, həmin iclasda "Qarabağ məsələsi" gündəliyin 5-ci bəndinə əsasən müzakirə edildi. N.Nərimanovun bəyanatının müzakirəsindən sonra qəbul edilmiş qərar (6-cı bənd) əvvəlki səsvermənin nəticəsini yeni redaksiyada yazdı, çünki plenar iştirakçıların əksəriyyəti buna səs vemişdilər.

Bununla birlikdə, bu məsələ RK(b)P Mərkəzi Komitəsi tərəfindən müzakirəyə çıxarılmadı və ilk növbədə Orconikidzenin bir gün əvvəl tutduğu səhv mövqedən imtina etməsi və Nazaretyanın dəstəyini əsas götürən plenum Qarabağla bağlı əvvəlki qərarın yenidən müzakirəyə çıxarılmasına qərar verdi [5, s.59].

N.Nərimanovun sərt mövqeyini və G.Orconikidzenin əvvəlki fikrindən imtina etməsini nəzərə alaraq Qafqaz Bürosunun 5 iyul tarixli iclasında (gündəliyin 2-ci bəndinə əsasən) aşağıdakı qərarları qəbul edildi:

1) müsəlmanlar və ermənilər arasında milli barışığın zəruriliyinə, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrinə, onun Azərbaycanla daimi əlaqəsinə əsaslanaraq, Şuşa şəhəri inzibati mərkəz olmaqla Dağlıq Qarabağa geniş regional muxtariyyət verərək Azərbaycan SSR-in tərkibində saxlanılsın;

2) Azərbaycan K(b)P Mərkəzi Komitəsinə muxtar vilayətin sərhədlərini müəyyənləşdirmək və onu Mərkəzi Komitənin Qafqaz Bürosuna təsdiq üçün təqdim etmək tapşırılsın;

3) Mərkəzi Komitənin Qafqaz Bürosu Rəyasət Heyətinə Dağlıq Qarabağın fövqəladə komitəsinə namizəd barədə Ermənistan Mərkəzi Komitəsi və Azərbaycan Mərkəzi Komitəsi ilə danışıqlar aparmaq tapşırılsın;

4) Dağlıq Qarabağın muxtariyyətinin əhatə dairəsi Azərbaycan K(b)P Mərkəzi Komitəsi tərəfindən müəyyən ediləcək və Mərkəzi Komitənin Qafqaz Bürosuna təsdiq edilmək üçün təqdim ediləcək [2, s.39].

Erməni tərəfi, Dağlıq Qarabağ məsələsi ilə bağlı ilk "ədalətli qərarın" ləğv edilməsinə çalışaraq, İ.Stalinin gözlənilmədən bura gələrək azərbaycanlıları müdafiə etdiyini iddia edirdilər.

Erməni tarixçilərinin Qafqaz Bürosunun tarixi qərarlarını saxtalaşdıraraq, necə deyərlər, Dağlıq Qarabağın Azərbaycana "verilməsini" Stalinin adı ilə əlaqələndirmələri həqiqətə uyğun gəlmirdi. Bu, ilk növbədə, ermənilərə özlərini totalitar rejimin qurbanları kimi təqdim etmək və ədalətin bərpası görünüşünü yaratmaq imkanı verən stalinçi cinayətlərə aid edilmək niyyətlərinə uyğun gəlirdi.

Erməni müəlliflər və siyasətçilər eyni zamanda bir vaxtlar "bütün çətinlikləri Stalinin üzərinə atmaq dəbə düşdüyündən" Dağlıq Qarabağın Azərbaycana verilməsini yalnız "Stalinin iradəsi" ilə izah etməklə, dünya birliyinin dəstəyini qazanmağa da çalışırlar [3].

Erməni müəllifləri hər zaman Nərimanovu "millətçi" kimi təqdim etmək və onu SSRİ rəhbərliyinin nəzərində gözdən salmaq üçün hər cür imkandan istifadə etmişlər. O zamankı ağlagəlməz mürəkkəb siyasi şəraitdə "Dağlıq Qarabağı Azərbaycan SSR hüdudlarında saxlamaq" haqqında qərar qəbul olunması həqiqətən N.Nərimanovun tarixi xidmətidir.

Erməni müəllifləri Qafqaz bürosunun bu qərarını (Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın) Dağlıq Qarabağı mexaniki surətdə Ermənistan tərkibindən çıxarıb Azərbaycan tərkibinə "daxil etmək" qərarı kimi təqdim edirlər. Bu erməni iddiaları XX əsrin sonlarının ən böyük yalanlarından biridir. Tarixi həqiqət budur ki, sadəcə 5 iyul tarixli qərarla Ermənistan hökumətinin Dağlıq Qarabağı Azərbaycan tərkibindən çıxarıb Ermənistana birləşdirmək cəhdi rədd edilmiş, Dağlıq Qarabağın Azərbaycan ərazisi olması bir daha təsdiqlənmiş, Dağlıq Qarabağı Azərbaycan tərkibində saxlamaq və Dağlıq Qarabağa Azərbaycan tərkibində muxtariyyət vermək məsələsi həll edilmişdi [7, s.114].

Bu arada Qafqaz Bürosu plenumunun 11 saylı 4 iyul və 12 saylı 5 iyul tarixli iclaslarının protokollarının mətni baş verənlərin aydın bir mənzərəsini göstərir: İ.Stalin hər iki iclasda iştirak edirdi, ancaq nə 4 iyulda, nə də 5 iyulda o, Qarabağ mövzusunda danışmamışdı. Bundan əlavə, RK (b)P Mərkəzi Komitəsinin Qafqaz Bürosu plenumunun 2 və 3 iyul tarixli iclaslarının 8 saylı protokolu 4 və 5 iyul tarixlərinə aid müvafiq sənədlərlə eyni arxiv fondunda saxlanılır. Bir az diqqətlə nəzərdən keçirildikdən sonra bütün protokollarda Stalinin adının iştirak edənlər arasında ilk olaraq görünməsi yalnız formal xarakter daşıyırdı.

Dağlıq Qarabağ məsələsinin 5 iyulda yenidən müzakirəyə çıxarılması məhz Orconikidze və Nazaretyanın təkidi ilə baş vermişdi. Məlum səbəblərə görə bəzi erməni müəllifləri Nazaretyanın deyil, məhz N.Nərimanovun Orconikidze ilə birlikdə bu məsələni qaldırdığını iddia etməyə çalışırlar.

Dağlıq Qarabağın yalnız 5 iyul qərarı ilə Azərbaycanın olması barədə səhv iddia V.Zaxarova və S.Sarkisyanın Moskvada dərc olunan məqaləsində təkrarlanmışdır [3]. Çünki Qarabağ həmişə Azərbaycanın olmuşdur. Sadəcə olaraq ermənilərin Dağlıq Qarabağı bu cür həyasızcasına ələ keçirməyə çalışmaları xalqımıza qarşı ənənəvi ərazi iddialarının növbəti mərhələsi idi.

Bəhs edilən son qərarın özü də Azərbaycan ictimaiyyəti tərəfindən razılıqla qarşılanmadı. Ona görə də, Azərbaycan MİK Rəyasət Heyətinin 19 iyul 1921-ci ildə keçirilən iclasında «Dağlıq Qarabağa daxili özünüidarə hüququ verilməklə Azərbaycanın tərkibində saxlanılmasını zəruri hesab etdi. 1921-ci il 19 iyul tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti Qafqaz Bürosunun 5 iyul tarixli qərarını və N.Nərimanovun Tiflisə səfərinin nəticələrini müzakirə etdi [2, s.42].

N.Nərimanovun məruzəsi əsasında qəbul edilən qərarda deyilirdi ki, "Dağlıq Qarabağ Sovet Konstitusiyası müddəalarına uyğun olaraq daxili özünüidarə hüququna və icraiyyə qurumlarına malik olmaqla Sovet Azərbaycanının ayrılmaz hissəsi olaraq qalır".

5 iyulda RKP(b)P Mərkəzi Komitəsinin Qafqaz Bürosunun qəbul etdiyi qərara baxmayaraq, müxtəlif erməni təşkilatları Azərbaycana qarşı pozuculuq hərəkətlərini dayandırmamışdılar. Ə.Qarayevin 23 iyulda Şuşadan N.Nərimanov və M.D.Hüseynova göndərdiyi teleqramda deyilirdi ki, "Sovet Ermənistanının Fövqəladə Səlahiyyətli səfiri Ter-Simonyan Gorusda müsəlman, rus və erməni dillərində yazılmış bəyanat yayaraq Qarabağın dağlıq hissəsinin Sovet Ermənistanına birləşdirildiyini elan etmişdir [2, s.44].

Bir daha qeyd eməliyik ki, Azərbaycanda Qafqaz Bürosunun qərarı birmənalı olmayan reaksiyaya səbəb oldu. 1921-ci il iyulun 19-da Qafqaz Bürosunun Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlanılması barədə qərarını təsdiqləyən yerli Kommunist Partiyası rəhbərləri bunun gələcəkdə çox pis nəticələr verəcəyindən qorxaraq muxtariyyət verməyə ehtiyatla yanaşdılar. Azərbaycan K(b)P Mərkəzi Komitəsinin Siyasi Bürosu 26 sentyabr 1921-ci ildə belə bir qərar verdi: "Qafqaz Bürosundan Dağlıq Qarabağın ayrılması barədə qərarına yenidən baxılmasını xahiş etmək: bundan sonra muxtariyyət elan etməyin" [5, c.96].

Bir ay sonra, 21 oktyabrda Dağlıq Qarabağ kommunistlərinin konfransı da keçirildi və burada da Dağlıq Qarabağın bir muxtar bölgəyə ayrılmasına qarşı çıxıldı. Dağlıq Qarabağa muxtariyyət verilməsi məsələsinin uzanması 15 ay sonra, 27 oktyabr 1922-ci ildə Cənubi Qafqaz kommunistlərini Qarabağ probleminin müzakirəsinə bir daha qayıtmağı zəruri etdi.

Azərbaycan K(b)P Mərkəzi Komitəsindən qətnamənin icrası tələb edildi. Yalnız bundan sonra Qafqaz Bürosunun 5 iyul 1921-ci il tarixli qərarının aqibətinin müəyyən edilməsi üçün 1922-ci il dekabrın 15-də xüsusi komissiya yaradıldı. Lakin sözügedən qərarın opponentlərinin öz sözləri ilə desək, "bunun üçün muxtariyyətin əleyhinə olan N.Nərimanovun müqavimətini dəf etmək lazım idi [5, s.119].

Yalnız N.Nərimanov 1923-cü ilin yanvarında Moskvaya işə aparıldıqdan sonra Azərbaycanda vəziyyət kəskin şəkildə dəyişdi. 27 iyun 1923-cü ildə RK(b)P Zaqafqaziya Komitəsinin plenumunun iclasında Azərbaycan Kommunist Partiyasının yeni rəhbərliyinə Dağlıq Qarabağın muxtar bölgəyə ayrılması məsələsini bir ay ərzində həll etmək tapşırıldı. 1 iyul 1923-cü ildə Azərbaycan K(b)P rəhbərliyi müvafiq qərar qəbul etməli oldu. Bununla da 7 iyul 1923-cü ildə respublika hökuməti mərkəzi Xankəndi olan Dağlıq Qarabağ muxtar vilayətinin (DQMV) qurulmasına dair son qərar qəbul etdi .

Bir həftə sonra, 16 iyul 1923-cü il tarixində AK(b)P rəhbərliyi yenidən bu məsələyə qayıtdı, Şuşa şəhəri və bir sıra aran Qarabağ torpaqları da daxil olmaqla DQMV-nin tərkibinin genişləndirilməsinə qərar verdi. Nəhayət, həmin 1923-cü il sentyabrın 18-də Azərbaycan K(b)P Qarabağ vilayət komitəsinin iclasında daşnaq S.Şaumyanın DQMV-nin inzibati mərkəzi Xankəndinin - vaxtı ilə 1918-ci il mart soyqırımının və Bakı XKS-nin əsas təşkilatçılarından biri, görkəmcə bolşevik, mahiyyətcə daşnak xislətli S.Şaumyanın şərəfinə Stepanakert adlandırılmasına qərar verildi [5, s.187-188].

1923-cü ilin iyul ayında xüsusi komissiyanın təklifi ilə Şuşa, Cavanşir və Qubadlı rayonlarının 169 yaşayış məntəqəsi də DQMV-ə daxil edildi. 1923-cü ildə DQMV-nin sahəsi 4160,5 kvadrat km. idi. 10 ildən sonra bu ərazi 4 431,7 kvadrat km.-ə qədər genişləndi [8, c.42].

Lakin ermənilər heç vaxt Azərbaycan SSR tərəfindən onlara verilən güzəştlərlə kifayətlənmirdilər.

Beləliklə, 1923-cü ildə Azərbaycanın içərisində bir vaxt bombası qoyuldu və Sovet Rusiyası Qafqazı tərk edərdisə, işləməsi lazım olan bir saat mexanizmi işə salındı. Dağlıq Qarabağa muxtariyyət verildiyi andan qaynaqlanan faciənin başlıca səbəbi yadlara inam idi.

1920-ci ilin iyulunda G.Orconikidzenin irəli sürdüyü "Qarabağda muxtariyyət elan etmək və burada erməni əhalisini təşkil etmək" fikri zamanın "sınağından keçdi" və SSRİ-nin dağılmasından sonra DQMV-ni Rusiyanın nəzarətində olan bölgə etmək üçün təsirli bir mexanizmə çevrildi.

Sovet dövründə Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan erməni icması bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsa da, Ermənistan öz ərazi iddialarını bir neçə dəfə ortaya atmış, ancaq istəyinə nail ola bilməmişdir.

DQMV-nin mövcudluğu illərində Azərbaycan SSR-nin hakimiyyəti formal xarakter daşımışdır. Respublika rəhbərliyi vilayətlə bağlı bütün plan və tədbirlərini yalnız ittifaq rəhbərliyi ilə razılaşdırıldıqdan sonra icra edə bilirdi.

Yalnız 1969-1982-ci illərdə Ulu öndər Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi dövründə vəziyyət kökündən dəyişdi. Azərbaycan hökuməti bu illər ərzində hər addımda, hər işdə vilayətin əsl sahibinin kim olduğunu birmənalı olaraq göstəriridi.

H.Əliyevin Moskvaya yüksək partiya və dövlət vəzifələrinə işləməyə aparılmasından sonra vilayətdə başverən özbaşınalıqlar, ardınca 32 ildə xalqımızın başına gələnlər təsadüfi olmayaraq ittifaq rəhbərliyi səviyyəsində xalqımıza qarşı hazırlanmış məkrli planın icrasının nəticəsi idi.

Şükürlər ki, Azərbaycan xalqı, onun Müzəffər Milli Ordusu 2020-ci ildə 44 günlük Vətən Müharibəsi nəticəsində bu tarixi ədalətsizliyə son qoymaqla Dağlıq Qarabağda suveren hüquqlarımızı yenidən bərpa edə bildi [9].

Lakin tarixi ədaltin bərpası, torpaqlarımızın azad edilməsi o demək deyil ki, ərazilərimizə xəyanətkar dövlətin iddialarına birdəfəlik son qoyulmuşdur. Bəzi qonşu dövlətlərdən hərbi - maddi yardım alan, dünyanın bir sıra aparıcı ölkələrdən siyasi dəstək alan

Ermənistan bu gün də Qarabağa və digət tarixi torpaqlarımıza iddialarından əl çəkməmişdir. Buna görə də tariximizi, torpaqlarımızın necə işğal olunmasını unutmamalıyıq.

Bir gün gələcək və Azərbaycanın üçrəngli bayrağı müxtəlif vaxtlarda zorla bizdən alınıb ermənilərə "bağışlanmış" Zəngəzurda, Dərələyəzdə, Göyçədə, Zəngibasarda və digər Qərbi Azərbaycan torpaqlarımızda dalğalanacaq. O gün çox da uzaqda deyil.

Ədəbiyyat

1. Köçərli T. Qarabağ: Yalan və Həqiqət. İctimai - Siyasi Tədqiqatlar və İnformasiya İnstitutu. Bakı. 1998. 155 s.
2. Məmmədov N.R. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat iqtisadi və mədəni inkişaf (1923-1991). Təhsil NPM. Bakı. 2008. 568 s.
3. Гасанлы Дж. Вопрос о Нагорном Карабахе на Кавказском бюро ЦК РКП(Б) В 1920 - 1923 годах. https://www.ca-c.org/c-g/2011/journal_rus/c-g-1-2/12.shtml
4. Карабахский вопрос. Истоки и сущность в документах и фактах. Арцах. Степанакерт. 1989. 159 с.
5. К истории образования Нагорно - Карабахской автономной области Азербайджанской ССР. 1918 - 1925: Документы и материалы. Азернешр. Баку. 1989. 334 с.
6. Коммунист. 02 декабря 1920 г.
7. Нагорный Карабах: историческая справка. Ереван. 1988. 95 с.
8. От Майендорфа до Астаны: принципиальные аспекты армяно - азербайджанского нагорно-карабахского конфликта. КЕМ. Москва. 2010. 552 с.
9. Семь вопросов к миру в Карабахе. Кто от этого выиграл и что будет дальше? https://www.bbc.com/russian/features-54896303
10. Сталин И.В. Сочинения. том 5. ОГИЗ. Москва, 1947, с.426- 427.
11. Юнусов А. Карабах: Прошлое и настоящее. Институт мира и демосратии. Информационное агентство «Туран». Баку. 2005. 85 с.

ОСОБЕННОСТИ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА НАЧАВШЕГОСЯ НАКАНУНЕ РАСПАДА СССР

Ильгар Вахид оглы Нифталиев
доктор философии по истории, доцент
заведующий отделом «История Азербайджана советского периода»
Института Истории им. А.А. Бакиханова НАНА,
Баку, Азербайджан
e-mail: Ilg4352@yandex.ru

Резюме: В статье дается краткий анализ некоторых особенностей начавшегося накануне распада СССР армяно-азербайджанского Нагорно-Карабахского конфликта. Изложенные в статье факты основаны на материалах прессы, документах из архивов Российской Федерации, а также мемуарах известных государственных деятелей советского периода.

Ключевые слова: партия, республика, Карабах, Азербайджан, Армения.

SSRİ-nin DAĞILMASI ƏRƏFƏSİNDƏ BAŞLAMIŞ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN XÜSUSİYYƏTLƏRİ

İlqar Niftəliyev
tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
"Sovet dövrü Azərbaycan tarixi" şöbəsinin müdiri,
Bakı, Azərbaycan

Xülasə: Məqalədə SSRİ-nin dağılması ərəfəsində başlamış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bəzi xüsusiyyətlərinin qısa təhlili verilir. Məqalədə gətirilən faktlar dövrü mətbut materiallarına, Rusiya Federasiyasının arxiv sənədlərinə və Sovet dövrünün tanınmış dövlət xadimlərinin xatirələrinə əsaslanır.

Açar sözlər: partiya, respublika, Qarabağ, Azərbaycan, Ermənistan.

PECULIARITIES OF THE NAGORNO-KARABAKH CONFLICT OF THE BEGINNING ON THE EVE OF THE DECAY OF THE USSR

Ilgar Niftaliev
Doctor of Philosophy in History, Associate Professor
Head of the department "History of Azerbaijan in the Soviet period" of the Institute of History named after A.A. Bakikhanov of ANAS,
Baku, Azerbaijan

Abstract: The article gives a brief analysis of some features of the beginning of the collapse of the USSR in the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. The facts presented in the article are based on press materials, documents from the archives of Russian Federation, as well as memoirs of famous statesmen of the Soviet period.

Keywords: party, republic, Karabakh, Azerbaijan, Armenia.

Продумывая в 1985 году перспективу перемен в СССР, архитекторы реформ и не подозревали, какое большое значение в истории перестройки займет национальный вопрос. Политика М.Горбачева во многих отношениях придала импульс этнонациональным процессам, направление которых было запрограмированно более ранними противоречиями. Эти противоречия имели исторические корни и проистекали как из этнических, так и из иных, социальных и политических факторов.

Новый этап конфликта в Нагорном Карабахе стал разгораться практически с момента прихода к власти в руководстве СССР М.Горбачева. В своих воспоминаниях М.Горбачев вынужден был признать, что задолго до начала кровавого этапа конфликта в 1988 году Москва была в курсе сложных процессов, которые происходили вокруг Нагорного Карабаха, была хорошо информирована о настроениях в Армении и Нагорном Карабахе, хорошо знала, что там происходит и что готовится, ибо там особо не скрывали своих намерений и планов, тщательно встраивая их в демократическую риторику перестройки. Горбачев отмечал: "За три года (имеется в виду период 1985-1987 годов - И.Н.) ЦК получил 500 писем о ситуации в Нагорном Карабахе. Перестройка привела в движение большие внутренние силы, начали вскрываться застарелые нарывы. Возрождаются национальные чувства, а вместе с ними и национальный экстремизм" [4, с.506].

Партийное руководство Азербайджанской ССР также была в курсе событий, происходивших вокруг Нагорного Карабаха и ещё задолго до начала последнего этапа конфликта через свои органы государственной безопасности систематически ставило

об этом в известность Москву. Вот как вспоминает об этом бывший председатель областного отделения КГБ НКАО полковник Г.Септа: "О фактах активизации националистических проявлений регулярно докладывалось руководству, сообщалось по инстанциям. Фиксировались и случаи приезда эмиссаров из Еревана, оживление группировок, находившихся в поле зрения службы. Докладывалось, писалось начальству, неоднократно обсуждались возникающие проблемы с Кеворковым (в 1973-1988 гг. первый секретарь областного комитета партии НКАО - И.Н.). Москвичи смотрели на все это сквозь пальцы, мол, у нас тут и не такое разворачивается. Бакинское руководство ни разу не проявило должного беспокойства: ни в случае с целенаправленным распространением книги "Очаг" З.Балаяна, фактически ставшей призывом к "миацуму" [присоединение области к Армении], ни позже, когда сепаратисты ловко прикрылись лозунгами большей демократии, гласности. К февралю все было ясно. Не было бы Сумгайыта, полыхнуло бы где-нибудь в другом месте" [5, с.118].

Таким образом, все были в курсе о надвигающейся опасности, но никто не принимал решительных действий для предотвращения её в зародыше. Баку надеялся на Москву, считая, что очередная армянская возня вокруг идеи передачи Нагорного Карабаха Армении, как это было в 1945,1960,1965, 1977 годы, будет заглушена Кремлем традиционными методами профилактического воздействия местных партийных и правоохранительных органов. Однако отсутствие однозначной реакции высших органов КПСС и советского руководства на сигналы, поступающие по различным каналам, провоцировало армянскую сторону на более настойчивое, энергичное выдвижение территориальных требований.

Между тем, в конце 1987 года произошло событие, которое по настоящему окрылило армянских националистов и придало их действиям уверенность. 21 октября 1987 года из состава Политбюро ЦК КПСС был выведен заместитель Председателя Совета Министров СССР Гейдар Алиев. Автор книги «Черный сад» Томас де Ваал убежден, что именно отстранение Гейдара Алиева от высшего руководства Советского Союза в октябре 1987 года полностью развязала руки армянам. По мнению автора, армянские националисты имели непосредственное отношение к отставке Гейдара Алиева: «Они задумали кампанию, -как он писал- по дискредитации азербайджанского патриарха Гейдара Алиева, который, как им представлялось, мог стать главным противником идеи отделения Карабаха и заблокировать весь процесс. В одном из своих интервью Гейдар Алиев вспоминал, что в 1987 году получил письмо от одного из активистов карабахского движения Игоря Мурадяна, полный угроз и оскорблений в свой адрес. Автор письма обвинял Г.Алиева в том, что он мешает присоединению Нагорного Карабаха к Армении. Письмо сопровождалось большим списком, состоявшим из фамилий азербайджанцев и турков, ставших жертвами армянского террора. [1, с.71]. Видимо, тем самым автор письма угрожал Г.Алиеву, что если он не сойдет с пути армян, его ожидает подобная участь. Интересно, что тот же Мурадян в марте 1987 года направил письмо на имя кандидата члена в Политбюро, идеолога Перестройки А.Яковлева, в котором открытым текстом обвинял Гейдара Алиева в том, что именно он виновен « укоренении раздела Восточной Армении (Армянской ССР, НКАО, Нахичеванской АССР)». В письме его автор указывал, что в Верховный суд СССР направлено обращение с заявлением об иске против Гейдара Алиева и по этому делу собран и представлен материал на 600 страниц. [11, л.1-2] Данное обращение И.Мурадяна лишний раз доказывает, что после начала Перестройки армянские националисты настолько были раскрепощены в своих действиях, что могли выступать с обвинениями против действующего члена Политбюро и одного из руководителей Советского правительства. Безусловно, они не осмелились бы на подобный шаг, не

имея поддержку от Генерального секретаря ЦК КПСС М.Горбачева и его армянского окружения в лице А.Аганбекяна, Г.Шахназарова и других. Не случайно Г.Шахназаров в своих воспоминаниях писал, что Г. Алиев обвинял его и других армян, близких к Горбачеву, в отторжении Карабаха от Азербайджана [12, с.45]. Как пишет Т.де Ваал, карабахским активистам удалось даже заручиться молчаливой поддержкой руководителя компартии Армении Карена Демирчяна, который, говорят, был очень рад закату политической карьеры своего оппонента в высшем партийном руководстве СССР. Вспоминая об этом бывший первый секретарь ЦК КП Армении К.С.Демирчян в 1990 году отмечал: «Нам удалось сделать самое главное - сместить Алиева до начала [карабахского] движения. Это было очень важно» [6, с.34-35].

По некоторым данным в течение 1987 года в Нагорном Карабахе было собрано 75 тысяч подписей под петицией о передаче автономии Армении [6, с.37]. Влиятельные армяне активно лоббировали карабахский вопрос за границей. Историк Сергей Микоян, сын старого партийного функционера Анастаса Микояна, писатель и журналист Зорий Балаян в интервью газетам армянской диаспоры в США открыто пропагандировали идею присоединения Нагорного Карабаха.

А в ноябре 1987 года подал голос и Абель Аганбегян, один из ведущих экономических советников Горбачева. 16 ноября Аганбегян встретился с группой французских армян в отеле "Интерконтиненталь" в Париже и предложил им свое видение проблемы: "Я был бы рад, если бы Нагорный Карабах вернули Армении. Как экономист, я считаю, что у них куда более тесные связи с Арменией, нежели с Азербайджаном. Я уже внес подобное предложение, и надеюсь, что эти идеи будут воплощены в жизнь в духе перестройки и демократии" [6, с.38]. Взгляды Аганбегяна были изложены в газете французских коммунистов "Юманите", распространявшейся, в том числе и в Советском Союзе. Именно из этих откровений академика азербайджанцы впервые и узнали о ведущейся против них армянской кампании. Горбачев ни прямо, ни косвенно не опроверг своего советника. Поэтому, армяне посчитали, что столь смелое заявление экономического советника генерального секретаря партии не носит случайный характер и скорее всего было заранее согласовано с ним. Заявление Аганбегяна мгновенно стало центральной темой для зарубежных армянских газет и журналов, для радиостанции "Айб" в Париже, а также армянских редакций радио "Свобода", "Голос Америки" и другие. Оживились многие организации зарубежной армянской диаспоры Таким образом, крапленая Карабахская карта вошла в игру [13, с.140-141].

Говоря о политической составляющей природы конфликта в Нагорном Карабахе необходимо отметить, что ключевая роль в генезисе сепаратистского движения в НКАО принадлежала армянской интеллигенции и представителям местных органов власти. Надо отметить, что за годы советской власти в НКАО и Армении сложилась многочисленная и образованная элита (историки, литераторы), которая, начиная особенно с постсталинского периода, сыграла важную роль в процессе массовой мобилизации этнических чувств армянского населения автономии, в усилении межэтнической напряженности с азербайджанцами. Эти лица подогревали межэтническую напряженность в своих публичных выступлениях, научных трудах, посвященных истории Армении. Требования о передаче НКАО Армении идеологически базировалось, во первых, на мифической армянской исконности Карабаха, и , во –вторых, на старательном встраивании этих требований в контексты идеологических процессов перестройки. А именно, использование процесса критического переосмысления сталинского периода истории СССР для распространения надуманных утверждений о том, что якобы И. Сталин в 1921 году «отдал» Нагорный Карабах Азербайджану. Таким образом, идеи демонтажа командно-административной системы в СССР, активно обсуждавшиеся в обществе, переносились на национально-государственное устройство Советского Союза и

использовались для обоснования пересмотра территориально-правового статуса НКАО. В период перестройки в близком окружении М.Горбачева появилось немало армян в роли идеологических и экономических советников, заведующих различных отделов ЦК КПСС. Эти лица открыто, без оглядки на первых лиц государства, а скорее по их указке, на страницах союзной и зарубежной печати высказывались в пользу поддержки карабахского движения. Так, постепенно обсуждение карабахского вопроса выходила из латентного состояния.

Ermənilər 30 illik işğal dövründə Qarabağın xristian abidələrinə qarşı da sözün əsil mənasında terror tədbirləri həyata keçirmişlər. Qarabağın dağlıq bölgələrindəki alban xristian abidələri üzərindəki kitabələr, xaçlar isə saxtalaşdırılmaya məruz qalmış, erməni abidəsi görüntüsü yaradılmasına çalışılmışdı. Qarabağ ərazisində yerləşən alban xristian abidələrinin böyük bir hissəsi işğal müddətində baxımsızlıqdan xaraba qalmış, erməni hərbçilərinin döyüş məntəqəsi kimi istifadə edilmiş, qalan az bir hissəsi isə erməni-qriqoryan kilsələrinə çevrilmişdi. Eçmiədzin katalikosluğu bu işdə fəal rol oynamışdı. Məhz bu qurumun saxtakarlıqları nəticəsində Qarabağ ərazisindəki alban xristian kilsələrinin gerçək tarixi təhrif edilmiş, bu abidələrimiz erməni kilsələri kimi təqdim edilməyə başlanmışdı [20]. Alban tarixçisi Musa Kalankatlı yazmışdı ki, Qarabağ ərazisində xristian abidələrinin əksəriyyəti Albaniya dövlətinin hökmdarı III Mömin Vaçaqanın hakimiyyəti dövründə (487-510-cu illər) inşa edimişdi: o, Albaniyada "ildəki günlərin sayı qədər kilsə inşa etmişdi". Onlardan biri də Tərtər rayonunda Suqovuşan kəndi yaxınlığında günümüzə qədər salamat qalmış Müqəddəs Yelisey məbədi idi. III Mömin Vaçaqan bu məbədi İsa peyğəmbərin həvarisi Faddeyin şagirdi olmuş Müqəddəs Yeliseyin nəşi üzərində ucaltmışdı. Musa Kalankatlının verdiyi məlumata görə, Müqəddəs Yelisey ermənilərin gözündən qaçaraq İrana keçmiş, oradan isə Alban ölkəsinə gələrək xristianlığı təbliğ etmişdi. Mənbədə Müqəddəs Yeliseyin ermənilərin gözündən qaçaraq Albaniyaya gəlməsindən bəhs edilirsə, onda Qarabağda mövcud olan bu Alban xristian abidəsi necə erməni kilsəsi hesab oluna bilər? [20].

Tarixi mənbələrdə Azərbaycan Albaniya dövlətinin süqut etməsinin ermənilərin fitnə fəsadı nəticəsində baş verdiyi dəqiq əks olunmuşdur. 705-ci ildə erməni katolikosu İlya ərəb xəlifəsi Əbdülmalikə yazdığı məktubda xahiş etmişdi ki, "Böyük hökmdar, siz öz hökmünüzlə əmr buyurun ki, onlar (yəni albanlar – N.Q.) Allaha qarşı işlədikləri günahlarına görə cəzalandırılsınlar". Əbdülmalik də cavab məktubunda qiyamçı kimi təqdim edilən albanların cəzalandırılacağını və onların dini inancında erməni-qriqoryan kilsəsinə uyğun dəyişikliklərin ediləcəyini bildirmişdi. Həmin vaxt Albaniyaya hücum edən ərəb ordusu Albaniyanın paytaxtı Bərdəni ələ keçirdi, alban hökmdarı ailəsi ilə birgə edam olundu və Alban dilində olan kitablar Tərtər çayına atılaraq məhv edildi. O zaman Bərdə şəhərində mövcud olan xristian məbədi də yandırıldı. Arxeoloji qazıntılar nəticəsində Bərdə şəhərində "məbəd yeri" adlanan ərazidə 20 santimetr qalınlığında kül təbəqəsinin aşkar edilməsi də bu faktı təsdiq edir [20]. Məhz bundan sonra bir müddət xilafət tərəfindən erməni-qriqoryan kilsəsinin tabeliyinə verilən Albaniya kilsələrində alban əlifbası qadağan edildi, əvəzində erməni əlifbasından istifadəyə keçildi. Ona görə də sonrakı dövrdə Qarabağda inşa edilən xristian abidələrində erməni əlifbası ilə yazılmış kitabələrə təsadüf edilir.

Amma bu kitabələrin heç bir yerində Albaniya kilsələrinin ermənilərə aid olması haqqında hər hansı bir ifadə yazılmayıbdır. Əksinə erməni dilində yazılan kitabələrdə alban xalqının, Albaniya hökmdarlarının adları çəkilibdir. Buna ən yaxşı nümunə Kəlbəcər rayonu ərazisində Xaçınçayın sol sahilində yerləşən Gəncəsər monastır kompleksinin kitabəsidir. Alban-Xaçın hökmdarı Həsən Cəlal və anası Hurişah Xatun tərəfindən 1216-1238-ci illərdə inşa edilmiş bu xristian məbədinin divarı üzərindəki kitabədə yazılmışdır: "Mən, Həsən Cəlal onu mənim Alban xalqım üçün inşa etdim". Məbədin kitabəsində Həsən Cəlal "Uca və böyük Arsak ölkəsinin hökmdarı, Alban vilayətinin çarı Böyük Həsənin nəvəsi, Vaxtanq təginin oğlu" kimi təqdim edilmişdir. Maraqlıdır ki, 1261-ci ildə Qəzvin şəhərində monqollar tərəfindən qətlə yetirilən Həsən Cəlalın oğlu Xaçın knyazı Atabəy oradan gətirilib Gəncəsər monastırında dəfn edilmişdi. Həsən Cəlalın nəslindən olan bir çox alban din xadimləri bu monastr kompleksinin ərazisində dəfn olunmuşlar [20].

Gəncəsər məbədi 1836-cı ildə Rusiya Sinodunun rəsmi qərarı ilə Alban kilsəsi ləğv edilənə qədər diofizit alban xristianlarının iqamətgahı - Alban Apostol Kilsəsinin mərkəzi

olmuşdu. Hündür qala divarları ilə əhatə olunmuş Qandzasar kompleksinə alban xristian memarlığı üslubunda inşa edilmiş baş kilsə, ona bitişik dörd mailli dam örtüyündə rotonda yüksələn monastır binası və qala divarlarına içəri tərəfdən hörülmüş tikililər daxildir. Baş kilsənin xaçşəkilli günbəz kompozisiyası, 16 künclü günbəz barabanı və onun üzərində yüksələn çətir formalı piramidaşəkilli daş günbəz örtüyü alban dindarlarının son iqamətgahına xüsusi əzəmət və gözəllik verir. Şərq və qərb fasadlarından fərqli olaraq şimal və cənub fasadlarının memarlıq həlli, demək olar ki, eynidir. Onların hər biri beş tağla bəzənmiş, ortadakı ən hündür tağ isə profilli xaçla tamamlanmışdır. Kilsənin daxilindəki tağların yuxarı hissələri müqəddəs hesab olunmuş öküz və qoyun başlarının barelyefləri ilə bəzədilmişdir. Monastır kompleksinin memarlıq planlaşdırma və kompozisiya həlli, heykəltaraşlıq nümunələri və diofizit xarakterli elementlər bu abidəni çoxəsrlik ənənələri olan Qafqaz Albaniyası memarlığına aid olduğunu təsdiq edir [21].

Erməni alimi İosif Orbeli də öz əsərində bu Alban monastırının yazılarını nəşr etdirərək həmin abidənin ermənilərə aid olmadığını sübut edən dəlilləri elmi ictimaiyyətə çatdırmışdı. Bundan qəzəblənən qatı erməni millətçiləri İ.Orbelinin bu kitabının nüsxələrinin əksəriyyətini yığıb yandırdılar. Səbəb bu abidənin ermənilərə aid olmadığını sübut edən dəlillərin olmasıdır.

Qarabağda Alban memarlığını özündə əks etdirən IV- XVI əsrlərə aid daha bir neçə Alban kilsəsi bizim dövrə qədər gəlib çatmışdır. Onların arasında Laçın rayonunda yerləşən Ağoğlan monastrı, Kəlbəcər rayonunda Xudavəng monastrı, Xocavənd rayonunda Amaras monastrı, Ağdərə rayonunda Müqəddəs Yelisey məbəd kompleksini və digərlərini göstərmək olar. Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürən erməni millətçiləri işğalçılıq niyyətlərinə haqq qazandırmaq məqsədi ilə Qafqaz Albaniyasının xristian kilsəsinə aid bütün kilsə, məbəd və monastrlarını erməni abidələri elan etmişlər. Lakin Qafqaz Albaniyasının memarlıq abidələrini tədqiq etmiş alimlərin fikrincə, bu abidələr bir çox xarakterik xüsusiyyətlərinə və memarlıq planlaşdırma üslublarına görə erməni dini memarlıq abidələrindən tamamilə fərqlənir. Azərbaycandakı bir sıra alban xristian abidələri bütün tarixi sübutlara əsasən, xalqımızın milli mədəni irsinə aiddir [21].

Vandal münasibət bu yerlərin əzəli sakinlərinin evlərinə, ictimai təyinatlı binalara qarşı hər addımda diqqəti çəkir. Xarabaya çevrilmiş evlərin təkcə divarları qalıbdır. Daha dəqiq desək, çaydaşından olan divar qalıqları qalıb, əhəng daşından olan künc daşları isə evlərin özüllərinə qədər sökülüb, daşınıb aparılıbdır. Dam örtükləri, qapı və pəncərələr də sökülüb satılıbdır. Kəndlərin əksəriyyətində yaşayış olmayıb, bura insan ayağı dəyməyibdir. Ermənilər işğal illəri ərzində bu yerləri öz adlarına çıxarsalar da, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, demək olar ki, yaşamayıblar. Bu əraziləri talan edilmək üçün ələ keçiriblər. Əsasən, yüksək rütbəli erməni hərbçiləri hektarlarla torpağı icarəyə verməklə, qoyunçuluq, maldarlıq, donuzçuluq, şərabçılıqla məşğul olmaqla bu yerləri nəzarətdə saxlayıblar.

Müharibə bitəndən sonra bir İran vətəndaşı Xudafərin körpüsünə nəzarət edən hərbçilərimizə yaxınlaşıb, əlindəki müqaviləni onlara təqdim edib, daha sonra da hərbçilərimizdən Zəngilan rayonunda icarəyə götürdüyü 10 hektarlıq əraziyə getmək üçün icazə istəyibdir. Araşdırarkən məlum olub ki, müqavilə həmin əraziyə sahiblik edən bir erməni generalı ilə bağlanmışdır. İran vətəndaşına işğalın bitdiyi, müqavilənin əslində cinayət işi üçün əsas olduğunu başa saldıqdan sonra o, kor-peşman Arazın o tərəfinə qayıtmışdı [22].

Bütün bu faktlar təkzibedilməz şəkildə sübut edir ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalı zamanı xalqımıza məxsus yüzlərlə daşınmaz tarix, mədəniyyət və dini abidələr, qəbiristanlıqlar dağıdılıb, mənimsənilib, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə edilərək vandalizmə məruz qalıbdır.

Erməni vandalları Qarabağın təbiətinə: meşələrinə, çaylarına qarşı da vəhşicəsinə davranmışlar. Məsələn, Zəngilan rayonu işğal edilənə qədər bu bölgədə 12 min hektara yaxın meşə örtüyü mövcud idi. Erməni qəsbkarları işğal dövründə rayon sakinlərinə, onların evlərinə, infrastruktura göstərdikləri qəddar davranışlarını Zəngilan meşələrinə qarşı da sərgiləmişdilər. Zəngilanın azad edilməsindən sonra aparılan yoxlamalar göstərmişdir ki,

buradakı meşə örtüyü yarıbayarı azalmış, qiymətli ağac növlərindən olan Araz palıdı, şərq çinarı, dağdağan məhv edilmişdir. Ağaclar Ermənistana daşınmış, orada parket istehsalında isifadə olunmuşdur. Ermənilər kəsdikləri 100-200 illik qiymətli ağacların köklərini yandırmaqla məhv etmiş, cinayətləri ört-basdır etməyə çalışmışlar [22].

Məhv edilmiş mədəni-tarixi abidələr, qədim irs nümunələri təkcə Azərbaycanın yox, həm də dünya sivilizasiyasının çox dəyərli mədəniyyət nümunələridir. Azərbaycan Respublikası 1954-cü ildə Haaqa Konvensiyasına Birinci Protokola 1993-cü ildə və 2000-ci ildə İkinci Protokola qoşulubdur. Bu konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətlərin qarşısında vəzifə kimi qoymuşdur. Həmin sənədə əsaslanaraq, Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş çox böyük maddi və mənəvi zərərin təzminatı tələb edilməlidir. Ermənistanın işğalı nəticəsində Azərbaycan dövlətinə və vətəndaşlarına dəymiş maddi zərərin məbləğinin beynəlxalq standartlara əsasən müəyyən edilməsi məqsədilə aparılmış kompleks məhkəmə ekspertizasının ilkin hesablamalarına görə, dəymiş maddi ziyan 818 milyard 880 milyon ABŞ dolları təşkil edir [23]. Ermənistanın 30 il işğal altında saxladığı ərazilərimizə vurduğu ziyana görə beynəlxalq məhkəmə yolu ilə kompensasiyanın ödənilməsinin dünya təcrübəsində oxşar nümunələri vardır və bunlardan yararlanmaq lazımdır.

Azərbaycan dövləti işğaldan azad edilmiş Qarabağımızın quruculuq işlərinə start veribdir. Şuşada, Ağdamda, Füzulidə və digər azad edilmiş bölgələrimizdə geniş miqyaslı bərpa, yenidənqurma və inkişaf dövrü başlayıbdır. Quruculuq işləri çərçivəsində tarixi, mədəni və dini irsimizin də bərpası həyata keçirilməkdədir.

Ədəbiyyat

1. http:www.dqdk.gov.az/az/view/objects/4?notabs
2. http:www.dqdk.gov.az/az/view/objects/7?notabs
3. http:www.dqdk.gov.az/az/view/objects/6?notabs
4. http:www.dqdk.gov.az/az/view/objects/10?notabs
5. http:www.dqdk.gov.az/az/view/objects/14?notabs
6. http:www.dqdk.gov.az/az/view/objects/9?notabs
7. http://e-qanun.az/framework/2847
8. https://axar.az/news/siyaset/548546.html
9. https://azertag.az/xeber/Isgaldan_azad_edilen_tarixi_medeni_irsimiz_berpa_olunacaq
10. https://minval.az/news/124124862
11. http://www.azerbaijan-news.az/posts/detail/meshur-fotoqraf-reza-deqati-agdamda-natevanin-meqberesinde-toredilen-vandalizmle-bagli-paylasim-edib-1611752467
12. https://anews.az/az/ermeni-generali-ile-muqavile-imzalayan-iranlinin-10-hektar-zengilani-dusmenin-daitdii-rayonda-hansi-isler-gorulur.
13. Исмайылов Ф. Принудительная арменизация. Баку, Элм, 2009.
14. https://www.bbc.com/azeri/azerbaijan-5478101719
15. https://az.wikipedia.org/wiki/Fizuli_rayonu
16. https://az.wikipedia.org/wiki/Horadiz
17. https://1905.az/agdam-corek-muzeyi
18. https://axar.az/news/gundem/564164.html
19. https://www.yeniavaz.com/az/news/166920/azerbaycan-xin-susada-aparilan-berpa-isleri-ile-bagli-ermenistanin-beyanatina-cavab-verdi
20. https://azertag.az/xeber/Qarabagin_Alban_kilselerinin_facieli_tarixi___ermeni_vandalizmi 22.05.2021
21. Poluxov İ. Dağlıq Qarabağda qədim alban abidələri.“Qarapapaqlar” jurnalı, №7, 2007

22. https://anews.az/az/ermeni-generali-ile-muqavile-imzalayan-iranlinin-10-hektar-zengilani-dusmenin-daitdii-rayonda-hansi-isler-gorulur
23. https://www.bizimyol.info/az/news/336363.html?fbclid

QARABAĞDA ERMƏNİ SAXTAKARLIĞI TARİXİNDƏN

Habil Nurkişi oğlu Məmmədov
tarix üzrə elmlər doktoru, professor
Bakı Slavyan Universiteti,
Azərbaycan Universiteti
Bakı, Azərbaycan
e-mail: habildos@mail.ru

Xülasə: Məqalədə Qarabağın ermənilər tərəfindən işğal edilmiş bölgələrində erməni saxtakarlıqlarının məqsədləri və əsas mahiyyəti araşdırılmışdır. Ermənilərin Azərbaycan tarixinə və mədəniyyətinə qarşı cinayətkar əməllərinin ifşa edilməsinin zəruriliyi diqqətə çatdırılmışdır.
Açar sözlər: Azərbaycan, erməni saxtakarlığı, erməni vandalizmi, Qarabağ, alban abidələri.

FROM THE HISTORY OF ARMENIAN FORGERY IN KARABAKH

Habil Nurkishi oglu Mammadov
Doctor of Sciences in History, professor
Baku Slavic University,
Azerbaijan University
Baku, Azerbaijan

Abstract: The article is dedicated to the disclosure of the essence and purpose of the Armenian forgery, which is an important part of the criminal actions of the Armenians against the Azerbaijani people, its historical and political investigation and exposure.
Keywords: Azerbaijan, Armenian forgery, Armenian vandalism, Karabakh, Albanian monuments.

ИЗ ИСТОРИИ АРМЯНСКИХ ПОДДЕЛОК В КАРАБАХЕ

Габиль Нуркиши оглу Мамедов
Доктор исторических наук, профессор
Бакинский Славянский Университет,
Азербайджанский Университет
Баку, Азербайджан

Резюме: Статья посвящена раскрытию сущности и цели армянского подлога, который является важной частью преступных действий армян против азербайджанского народа, его историко-политическому расследованию и разоблачению.
Ключевые слова: Азербайджан, армянские подделки, армянский вандализм, Карабах, албанские памятники

Azərbaycanın işğal edilmiş torpaqlarında Ermənistan tərəfindən tarixi, mədəni və dini irs məhv edilmiş, "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının və YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasının müddəaları kobud şəkildə pozulmuşdur. Bütün dünya Azərbaycanın milli-mədəni irsinin incilərinin, maddi mədəniyyət abidələrinin ermənilər tərəfindən məhv edilməsinin şahidi oldular və bu vandalizm aktından şoka düşdülər. Bəs

erməni işğalçılarının törətdikləri bu dağıntılar, vəhşilik, mədəni soyqırım və vandalizm aktı nədən xəbər verir? Bu vandalizmin kökündə nə durur? Məqalə ermənilərin xalqımıza qarşı cinayətkar qarşı cinayətkar əməllərinin mühüm tərkib hissəsini təşkil edən erməni saxtakarlığının mahiyyətinin və məqsədinin açılmasına, tarixi - siyasi cəhətdən araşdırılmasına və ifşasına həsr olunmuşdur.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ATƏT-in sammitində erməni saxtakarlığını və qəsbkarlığını ifşa edərək bildirmişdir ki, özgə torpaqlarına yiyələnməklə, onların maddi və mənəvi sərvətlərini, abidələrini saxtalaşdırıb özününkiləşdirməklə özlərini dünya ictimaiyyətinə qədim xalq kimi təqdim etməyə çalışan ermənilər əslində insanlıq mədəniyyətinə qarşı cinayət törətmişlər [3].

Tarixi uzaq keçmişdən başlayan erməni saxtakağının miqyası, dərəcəsi və coğrafiyası çox genişdir. Erməni saxtakarlığı gündəlik həyat tərzindən tutmuş milli adət-ənənələrinə, sadə erməni düşüncəsindən tutmuş ən məşhur siyasi-ictimai, elm, mədəniyyət və dövlət xadimlərinin (tək-tük nümayəndələr istisna olmaqla), dindarlarının fəaliyyətinə, coğrafi adlara, etnonimlərə, inzibati-ərazi vahidlərinə, tarixi və mədəni-dini abidələrə, kitabələrə, heraldikaya, numizmatikaya, incəsənət nümunələrinə, kulinariyaya sirayət etmişdir. Bir sözlə, cəmiyyətin, insan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, erməni saxtakarlığı özünü göstərməsin. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- ermənilərin Alban kilsə və monastrlarını, xristian abidələrini qriqoryanaşdırması və ermənilşdirilməsi;
- Azərbaycan-türk mənşəli yer adlarını dəyişdirib ermənilşdirərək azərbaycanlıların ata-baba yurdlarını öz adına çıxmaq, ərazi iddialarını irəli sürmək və tarixi saxtalaşdıraraq,
- qədim kitabələr və mədəniyyət abidələri "üzə çıxararq" beynəlxalq ictimaiyyəti yeni uydurma və yalanlarla çaşdıraraq dənizdən- dənizə "Böyük Ermənistan" xülyasını həyata keçirmək;
- erməni ideoloqları, siyasətçiləri, alim və din xadimləri nəşr etdirdikləri "elmi əsərlərində" Azərbaycanın qərb torpaqlarının, eləcə də Dağlıq Qarabağın tarixini, etnoqrafiyasını, mədəniyyətini saxtalaşdıraraq mənimsəməyə, özününkiləşdirməyə çalışması və ermənilər Cənubi Qafqazın ən qədim xalqı kimi təqdim etmələri;
- ermənilərin azərbaycanlıların musiqisini oğurlamaları;
- ermənilərin azərbaycanlıların mətbəx ənənələrini oğurlamaları;
-Ermənistanın tarix dərsliklərində tarixi məlumatların tamamən saxtalaşdırlması və s.

Yeri gəlmişkən, erməni hiylə və yalanları, saxtakarlıqları və ərazi iddiaları təkcə azərbaycanlılara qarşı deyil, Qafqazın, Yaxın Şərqin digər xalqlarına qarşı yönəlmişdir. Bunların arasında azərbaycanlılar daha şiddətli, geniş miqyaslı və güclü erməni saxtakarlığına, təcavüzünə, talanına və soyqırımına məruz qalmışdır.

Herodot və digər antik müəlliflər bildirir ki, müasir ermənilər e.ə. XII əsrdə Balkan yarımadasından Kiçik Asiyaya köçərək Yuxarı Fərat vadisində (Van gölünə doğru ərazilərdə) məskən salmış frigiyalıların yerli etnoslarla qaynayıb-qarışmasından yaranan nəsilləridir [21, I: 180, 194; III: 93; V: 49, 52; VII: 73]. İ.Şopen, İ.Dyakonov və digər qafqazşünaslar da həmin faktları təsdiqləyərək bildirirlər ki, ermənilər frigiyalıların və ioniyalıların Qərbdən, yəni, Avropadan Anadolu dağlarının Şimal vadilərinə köçüb gəlmiş nəsilləridir [28,s.26; 22, s.237; 23, s.34-63, 54-55,59]. Başqa sözlə, onlar gəlmədirlər.

İndiki Ermənistan Respublikası və Dağlıq Qarabağ ərazisindən aşkar olunmuş insan qalıqlarının antropoloji, morfoloji, somotoloji, kranioloji və seroloji araşdırmalar qısabaşlılar və ya braxikranlar deyil, uzunbaşlılar və ya dolixokranları aşkar etməsi və b. faktlar, ermənilərin Cənubi Qafqazın yerli sakinləri olmadığını və buraya sonradan gəldiklərini sübut edir [19,s.3-4]. Etnik odontologiya sahəsində aparılan tədqiqatlar da erməni etnosunun "Qafqaz mənşəli olduğunu" təsdiq etmir [25, ss.135,141]. Ermənistan alimlərindən B.

İşxanyan, İ.Orbelini, M. Abeqyan və digərləri də ermənilərin Qafqazın aborogen xalqı olmamalarını etiraf etmişlər.

Yuxarı Fərat vadisi sonralar Urartu dövlətinin, Midiya və Əhəməni imperiyalarının tərkibinə daxil olmuşdur. E.ə. I minilliyin sonlarında Fərat vadisində erməni knyazlığı yaranmışdır. Ermənilər həmin knyazlığı "Böyük Ermənistan" dövləti adlandırırlar. Halbuki mənbələr tarixdə müasir ermənilərin "Böyük Ermənistan" adlı dövlətinin olduğunu təsdiq etmir. İndiyədək heç bir arxeoloji qazıntı zamanı "Böyük Ermənistan" adının həkk olunduğu sikkə tapılmayıb. Beləliklə, "Böyük Ermənistan" tarixi həqiqət olmayıb, ermənilərin özgə torpaqlarını işğal etmək məqsədilə uydurduqları mifdir. Bu işğalçı "doktrina"nın əsasında, guya vaxtilə "dənizdən-dənizə" geniş əraziləri əhatə etmiş olan uydurma "Böyük Ermənistan" dövlətini dirçəltmək ideyası durur [13].

1982-ci ildə Qara dənizin sahillərində, Odessa çimərliyində DTK-nın zabitləri uşaqları çimərlikdə suyun altına sürüyərək boğan qatil dəstəsinin, bandanın izinə düşür. Nəzarət aparılarkən KQB zabitləri üç nəfərlik bir qayığa rast gəldilər. Onlardan iki nəfəri sualtı dalğıc kostyumlarını geyinib suyun altına baş vurdular. DTK zabitləri də onların arxasınca suyun altına üzdülər və dənizin dərinliyində daşlara və qayalara erməni kitabələri yazdıqlarının şahidi oldular. Cinayətkar qrup zərərsizləşdirildi. Dəstənin bütün üzvlərinin Ermənistan SSR vətəndaşı olduğu ortaya çıxdı. Bu cinayətkarlar Qara dənizin dərinliklərində niyə erməni kitabələri yazırdılar? İstintaq zamanı erməni dəstəsinin tarixi və coğrafiyanı saxtalaşdırmaqla məşğul olduqları məlum oldu. Onlar bunu bir neçə ildən sonra Qara dənizin dərinliklərində dəniz boyu ərazilərin "Böyük Ermənistan"a məxsus olduğunu sübut edən "qədim" erməni kitabələrinin tapılması üçün edirdilər [24].

IV əsrin birinci yarısında xristianlığı qəbul edən ermənilər əlahiddə Qriqorian kilsəsini yaratdılar. Qonşularına xəyanət edərək ərəb xəlifələrinə sığınan və yadelli təcavüzkarlar tərəfindən müdafiə olunan Qriqorian kilsəsi öz missionerləri vasitəsilə qonşu ərazilərdə, o cümlədən Azərbaycan dövləti olan Qafqaz Albaniyasının qərb-dağlıq ərazilərində (indiki Dağlıq Qarabağda və indiki Ermənistan Respublikasının mövcud olduğu Qərbi Azərbaycan topraqlarında) yaşayan yerli alban-xristian əhali arasında qriqorianlığı yaymağa başladı. Zaman keçdikcə zorla qriqorianlaşdırılmış alban - Azərbaycan tayfalarının ermənileşdirilməsinə başlandı. Bununla da, Xilafət dövründə Qriqorian kilsəsinin dini təsir dairəsi Cənubi Qafqaza doğru genişlənməyə başladı.

Azərbaycan Qaraqoyunlu dövlətinin başqa etnoslara, dinlərə dözümlü münasibətindən və himayəsindən istifadə edən Qriqorian kilsəsi 1441-ci ildə öz mərkəzini - erməni katolikosluğunu Azərbaycan torpağına (indiki Ermənistan Respublikasının ərazisinə) - Eçmiədzinə köçürdü. Sonralar Azərbaycan Ağqoyunlu və Səfəvi hökmdarları da qaraqoyunluların siyasətini davam etdirərək ermənileri və erməni katolikoslarını himayə etdilər. Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi hökmdarlarının icazəsi və köməyi ilə Qərbi Azərbaycan torpaqlarında (indiki Ermənistan Respublikasının ərazisində) yeni erməni kilsələri tikildi. Varlanmış erməni katalikosları azərbaycanlılara məxsus torpaqları satın alaraq öz mülklərini daha da genişləndirdilər.

Çar Rusiyası Osmanlı imperiyası və Qacarlar İranı ərazisindən ermənileri kütləvi surətdə Şimali Azərbaycana, xüsusilə, İrəvan, Qarabağ, Şirvan, Bakı, Gəncə və Naxçıvan xanlıqlarının ərazilərinə köçürdü. Beləliklə, çar Rusiyasının XIX əsrin əvvəllərindən etibarən XX əsrin əvvəllərinədək ermənileri köçürməsi nəticəsində Cənubi Qafqazda, əsasən, Şimali Azərbaycan torpaqlarında 1916-cı ildə ermənilər 1.211.145 nəfərə çatdırıldı. N.N.Şavrov 1911-ci ildə yazırdı ki, "Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənin 1 milyonu yerli deyildir. Və onlar bu vilayətə bizim tərəfimizdən köçürülüblər" [27,s. 64].

Beləliklə, çar Rusiyası XIX əsrin əvvəllərindən başlayaraq Cənubi Qafqazın etnik tarixində zorla dəyişiklik əmələ gətirdi: Azərbaycan torpaqlarında yeni bir etnos - erməni etnosunu məskunlaşdırdı, Azərbaycan torpaqlarında (Naxçıvan və İrəvan xanlıqlarının əraziləri əsasında) "Erməni vilayəti" adlı qondarma inzibati idarə vahidi yaratdı."Erməni vilayəti"ndə 1125 kənd vardı. Onlardan 1111 Azərbaycan kəndi idi və bu kəndlərdə ancaq

azərbaycanlılar yaşayırdılar. Vilayətin qalan 14 kəndində isə azərbaycanlılarla qarışıq şəkildə köçürülüb gətirilmə ermənilər yaşayırdılar. 1836-cı ildə erməni-Qriqorian kilsəsinin təhriki ilə çar Rusiyası müstəqil Azərbaycan-alban kilsəsini ləğv etdi. Rusiya imperiyası tərəfindən himayə və müdafiə olunan ermənilər bu vaxtdan etibarən Azərbaycanda və Anadoluda türk-müsəlman əhaliyə qarşı total saxtakarlığa və kütləvi qırğınlara başladılar. Tamamilə şəksizdir ki, XIX yüzillikdə buraya yeni köçürülən ermənilərdən fərqli olaraq Dağlıq Qarabağın xristian əhalisi əsl erməni deyil, ermənileşdirilmiş yerli alban əhalisi idi. Bunula əlaqədar V.L.Veliçko yazırdı: "Qarabağın erməni –qriqoryan etiqadına xidmət edən... və yalnız üç-dörd əsr bundan əvvəl ermənileşmiş, səhvən erməni adlanan əhali istisnalıq təşkil edir" [20, s.34].

I-VI yüzilliklərdə Dağlıq Qarabağ bölgəsi siyasi cəhətdən alban Arşakilərinin, VII-VIII yüzilliklərdə isə böyük Mehrani knyazlarının hakimiyyəti altında idi.VIII yüzilliyin əvvəlində ərəb istilası nəticəsində Alban çarlığı dağıldı. Bu dövrdə erməni kilsəsinin dəiştirak etdiyi faciəli hadisələr alban etnosunun tədricən deetnizasiyası və qriqoryanlaşmasının, sonralar isə Dağlıq Qarabağ bölgəsi əhalisinin bir hissəsinin ermənileşdirilməsinin başlanğıcını qoydu. Lakin alban ruhu sağ idi və buna görə də IX yüzillikdə məhz elə Dağlıq Qarabağın ərazisində qismən də olsa çarlığı bərpa edildi. XII-XIII yüzilliklərdə Arsax və Uti bölgəsində Xaçın knyazlığı yüksəldi. Akademik İ.A.Orbeli haqlı olaraq bu knyazlığı "Qədim Albaniyanın bir hissəsi" hesab edirdi.Məhz Həsən Cəlalın hakimiyyəti dövründə (1215-1261) əzəmətli Qandzasar monastr kompleksi tikildi. Sonralar "Albaniynın paytaxt kilsəsinə" çevrilən bu məbədi ermənilər erməni abidəsi kimi qələmə verirlər. Maraqlıdır ki, XVIII yüzilliyin erməni müəllifi Arakel Təbrizli Qarabağı "Ağvanlar (Albanlar) ölkəsi" adlandırır [9, s.6-7].

Erməni katolikosları Alban kilsəsini öz nüfuzuna tabe etmək üçün əvvəlcə Sasanilərin, sonra isə Ərəb xilafətinin silahlı qüvvələrinin köməyinə əl atırdılar. VIII əsrin əvvəllərində erməni katolikosu İlya, xəlifə Əbd ülMalikə (685-705) xəbərçilik edib bildirmişdi ki, albanlar Xilafət əleyhinə Bizansla ittifaq bağlayırlar. Onda, Əbd ül-Malik ərəblərin hərbi siyasi qüdrətinə istinad edərək, Arran katolikoslarını İlyaya tabe etdi [4, s.120]. Sonralar erməni kilsəsi Alban ruhanilərini tutduqları mövqelərdən sıxışdırıb çıxarmış və ölkədə ərəblərin əlləri çatmayan dağlıq yerlərdə yaşayan albanları möhkəm qriqoryanlaşdırmağa başlamışdı. Erməni ruhaniləri Arran kilsəsinin nüfuzunu yerli əhali arasında tədricən heçə çıxarmış və ərəb hakimlərinin əli ilə albanların bütün ədəbi abidələrini dağıdıb Alban mədəniyyətini, heç olmazsa, azacıq xatırlada biləcək hər şeyi məhv etmişlər. Bütün bu işlər, təkrar edirik, əvvəlcə Xilafətin köməyi ilə, sonralar isə digər istilaçıların icazəsi və köməyi ilə görülmüşdür. Qriqoryan kilsə xadimləri Arran ədəbi abidələrini məhv edərkən, əvvəlcə bu abidələri qrabara çevirirdilər. Məsələn, Moisey Kalankatuklunun "Ağvan tarixi" əsəri ilə, albanların bir çox başqa ədəbi əsərləri kimi. T.Ter-Qriqoryan qeyd edir ki, Moisey Kalankatuklunun əsəri öz əvvəlki şəklində bizə gəlib çatmamışdır və onun üzünü köçürüb yazanlar erməni rahibi olduqlarına görə, əsərin üzünü köçürəndə erməni katolikoslarının göstərişi ilə mətndə qəsdən təhriflərə yol vermişlər [4, s.123].

S.T.Yeremyan belə bir sual verir: "Səbəb nədir ki, erməni və gürcü yazıları tətbiq olunduğu ilk günlərdən etibarən erməni və gürcü dillərində indiyədək mövcud olan zəngin ədəbiyyat meydana gəldiyi halda Alban yazısı və Alban dilində mətnlər heç izi-tozu qalmadan yox olmuşdur?". Bu sualın cavabını, nəticə etibarilə Alban kilsəsinin bütün hüquqlarını zorakılıqla qəsb etmiş qriqoryan katolikosluğunun albanlara zidd olan siyasətində axtarmaq lazımdır [4, s.126].

İ.P.Petruşevski haqlı olaraq göstərir ki, erməni kilsəsi Albaniyada "ölkəni ermənileşdirmək aləti olmuşdur. Onun bu rolu VIII əsrin başlanğıcından etibarən xüsusilə nəzərə çarpır, yəni o zamandan sonrakı erməni monofizit katolikosu Yegi xalkedonçuluq edən Alban katolikosu Nersesi (Bakuru) ərəb xəlifəsinin köməyi ilə devirmişdi" [26, s.8; 4, s.127].

Beləliklə, aydın olur ki, nə Dağlıq Qarabağ və nə də əhalisi ermənileşdirilmiş albanlardan, hazırda isə ermənilərdən ibarət olan digər vilayət və rayonlar heç bir zaman erməni mədəniyyəti mərkəzlərinə mənsub olmamışdır. Erməni kilsəsi heç olmazsa Sünikdə Orbeli naxararları dövründə və ondan sonra göstərdiyi mədəni təsiri Arran xalqlarının ermənileşmiş nəsilləri arasında göstərə bilməmişdir. N.Vartapetovun qeyd etdiyi kimi, erməni kilsəsi "həmişə özü üçün yeni şəraitə bacarıqla uyğunlaşırdı və siyasi vəziyyətdən asılı olaraq, Səfəvilərə, sonra da rus çarına qulluq göstərirdi; necə ki, vaxtilə eynilə həmin qaydada hərəkət edib Bizans imperatorları, İranın Sasani şahları, ərəb xəlifələri, monqollar və digərləri qarşısında baş əymişdi" [4, s.128-129]. Alban kilsəsi erməni katolikosunun xahişi əsasında 1836-cı ildə Peterburq Müqəddəs Sinodunun qərarı ilə ləğv edildi və daha yaşamadı [4, s.116]. Beləliklə, Azərbaycan tarixinin xristianlıq dönəminə aid alban abidələrinin erməni maddi-mədəni irsinə heç bir aidiyyatı olmamışdır.

İndiki Ermənistanda azərbaycanlılara məxsus yaşayış məntəqələrinin adlarının və digər toponimlərin dəyişdirilməsi prosesinə ilk dəfə 1919-cu ildə Ermənistan Respublikası hökumətinin qərarı ilə başlanılmışdır və 1991-ci ildə başa çatdırılmışdır. İrəvan xanlığının heç bir nişanəsi belə qalmamışdır. Tarixi yer adlarının Dağlıq Qarabağ bölgəsində sovet dönəmində başlanan ermənileşdirilmə prosesi sonrakı 27 illik işğal dövründə də davam etmişdir. Belə ki, ermənilər mədəni soyqırım aktı ilə parallel olaraq. Azərbaycanın yer adlarını, etnonimlərini də rəsmi şəkildə dəyişdirmişlər.

2007 - ci ildə Azərbaycana qarşı daim əsassız ərazi iddiaları ilə çıxış edən ermənilərin növbəti saxtakarlığının ifşa olunmasında xarici ölkələrin və o cümlədən, polyak tarixçilərinin obyektiv və düzgün mövqe göstərməsi mühüm rol oynamışdır. Məlum olduğu kimi, Ermənistanın işğalı dövründə Ağdam rayonu ərazisindəki Şahbulaq qalası ərazisində qanunsuz arxeoloji qazıntılar aparıldı və guya e.ə. I əsrdə "Böyük Ermənistan"ın çarı II Tiqran tərəfindən salınmış mifik "Tigranakert" şəhəri aşkar edildi. Və erməni «tarixçiləri» guya uydurma «Böyük Ermənistan»ın paytaxtı Tiqranakert şəhərinin qalıqlarının Azərbaycanın işğal olunmuş Ağdam rayonu ərazisində tapılması barədə heç bir əsası olmayan hay-küy kompaniyasına başladılar.

Ermənilərin Ağdam rayonu ərazisində «Tiqranakert axtarışları» ilə bağlı Azərbaycan tarixçiləri tərəfindən verilən bəyanatda deyilirdi ki, dünyanın bir çox alimləri, o cümlədən Polşa alimi Voyçex Paştuşka Tiqranakertin bu bölgədə olmasına şübhə ilə yanaşaraq, göstərilən qazıntıların arxeoloji deyil, siyasi məqsədli qazıntılar olduğunu bildirmişdir [15, s.210]. Həqiqətən 2020-ci ildə ərazi erməni işğalından azad olandan sonra arxeoloqlar müəyyən etdilər ki, qazıntılar aparan erməni arxeoloqlar binaların qalıqlarına yeni arxeoloji formalar vermiş, bəzi memarlıq elementlərini götürmüş və yeni "antik" elementlər əlavə etmişlər. Saxta erməni arxeoloq – tarixçiləri qeyri-peşəkarcasına burada yerləşən şərq hamamı və ovdan (su anbarı, su toplamaq üçün rezervuarı) xarabalıqlarını V-VI əsrlərə aid xristian məbədinin qalıqları adlandırıblar və daha inandırıcı olması üçün yaxınlığına üzərində erməni xaçı olan "qədim" daş yerləşdiriblər.

Çox saylı tədqiqatlar Yuxarı (Dağlıq) Qarabağın maddi və mənəvi mədəniyyətinin Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsi olduğunu aydın şəkildə göstərir və bu barədə əks fikirlərin əsassız olduğunu sübut etməyə əsas verir. Belə ki, Albaniyada erkən orta əsrdə (IV əsrdə) xristianlıq dini qəbul edildikdən sonra Azərbaycanın tarixi torpaqları olan Qarabağ ərazisində IV-VII əsrlər tikinti mədəniyyətini səciyyələndirən xristian arxitekturası tipində, memarlıq üslubunda tikililər - alban xristian dini abidələri yaradılmışdır. Ağdərədə Amaras (qədim türk dilində bu söz «ağ hun» deməkdir), Ağdamda (Govurqala), Laçında (Ağoğlan), Kəlbəcərdə (Haşavəng (Xotavəng), Çahartağ), həmçinin Xocavənd alban kilsəsi (Sos kəndi), Ağcabədinin Təzəkənd yaşayış məntəqəsindəki üçnefli bazilikalı bina, Bərdə şəhərində aşkar olunmuş üç yarım dairəvi apsidalı məbəd Azərbaycanın Qarabağ bölgəsinin tikinti memarlığını, eləcə də tarix və mədəniyyətini səciyyələndirir [10].

1752-ci ildə Qarabağ hökmdarı Pənahəli Xan tərəfindən inşa edilən, Ağdamda yerləşən Şahbulaq qalası erməni işğalı zamanı dəyişikliyə məruz qalıb, divara xaç işarəsi quraşdırıldı

[7]. İşğaldan sonra ermənilər Tuğ kəndində qədim alban kilsəsində saxtakarlığa əl atıblar, məbədin xarici görünüşünü dəyişiblər, məbədə saxta konstruksiyalar əlavə edib öz yazılarını oraya əlavə ediblər və bu məbədi "özününküləşdiriblər". Saxta görüntü yaratmaq üçün ermənilər məbədin ərazisinə qəbir daşları da yerləşdiriblər. Guya ki, bu məbəd daha qədimdən ermənilərin kilsəsi olub [8].

Ermənilərin abidələr üzərində apardıqları saxtakarlığı üzə çıxaran daha bir fakt isə Kəlbəcərin işğaldan azad edilməsindən sonra burada tapılan bir obyekt oldu. Onu əminliklə tarixdə misli görülməyən saxtakarlıq nümunəsi də adlandıra bilərik. Özlərinin bu torpaqların "qədim sakinləri" olduqlarını dünyaya "sübut etmək" üçün hər yola əl atan ermənilərin Kəlbəcərdə "tarix istehsal edən emalatxanalar"ı aşkarlandı. Belə ki, bu illər ərzində erməni daş ustaları üzərinə əski hərflər, işarələr, erməni xaçları əlavə edərək hazırladıqları qədim qəbir daşı formasındakı daşları xüsusi hazırlanmış məhlulun içərisində saxlayırmışlar ki, bir müddət sonra daşlar eroziyaya və rəng dəyişikliyinə uğrasın, dolayısı ilə "qədimiləşsin". Sonradan isə bu "qədim daşlar" "gələcək arxeoloji qazıntı" şəklində Kəlbəcərdə və işğal etdikləri digər ərazilərimizdə basdırılırmış... [16].

Beləliklə, erməni saxtakarları Azərbaycan ərazilərini işğal etdikdən sonra 128 alban məbədini və rus kilsəsini qriqoryanlaşdırıblar, onların interyerində və eksteryerində dəyişikliklər aparıblar, qalalara və digər tarixi mədəniyyət abidələrinə xaç şəklini həkk ediblər.

Son illərdə erməni millətçiləri tarixi saxtalaşdırmaqda yeni mərhələyə qədəm qoymuş, Azərbaycan tarix elminə hücumlarını daha da genişləndirmişlər. Təbriz və Ərdəbil də daxil olmaqla tarixi Azərbaycanın cənub torpaqlarını uydurma "Böyük Ermənistan"nın tərkib hissəsi hesab edən ermənilərin iddiasına görə, Cənubda yaşayan azərbaycanlılar guya Şimalda yaşayan qardaşlarından fərqli olaraq vaxtı ilə İran dillərindən birində danışmış olan azərilər adlanmış xalqın nəsilləridir. XV-XVI əsrlərdə onların dilləri kütləvi surətdə zorla dəyişdirilib. Və bundan sonra onlar Azərbaycan-türk dilində danışmağa başlamışlar. Beləliklə, erməni saxtakarları tarixi Azərbaycanın Arazdan cənubdakı torpaqlarını öz saxta "tədqiqatlarında" "özününküləşdirdikdən" sonra, indi də həmin ərazidə yaşayan Azərbaycan türklərinin mənşəyini saxtalaşdırmağa başlamışlar [13].

Xalqımızın qeyri-maddi mədəni irsinin, ədəbiyyat və incəsənətinin, xüsusən folklor nümunələrinin, hətta müəllif əsərlərinin ermənilər tərəfindən oğurlanması müəyyən tarixə malikdir. Artıq bu saxtakar hərəkətlər «özgə ənənələrinin qarət edilməsi və mənimsənilməsinin erməni ənənəsinə» çevrilmişdir. Məsələnin ciddiliyi Milli Məclisin nümayəndə heyətinin səyləri nəticəsində Avropa Şurası Parlament Assambleyasının sessiyasına «Azərbaycan mədəni irsinin qəsbi və dağıdılması» sənədində təqdim edilmiş, Milli Məclisin «Azərbaycan mədəni sərvətlərinin dağıdılması və mənimsənilməsi ilə əlaqədar» Bəyanatında da öz əksini tapmışdır.

XX-ci əsrin 80-cı illərində Təhməzyan, Siksiyan və başqalarının «çalışmaları» nəticəsində saxtakarlıqla dolu «böyük erməni» mədəniyyəti röyası yaradılmışdır. Nizami Gəncəvinin «Xosrov və Şirin» poemasında Şirinin milliyətcə erməni şəhzadəsi olması, Xosrov Pərvizin saray musiqiçilərinin rəhbəri Sərkeşin Sarkis olması barədə və ümumiyyətlə Ermənistanı mədəniyyət beşiyinə çevirmək üçün erməni mədəniyyətinin bütün Şərq xalqlarına təsiri barədə nağıllar uydurdular. Ermənilərin etiraflarına baxmayaraq, onların «istifadə etdikləri alətlərin adları (az, səntur, kaman və s.) da türkcədir. 1967-ci ildə SSRİ EA-sının «Elm» nəşriyyatı vasitəsilə oğurlanmış Azərbaycan atalar sözlərini «Армянский фольклор» adı altında təqdim etmişlər.

Azərbaycanın qeyri-maddi mədəni irsinə məxsus nümunələr erməni mədəni mülkiyyəti adı altında tirajlanır və yayılır. Azərbaycanın ədəbi folklor nümunələri və i.a. erməni transkripsiyasına çevrilir, maddi daşıyıcılara köçürülür. Onlar saxlanmaq üçün fond və arxivlərə verilməndən sonra, oradan «qədim erməni əsərləri» kimi çıxarılır və daha çox xarıcı

dillərə tərcümə edilərək yayılır. Bir sözlə, əqli oğurluq, ermənilәşdirmə və ermənilərin süni surətdə qədimləşdirməsi davam etməkdədir. Azərbaycan folkloru nümunələrinə süni surətdə ermənilәşdirilmiş personajlar daxil edilir və həmin obrazlara həsr olunmuş «tədqiqat əsərləri» nəşr olunur. Həmin «elmi işlərdə» erməni şəklinə salınmış Azərbaycan mədəniyyət nümunəsinin erməni mənşəyini sübut edən saxta dəlillər ortaya çıxarılır və s. [1].

Azərbaycanın Müəllif Hüquqları üzrə Dövlət Agentliyi ermənilərin indiyə kimi aşkar olunan Azərbaycan musiqilərinin oğurluq və mənimsəmə faktlarını toplayaraq, BMT-nin ixtisaslaşdırılmış qurumu, əqli mülkiyyət sahəsində hökumətlərarası orqanı olan Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (WİPO) göndərib. Agentlik bir neçə il bundan əvvəl Rusiya Federasiyasının ərazisində uzun müddət fəaliyyət göstərən və Azərbaycanın milli musiqisini erməni musiqisi kimi təqdim edən "Ani-Rekords" erməni səsyazma studiyasının bağlanmasına da nail olub.WİPO-ya təqdim olunan sənədlər toplusunda ermənilərin oğurladığı Azərbaycan musiqilərindən bəstəkarlar Tofiq Quliyevin «Sənə də qalmaz», Cahangir Cahangirovun «Ay qız», Rauf Hacıyevin «Saçlarına gül düzüm», Ələkbər Tağıyevin «Nə gəlməz oldun», Eldar Mansurovun «Gecə zəngləri», Aygun Səmədzadənin «Məktəb illəri», Azərbaycan xalq rəqsləri nümunələri əsasında hazırlanan «Vokaliz» adlı musiqi, klassik bəstəkarların yaradıcılığı və folklor nümunələrindən olan «Vağzalı», «Yallı», «Uzundərə», «Mirzeyi», «Qazağı», «Tərəkəmə», «Sarı gəlin», «Xan bacı», «Dəli Ceyran», Üzeyir Hacıbəyovun «Arşın mal alan», «O olmasın, bu olsun» operettaları, «Koroğlu» operası var [14, s.172].

Azərbaycanxalqına məxsus musiqi əsərlərinin, folklor nümunələrinin və digər mədəni irs nümunələrinin, hətta daşınmaz tarix və mədəniyyət abidələrinin əsrlər boyu ermənilər tərəfindən oğurlandığına, mənimsənildiyinə və erməni nümunələri kimi təqdim edildiyinə dair nəinki əcnəbi məxəzlərdə, eləcə də erməni mənbələrində saysız-hesabsız fakt məlumdur.

Rusiya müğənnisi Avraam Russo (Rusiyada yaşayan Suriya ermənisi) Üzeyir Hacıbəylinin Əhməd Cavadın şeirinə bəstələdiyi məşhur "Çırpınırdı Qara dəniz" mahnısını erməni dilində "Kamança" adı ilə oxudu. Mahnı, bildiyimiz kimi, hələ 2014-cü ildə Türkiyənin "Sabah" qəzetində Sayat Nova adlı erməni qusanının (aşığının) bəstəsi kimi təqdim edilmişdi. Azərbaycan Müəllif Hüquqları Agentliyi hüquqi və arxiv sənədləri əsasında hazırladığı rəsmi arayış ilə mahnının musiqisinin Üzeyir Hacıbəyliyə, şeirinin isə Əhməd Cavada məxsus olduğunu rəsmi qaydada sübut etdi [2].

Ermənistanın Azərbaycana təcavüzü zamanı qədim Azərbaycan torpaqlarında, o cümlədən Dağlıq Qarabağda 1700 tarix və mədəniyyət abidəsinin üzərindəki tarixlər, divar yazıları götürülərək erməni mətnləri ilə əvəzlənib, erməni işğalı altında qalan 27 muzey və şəkil qalereyasından qarət olunan yüz min eksponat Ermənistana daşınaraq saxtakarlıqla özününküləşdirilib, yaxud da onların bir qismi xarici ölkələrdə «erməni mədəniyyətinin nümunələri» adı altında satılıb [5].

Alban kilsələrinin ermənilərlə və onların iddia etdikləri dini inanclar ilə heç bir tarixi - dini əlaqəsi yoxdur. Alban katalikosluğunun taxtı IV-V əsrlərdə Dərbənddə Çola monastrında, VI-VII əsrlərdə Bərdə monastrında, VIII-IX əsrlərdə Ağdərə rayonunda müqəddəs Yelisey monastrında, X-XV əsrlərdə Kəlbəcər rayonunda Xudavəng monastrında, XV-XIX əsrlərdə Gəncəsər monastrında yerləşmişdir. 552-ci ildə alban kilsəsinin iqamətgahı Çoladan Bərdəyə köçürüldükdən sonra Bərdə kilsəsi iri monastra çevrilib. Kəlbəcər rayonunun ərazisində, Tərtər çayının sol sahilində yerləşən, xalq arasında Xotavəng və ya Xudavəng, yəni "tanrı məbədi" adlandırılan monastr kompleksi Qafqaz Albaniyası dövləti dağıldıqdan bir əsr sonra - IX əsrdə Qarabağın dağlıq hissəsində yaranmış Xaçın Alban knyazlığının dini mərkəzi olmuşdur. Kompleksdə alban yepiskopunun iqamətgahı və dini maarif mərkəzi fəaliyyət göstərmişdir. Arxeoloji tədqiqatların nəticələrindən məlum olur ki, monastrın əsası VI-VII əsrlərdə qoyulmuşdur. Mehranilər sülaləsindən olan Xaçın knyazı Həsən Cəlalın oğlu Vaxtanq kompleksin ərazisində geniş tikinti işləri aparmış, Arzu xatun isə 1214-cü ildə əri Vaxtanqın və iki oğlunun xatirəsinə kompleksdə kilsə tikdirib. Bu, Dağlıq Qarabağın Ağdərə

rayonundakı müqəddəs Yelisey monastr kompleksidir. Həsən Cəlalın hakimiyyəti illərində knyazlığın ərazisi xeyli genişlənmiş, tikinti abadlıq işləri böyük vüsət almışdır. Ağdərə rayonunun Vəngli kəndində Xaçın çayının sol sahilində dağın üstündə ucaldılmış məşhur Gəncəsər monastrı Qafqaz Albaniyası xristian memarlığının ən görkəmli abidələrindən biridir. Monastrın divarında daş üzərindəki epiqrafik yazıdan məlum olur ki, bu abidə "yüksək və böyük Arsax ölkəsinin hökmdarı, geniş vilayətin çarı, Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu, Həsən Calal Dövlə və anası Xorişə xatun tərəfindən 1216-1238-ci illərdə inşa edilib. Belliklə, bir tərəfdən ermənilər işğalla bağlı abidələri məhv edirlər, digər tərəfdən də alban kilsələrini saxtalaşdırıb erməni kilsələrinə uyğun memarioloji olaraq xristian elementləri ilə dəyişdirirlər. Ermənilər Rusiyanın və digər dövlətlərin sayəsində Qarabağda yerləşdirlildən sonra xristian albanlarını faktiki olaraq ermənileşdirdilər [5;18].

Ermənilər digər milli sərvətlərimiz kimi xörəklərimizi də öz adlarına çıxırlar, oğurlayırlar. Bu gün onlar ta qədimdən Azərbaycanın milli xörəyi sayılan və qəbul edilən plovu, yarpaq, kələm və badımcan dolmalarını, kabablarımızı, pitini, lavaşı həyasızcasına öz adlarına çıxırlar. Onlar nəinki tədbirlər çərçivəsində, hətta dünyanın müxtəlif ölkələrinin televiziyalarında gedən kulinariya proqramlarında Azərbaycan mətbəxinə xas xörək və şirniyyatları öz adları ilə təqdim etməkdən çəkinmirlər. Hətta beynəlxalq kulinariya festivallarına da ermənilər bizim xörəklərimizlə çıxırlar.

Mədəniyyət və Turizm Nazirliyi, eləcə də Heydər Əliyev Fondu, Azərbaycanın xaricdəki səfirlikləri, diaspor qurumları müxtəlif tədbirlər və bayramlar çərçivəsində milli mətbəximizi dünya xalqlarına təqdim etməklə, erməni yalanını ifşa edir [6]. Qeyd etməliyik ki, Azərbaycan milli kulinariyasının dünyada təbliğinin daha geniş səviyyədə həyata keçirilməsinə ehtiyac var.

Ermənistan məktəblərində tarix dərslərində şagirdlərə Azərbaycanla bağlı tamamilə saxtalaşdırılmış məlumatlar öyrədirlər. Buna XIX ərsin əvvəllərindən bu günümüzədək olan hadisələri əhatə edən 8, 9 və 10-cu sinif tarix dərsliklərində şahid oluruq.

Belə ki,8-ci sinif dərsliyinin giriş hissəsində müəlliflər XVIII əsrdə ermənilərin İran (qeyd: dərslikdə Səfəvilər dövləti sözü istifadə edilmir) və Osmanlı dövlətləri çərçivəsində yaşamalarını müsəlmanların əsarətində qalmaq kimi dəyərləndirərək bundan yalnız xristianlar vasitəsilə çıxıb öz dövlətçiliklərini bərpa edə biləcəklərini izah edirlər. Bununla bağlı, "xristian Avropanın" yardımını almaq üçün İsrael Orinin fəaliyyətinə istinad edirlər. Ümumiyyətlə, dərslikdə digər hadisələrin təsviri, o cümlədən erməni kilsəsinin rolu barədə hissələr ermənilərin hələ məktəb dövründən xristian və müsəlman qarşıdurması ruhunda böyüdüldüklərini nümayiş etdirir. 8-ci sinif dərsliyi elə bir tərzdə tərtib olunub ki, sanki Cənubi Qafqazda XVII-XVIII əsrlərdə gedən proseslərdə tarixi Azərbaycan dövlətləri və onların azərbaycanlı əhalisi mövcud olmayıb. Kitabda Naxçıvan, Qarabağ və digər tarixi ərazilərimiz Şərqi Ermənistan adlandırılan ərazi kimi göstərilir. Qəsdən bu ərazilərdə yaşamış yerli əhalinin müasir azərbaycanlılarla bağlılığı unudulur. Azərbaycan sözünə ümumiyyətlə təsadüf olunmur. 13-16-cı səhifələrdə 1720-ci illərdə Səfəvilər ilə Osmanlı imperiyaları arasında gedən müharibədə, Osmanlı qoşunlarının 1724-cü ildə İrəvanı tutması, Qarabağa və Şuşaya hücumları ilə bağlı hadisələrin təsviri bu ərazilərin yalnız ermənilər tərəfindən məskunlaşdığı təsəvvürünün yaranmasına yönəlib. 29-cu səhifədə Qarabağ xanlığına istinad edilir, lakin Şuşa tarixi erməni şəhəri adlandırılır, ermənilər tərəfindən məskunlaşdığı iddia olunur və bu tarixi şəhərimizdə azərbaycanlılara hər hansı bir formada istinad edilmir. Buna baxmayaraq, XIX əsrə aid hadisələrdə, konkret olaraq, məsələn, 1827-ci ildə Rusiya imperiyası tərəfindən İrəvanın işğalında erməni əsgərlərdən istifadə olunduğu və ermənilərin sevincinə səbəb olduğu göstərilir[12]. Bu hadisənin guya buradan Şah Abbas dövründə "köçürülmüş" ermənilərin həmin ərazilərə qayıdışını təmin etdiyini və beləliklə də Ermənistanda erməni demoqrafik mənzərənin bərpa olunduğu izah edilir[12].

Tarixin belə təsvir olunması ermənilərin özlərini Cənubi Qafqazın bir çox ərazilərinin yeganə sahibi kimi görməsindən irəli gəlir. Təsadüfi deyil ki, 10-cu sinif "Erməni tarixi" dərsliyində ermənilər "Erməni yaylasının yerli sahibləri və varisləridir" iddiası erməni tarixçilərinin bu "dünyagörüşünü" daha aydın formada nümayiş etdirir ("Erməni tarixi" 10-cu sinif, Aşot Melkonyan, Hayk Avetisyan, Artak Movsisyan, Petros Hovhannisyan, Eduard Danielyan. Zangak 2014, səh 26).

Azərbaycanlılar ifadəsi ötəri olaraq ilk dəfə 1905-ci ildə "erməni-yerli müsəlmanlar (Qafqaz tatarları -indiki azərbaycanlılar) arasında münaqişə" ifadəsilə 104-cü səhifədə daxil edilir. Dərslikdə 1905-ci ilin azərbaycanlı-erməni toqquşmalarını yatızdırmaq üçün göndərilmiş general Maqsud Əlixan-Avarskiyinin Daşnaksütyun partiyasının qərarı ilə Dro (D.M.Kanayan) və Kamo (S. A. Ter-Petrosyan) tərəfindən öldürülməsi xüsusilə vurğulanır. Burada xatırlatmaq zəruridir ki, Dro İkinci Dünya müharibəsi dövründə Vermaxtın tərkibində Qaregin Njde ilə birlikdə erməni legionunu yaratmışdır. Yeri gəlmişkən, digər faşist, xüsusilə 1918-ci ildə Zəngəzurda azərbaycanlılara qarşı qətliamlar törətmiş Qaregin Njde Osmanlı türklərinə qarşı "mübarizə" kontekstində qəhrəmanlaşdırılır (səh. 151) [12].

9-cu sinif tarix dərsliyində Ermənistan ərazisində 1918-1920-ci illərdə azərbaycanlı əhalinin (türk-tatar sözündən istifadə etməklə) iğtişaşlar törətməkdə ittiham edilərək onların mövcudluğu qeyri-ixtiyarı surətdə etiraf olunur. Lakin azərbaycanlı əhali neqativ tonda təsvir edilir. Belə ki, Türkiyə və Azərbaycanın burada yaşayan "türk tatarlarını" Ermənistana qarşı yönəltdikləri iddia olunur. Azərbaycan "Ermənistanın müstəqilliyinə son qoymaq, onun ərazilərini işğal etmək və Türkiyə ilə birbaşa sərhəd yaratmaq" cəhdlərində ittiham olunur. Daha sonra, Ermənistan hökumətinin bu "üsyanı" yatırmasından bəhs olunur (səh. 24).
Həmin dərslikdə 1988-ci və 1990-cı illərdə ermənilərin Azərbaycandan "deportasiya"sı haqqında danışılır (səh. 127-128). Dərslikdə bunun ardınca azərbaycanlıların Ermənistandan qovulmasına haqq qazandırılır və bu proses "emiqrasiya" kimi qələmə verilir. Guya azərbaycanlılara emiqrasiya məqsədilə nəqliyyatla təminat, evlərini satmaq kimi imkanların yaradıldığı iddia olunur. Həmin dərslikdə müəlliflər Xocalının işğalını əsaslandırmağa cəhd göstərirlər. (səh.169). Bu şəhərin işğalını Azərbaycan tərəfinin ilk ciddi məğlubiyyəti kimi qələmə verirlər, lakin azərbaycanlı mülki şəxslərin soyqırımı barədə heç nə demirlər. Ağdama aparan qondarma "dəhliz" barədə Ermənistanın məlum cəfəngiyyatını təkrarlayırlar. Həmin və ondan sonra gələn hissədə Şuşanın və Kəlbəcərin işğalının əhəmiyyətini təsvir edirlər. Fizuli, Cəbrayıl, Qubadlı, Horadiz və Zəngilan rayonlarımızı "azad" etmələri, döyüşlərdə Monte Melkonyan kimi terrorçularının öldürülməsi və onların qəhrəmanlığından yazırlar (səh. 172-173).

Dərsliyin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aktiv hərbi fazasını təsvir edən hissəsi faktiki olaraq "Ermənistanın azad olunmuş hissəsində" ikinci erməni dövlətinin yaradılmasını əsas nəticə kimi təqdim edir. Bununla da növbəti dəfə orta sinif şagirdlərinə Azərbaycanın tarixi əraziləri Ermənistan ərazisi kimi təqdim olunur [12].

Ermənistanda tarix dərsliklərinin təhlili onu göstərir ki, bu kitablar azyaşlı ermənilərin şüuruna saxtalaşdırılmış məlumatlarla ermənilər bölgənin qədim xalqı olduğunu aşılayır, Azərbaycan xalqının öz tarixi ərazilərində yad olduğunu yeridir. Ermənilərin total saxtakarlığının səbəbi nədir? Ermənilərin vətən anlayışı ilə bağlı fobiyası, "Böyük Ermənistan"' xülyası da erməni saxtakarlıqlarına rəvac verən faktorlardan biridir. Balkanlardan Xəzərədək böyük bir coğrafiyaya iddia edən ermənilərin iki mühüm səciyyəvi xüsusiyyəti özünü göstərir. Birincisi, vətən anlayışının qeyri - məhdud coğrafi sərhədləri bu dini-simbioz birliyin hər hansı bir torpağa vətən olaraq bağlı olmadığını göstərir. İkincisi, "böyük tarixi dövlət" özü-özlüyündə böyük yalanların da uydurulmasına rəvac verir. Ümumiyyətlə, müasir erməni-haylar öz tarixlərini yaratmaq üçün başqalarının tarixini və mədəni irsini mənimsəmək yolu tutmuşlar. Yalanlar üzərində qurulan tarix isə qonşu xalqların mədəni və mənəvi dəyərlərinin mənimsənilməsi və dini missionerlik sayəsində ilkin mənbələrin saxtalaşdırılması hesabına yazılmışdır. Bütün bunlar Qafqaza

köçürülən hayların monoetnik coğrafi və siyasi areal yaratmaq cəhdlərinin pərdəarxasını təşkil edir. Fikrimizcə, məhz buna görə də müasir dövrdə 300 ildən çox sistemli yalan yayan erməni saxtakarlıqlarının beynəlxalq müstəvidə ifşası bir o qədər də asan deyil [11].

Beləliklə, erməni saxtakarlığının tarixi çox qədimdir və bu gün də davam etdirilir. Erməni yalanı Qafqaz, Balkanlar, Rusiya və Yaxın Şərq daxil olmaqla geniş coğrafiyanı, bütün fəaliyyət sahələrini əhatə etmiş və etməkdədir. Alban, qıpçaq, xalkedon, kopt və digər məbəd və kilsələrinin irsinə sahib çıxmağa çalışmışdır.

Ədəbiyyat

1. «Bir daha ənənələrimizin mənimsənilməsi-erməni ənənəsi haqqında» http://copat.gov.az/armenian-plagiarism/bir-daha-nnlrimizin-mnimsnilmsi-ermni-nnsi-haqqinda.html
2. Abduləliyev A. Azərbaycan musiqisinə qarşı total erməni vandalizmi https://modern.az/az/news/190892
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astanada ATƏT-in VII sammitindəki çıxışı. www.president.az/articles/1189
4. Bünyadov Z. Azərbaycan VII – IX əsrlərdə.Bakı:Elm, 2007, 424 s.
5. Dağıdılan tarixi abidələr erməni vandalizminin əyani sübutudur https://sia.az/az/news/politics/832353.html
6. Erməni oğurluğuna qarşı mübarizədə kulinarlar nə iş görməlidir? https://azim.az/medeniyyet/685-ermni-ogurluguna-qarsi-mubarizd-kulinarlar-n-is-gormlidir.html
7. Ermənilərdən daha bir SAXTAKARLIQ: Şahbulaq qalasına xaç işarəsi vurublar https://konkret.az/ermenilerden-daha-bir-saxtakarliq-sahbulaq-qalasina-xac-isaresi-vurublar-foto-resmi/
8. Ermənilərin daha bir saxtakarlığı: Alban məbədi ermənilərdirilib – VİDEO https://report.az/multimedia/ermenilerin-daha-bir-saxtakarligi-alban-mebedi-ermenilesdirilib/
9. Əliyev İ., Məmmədzadə K. Qarabağın alban abidələri. Bakı: Azərnəşr, 1997, 32 s.
10. Hacıyev Q. Qarabağın maddi mədəniyyəti Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsidir http://www.anl.az/el/q/qarabag_5/q-26.htm
11. Həbibbəyli Ə. Ermənilərin tarixi həqiqətləri saxtalaşdırmalarının həqiqi səbəbləri http://newtimes.az/az/processestrends/5669/
12. Qasımov H. Erməni saxtakarlığı: Ermənistan məktəblərində tarix dərsləri və ya erməni şagirdlərinə Azərbaycanla bağlı nə öyrədirlər? https://www.muallim.edu.az/news.php?id = 9285
13. Mahmudov Y. Tarixin ən böyük və ən təhlükəli yalanı. // ”Azərbaycan” qəzeti, №18(5122), 25 yanvar, 2009.
14. Məmmədov H.N. Azərbaycan – Şərqi Avropa:mədəniyyətlərarası əməkdaşlığın tarixi. Monoqrafiya. Bakı: Mütərcim, 2008, 312 s.
15. Məmmədov H.N. Azərbaycan Respublikasi ilə Şərqi Avropa ölkələri arasinda mədəni əlaqələr (1991-2008-ci illər): Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş Dissertasiya, Bakı, 337 s.
16. Mirzəyev S. Dini-tarixi irsimiz: həqiqətlər və erməni mifləri http://www.dqdk.gov.az/az/view/news/9638/dini-tarixi-irsimiz-heqiqetler-ve-ermeni-ifleri
17. Mustafa N.Vandalizm: Tarixi adlara qarşı soyqırımı. Bakı: Turxan NPB, 2013.
18. Nüsrətoğlu T. Qarabağın Alban kilsələri və bitməyən erməni yalanları https://www.trt.net.tr/azerbaycan/proqram/2020/11/26/qarabagin-alban-kils-l-ri-v-bitm-y-n-erm-ni-yalanlari-1534428

19. Бунак В.В. "Черепа зеленого века из Севанского района Армении. “Русский атрополический журнал", 1928, том XVII, вып. 3-4.
20. Величко В.Л. Кавказ: русское дело и междуплеменные вопросы.Баку:Элм, 1990, 224 с.
21. Геродот. История (в девяти книгах). Л.: Наука, 1972. 600 с.
22. Дьяконов И.М. Предыстория армянского народа. История Армянского нагорья с 1500 по 500 г. до н.э. Хурриты, лувийцы, протоармяне. Ереван: АН Армянской ССР.1968, 266 с.
23. Дьяконов И.М. Малая Азия и Армения около 600 г. до н.э. и северные походы вавилонских царей. "Вестник древней истории", 1981, №2, с.34-64.
24. Как КГБ разоблачил фальсификаторов-армян– Факты https://sia.az/ru/news/interesting/824367.html
25. Кочиев Р.С. Закавказье и Северный Кавказ. - В кн .: Этническая стоматология СССР. Москва, 1970, с.135-141.
26. Петрушевский И.П. О дохристианских верованиях крестьян Нагорного Карабаха, Баку: Изд-во АзГНИИ, 1930, 43 с.
27. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье : предстоящая распродажа Мугани инородцам / [соч.] Н.Н. Шаврова.Баку: Элм, 1990. 156 с.
28. Шопен И. Новые заметки на древней истории Кавказа и ее обитателей. С.-Петербург: В Тип. Н. Тиблена и комп., 1866, 503 с.

QARABAĞIN TÜRKMƏNŞƏLİ TOPONİMLƏRİ HAQQINDA

Nazim Tapdiqoğlu (Vəlişov)
Azərbaycan Universiteti
Bakı, Azərbaycan

Xülasə: Məqalədə Qarabağın çox qədim zamanlardan Azərbaycan türklərinin vətəni olmasını sübut edən toponimlərdən bəhs olunmuşdur. Müəllif Qarabağın bəzi türkmənşəli toponimlərinin yaranması və formalaşması yolları, eləcə də Qarabağın qədim tarixə malik olan Abdal, Kəbirli, Bayat, Güzdək, Əhmədavar, Qaraxanbəyli, Alıxanlı, Baharlı yaşayış məntəqələri adlarının əmələ gəlməsi ilə bağlı məlumatları araşdırmışdır.

Açar sözlər: Qarabağ, toponim, Abdal, Bayat, Qaraxanbəyli.

ABOUT TURKISH TOPONYMS OF KARABAKH

Nazim Tapdigoglu (Velishov)
Azerbaijan University
Baku, Azerbaijan

Abstract: The article discusses toponyms that indicate that Karabakh has been the homeland of the Azerbaijani Turks since ancient times. The author investigated the ways of formation and formation of some Turkic toponyms of Karabakh, as well as information about the formation of the names of the ancient settlements of Karabakh Abdal, Kabirli, Bayat, Guzdek, Akhmadavar, Garakhanbeyli, Alykhanly, Baharly.

Keywords: Karabakh, toponym, Abdal, Bayat, Garakhanbeyli.

О ТУРКСКИХ ТОПОНИМАХ КАРАБАХА

Назим Тапдигоглу (Велишов)
Университет Азербайджан
Баку, Азербайджан

Резюме: В статье рассматриваются топонимы, свидетельствующие о том, что Карабах издревле был родиной азербайджанских тюрков. Автор исследовал пути образования и образования некоторых туркских топонимов Карабаха, а также сведения об образовании названий древних поселений Карабаха Абдал, Кабирли, Баят, Гуздек, Ахмадавар, Гараханбейли, Алыханлы, Бахарлы.

Ключевые слова: Карабах, топоним, Абдал, Баят, Гараханбейли.

Azərbaycanın tarixində onun ayrılmaz tərkib hissəsi olan Qarabağ regionunun özünəməxsus yeri var. *Qarabağ* – Azərbaycanın Kiçik Qafqaz dağlarının cənub-şərq ətəklərindən başlayaraq Kür və Araz çayları arasındakı ərazisini əhatə edən tarixi bir vilayətdir. Əcəmilər qədimdən Qarabağa ***Sisaqan*** demişlər. Sonralar Səlcuqlar tərəfindən əraziyə ***Qarabağ*** adı verilmişdir. ***Qarabağ*** adı həm düzən, həm də dağlıq hissəyə aiddir. Bu ərazilər qədim dörlərdə və erkən orta əsrlərdə Qafqaz Albaniyasının tərkibində olub və orada həmişə alban tayfaları yaşamışlar. Tarixdə ***Qarabağ mahalı, Qarabağ əyaləti, Qarabağ vilayəti, Qarabağ bəylərbəyliyi, Qarabağ xanlığı, Qarabağ düzü*** adları çəkilir.

XX əsrdə, xüsusən sovet dönəmində Qarabağın türkmənşəli toponimləri (***topos*** yunan sözü olub, "*relyef, ərazi, yer, sahə*" ***onoma*** isə "*ad*" bildirir) demək olar ki, az öyrənilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Qarabağın tarixi, arxeologiyası, etnoqrafiyası və toponimiyasının tədqiqinə xüsusi diqqət yetirilmişdir. Məlumdur ki, hər hansı bir arealda toponimlər qatının formalaşması uzun sürən bir prosesdir. Qarabağda da yer-yurd adları ilk növbədə orada yaşayan xalqlar tərəfindən formalaşdırılmışdır. ***Qarabağ*** yarandığı gündən indiyədək Azərbaycanın tərkib hissəsi olmuşdur. Qarabağın Azərbaycan torpağı olması sübuta ehtiyacı olmayan bir aksiomdır. Qarabağ ərazisində yaşayan xalqlar etnik baxımından əsasən türk olduqları üçün oradakı toponimlərin tam əksəriyyətinin tərkibindəki terminlər də türkdillidir. Tədqiqatlar göstərir ki, türkdilli toponimlər Azərbaycan xalqının etnogenezində, formalaşmasında iştirak etmiş qədim türk tayfalarının adlarını özündə qoruyub saxlaya bilmişdir.

Qarabağ sözünün toponimiyada çoxlu məna çalarları vardır. ***Qarabağ*** toponimi türkmənşəlidir. Coğrafiyaçı alim R.Yüzbaşova görə, *Qarabağ* sözü iki komponentdən – ***qara*** və ***bağ*** sözlərindən əmələ gəlmişdir. O, qeyd edir ki, ***qara*** sözünün mənalarından biri "*çoxluq*", "*çox sıxlıq*" olduğu üçün ***Qarabağ*** toponimi "*çoxlu bağlı-bağatlı yer*" deməkdir [1, s.63]. Dilçi alim A.Axundov da bu fikri təsdiqləyərək yazır ki, ***Qarabağ*** sözünün mənası "*çoxlu bağı olan yer*" deməkdir [2; s.48]. Bəzi mütəxəssislər ərazidə qara üzüm yetişdirildiyindən, orada qara yarpaqlı bağlar olduğundan onun *Qarabağ* adlanması fikri üzərində dayanirlar. Ümumiyyətlə, ***qara*** sözünün "*böyük, nəhəng, azman, rəng, qərb, ağır, çoxluq, sıx, qalın, pis, bədbəxt, qəm, sevinc, yaraşıq, qaranlıq, şimal, başçı, güclü"*və s. mənaları var.

X əsrdə yaşamış Konstantin Baqryanarodnıya görə, cənubi-rus çöllərində peçeneq tayfaları içərisində ***Qarabay*** *(Karabay, Karavoq, Karabaq*) adlı tayfa da olmuşdur [3, s.155]. Tarixçi, tədqiqatçı-alim Q.Qeybullayev ***Qarabay*** etnonimi ilə bağlı maraqlı fikirlər irəli sürür. O, göstərir ki, bu sözün sonundakı "*y*" səsi başqa türk dillərində işlənən "*q*", "*g*" səsinə müvafiqdir. Alim öz fikrinin izahı üçün *bəy* sözü ilə "*bək*", "*bəg*" sözlərini müqayisə edir və bildirir ki, erkən orta əsrlərdə peçeneqlər Albaniyada, o cümlədən Qarabağda yaşamışlar. O, belə bir nəticəyə gəlir ki, peçeneq-kəngərlərin *qarabağ* adlı tayfası həm Albaniyanın qərbində,

hə də Naxçıvanda, kəngərlərin içərisində yaşamışdır [4, s.96-99]. Yeri gəlmişkən onu da qeyd etmək yerinə düşər ki, tanınmış tarixçi-alim S.Aşurbəyli də ***bak*** toponimini ***bağı*** qəbiləsinin adı ilə əlaqələndirir. İ.Şopen isə ***Qarabağ*** adını *Xaraba* sözü ilə bağlayır.

Mənbələrdə ***bak-baq-bağ*** tayfa adına da rast gəlinir. Belə fikir də işlətmək olar ki, ***Qarabağ*** sözü (*"böyük bağ"*) tayfa adından törənmiş etnotoponimdir. Praazərbaycan teonimlərindən olan ***baq*** teonimi slavyan dillərində *baq, boq, boğ, boh, biq* formalarında işlənir. Bu sözün ilkin mənasını bəzi tədqiqatçılar *"var-dövlət"* anlamındakı *"boqat" (boqatstvo)* sözü ilə əlaqələndirirlər. ***Baq*** teonimi daha çox türk xalqları və onlarla kontaktda olan tayfaların dillərində işlədilir. *Baq* teoniminin sonraki semantik dəyişmələri onun *maq,mağ, bağ, bah, bağa, beq, bay* və s. fonetik variantlarını da ortaya çıxarmışdır. ***Baq*** sözünün qədim hind dilində *"paylanan"* anlamı da məlumdur. Uzun illərdir ki, *baq/boq* sözünün irandilli və ya slavyan mənşəli olması ilə bağlı mübahisələr getməkdədir. ***Orxon-Yenisey*** abidələrində ***bağa*** sözü teonim determinativi (*"bağa"*) kimi işlədilmişdir. Mənbələrə istinad etsək, görərik ki, Midiyada Tanrıya *Bağa* deyilirmiş. Bir çox xalqların qədim mifologiyasında *bağa* (tısbağa) müqəddəs yerin, torpağın rəmzidir. Azərbaycanda *bağa* indi də müqəddəs heyvan hesab olunur.

Qarabağda qeydə alınan toponimlrin böyük əksəriyyəti türkmənşəlidir. Mən ***Qarabağ*** toponimiyasını bütünlüklə tədqiq edən bir qarabağlı kimi qətiyyətlə bildirirəm ki, Qarabağ ərazisindəki toponimlərin ***95*** faizi türk (*Azərbaycan*) diliində olan coğrafi adlardır. *Həsənqaya, Qazançı, Qərvənd, Çapar, Kolatağ, Dəmirçi, Yarımca, Umudlu, Zəylik, Çaldıran, Mehmana, Güneypəyə, Canyataq, Gülyataq, Xatınbəyli, Dovşanlı, Almalı, Ağbulaq, Ballıca, Cəmilli, Qarabulaq, Daşbulaq, Kosalar, Canhəsən, Cavadlar, Başkənd, Yaloba, Aranzəmi, Pircamal, Qışlaq, Xanabad, Ulubaba, Xocalı, Daşbaşı, Fərrux, Dağdağan, Çanaqçı, Şəkər, Qırmızı Bazar, Muğanlı, Əmirallar, Qaradağlı, Qarakənd, Yemişcan, Qoçbəy, Bünyadlı, Daşbaşı, Mülküdərə, Xırmancıq, Məlikcanlı, Ağbulaq, Düdükçü, Tuğ, Ağcakənd, Arpagədik, Turşsu, Daşaltı, Malıbəyli, Quşçular, Xəlfəli, Zamanpəyəsi, Laçınlar, Mirzələr, Şırlan, Çaykənd, Səfixanlar, Allahqululer, Turabxan, Xanalı, İmamqululer, Cəmillər, Paşalar, Xanlıqpəyə, Alıxanlı, Qaraxanbəyli, Qoçəhmədli, Dövlətyarlı, Güzdək, Qacar, Qarakollu, Kərimbəyli, Sarıcalı, Qazanzəmi, Şahvəlli, Hacılı, Süleymanlı, Ağalı, Alıbəyli, Baharlı, Məmmədbəyli, Xanlıq, Qayalı, Muradxanlı, Hacıxanlı, Qarıqışlaq, Qozlu, Qışçu, Əhmədli, Bağlıpəyə, Başlıbel, İstisu, Taxtabaşı, Şaplar, Abdal, Bağbanlar, Boyəhmıdli, Əhmədavar, Güllücə, Kəngərli, Qaradağlı, Qiyaslı, Qaradolaq, Hüsülü, Poladlı, Kəbirli, Tərtər, Qarqar, Quruçay, Oxçuçay, Həkəri, Şəlvə, Ağ göl, Qaragöl, Çalağantəpə, Üzərliktəpə, Qaraköpəktəpə, Şomutəpə, Haramı düzü, Qırxqız, Cıdır düzü, Çanaqqala,* və s. yüzlərlə coğrafi adlar göründüyü kimi, sırf Azəarbaycan-türk dilindədir.

Toponimlər yaranma yollarına görə funksional-struktur və semantik baxımdan dil qanunlarına əsaslanır. Toponimlərin ən geniş yayılmış qollarından biri olan oykonimlər yalnız coğrafi nomenlərin köməyi ilə yaradılır. Ümumiyyətlə, ümumazərbaycan toponimlər sistemində işlənmə tezliyindən asılı olaraq oykonimlər funksional-struktur baxımından makrooykonimlər və mikrooykonimlər (*tam, ilkin formalı oykonimlər*) kimi qruplaşdırılır. Azərbaycan toponimləri inzibati bölgələr, regionlar üzrə öyrənilməkdədir. Belə öyrənilən bölgələrdən biri də Qarabağ regionudur. Qarabağ onomastikasının elmi şəkildə daha dərindən öyrənilməsi xüsusilə son illərdə məlum hadisələrlə əlaqədar daha böyük maraq kəsb edir. Hər hansı bir regionun qədim və müasir toponimlərinin toplusu həmin regionun toponimik fondu sayılır.

Mənbələrdən görünür ki, Qarabağ VII əsrdən, bir əyalət kimi XIII əsrdən, bir xanlıq kimi isə XVIII əsrdən məlumdur. Qarabağın ərazisindəki toponimlər əsasən etnonimlərdən, antroponimlərdən, adonimlərdən, fitonim və zoonimlərdən, memorial (*xatirə*) xarakterli oykonimlərdən törənmişdir. Onu da qeyd etmək lazımdır ki, bütövlükdə Azərbaycan toponimiyasında olduğu kimi, Qarabağ toponimiyasında da etnonimlərin müxtəlif struktur tiplərinin oykonimləşməsi prosesi geniş yayılmışdır. Toponimlərin əksəriyyətinin maraqlı cəhəti odur ki, onların yaranma və formalaşmasında iştirak edən

etnonimlərin, antroponimlərin müəyyən hissəsini müasir Azərbaycan dili, onun dialekt və şivələri baxımından sadə etnonim, antroponim adlandırmaq olar. Etimoloji təhlillər zamanı əslində onların vaxtilə morfoloji və ya sintaktik üsulla yaranmaları da aydınlaşır. Bu mənada ilkin etnonimlərdən düzələn və oykonimləşən etnonimlər üstünlük təşkil edir. Bu tipli oykonimləşən etnonimik toponimlərin böyük bir hissəsini "*konkret qrup (dəstə, tirə, zümrə) mənsubluğu*" məna çaları ifadə edən *-lı, -li, -lu, -lü* şəkilçiləri ilə düzələnlər təşkil edir. *Abdal, Abdalanlı, Alıxanlı, Baharlı, Bayat, Cəyirli, Dilağarda, Doşulu, Düdükçü, Edilli, Gecəgözlü, Güzdək, Əfətli, Əhmədavar, Füğanlı, Hacılı, Copurlu, Xəlfəli, Kəbirli, Kəngərli, Kolanılı, Qarabağ, Qaraxanbəyli, Qayalı, Malıbəyli, Merdinli, Musabəyli, Salahlı, Sarıcalı, Şamlı, Şıxlı, Tinli, Zarıslı* və s.

Qarabağda türk etnonimlərindən törənən oykonimlər üstünlük təşkil edir. Fikrimizin əyani təsdiqi üçün bir neçə nümunəyə baxaq:

Abdal kəndi Qarabağ mahalında, Ağdam rayonunda, rayon mərkəzindən 19 kilometr məsafədə yerləşir. Ağdam rayonundakı ***Abdal*** oykonimi türkmənşəli *abdal* etnonimi əsasında formalaşmışdır. XIX əsrdə qəza ərazisində 2 *Abdal kəndi* mövcud olmuşdur. Onları fərqləndirmək üçün birinə ***Abdal-Gülablı*** (*yəni, Gülablı yaxınlığındakı Abdal kəndi)* deyirdilər. Yaşayış məntəqəsinin qədim adı ***Abdal bulağı*** olmuşdur. Kənddə *mahmudlular, ocaqlılar, kəlbəsüleymanlar, nazarlılar, məşədiməmmədxanlar, xanpərilər, çökəklər, oyladlılar, salmanlar, şəpidlilər* və digər nəsillər yaşayırdılar. Bəzi mənbələrdə və tarixi materiallarda rast gəldiyimiz *heftal, heptal, eftal, abadel, abdel* etnonimləri *abdal* adının müxtəlif variantlı fonetik formalarıdır. *Abdal* sözü qədim türk dilində "*nurlanmış*" mənasında işlənmişdir. VI əsrə aid olan qədim Suriya mənbələrində, Şimali Qafqazda, Hun əyalətlərində savur, abaz, bulqar və digər tayfalarla bərabər türkdilli *abdal/abdel* tayfasının da adı çəkilir [5, s.136]. Akademik V.V.Bartold *abdal/abdel/abadel* tayfasını hun əsilli hesab edir [6; II (1) s.180]. *Abdal* adlı tayfanın İranda və Türkiyədə, Türkmənistanda, Gürcüstanda, Qərbi Azərbaycanda, Şimali Qafqazda və digər ərazilərdə mövcudluğu bir sıra tarixi sənəd və materiallarda da öz əksini tapmışdır. Qazaxlarda, Qaraqalpaqlarda, Türkmənlərdə, İranda, Əfqanıstanda, Özbəkistanda, Başqırdıstanda və Türkiyədə də ***abdal*** adlı tayfa qeydə alınmışdır. Azərbaycanda *abdel* tayfasının adı ilə bağlı *Abdal* (Ağdam, Tovuz), *Abdalanlı* (Qubadlı rayonu), *Abdallı* (Oğuz rayonu) adlı kəndlər, eləcə də onlarla oronim və hidronimlər vardır. 1923-cü ilə qədər Laçın şəhərinin adı da *Abdallar* olmuşdur. Abdal türk tayfası Azərbaycana çox qədim zamanlarda gəlmişdir. Onun Azərbaycana gəlmə vaxtı dəqiq məlum deyildir. Vaxtilə Cənub-Şərqi Avropada yaşayan bulqarların *abdal* adlı bir tayfası da mövcud olmuşdur…

Qarabağın Tərtər, Beyləqan və Ağcabədi rayonlarında qeydə alınan ***Kəbirli kəndi*** qədim türkdilli xəzərlərin *kəbirli* (*kəbər, kəbərli*) tayfasının adı ilə əlaqədardır. ***Kəbirlilər*** Qarabağın köklü, qədim tayfalarından biri hesab olunur. Mənbələrdə onların adı ***kəbərli*** kimi də çəkilir. Tarixi məxəzlərdən aydın olur ki, kəbir (kəbər) tayfasının nəsilləri xəzərlərin tərkibində olmuşdur. Xəzərlərin eramızın əvvəllərindən bəri Albaniya (*Qafqaz*) ilə əlaqələri və erkən orta əsrlərdə bu ərazilərə xəzər ailələrinin dəfələrlə köçürülməsi tarixdən məlumdur. Kəbirlilərin hələ erkən orta əsrlərdə əsasən Mil-Qarabağ düzlərində yaşadıqları və məskunlaşdıqları ərazinin *Kəbirli mahalı* adlanması çox-çox sonrakı dönəmlərdə isə Qarabağ xanlığının təşkilində mühüm rol oynamaları ilə bağlı tarixi mənbələrdə kifayət qədər məlumatlar vardır. XVIII əsrin ortalarında Qarabağ xanlığının təşkilində *kəbirlilər* doğrudan da mühüm rol oynamışlar. XIX əsrin ortalarında kəbirlilər *qərvəndli, ulubabalı, qızıləhmədli, arıqməhəmmədli* adlı 4 qoldan və 40-a qədər tirədən, eləcə də 850 ailədən ibarət idilər [7; V. c .s. 232]. *Kəbirli* adlı yaşayış məntəqələrinə Azərbaycanla yanaşı İran, Türkiyə, Qərbi Azərbaycan (Ermənistan), eləcə də Mərkəzi Asiya ölkələrində də rast gəlmək mümkündür.

Bir qisim coğrafi adlar vardır ki, onlar bilavasitə Azərbaycan dilinə aid olan yazılı mənbələrdə və ya onun dialekt və şivələrdə işlənən, ya da müasir Azərbaycan ədəbi dili baxımından arxaik sayılan sözlərdən ibarətdir. Bu tip coğrafi ada nümunə olaraq ***Güzdək*** toponimini göstərmək olar. Füzuli rayonu ərazisində qeydə alınan *Güzdək* oykoniminin tərkibindəki ***güz*** komponenti bir sıra ümumtürk abidələrində, eləcə də əksər türk dilləri dialektlərində, o cümlədən klassik Azərbaycan dili, onun bəzi dialekt və şivələrində "*payız*", "*otlaq*", "*payız otlağı*" mənalarını daşıyır [8, s.271]. Toponimin tərkibindəki ***-dək*** şəkilçisi "*məkan, yer*" anlamı ifadə edən ***-lək*** komponentinin dialekt formasıdır. Görkəmli Azərbaycan alimi M.Ş.Şirəliyev də *Güzdək* sözünün tərkibindəki *güz* formantının "*payız*" anlayışı, *güzdək* sözünün isə "*payız yurdu*" anlamı daşıdığını qeyd edir (*9; s. 335*). Qədim türk dillərində ***küz*** (***güz***) sözü "payız otlağı" anlamını verir. Çobanlar adətən payızda doğulan quzuya ***güz*** deyirlər. Elə bəlkə də dilimizdəki *quzu* sözü *güzü* sözünün özündən törənmişdir. Quzunun payız, qış olacağına ***güz*** deyilir. ***Güzlək*** və ***Güzdək*** toponimlərində adından da göründüyü kimi, türk və Azərbaycan dillərində məkan bildirən ***lək***, ***dək*** şəkilçiləri iştirak edir. Toponimin tərkibindəki ***dək*** formantı türk dillərində ***d*** səsinin ***l*** ilə əvəz olunası nəticəsində dəyişilən ***lək*** sözünün fonetik variantıdır. ***Güzdək*** toponimi türk dillərindəki "*payız*"anlamını ifadə edən ***güz*** (*kuz*) sözündən və "*yer, məkan*" bildirən ***-dək*** (***-lək***) şəkilçisindən ibarət olub, "*payız otu*", "*payız binəsi*", "*payızlıq*" mənasını bildirir. Toponimi "*oğuz kəndi*" anlamı ilə də yozanlar var.

Toponimlərdə əks olunmuş patronimik tayfa adlarının bir qrupu ***xan, bəy*** və s. adlardan düzələn və bir növ etnonim səciyyəsi daşıyan sözlər təşkil edir. Bu qrupa daxil olan oykonimlər ***xan, bəy*** adlarından yaranmış və sonradan etnonim səciyyə kəsb etmişdir. Azərbaycan toponimiyasında öz əksini tapanbelə adlardan biri də Qaraxanbəyli oykonimidir. Bu tipli Qarabağ oykonimlərindən biri də Füzuli yayonundakı ***Qaraxanbəyli*** toponimidir. Bu yaşayış məntəqəsi XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xanın Naxçıvandan Qarabağa köçürdüyü *kəngərli* türklərinin *Qaraxanbəyli* tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Yerli məlumata görə, toponim vaxtilə ətrafında yaylağı olmuş qaraxan adlı elatın adını əks etdirir. Görünür bu elat öz başçısının adını daşımışdır. Amma bu da məlumdur ki, Azərbaycan dilinin Qərb qrupu dialektlərində ***qaraxan*** sözü "*qaramtıl*", "*qara rəngə çalan*" mənalarında işlənir; məhz bu da rəng anlamı ilə bağlı ola bilər (*məsələn, Kəlbəcər rayonundakı Qaraxan çayı; Kəlbəcər rayonunda Qaraxançallı kəndi də var*). Yeri gəlmişkən qeyd edim ki, Qarabağda, Ağcabədi rayonunda bu qəbildən olan və *oğuz* tayfalarının *bayat* tirəsindən hesab edilən *Qaraxanlı kəndi* (*Qaraxanlı kəndi Tovuz rayonunda da vardır; vaxtilə İrəvan əyalətinin Zarzəmin nahiyəsində Qaraxanlı adlı qışlaq da mövcud olmuşdur*) də var.

Qarabağın Füzuli bölgəsində qərar tutan yaşayış məntəqələrindən biri ***Alıxanlı kəndi*** adlanır. 13 kilometr uzunluğunda olan Alıxanlı kəndi XVIII əsrdə Qarabağa köçüb gəlmiş kəngərlilərin ***əlixanlı*** (***alıxanlı***) tirəsi tərəfindən salınmış və bu tirənin adı ilə də ***Alıxanlı*** adlanmışdır. ***Alıxan*** (*Əlixan*) həmin tirənin başçısının adıdır. Oykonimin tərkibindəki ***-lı*** şəkilçisi mənsubluq bildirir. Tarixdən o da məlumdur ki, Qaraqoyunlu hakimi Qara Yusifin sərkərdələrindən birinin adı ***Alı xan*** olmuşdur. Yerli məlumata görə, oykonim həmin *Alı xanın* adı ilə bağlıdır. Kənddə *hacımirzəhüseynlər, şəybəylilər, piralılar, axundlular, axutdular, yarılılar, göyçəlilər*, eləcə də digər tayfa və vəsillər yaşayırlar. Bu yaşayış məntəqəsini XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xanın Naxçıvan ərazilərindən köçürdüyü kəngərlilərin *alıxanlı* (*əlixanlı*) tirəsi saldığı üçün o, həmin ad ilə də adlandırılmışdır..

Füzuli rayonunun *Qaraxanbəyli* kəndinin adı *Qaraxanbəyli* tirəsinin başçısı *Qaraxan bəy* adlı nüfuzlu bir şəxsin adı ilə bağlıdır. ***Qaraxanbəyli kəndi*** tarixən çox böyük əraziyə malik olmuşdur. İndiki qonşuluqda qərar tutan Mirzəcamallı kəndinin yerləşdiyi ərazi də vaxtilə Qarabağ xanı Mehdiqulu xan tərəfindən *Qaraxanbəyli* torpağından kəsilərək Mirzə Camal bəy Cavanşir Qarabağıyə öz ailə üzvlərini, qohum-əqrəbalarını Şuşadan köçürərək məskunlaşdırmaq üçün daimi yaşayış yeri kimi hədiyyə edilmişdir. *Qara* sözü ilə bağlı

Qarabağ toponimiyasında çoxlu sayda coğrafi adlar yaranmışdır. *Qaraxanbəyli* adındakı *xanbəyli* komponenti etnotoponim yaradan leksik vahiddir. Qaraxanbəyli adlı oykonimlərə Qarabağdan savayı, digər ərazilərdə də rast gəlirik. Naxçıvan Muxtar Respublikasının Babək rayonunda, eləcə də Qərbi Azərbaycanda (*Ermənistanda*) və s. yerlərdə də *Qaraxanbəyli kəndi* vardır.

Türkdilli toponimlərin Qarabağ coğrafi adlarında üstünlük təşkil etməsi azərbaycanlıların ulu əcdadları hesab edilən alban etnosunun türkmənşəli olması, erkən orta əsrlərdə müxtəlif türkdilli tayfaların Qarabağda məskunlaşması ilə əlaqədardır. Qarabağ ərazisində türk arealına daxil olan toponimlər yüzlərlədir. Qarabağın türkmənşəli toponimiyasında eramızın əvvəllərindən XII əsrə qədər burada məskunlaşmış bir sıra tayfaların adları da öz əksini tapmışdır. Ərazidə geniş yayılmış onomastik vahidlərdən biri də boyat (*bayat*) türk tayfasının adı ilə bağlı olan Ağcabədi rayonundakı ***Boyat*** kəndidir. Toponim səlcuq oğuzlarının *boyat* tayfasının adını özündə əks etdirir [10, s.105]. Areal türk onomastikasında yaşayan *oğuz* etnonimlərindən biri də ***Bayat*** etnonimidir. *Bayat* etnooykoniminin arealları çox genişdir. Tarixi mənbələrdən aydın olur ki, *bayat* türkdilli qəbilələrdən birinin adıdır və onlar IX – X əsrlərdə *qay* tayfası ilə yanaşı, Şimali Qazaxıstan çöllərində oğuzlara başçılıq etmiş tayfalardandır [11, s.194]. *Bayatlar* səfəviləri hakimiyyətə çatdıran qızılbaş tayfalarından biridir. Mənbələrdə *oğuz* əsilli *bayat tayfası* haqqında xeyli araşdırmalar mövcuddur. Azərbaycanlıların etnogenezində əhəmiyyətli rol oynamış bayatların adı özünü muğamlarımızda, musiqimizdə də qoruyub saxlamışdır: "Bayatı Şiraz", "Bayatı-Əcəm", Bayatı-İsfahan", "Bayatı-Türk", "Bayatı-Kürd", "Bayatı-Qacar", "Çoban-Bayatı" və başqaları. Azərbaycanda şifahi xalq ədəbiyyatının ən geniş yayılmış kütləvi bir növü də *bayatılardır* ki, bu da bayatların adı ilə bağlıfdır. Bayat tayfası Azərbaycanın köklü sakinləri olmuşdur. Ölkəmizin, Qarabağın onomastikasında onların "yaşaması" bu reallığı bir daha təsdiqləyir.

XVIII əsrin 40-cı illərində - xanlıq dönəmində tikilmiş *Bayat* qalasının xarabalığı da məhz Ağcabədi rayonunun Bayat kəndindədir. XVIII əsrin ikinci yarısında Bayat kəndinin yiyəsi Məhəmmədxan Sultan idi. Onun oğlu Sədrəddin sultanın Pənahəli bəy adlı oğlu Bayat kəndinin torpaq və rəiyyətlərinin sahibi idi. Məşhur Qarabağ xanı Pənahəli xan Sarıcalı-Cavanşir xanlıq quranda Bayat kəndini adaşından pulla satın almışdır. Bayat kəndi Qarabağ xanlığının ilk paytaxdıdır. Pənahəli xan Bayat qalasına sığınaraq daxili və xarici düşmənlərə qarşı mətanətlə vuruşmuşdur. Ağcabədi rayonunda qərar tutan Bayat kəndi xas-xalisə mülkü olduğu üçün İbrahimxəlil xan onu oğlu Fətəli ağaya vermişdir. Fətəli ağanın oğul övladı olmadığı üçün kənd Pənahəlli xanın kiçik qardaşı Behbudəli xanın törəmələrindən olan Behbudovların əlinə keçmişdir. O zamanlarda kəndi Rüstəm bəy idarə edirdi. Rüstəm bəyin Mənzər bəyim adlı qızı vardı. Mənzər gənc ikən dünyasını dəyişdiyindən kəndi onun əmisinin oğlanları idarə edirdi...

Qarabağda qədim dövrlərdən mövcud olan türkmənşəli oykonimlərdən biri də ***Baharlı*** adlanır. Hazırda Ağdam və Zəngilan rayonlarında ***Baharlı kəndi*** vardır. Bu yaşayış məntəqələrini qədim türk tayfalarından olan ***baharlılar*** salmışlar. *Baharlı* etnotoponimi quruluş etibarı ilə sadə toponimdir. *Baharlı* toponimi oğuzların qolu olan *baharlı* tayfasının adını özündə əks etdirir. *Baharlılar* müxtəlif dönəmlərdə səlcuqların, qaraqoyunluların, ağqoyunluların tayfa ittifaqına daxil olmuşlar. *Baharlılar* XV əsrdən başlayaraq səfəvilərin hakimiyyətə gəlmələrinə hərbi qüvvə ilə kömək etmişlər. XVI əsrin sonlarında Baharlılar Şahsevənlərə qoşulmuşlar. ***Baharlı eli*** oymaq şəklində Qarabağda, bir neçə mahalın ərazisində qərar tuturdu. Qarabağ xanlığının yaradılmasında *baharlılar* da yaxından iştirak etmişlər. *Baharlı* obasının ikisi Kəbirli mahalında, biri Çulundur mahalında, biri isə Qafan (*Qapan*) mahalında yaşam sürmüşdür. Qarabağ xanlığı dövründə Zəngəzur qəzasının daxil olduğu indiki Zəngilan rayonunun Baharlı, Şayıflı, Çöpədərə və s. bir neçə qonşu kəndlərinin idarəsi baharlılara məxsus olmuşdur. Tarixi

məlumatlardan aydın olur ki, ***baharlılar*** oğuzların *qayı* (*kayı*) boyuna mənsub olmuşlar. *Baharlılar* Qarabağda qədim dövrlərdən məskunlaşmışlar.

Qarabağda tükmənşəli toponimlərdən biri də Laçın rayonundakı ***Alpout*** kəndidir. *Alpout* oykonimi qədim türk mənbələrində erkən orta əsrlərdə adı çəkilən ***alpout*** (***alpavit***) tayfasının adı ilə bağlıdır. *Alpoutlar* XI əsrdə Səlcuq oğuzlarının, sonrakı əsrlərdə Qaraqoyunlu və Ağqoyunluların, XV əsrin sonlarından isə Qızılbaşların tərkibində Qabaq Asiya və Cənubi Qafqazın siyasi hadisələrində fəal iştirak etmişlər. Səfəvilər dövründə alpoutların Çuxursəddə və Şirvanda yaşadıqları tarixdən məlumdur. Onlara Səfəvilər tərəfindən hərbi xidmətləri müqabilində müxtəlif yerlərdə torpaqlar da verilmişdir. Qədim türk mənşəli ***Alpout*** tayfasının adı rus mənbələrində ilk dəfə Kulikovo döyüşü (*1380-ci il*) ilə əlaqədar çəkilmişdir.Qaraqoyunluları təşkil edən tayfalar içərisində *Alpout* da vardı. Türkdilli *səlcuq-oğuz* tayfalarından olan *alpoutlar* Azərbaycanda min ildir ki, məskunlaşmışlar ***Alp*** sözünün türk dillərində "*qəhrəman*", "*igid*", "*dəli*" mənaları da var. Azərbaycan Respublikasının Bərdə, Goranboy, Göyçay, Qazax, Ucar rayonlarında da ***Alpout kəndi*** vardır.

Azərbaycan toponimlər sistemində "*yer, məskən*" anlamlı ***var*** topoformantı əsasında formalaşan 20 oykonim mövcuddur ki, onlardan biri də Qarabağda, Ağdam rayonu ərazisində qeydə alınan ***Əhmədavar*** oykonimidir. ***Əhmədavar*** oykonimi antroponimik toponim hesab edilir. Oykonimi patronimik toponim də hesab etmək olar. Bu oykonim ***Əhməd*** şəxs adından və keçmişdə Azərbaycan dilində mövcud olmuş ***var*** sözündən ibarət olub, "*Əhmədə məxsus olan yurd*", "*Əhmədə məxsus qışlaq yeri*" mənasındadır. Ümumiyyətlə, *var* komponenti əsasən şəxs adlarına qoşularaq, yaşayış məntəqəsinin vaxtilə onlara məxsus olduğunu və ya onlar tərəfindən salındığını bildirən mürəkkəb oykonimlər əmələ gətirir: *Əhmədavar, Əmirvar (bu kəndlər Qarabağdadır), Gilvar, Hacıvar, Mahmudavar, Musavar* və s. Qədim türk və İran dillərində *var* sözü düzəltmə formaları ilə "*qala*", "*şəhər*", "*divar*", "*yeraltı ev*", "*qazma*", "*yer, yurd, ərazi*", "*qışlaqda maldar elə məxsus ərazi*" mənalarında işlənmişdir. Bu sözün etimoloji cəhətdən "*hazırlanma, çəpərləmə, möhkəmlətmə*", "*istehkam*", "*divar*", "*heyvanlar üçün divarları hörülmüş tövlə*", "*hasarlanmış kənd*" anlamları da vardır. Y.N.Buşuyeva *var* komponentini "*nəsil*", "*tirə*" kimi mənalandırır [12, s.42]. XX əsrə qədər olan bir sıra mənbələrdə *var* Azərbaycan dilində "*köç yeri*", "*hər hansı bir icmanın yurdu*", nominativ mənada "*alaçıq yeri*", geniş mənada isə "*yaylaq icmalarına məxsus yurd, məskən, otlaq*" anlamı daşımışdır. Məhz bu baxımdan *var* sözünü mənşəcə İran dilləri ilə yanaşı, türk dillərinə də aid etmək olar; çünki o, artıq çoxdan dilimizin doğmalaşmış vahidlərindən biri olub, toponim yaradıcılığına da Azərbaycan dilindən düşmüşdür. Buna görə də ***var*** komponentli toponimləri heç bir qeyd-şərtsiz Azərbaycan toponimləri hesab etmək lazımdır [13, s.179]. Bu tipli toponimlərə Azərbaycanın bir çox bölgələrində də rast gəlmək mümkündür...

Ədəbiyyat

1. Yüzbaşov R., Əliyev K., Sədiyev Ş. Azərbaycanın coğrafi adları. Bakı, 1972.
2. Axundov A. Torpağın köksündə tarixin izləri. Bakı, 1993.
3. Багрянородный К. Об управлении империей. М., 1989.
4. Q.Qeybullayev: Qarabağ – Etnik siyasi tarixinə dair. Bakı, "Elm", 1990.
5. Пигулевская Н.В. Сирийские источники по истории народов СССР. М.-Л., 1941.
6. Бартольд В.В. Сочинения. Т. II, ч. 1, М., 1963; т. II, ч. 2, М., 1964.
7. Гордлевский А.В. Избранные сочинения, т. III.
8. Azərbaycan dilinin dialektoloji lüğəti, Bircildlik. Bakı, 1964.
9. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı, Maarif, 1968.
10. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Birinci cild. Bakı, "Şərq-Qərb", 2007.
11. Советская Историческая Энциклопедия. Т. II.

12. Бушуева Й.Н. Словарь географических терминов и других слов встречающихся в топонимии Азербайджанской ССР. М., 1971.
13. T.M.Əhmədov: Azərbaycan toponimikasının əsasları. Bakı, Universitet Nəşriyyatı, 1991.